**Redaktordan**

SƏSLƏRİN HARMONİYASI

*Hörmətli oxucu! Bu kitabın üz qabığında təqdim olunan portret Hüseynbala Mirələmovundur. Azərbaycanda sağlam ictimai fikrin formalaşmasında, mənəvi dəyərlərin qorunmasında özünəməxsus yeri və nüfuzu olan bir yazıçının. Və portretin kitabın üz qabığında təqdim olunması təsadüfi deyil. Zəka işığının bəhrəsi olan, sağlam fikir və düşüncələrin dəyərli sözə çevrilərək üzə çıxması və mənəvi sərvətlər sırasında yer tutması, kitaba çevrilməsi əzabların bəhrəsidir. Hər hansı sənətkarın qələmə aldığı fikir məhsulu, onun yuxusuz gecələrinin, ağrılı düşüncələrinin məhsulu olaraq cəmiyyətə təqdimi ziyalının cəmiyyətin mənəvi saflığı uğrunda mübarizədən kənarda qalmaması deməkdir.*

*Həqiqətən, bu kitab H.Mirələmovun çox böyük yanğı ilə qələmə aldığı "Mənəviyyatın ekologiyası, yaxud iki od arasında" publisistik qeydlərinin təsiri altında yazılmışdır. Elə buradaca H.Mirələmovun az olmayan bədxahlarının əksinə olaraq onun sözünün necə həssaslıqla qəbul edildiyini diqqətə çatdırmaq yerinə düşərdi. Yeri gəlmişkən, bir də onu xatırladıram ki, yazıçının narahatlığını, mənəvi ağrılarını duyanlar təkcə onunla həmrəy deyil, bütövlükdə cəmiyyətin sağlam qüvvələrilə həmrəydir. Bu həmrəylik əslində bir-birini tamamlayan səslərin harmoniyasını yaradır, ahəngdarlığını təmin edir.*

*Böyük Azərbaycan şairi, XX əsr ədəbiyyatımızın klassiki Bəxtiyar Vahabzadənin çox böyük duyğu ilə qələmə aldığı "Hüseynbala Mirələmova məktub"undan bir məqama diqqəti cəlb etmək istərdim:* ***"Hörmətli Hüseynbala Mirələmov!***

***"Xəcalət" povestinizi yalnız yarıya qədər oxuya bildim. Qəhər məni boğdu, göz yaşlarımı saxlaya bilmədim, bacarmadım. Bu boyda dərdlə qol–qola, baş–başa yaşaya bildiyimə xəcalət çəkdim. Bəli, biz hamımız babalarımızın bizə əmanət verib getdiyi cənnətməkan Qarabağı düşmənə təslim edəndən sonra yenə də yaşaya bildiyimizə görə o müqəddəs torpaqda yetişən dahilərimizin ruhundan utanmalıyıq***

***(mənim bu barədə "Utanıram" adlı bir şeirim var). Siz əsərinizlə məni bir daha utandırdığınıza görə sizdən üzr istəyirəm, əfv edin, təsvir etdiyiniz o dəhşətli səhnələri yaşamaq qəlbi və vicdanı olan hər kəs üçün çox ağırdır"*** ("Kredo" qəzeti, 2 noyabr, 2003–ci il).

*Bu münasibət Vətən qarşısında ziyalılıq borcunun təzahürüdür. Məktubun hər cümləsi, mən deyərdim ki, hər bir kəlməsi səmimiyyətdən yoğrulub. Sinəsini Vətən üçün düşmənə sipər edən əsgərlər bir–birinə söykənəndə, bir-birinə güvənəndə və həm də özündən geridə Vətənin nəfəsini duyanda güclü olur, qüdrətli olur, yenilməz olur.*

*Hörmətli oxucu, bu kitabda bir–birinə söykənən ziyalıların səsini eşidəcəksən. Bu kitabda Vətənə, Vətənin sağlam, mənəvi mühitinə güvənmənin şahidi olacaqsan.*

*Yazıçı harayının doğurduğu əks–sədanın "Üvertüra" qüdrətini duyacaqsan.*

*Bu səslərin harmoniyasında sənin də səsinə yer var.*

***

*Elə səslər var ki, qanad açıb buludların üstünə qalxsan da, qulaqlarına pambıq tıxasan da, qırx arşin quyunun dibinə ensən də onu eşitməyə bilmirsən. O səslər gözəgörünməz dalğalar kimi ruhuna axır, mənəviyyatını titrədir, səni danışmağa, ruhunu titrədən həmin səsin harayına hay verməyə məcbur edir. Bu, artıq elə mənəvi ölçüdür ki, onun Mizan tərəzisi g6zəgörünməz hakimin - vicdanın əlindədir.*

*Üstündə gəzdiyimiz, suyunu içdiyimiz, havasını udduğumuz məkan, doğulub boy atdığımız yer-yurd, ruhumuzu qidalandıran mənəvi mühit Vətənimizdir. Bu Vətən adlanan məfhumun özünü təkcə torpaq, hava, su kimi xarakterizə etmək düzgün olmazdı. O, həm də əsrlər boyu formalaşmış mənəvi dəyərləri hifz edib, qoruyub–saxlayan ənənələrə çevirib, bəzən şəklini dəyişərək daxili məzmununu saxlayaraq bizim adımıza, ünvanımıza çevrilən elə bir ruhi aləmdir ki, öz kökündən, soyundan ayrılmayan hər kəsin varlığında yaşayır. Deməli, bu aləmin üstündən ötən hər cür qara yel, elə bizim içimizdən əsir. Ona dəyən hər bir zərbə bizə dəymiş olur.*

*Toqquşan dünyagörüşləri, bir-birinə qarşı dayanmış ziddiyyətli mövqelər, xüsusilə, qəddarlıq və qərəzkarlıqla birləşərək qarşılıqlı anlaşma mövqelərindən imtina edən kor baxışlar onu didib–sökür, dağıdır. Və beləliklə, ruhumuza yad olan,*

*bizim varlığımızı dəyişdirən, adımızı, ünvanımızı pozan və eyni zamanda bizə yabançı olan mənəvi mühit üstümüzə ayaq alır. Xüsusilə, demokratikləşmə və dünyaya mənəvi inteqrasiya, qloballaşma adı altında yad təsirlərə daha çox məruz qalırıq. Bu da istər-istəməz yeni nəslə daha çox təsir göstərir. Çünki gözünü açan, həyata baxışları hələ tam formalaşmamış yeni nəsil yenilik adlanan və əslində mənəvi müharibənin təsiri olan belə təcavüzlərin qarşısında dayana bilmir. Çünki əslində, yeni nəslin bu yad təsirlərə qarşı elə bir güclü müdafiə mexanizmi də yoxdur.*

*Bu müdafiə mexanizmini kim yaratmalıdır? Bu yad təsirlərdən yeni nəsli kim qorumalıdır? Həddindən artıq nikbin olan adamlar var ki, onların fikrincə, bu təcavüz elə bir həddə çatmalıdır ki, özünüqoruma instinkti işə düşsün. Özünüqoruma instinkti işə düşərsə, bir növ yeni nəsil həyat uğrunda mübarizəyə qalxa bilər. Və həmin nikbin adamların qənaətinə görə, son nəticədə tarixi ənənələr, mənəvi dəyərlər qalib gələr, xalq özünü hifz edər, qoruyar.*

*Məsələnin bu cür qoyuluşunun bir qorxulu tərəfi var ki, bizim mənəvi sərhədlərimizin qorunmaması nəticəsində yad təsirlər ruhumuzu tamam işğal edə bilər. Elə bu yolla özünün mənəvi dəyərlərini itirmiş və tarix səhnəsindən silinmiş xalqlar azdırmı?*

*"Mənəviyyatın ekologiyası" adı ilə təqdim olunan bu kitab bir həyəcan təbilidir. Burada Azərbaycanın bir çox görkəmli ziyalılarının, tanınmış qələm adamlarının, yeni nəslin gələcəyi naminə narahatlıq keçirən ziyalıların mülahizə və düşüncələri, publisistik qeydləri toplanmışdır.*

*İlk dəfə Azərbaycanın tanınmış yazıçılarından biri, bir çox əsərlərilə cəmiyyətdə baş verən hadisələrə cəsarətlə müdaxilə edən, fikir və mülahizə toqquşmalarına səbəb olan Hüseynbala Mirələmovun "Mənəviyyatın ekologiyası, yaxud iki od arasında" sərlövhəli publisistik qeydlərini "Kredo" qəzetində dərc edəndə (24.04.2004) onun bu qədər əks-sədaya səbəb olacağını düşünməmişdik. Amma görünür, mənəvi mühitimizdə bu narahatlığı keçirən ziyalılar az deyilmiş. Xüsusilə H.Mirələmovun ürək narahatlığı və həyəcanla dolu müraciəti ziyalıların qəlbini titrətmişdi: "Yazıçı dostum, hardasan, danış! Mən səni eşitmək istəyirəm. Bəlkə nəyisə düz demədim?*

*Azərbaycan alimi, elmi tədqiqatlarından bir günlüyə də olsa ayrıl. Başını qaldır, səni əhatə edən mühiti saf-çürük elə, Sözünü de, anamızın öyrətdiyi dili hələ ki, unutmamışıq...*

*...Mənavi eybəcərliyi, əxlaqsızlığı, üstümüzə yeriyən mənəvi işğalı açıq-aşkar görən adamlar susur, etinasız–etinasız keçib gedirlər.*

*Mən bu səsi eşidirəm. Azərbaycan mənəviyyatının üstündən keçib gedən addım səslərini".*

Həqiqətən, bu həyəcan dolu səsi eşitməmək, bu haraya səs verməmək çox böyük bədbəxtçilik olardı. Bu, elə bir səsdir ki, elə bir haraydır ki, sözümün əvvəlində qeyd etdiyim kimi, ondan qaçmaq mümkünsüzdür. Əgər yazıçı Azərbaycan mənəviyyatının üstündən keçib gedən addım səslərini eşidirsə, demək, hələ gec deyil. Demək, hələ çox şeyi qaytarmaq olar. Demək, hələ itənləri soraqlamaq imkanları tükənməyib. Yeri gəlmişkən, bir məsələni qeyd edim ki, onun bu həyəcan təbilini çalmağa tam mənəvi haqqı var. Qarabağ faciəsini bütün dəhşətlərilə ədəbiyyata gətirən ("Xəcalət" povesti) aşınmaqda olan mənəvi-əxlaqi dəyərlərimizi orijinal, bədii lövhələrlə əks etdirən ("Gəlinlik paltarı" romanı) bir yazıçının müraciəti təsirsiz qala bilməzdi. Təsadüfi deyil ki, bu müraciətə ilkin cavab verənlərdən biri, Azərbaycanın görkəmli sənət adamı, Xalq şairi Söhrab Tahir yazır: "Hüseynbala müəllimin məqaləsindəki toxunduğu "işğal" məfhumu məni ciddi düşündürdü. Bu məsələ həddindən artıq həssas və məsuliyyətli bir mövzudur. Çox doğru buyurur ki, işğal müvəqqətidir. Həqiqətən də, dünya imperiyalarının apardığı işğal siyasəti müvəqqəti olmuşdur. Xalq və ya ölkə gec-tez işğaldan qurtaracaqdır. Ancaq işğalın mənəvi təsiri, təlim–tərbiyə metodu bir xalqın və ya ölkənin uzun müddət yaddaşında və məişətində qalır. Bundan xilas olmaq üçün xalq yüz illər mübarizə aparır".

Xalq şairi Söhrab Tahir sözünə davam edərək qeydlərinin sonunda təklif edir ki, "Mənəviyyatımızın ekologiyası cəmiyyəti" yaradılsın. Bu cəmiyyətdə və ya mərkəzdə alimlərimiz, publisistlərimiz, sənət adamlarımız birləşsinlər, ümumi dəyərlərimizin keşikçisi olsunlar, dövlətçiliyimizə dayaq dursunlar.

Çox doğru və vaxtında verilmiş təklifdir. Bəlkə də, yalnız bu yolla görkəmli şairin qeyd etdiyi kimi, xalqımızı ali məqsədinə doğru istiqamətləndirmək olar.

*Görkəmli Azərbaycan şairi İlyas Tapdığın da münasibəti birmənalıdır. O da müasir gəncliyin sürətlə aşınmasını görür və qeyd edir ki "Bəli, doğmalardan yadların törəməsi qorxunc bir işdir. H.Mirələmov məhz buna görə bu problemi həyəcan təbili kimi ictimaiyyətin nəzərinə çatdırır". "Yadların heç özlərinə rəva bilmədikləri meyllər" nə üçün bizim cəmiyyətimizə daha asanlıqla yol tapmalıdır? Bu suala cavab verməyə çalışan şairin narahatlığı ümumi həyəcanımıza qoşulur.*

*Ümumiyyətlə, bu kitabda qeydləri toplanmış müəlliflərin hər birinin - Nahid Hacızadənin, Əjdər Fərzəlinin, İskəndər Etibarn, Səttar Zərdablınm, Elçin Kamalın, Fariz Çobanoğlunun.,. hər birinin səsi ümumi ansambla qoşulur, çox güclü etiraz dalğasına çevrilir. İndi bu dalğanı, ziyalıların həyəcan təbilini yenidən cəmiyyətə qaytarmaq, onu hamının eşidəcəyi gur səsə çevirmək yenə bizim borcumuzdur, yenə ziyalıların borcudur. Hüseynbala Mirələmovun "Mənəvıyyatın ekologzyası, yaxud iki od arasında" sərlövhəli qeydlərinin belə güclü əks-sədaya səbəb olması göstərir ki, Azərbaycanın mənəvi mühitinin qorunması naminə ziyalıların birləşməsinə ciddi ehtiyac var. Mənəvi təcavüz artıq başlanmışdır. Biz bu təcavüzə qarşı sözümüzlə sipər ola biləcəyikmi? Bəlkə, bir vaxt bu həyəcan təbilinin vaxtında eşidilməməsinin ağrısını duyan gələcək nəslin tək-tək nümayəndələri bugünkü nəsillər üçün təəssüf dolu hisslər keçirəcəklər. Hələ ki, hər şeyi itirməmişik. Hələ ki, istinad var. Hələ ki, mənəvi dəyərlərimizə söykənməklə özümüzü - naticədə Vətənimizi, xalqımızı qorumaq imkanlarını səfərbər edə bilərik.*

***25.08.2005***

## MƏNƏVİYYATIN EKOLOGİYASI
YAXUD İKİ OD ARASINDA

**Hüseynbala MİRƏLƏMOV**

**Azərbaycan müharibədən çıxmayıb, hələ torpaqlar işğal altındadır. Sadəcə təmas xəttində nisbi sakitlikdir. Ancaq məndə bir əminlik var ki, biz torpaqlarımızı erməni faşistlərinin işğalından azad edəcəyik. Tarixən əksər**

**xalqlara qarşı ədalətsizliklər olub və tez–gec həmin xalq öz haqqını qanı bahasına olsa belə, qaytarmışdır. Mən daha təhlükəli müharibə haqqında danışmaq istəyirəm. Bu, mənəviyyatımızda gedən müharibədir. Mən hiss edirəm ki, hər gün, hər saat, hər an mənəviyyatımızda aşınma gedir və biz yad təsirlərin mənəvi işğalına məruz qalırıq. Azərbaycan müsəlman ölkəsidir. Müsəlmançıhq adlanan bir termin var. Çox təəssüf ki, son vaxtlar bu termini daha çox mənfi mənada işlədirlər. Biz Məhəmməd ümməti deyilikmi? Bu, onu göstərir ki, cəmiyyətdə ekoloji tarazlıq pozulmuşdur. Bəlkə də, bir qədər sərt danışıram. Hər halda, günümüzün reallıqları fikirlərimi daha həyəcanla ifadə etməyə mənə əsas verir.**

**Söz silahdır. Özü də ən qüdrətli silah. Bu gün yazıçıların kəsərli sözünə, birbaşa sözünə, açıq sözünə cəmiyyətin ehtiyacı var. Qəlbində vətəndaşlıq yanğısı olmayanlar günümüzün reallıqlarına biganə qala bilər. Ancaq unutmayaq ki, vətəndaşlıq yanğısı cəmiyyətin övladı olan yazıçının mənəvi pasportudur. Bundan imtina edən yazıçı vətəninin, xalqının oğlu deyil. Yaxud o, artıq özünün mənəvi kökləri ilə onu böyüdən, onu tanıyan, qəbul edən xalqdan çoxdan ayrılmışdır. Onlar artıq özlərini dəfn etmişlər.**

**Yuxarıda “ekoloji tarazlıq” ifadəsi işlətdim. Qayıdıram həmin məntiqə...**

**Əlbəttə, bu qeydlərimdə təbiətlə canlı aləm arasında münasibət haqqında danışmaq fikrində deyiləm. Mən belə hesab edirəm ki, cəmiyyətlə onu təşkil edən insanlar arasındakı münasibətlər daha ciddi ekoloji problemlər doğurur. Artıq həmin termini mən bir qədər məcazi mənada işlədirəm.**

**Təbiətin özündə hər şey ölçülüb-biçilmişdir. Tanrı kainatı son dərəcə dəqiq nizamlanmış zaman daxilində elə yaratmışdır ki, heç bir düzəlişə yer qalmamışdır. Zənnimcə, insanlar da, ayrı–ayrı fərdlər də cəmiyyətlə münasibətdə, konkret desək, bir–birilə münasibətdə həmin Tanrı nizamına söykənməlidirlər. Əgər diqqət vermisinizsə, güllərin, çiçəklərin üstünə qonan kəpənəyin qanadlarındakı xalların nizamlı düzülüşünə, hansı qanadda hansı xal hansı ölçüdədirsə, digərində də belədir. Şüurlu insan öz münasibətlərini gündəlik həyatında tənzimləyərkən nə üçün səhvlərə yol verir? Nəyə görə**

**həyatda yaşarılıq haqqı qazanmış mənəvi dəyərlər tapdalanır? Nə üçün insanlar hər hansı bir məsələni aydınlaşdırmaq üçün bir-biri ilə nəinki əsəbi danışır, hətta məsələ ölüb–öldürməyə qədər gedib çıxır.**

**Televiziyanın gecə kanallarında göstərilən kriminal xronikalara baxarkən çəkişmələr üstündə baş verən cinayətləri, faciələri, ölümlə nəticələnən qeylü-qalları görəndə dərin təəssüf hissi keçirməyə bilmirsən. Belə hallarda "insanın varlığı, onun mahiyyəti nədən ibarətdir?" sualına cavab axtarmah olursan. Axı nə üçün insan özü özünə qəbir qazmalıdır?**

**Bəli, mən elə beləcə də hesab edirəm. Kiminsə qətlinə fərman vermək, özünün "əcəl zəngini" çalmaq deməkdir.**

**Azərbaycan keçmiş postsovet məkanına daxil olan ölkələrdən özünəməxsus xüsusiyyətləri ilə fərqlənir. Biz mənəvi mentalitet baxımından şərqliyik. Asiya ölkəsiyik. Azərbaycanın min illik mənəvi sərvətləri tarixi köklərin üstündə bərqərar olmaqla Şərq aləmindən bəhrələnmişdir. Şərqin misilsiz sənət incilərinin yaranmasında Azərbaycan mütəfəkkirlərinin, azərbaycanlı təfəkkür tərzinin böyük xidmətləri olmuşdur. Ancaq bir həqiqəti də danmaq olmaz ki, azad bazar iqtisadiyyatına keçməklə biz Avropaya qapı açdıq. Avropa adət–ənənələri, Avropa düşüncə tərzi çox sürətlə mənəviyyatımıza daxil olur. Ədalət naminə etiraf etmək lazımdır ki, biz bundan imtina edə bilmərik.**

**Bu gün Qərbi Avropanın bir çox üstünlükləri var ki, biz ondan faydalanmalı, cəsarətlə ona doğru getməliyik.**

**İki od arasında... Bu, adi epitet deyil. Elə bu qeydlərimin içərisində də həmin üç sözü işlətməklə, bədii emosional çaların effektini artırmaq məqsədi güdmürəm. Mən həqiqətən iki dünyanın arasında, iki düşüncə tərzinin qovuşuğunda əziyyət çəkən xalqımı görürəm.**

**Azadlıq və demokratiya. Bu şirin nemətin özünü də, görünür, cana fayda verən həblər kimi qəbul etmək lazımdır. Azadlıq və demokratiya adı altında böhtan və şantaja rəvac verənlər özlərinin kimliyi haqqında da yalansız danışa bilməzlər. Ancaq unutmasınlar ki, cəmiyyət tez–gec ağı qaradan seçə bilir.**

**Bizdən keçib gedən tarixin şahidləri kimi bu həqiqətləri dana bilmərik. Bütün təəssüfləri doğuran amilləri bir–bir necə sadalamaq olar? Azərbaycanda iqtisadiyyatın inkişafı üçün yaradılmış şərait investisiyaların qoyuluşuna münbit zəmindir. Bütün ölkə tikinti meydanına bənzəyir. Amma təəssüf ki, Azərbaycanın tarixi-memarlıq ənənələri unudulur. İnsanı düşündürən, insana mənəvi-estetik zövq bəxş edən milli ornamentlər, naxışlar gözə dəymir.**

**Mən istəyirəm ki, Azərbaycanda hər hansı bir memarlıq abidəsi tarixi köklərə, ənənələrə söykənsin. Azərbaycana gələn hər hansı bir qonaq önündə dayanıb baxdığı abidədən hansı ölkədə olduğunu, hansı xalqın arasında dayandığını dərk etsin.**

**Ümumiyyətlə, bütün bunlar hardasa bizim mənəvi aləmimiz haqqında ilkin formal təsəvvür deməkdir. Ən dəhşətlisi budur ki, mənəviyyatın qurulması prosesi ya çox ləng gedir, ya görünmür, ya da bu sahədə, əksinə, enən xətlə inkişaf daha çox diqqəti çəkir.**

**Bakı Azərbaycanın paytaxtıdır. Azərbaycanın ən böyük elm, mənəvi sərvətlər xəzinəsi, intellektual bazası burada cəmlənmişdir. Ən böyük teatrlar, kino salonları, muzeylər, incəsənət salonları bu şəhərdədir. Bakıda milyonlarla insan yaşayır və işləyir. Azərbaycanın əhalisinin yarısından çoxu Bakı ilə gündəlik təmasdadır. Bəs onda nə üçün gün ərzində muzeylərin, incəsənət salonlarının, rəsm qalereyalarının qapıları açılmır, yaxud bu yerlərə təkdənbir adamlar gəlirlər. Təbiidir ki, Bakıda restoranlar, barlar, şadlıq evləri, müxtəlif yönümlü və istiqamətli istirahət ocaqları var. Ocaq dedim... Yeri gəlmişkən, “ocaq” anlayışı bizim xalqımız arasında həmişə müqəddəs hesab olunub. Hətta keçənlərimiz and içəndə ocağı günəşə, suya bərabər tutublar. Ancaq gəlin görək, özlərini ocaq adlandıran həmin “istirahət” evləri bu müqəddəsliyi qoruya bilirmi? Hay-küyün, daha çox bayağı musiqinin təsiri altında dumanlıqlar içərisində xumarlanan gənclərin bir çoxu - mən onları bəlkə də qınamazdım, çünki insan cəmiyyət tərəfindən nəzarətdə olmadıqda onun təbiətindəki mənfi keyfiyyyətlər daha çox qabarır, üzə çıxır - bu şəraitdə istirahət evlərində, restoranlarda yaradılmış əxlaqsızlıq şəraitindən “bəhrələnmək”dən vaz**

**keçmirlər. Yol kənarlarında - xüsusilə Bakı–Sumqayıt yolu - zonasında aparılan reydlər nələri faş elədi? Nəzarətsiz, ictimai nəzarətdən özünü yayınmış hesab edən gəncləri düşdükləri əxlaqsızlıq bataqlığından necə asanlıqla xilas etmək olar? Burada bir məsələni də qeyd etmək yerinə düşər. Bəlkə də, həmin biabırçılıqları bütün çılpaqlığı ilə göstərməyə lüzum yoxdur. Bəzən bu cür mübarizə daha pis nəticələr doğurur. Axı mənəviyyat paltara bənzəmir, köhnələndə təzəsini alasan.**

**Yaxşı olar ki, bu cür mübarizə "kampaniya" şəklində aparılmasın. Bu, bizim gündəlik həyatımızın normasına çevrilməlidir.**

**Yollarda, keçidlərdə adamlara elanlar paylanır. Əsasən rus dilində yazılmış "Massajnı salon"ların elanlarına diqqət edək. "Molodıe massajıstki predlaqayut svoi usluqi".**

**Hansımız görməmişik. Amma düşünmüşükmü? Bu elanların arxasında nə dayanır. Hətta bəzən həmin elanlara daha bir qeyd əlavə olunur: "İntim münasibətlər üçün müraciət etməyin". Demək, artıq ictimai fikir kifayət qədər məlumatlıdır; həmin xidmətlərin mahiyyəti və məzmunu nədən ibarətdir... Hər–halda bütün bunlar haqqında düşünməyə dəyər. Mən inanıram ki, əsrin bəlası hesab olunan SPİD virusuna qarşı elm sipər çəkə biləcək. Bəs mənəviyyatımızın yoluxduğu SPİD virusundan daha qorxulu mənəviyyatsızlıq virusuna qarşı kim və necə dayanmalıdır?**

**Azərbaycan İpək Yolunun üstündədir. İpək Yolu ilə Azərbaycan iqtisadiyyatının dirçəlişinə təkan verə biləcək imkanlar gəlir. Ancaq İpək Yolunun üstündə olmaq həm də o deməkdir ki, bu yolla mənəviyyatımıza yad təsirlər, daha qorxulu meyllər də yol aça bilər.**

**Təsir əks təsirə bərabərdir. Biz bütün bunlara qarşı hazır olmalıyıq. Qloballaşmaya doğru gedən dünyadan imtina edə bilmərik. XXI əsr xalqların, sivilizasiyaların, fərqli mədəniyyətlərin bir–birinə qovuşacağı əsr hesab olunur.**

**Şəxsən mən özüm Azərbaycanın gələcəyini bunlarsız təsəvvür edə bilmirəm.**

**Avropa ölkələrindəki həyat keçmiş sovet dövründə bizə təqdim olunduğu kimi deyil. Bu məsələlərin bir çoxu öz həllini Avropada çoxdan tapmışdır. Hər kəs necə istirahət etməyi, öz vaxtını necə keçirməyi və onun yerini yaxşı bilir.**

**Azərbaycan mədəniyyətinin inkişafına dövlət xüsusi qayğı göstərir. O cümlədən teatrlara da. Çox təəssüf ki, klassik əsərlərin, hətta sənət şedevrlərinin nümayiş olunduğu salonlar çox vaxt boş qalır. Nə üçün insanlar mənəvi ehtiyac naminə teatra doğru addım atmirlar.**

**Bir daha yada düşür ucuz hay–küy və şouların göylərə bülənd olan sədaları. Mən şounun əleyhinə deyiləm. Ancaq hər halda, bu şoular da elə təşkil olunmalıdır ki, adamlar daha çox mənən istirahət etsinlər.**

**Özəl televiziya və radiolarda, xüsusilə şou proqramlarda Azərbaycan dilinin başına açılan oyunlar adamın qəlbini dağlayır. Dilə bu cür münasibət, zənnimcə, mənəviyyatımıza vurulan ən ağır zərbələrdən hesab olunmalıdır.**

**Savadsız şou aparıcılarının şit hərəkətləri xalqın mənəvi tərbiyəsində şikəst məktəb vəzifəsini icra edir. Dilimizin saflığı uğrunda mübarizəmiz mənəvi saflığımız uğrunda mübarizəmizlə eyniyyət təşkil edir. Bir qədər əvvəl Azərbaycanın müsəlman ölkəsi olduğunu yada salmışdım. Bu mənada, dinimizin təmizliyi uğrunda mübarizə də xüsusi əhəmiyyət kəsb edir. Qeyri dinlərin açıq və yaxud gizli emissarları meydan suladıqları kimi, İslam dininə xələl vuran müxtəlif təriqət adamları da İslam dininə az zərbə vurmurlar.**

**Bütün bunlar göstərir ki, indi Azərbaycanda dəhşətli mənəvi müharibə gedir. Mənəviyyatımızı işğal etməkdə olan yabançı mənəvi meyllər Qarabağ müharibəsinin vurduğu zərbədən daha təhlükəlidir.**

**Yazıçı dostum, hardasan, danış! Mən səni eşitmək istəyirəm. Bəlkə, nəyi isə düz demədim?**

**Azərbaycan alimi, elmi tədqiqatlarından bir günlüyə də olsa ayrıl. Başını qaldır, səni əhatə edən mühiti saf-çürük elə. Sözünü de, anamızın öyrətdiyi dili hələ ki, unutmamışıq.**

**Böyük öndərimizin ruhu başımızın üstündədir. O, Azərbaycanı bizə tapşırıb. Onun mənəviyyatını qorumaq bizim borcumuzdur.**

**Qazı, suyu, işığı hansısa obyektiv və ya subyektiv bir səbəbdən kəsilən adamlar haray salır. Cüzi çətinliyə belə dözümsüzlük göstərirlər.**

**Mənəvi eybəcərliyi, əxlaqsızlığı, üstümüzə yeriyən mənəvi işğalı açıq-aşkar görən adamlar susur, etinasız–etinasız keçib gedirlər.**

**Mən bu səsi eşidirəm. Azərbaycan mənəviyyatının üstündən keçib gedən addım səslərini.**

**23.04.2004**

## HƏR ADAM ÖZÜ BİR PROBLEMDİR

***Əli Rza XƏLƏFLİ***

"Mənəviyyatın ekologiyası" sərlövhəli publisistik düşüncələri oxudum. "Günümüzün reallıqları" adı altında təqdim edilən qeydlər yazıçı narahatlığından, ziyalılıq borcundan irəli gələn daxili narahatlığın üzə çıxmasıdır. Yazıçı bu gün Azərbaycan mənəviyyatına nəzər salır. Ən müxtəlif tərəflərdən bu mənəviyyatın üzərinə qara bulud kimi yeriyən yad təmayüllərin qarşısını sözünün timsalında sinəsilə kəsmək istəyir. Ancaq etiraf etmək lazımdır ki, bu elə güclü axındır ki, onun qarşısını bir nəfərin bütün gücünü sərf etməsilə, hətta deyərdim ki, şəhidliyilə kəsmək mümkünsüzdür. Bəri başdan deyim ki, bəlkə də yazıçı elə buna görə qələm dostlarına üz tutur, onları da bu mübarizəyə qoşmaq, bu yad təmayüllərə qarşı cihad elan etmək, bütün ziyalıları səfərbər etmək niyyətini gizlətmir.

"Mənəviyyatın ekologiyası" dedikdə, yazıçı terminin mahiyyətinə varmaq fikrində olduğunu diqqətə çəkmir. Mənəvi tarazlığın pozulmasında əsas rol oynayan amilləri qabardır və diqqəti məhz həmin məqamlara yönəldir.

Həkim xəstəliyin səbəblərini axtardığı kimi, xəstəliyi doğuran·şəraiti aydınlaşdırmağa cəhd etdiyi kimi, yazıçı da cəmiyyyəti yaralayan, cəmiyyəti daxildən yeyib-çürüdən şəraiti açıb-gostərməyə cəhd göstərir.

Urək ağrısı ilə demək lazımdır ki, cəmiyyəti daxilən çürüdən, cəmıyyətin daxili-mənəvi tarazlığını pozan, hətta mən deyərdim ki, cəmiyyəti mənəvi cəhətdən parçalayıb üz-üzə qoymağa cəhd göstərən amillərdən biri elə mətbuatdır, bu

mətbuatda kök atıb, heç bir mənəvi-əxlaqi dəyərə arxalanmayan qüvvələrdir ki, onların məqsədi necə olur-olsun cəmiyyətdən nə isə qoparmaqdır.

“Avesta”dan üzü bəri, “Kitabi-Dədə Qorqud”dan, Şeyx Nizami mənəviyyatından, Azərbaycanın klassik mənəvi ənənələrindən qidalanıb, rişələnib, kök atıb ruhumuzda yaşarılıq kəsb edən mənəvi sərvətlər xəzinəmiz var ki, bütün bunların hamısını inkar etməyə cəhd göstərən qüvvələrin məqsədi aydındır.

Dünya ədəbiyyatının korifeyi Çingiz Aytmatov “Manqurt” əfsanəsini gündəmə gətirərkən hansı məsuliyyətin altına girmişdi? Bu, artıq sirr deyil. Hər hansı bir xalqın yaşarılığı, hər hansı bir xalqın öz milli mənliyini qoruyub saxlaması ancaq onun mənəvi dəyərlərinə söykənməsi ilə mümkün ola bilər.

Təsadüfi deyil ki, xalqın keçmişinə dodaq büzmək, bu günə qədər yaradılanların üstündən qələm çəkməklə xalqı hansı ağ günə çıxarmaq olar? Bir tərəfdən Dədə Qorqud aləmini, Dədə Qorqud mənəviyyatını ideallaşdırmaq, onu tariximizin – bəli, məhz tariximizin – ən parlaq səhifələrindən biri kimi öyrənmək istəyiriksə və digər tərəfdən bu müqəddəsliyi dağıtmaq cəhdlərinə də göz yumuruqsa, onda hansı mənəvi tarazllqdan danışmaq olar?

Halbuki bütün XX əsr boyu həm çar Rusiyası imperiyası dövründə, həm totalitar rejim mərhələsində xalq özünü hifz edib saxlaya bilmişdi. Həm də ən dəhşətli qəddarlıqlara, repressiyalara, qətliamlara dözərək. Zəka sahibləri öldürülürdü. Sibirin qanlı çöllərinə sürgün edilirdi, onların səsi alınırdı. Danışmaq hüququndan məhrum edilirdi. Qələmləri sındırılırdı. Ancaq bütün bunlara baxmayaraq xalq özünün mənəvi sərvətindən imtina eləmirdi. Qırğızlar “Manas”ı qoruyurdu, azərbaycanlılar “Kitabi-Dədə Qorqud”u özünün müqəddəs tapınacaq yeri hesab edirdi. Yeri gəlmişkən, vaxtilə qadağan olunmuş, repressiya olunmuş əsərlər (Məsələn, professor Dəmirçizadənin “Kitabi-Dədə Qorqud dastanlarının dili”, akademik Heydər Hüseynovun “Müridizm hərəkatları ilə bağlı tədqiqatlar”ı, Seyid Nigarinin “Divan”ı və s.) yüksək tirajla çap edilib ictimai fıkrin müzakirəsinə verilməlidir.

Mən əvvəllər bir dəfə də demişdim. Ermənilər bir çox sahələrdə olduğu kimi, bu sahədə də özlərinin mühafizəkarlığı ilə, məsələn, Sasunlu Davidə münasibətlərilə örnək ola bilər.

Bu gün Azərbaycanın iqtisadi inkişafı, sabitləşmiş siyasi mühiti imkan verir ki, cəmiyyətin diqqətini mənəvi sərvətlərin öyrənilməsinə yönəldək, artıq XXI əsrin övladı olaraq formalaşan yeni nəslə bu sərvətləri çatdıraq.

Bir vaxtlar Avropaya meyil, Avropanı öyrənmək yolu Rusiyanın qapısından keçirdi. Bu, rus dili vasitəsilə mümkün ola bilərdi. Hər halda əsasən belə idi. Amma bu gün birbaşa ingilis dili vasitəsilə biz Avropa mühitinə daxil ola bilirik. Amma bu, o demək deyildir ki, Avropanın mənəviyyatını süni şəkildə özümüzə transplantasiya edək. Birinci növbədə unutmaq olmaz ki, Avropa düşüncə tərzini öz beynimizə köçürməklə özümüzü hifz edə, qoruya bilmərik. Və etiraf etmək lazımdır ki, Avropa çox istəyir ki, həmin düşüncə tərzini mənimsəyək.

Mozaika şəklində al-əlvan parıltılı işıqlar altında bu düşüncə tərzi onsuz da mənəviyyatımıza yeriməkdədir. Qan tökmədən, top gurultularına rəvac vermədən, bombalamadan özünün təmkinli, sakit yerişlərilə bu "əcaib məxluq" içimizə yeriyir və ruhumuza hakim olmağa başlayır.

"Mənəviyyatın ekologiyası" məqaləsinin müəllifi doğru deyir ki, Azərbaycan Şərq və Qərb mənəviyyatının üz-üzə gəldiyi meydandır. Burda maraqlar kəsişir, burda maraqlar toqquşur və burda bütün ziddiyyətlər üzə çıxır. Avropa çox yaxşı bilir ki, Azərbaycanın mənəvi iqtidarını qırmaqla bütün Şərqə yol aça bilir. Bir vaxt dünyanın sivilizasiya mərkəzi, dünyanın tərəqqi beşiyi Şərq olmuşdur. Dünyanın bəşər övladı olan mənən kamil insanın ilkin tərəqqi addımı Şumer beşiyindən torpaq üstünə enmiş və burada böyümüşdür. Bəlkə də, belə demək daha doğru olar ki, həmin mədəniyyətin, həmin mənəviyyatın bu gün varisi Azərbaycandır.

Prezident fərmanı ilə Azərbaycan klassik ədəbiyyatının – Azərbaycanın mənəvi sərvətlərinin yeni əlifba ilə nəşr edilib xalqa çatdırılması, bu sərvətlərin qorunması naminə göstərilən ən qiymətli təşəbbüslərdəndir.

Azərbaycan televiziyası ilə, xüsusilə, Azərbaycan televiziyasının I proqramı ilə xalqın tarixi keçmişi haqqında göstərilən sənədli-publisistik filmlər çox maraqlıdır.

Bu filmlər sanki bircə suala cavab verir: Biz kimik, bizim atamız kimdir və yolumuz hayanadır?

Ancaq acı da olsa, bunu da etiraf etməliyik ki, təntənəli şou proqramların və müasir gəncliyi öz kökündən ayırınağa xidmət edən çoxsaylı, xüsusilə, digər kanallarda nümayiş etdirilən verilişlərin fonunda bu, çox az görünür. Hətta bəzən onun təsiri ötəri xarakter daşıyır.

Müəllifin qeyd etdiyi kimi, Bakı Azərbaycanın paytaxtıdır. Fikir, beyin mərkəzidir. Demək olar ki, Azərbaycanın ən böyük mənəvi potensialı Bakıda cəmləşmişdir. Əgər biz bu gün Bakını yad mənəvi təmayüllərdən qoruya bilmiriksə, onda bütöv Azərbaycanı'necə qorumaq olar? Bakı öz simasını sürətlə dəyişir. Bu dəyişikliyin fonunda Bakının dünənini, qədimliyini və onun bir Şərq şəhəri olduğunu təsdiq edən rəmzlərini hifz edib saxlamaq bu gün bir zərurət olaraq qabarıq görünür.

Qarabağın faciəsi, müharibə amili Tantal daşı kimi başımızın üstündən asılmışdır. O daşın hər an yenidən başımıza düşəcək təhlükəsi qorxulu sindrom kimi varlığımıza hopub. Bütün xalqın gücünü vahid məcraya yönəltməklə bu daşı başımızın üstündən atmalıyıq. Artıq bəsdir, Qarabağın adı ilə siyasi alver etmək, Qarabağa hakimiyyətə gəlmək vasitəsi kimi baxmaq. Guya kiminsə problemi həll etmək üçün hazır düsturu var. Əgər varsa, qoy bu düstur milli mənafeyimiz naminə ortaya qoyulsun. Azərbaycan bayrağı, Azərbaycan dövlətinin bütün rəmzləri həmişə müqəddəs tutulmalıdır. Çünki bu, ayrılıqda heç bir siyasi liderə məxsus deyil. Bu rəmzlər mənəvi sərvətlər sırasındadır, bölünməzdir və hamımızındır. Demək, bu rəmzlərin keşiyində hamımız dayanmalıyıq.

Mənəvi tarazlığı qorumağın birbaşa yolu sosial problemlərin həllindən keçir. Nə qədər ki, biz sosial problemləri köklü surətdə həll edə bilməmişik, demək, mənəvi tarazlığın qorunmasından da danışmaq artıq olacaqdır. Əhalinin elə bir təbəqəsi var ki, bu təbəqə əbədi olaraq cəmiyyətin köməyinə möhtacdır. Qocalar, əlillər, imkansız adamlar cəmiyyətdən gözlədiyi köməyi ala bilməyəndə istər-istəməz narazı qalır və daha uzaqlara üz tutmalı olur. Halbuki Azərbaycan özünün iqtisadi imkanları ilə öz əhalisini kifayət qədər normal vəziyyətdə saxlamaq gücünə malikdir.

Məmurlar öz kabinetlərindən çıxıb xalqa nə qədər yaxın olsalar, insanların dərd-səri ilə tanış ola bilsələr, onda sosial problemlərin həlli də bir o qədər asan olar.

Bir məsələni də qeyd etmək yerinə düşər: indi əhalinin Bakıya çox sürətli axını var. Urbanizasiyamn miqyası son dərəcə böyükdür. Süni şəkildə əhalinin paytaxta, paytaxt ətrafına axınının qarşısını kəsmək olmaz. Bunun üçün ayrı-ayrı bölgələrdə azad iqtisadi zonalar yaradılmalı, yerli sahibkarların və xarici investorların həmin ərazilərə sərmayə qoyulmasına münbit şərait yaradılmalıdır. Kəndli öz kökündən aynlmasa, torpaqla ünsiyyət möhkəm olsa, kəndlini torpağa bağlayan vasitə – maddi yardım kreditlər şəklində, ən müxtəlif formalarda bürokratiyasız, süründürməsiz və ən başlıcası, "şapkasız" onun özünə verilsə, hər cür maneə asanlıqla aradan götürülə bilər. Elə indicə qeyd etdik ki, əhalinin paytaxta və paytaxt ətrafına axınının qarşısını süni şəkildə kəsmək olmaz. Heç bir maneə yaratmadan kimə, hardan torpaq sahəsi istəyirsə verilməlidir. Əlbəttə, müəyyən məskunlaşma şərtlərinə ciddi şəkildə əməl olunmaqla.

Hər kəsin evi olmalıdır. Mənim yaxşı yadımdadır. 92-ci ildə prezidentliyə namizədlərdən biri çox qısa müddətdə əhalini mənzillə təmin edəcəyini vəd edirdi. Əlbəttə, o vaxt çoxlarımız bilirdik ki, bu, fantastik vəddir, yəni reallıqdan kənardır. Amma bu gün artıq o reallıq var. Sadəcə, adamlara məskunlaşmaq üçün şərait yaratmaq, kömək etmək lazımdır.

Bakı şəhərində mənzillərin bugünkü qiyməti əhalinin alıcılıq qabiliyyəti ilə tərs mütənasibdir. Halbuki məcburi köçkünlərdən savayı yüz minlərlə insan evsiz-eşiksizdir. Allaha şükür ki, bu gün insanların çörək problemi yoxdur. Amma əvəzində su problemi var, qaz problemi var, ayrı-ayrı bölgələrdə işıq, yanacaq problemi var. Özü də bu problemlər artıq kəskin şəkildə qarşıda durur və sosial partlayış üçün əsas olaraq qalır.

İqtidarda olan partiya və yaxud iqtidara gəlmək istəyən partiya məhz bu məsələlər haqqında ətraflı düşünməlidir. Yol-qəza hadisələri ilə son illərdə həlak olanların sayı az qala Qarabağ müharibəsində şəhid olanların sayı ilə rəqabətdədir. İndiki vəziyyətdə bu cür təsadüfi ölüm təhlükəsi hər kəsin az qala alın yazısına çevrilib.

Azərbaycan gənclərinin çox böyük əksəriyyəti dolanışıq ardınca hələ də MDB məkanına, bir çox xarici ölkələrə səpələnmişdir. Bu, Azərbaycan genefondu üçün çox böyük təhlükə törədir. Yeni nəsil dünyaya gətirməli olan gənclər ömürlərinin ən yaxşı çağlarını Azərbaycandan uzaqlarda yaşayırlar. Azərbaycan qızlarının gözlərində qara kölgə görünməkdədir. Bütün bunlar haqqında nəinki yazıçı düşünməlidir, həm də siyasət adamları düşünməlidir, həm də iş adamları düşünməlidir, bir sözlə, hər kəs narahat olmalıdır.

Qələmin müqəddəs vəzifəsi xalqa xidmət olmalıdır (Mirzə Cəlil). Amma bu qələm qərəzkar, heç bir mənəvi-əxlaqi dəyərə arxalanmayan şəxsin əlindədirsə, o, çox təhlükəlidir.

Hüseynbala Mirələmovun "Mənəviyyatın ekologiyası, yaxud iki od arasında" sərlövhəli qeydləri ( "Kredo" qəzeti, N-33-34 (204-204), 24 aprel, 2004–cü il) bizi düşündürməlidir. Müəllif yanğı ilə yazır: "Azərbaycan müharibədən çıxmayıb, hələ torpaqlar işğal altındadır. Sadəcə, təmas xəttində nisbi sakitlikdir. Məndə bir əminlik var ki, biz torpaqlarımızı erməni faşistlərinin işğalından azad edəcəyik. Tarixən əksər xalqlara qarşı ədalətsizliklər olub və tez-gec həmin xalq öz haqqını qanı bahasına olsa belə, qaytarmışdır. Mən daha təhlükəli müharibə haqqında danışmaq istəyirəm. Bu, mənəviyyatımızda gedən müharibədir. Mən hiss edirəm ki, hər gün, hər saat, hər an mənəviyyatımızda aşınma gedir və biz yad təsirlərin mənəvi işğalına məruz qalırıq. Azərbaycan müsəlman ölkəsidir. "Müsəlmançılıq" adlanan bir termin var. Çox təəssüf ki, son vaxtlar bu termini daha çox mənfi mənada işlədirlər. Biz Məhəmməd hümməti deyilikmi? Bu, onu göstərir ki, cəmiyyətdə ekoloji tarzlıq pozulmuşdur. Bəlkə də, bir qədər sərt danışıram. Hər halda, günümüzün reallıqları fikirlərimi daha həyəcanla ifadə etməyə mənə əsas verir".

Müəllif öz qeydlərinə qoşa sərlövhə vermişdir. İkinci sərlövhənin "iki od arasında" adlandırılması da təsadüfi deyil. Yəni bəla bizə doğru alov şəklində yeriyir və iki tərəfdən. Bir vaxt İndira Qandi sıxıntı və gərginlik içərisində olan atasına - Cəvahir Ləl Nehruya sual vermişdi:

"·- Hindistanın çoxmu problemi var?

- Bəli qızım, 680 milyon!

- Bu ki, elə Hindistanın əhalisinin sayıdır.

- Elədir ki, var. Hindistanda hər adam özü bir problemdir”.

Çox təəssüf ki, Azərbaycanda da belədir. Bu gün Azərbaycanda hər bir adam özü problemə çevrilməkdədir və onun dayəsi pozulmaqda olan mənəvi tarazlıqdır.

Ancaq hər halda bizim gücümüz var. Zəngin mənəvi sərvətlərimiz, Azərbaycanın təbii, maddi imkanları, müasir mənəvi potensialımız imkan verir ki, özümüzə güvənək və bütün problemlərimizi həll edə bilək.

***

Deyirlər ki, Şeyx Nizami bütün ömrünü Gəncədə keçirib. Onun dünyanın mənəvi sərvətlər sırasında yer alan cahanşümul əsərləri Həmdünyan kəndində yazılıb. Ancaq bu gün Nizami ucalığı dünyanın hər yerindən görünür. Çünki onun idealı insandır. O, insanı elə bir ucalıqda görür ki, bu ucalıqdan yuxarıda ancaq Tanrı var. Nizaminin məqsədi dövrünün qılınc sahiblərini bunu anlatmaq idi: Siz insanın qədrini bilin, yalnız tamahınızın, ac canavar kimi yem axtaran mədənizin tələbi ilə cahangirlik xülyasına düşməyin. İsgəndəri Bərdəyə gətirib Nüşabənin əli ilə onun qabağına süfrədə yemək əvəzinə daşqaş qoyan şair təfəkkürünün əlyetməzliyi, ucalığı bu gün də özünü hifz edir. Və elə bu gün də müasir səslənir.

H.Mirələmovun “Mənəviyyatın ekologiyası” publisistik düşüncələri həmin ideyanın bu günün dili ilə, bu günün rəngləri və boyaları ilə yenidən doğuluşudur. Çox təəssüf ki, bu gün yeni ədəbi nəsillər arasında Azərbaycan klassik ədəbiyyatından imtina etmək, bütün XX əsr boyu Azərbaycanın mənəvi sərvətlərini qoruyan, zənginləşdirən və ən başlıcası, çox ağır mənəvi şəraitdə totalitar bir cəmiyyətdə humanizm prinsiplərini həmişə uca tutan sənətkarları danma meylləri qabarıq üzə çıxır. Çox təəssüf ki, həm də bu meyllər hələ cəmiyyətə heç nə verməmiş şəxslər tərəfindən istiqamətləndirilir.

Doğrudur, kapital öz “həqiqətlərini”, yəni gücünü diktə edir. Ancaq unutmaq olmaz ki, son nəticədə mənəvi kapital daha güclüdür. Tarix olub-keçənləri saf-çürük edəndə maddi kapitalı mənəvi kapitalın ayaqları altına atır.

Bütün bunlar elə həqiqətlərdir ki, onları unutmaqla özümüzü sonu bilinməyən faciələrə düçar edə bilərik. Yazıçı Hüseynbala Mirələmovu da narahat edən, onu haray salmağa vadar edan elə bu həqiqətlərdir.

Hər halda mən də özümü nikbin adamların sırasında bilirəm. Azərbaycan Cənub ölkəsidir. Azərbaycanda günəşli havalar tutqun, buludlu havalardan daha çox olur.

Mən işığa güvənirəm.

**31.08.2005**

## ƏN ACI ETİRAF

***Əjdər FƏRZƏLİ***

Bu düşüncələr bu janrın publisistikanın ən dəyərli və təsirli nümunəsidir. Bu gün qələm sahiblərimiz bu mövzudan xeyli uzaqlaşıblar. Avtobioqrafik yazılara, bir-birini günahlandıran, kimlərinsə quyusuna daş atan, sənədli, tarixli, möhürlü, imzalı söhbətlərə daha çox meyl edir, yaradıcılıqlarını bu istiqamətdə təkmilləşdirirlər. Bəs yazıçının borcu nədir? Yazıçı Hüseynbala Mirələmovun bu suala cavabı qısa və aydındır: “Ozünün mənəvi kökləri ilə Onu böyüdən, onu tanıyan, qəbul edən xalqdan ayrı düşməmək”. Və Hüseynbala müəllim bu borcun məzmununu düzgün seçib. Amma acı orasıdır kı, özündən deyən qələm sahibi bu məzmunu özünə yaxın qoymayacaq və deyəcək: “Yox, mən xalqdan ayrı deyiləm!” - xalqdan ayrı deyilsən, bəs xalqın dərdlərinə nə üçün biganəsən? Axı doğrudan da, Hüseynbala müəllimin dedıyı kimi, nə müddətdir ki, mənəviyyatımızda aşınma gedir. Tarazlıq pozulmuşdur. Yaxın keçmişdə pislədiyimız “bır ovuc”lar meydana gəlib. Bir ovuc super rahat, super pullu və onların birovuclu ətrafı, “fərdi şirkət”lər və s. bərabərsizliyi, ahəngdarsızlığı təmin edirlər. Tərəzinin gözunu əydikcə əyirlər. Qazan xan, H.Z.Tağıyev, Üzeyir Hacıbəyov, S.Vurğun əməllərinin unudulması vaxtı gəlib çatıbmış. Dədəm Qorqudun da adı dildə dolaşır, kinolarda göstərilir və eyni vaxtda o ulu Dədəmizin xəbərdarlıqları, xalqa atalıq etmək çağırışları unudulur. Və professor Tofiq Hacıyevin dediyi “Qazan xan kommunizmi” necə də büsbütün unudulmuşdur.

Tək özünün rahatlığını təmin etmiş diplomat-ziyalımız, Qazan xanı, H.Z.Tağıyevi demirəm, Ü.Hacıbəyov, S.Vurğun xeyirxahlığına istehza edir və Dədəm Qorqudun bir kəlamını da unudur ki, "bir şəxsin lap Qaradağ böyüklükdə, çoxluqda pulu, dövləti olsa, qədərindən artıq yeyə bilməyəcək". Buna cavab olaraq indi kömək istəmək, mənəvi dayaq istəmək qəbahət sayılır. Bu gün Xudu Məmmədov qismində ikinci alim-müəllim yoxdur ki, gedib dərdini danışasan, o da sənin haqqının müdafiəsinə qalxa. Xudu müəllimin adı da, əməli də unudulub. Mənəvi kömək əvəzinə, hamı "mən balaca adamam" deyib geri çəkilir. Həmkarlarımdan biri danışdı ki, bir vəzifəli ziyalını ümid qapısı bilib telefon açırsan: O başdan buz kimi "cavab" gəlir: "Telefon sahibi sizinlə danışmaq istəmir". Budur, diplomat-ziyalının xalqa "xidməti". Bunlar cəmiyyətin, xalqın fəlakətə doğru getməsidir, aparılmasıdır.

Hüseynbala Mirələmov "müsəlmançılıq" adlanan bir termin var, - deyir. - Çox təəssüf ki, son vaxtlar bu termini daha çox mənfı mənada işlədirlər. Biz Məhəmməd ümməti deyilikmi? Bu onu göstərir ki, cəmiyyətdə ekoloji tarazlıq pozulmuşdur.

Qeyd edim ki, mən Azərbaycan xalqının ən qədim Tanrıçılıq inamını aradım və yəqin etdim ki, Tanrıçılıqdan gələn gözəl keyfiyyətlər islamda əksini tapmışdır.

Azərbaycan xalqı başqa islamçı xalqlardan o mənada fərqlənir ki, bizim mənəvi-əxlaqi təmizliyimiz islama qədər Tanrıçılıqdan, yəni ən uzaq minilliklərdən, ən dərin köklərimizdən gəlir. Dünən pislədiyimiz sovet dövründə televiziyamızda necə də təmiz verilişlər gedirdi, təmiz kinolar çəkilirdi, göstərilirdi. Reklamlar da təmiz olurdu. "Görəsən müəllim də çörək yeyirmi?" - sovet dövrü nəslinin sualı idi bu. İndiki uşaqların bu suala gülməyi tutur. Amma o, necə də müqəddəs sual idi. O sualı cəmiyyət özü yaratmışdı. Dədəm Qorqudçu - Üzeyir Hacıbəyovçu genimizdən gəlmişdi o sual. İndi o suala uşaqlardan çox, böyüklər gülür, lüt, çılpaq reklamlara baxdıqca...

Dünənə qədər... televiziyamızda baxılan təmiz verilişləri yazıb, çəkib göstərənlər indi "geri qalmış avamlar" qələmindədir. O verilişlərin əvəzinə telekanallarımızda abırsız səhnələr baş alıb gedir. Bir saqqızı, bir sabun köpüyünü təbliğ etmək üçün qadın da, kişi də soyunur...

Seriallardan saç, geyim, evlənmək-boşanmaq, boşanıb kəbinsiz yaşamaq, “əngələ çevrilən” ailə üzvünü, dostu necə aradan götürmək... adətləri öyrənilir, təqdir edilir. Bu vəziyyətdə “Görəsən müəllim də çörək yeyirmi?” sualının yeridirmi heç? Yaqub Məmmədov kimi qüdrətli xanəndənin adı belə çəkilmir. Səsinin zərrəcə məlahəti olmayan, cığ-cığ müğənnilər isə ekranda həm öz yarılüt bəndənlərini, həm də sifarişlə çəkdirilmiş şəkillərini nümayiş etdirirlər və azı 4 saat!

“Söz silahdır. Özü də ən qüdrətli silah. Bu gün yazıçıların kəsərli sözünə, birbaşa sözünə cəmiyyətin ehtiyacı var”, - deyir Hüseynbala Mirələmov. Bu silah da kəsərdən düşüb, korşalıb, yazıçıların, şairlərin sayı çoxalandan bəri. Anar müəllimin bir sözü var: “Onsuz da hər yazan ancaq özünü oxuyur”. - Bu da acı həqiqətdir. Demə, “özü yazıb, özünü oxuyanlar”ın əsl dövrü gəlib çatacaqmış. Hamı ancaq özünü oxuya-oxuya klassik sənətkarlarımız unudulur. Sənətə, sözə münasibətin aşınması - ekologiyası başlanıb demək. Mətbuatımız iqtidar-müxalifət atışmalarından ayrılıb özünə gələ bilmir. Nə vaxt gələcək? - Allah bilir...

Hüseynbala Mirələmov tarazlıq məsələsini vaxtına görə çox kəskin qoyur. Şüurda, əxlaqi-mənəvi münasibətlərdə, ailə, övlad, məktəb, yol, ev, qonşu, bazar... münasibətlərində tarazlıq itib, tarazlıq tamam gərəksiz olub.

“Təbiətin özündə hər şey ölçülüb-biçilibdir. Tanrı kainatı son dərəcə dəqiq nizamlanmış zaman daxilində elə yaratmışdır ki, heç bir düzəlişə yer qalmamışdır. Zənnimcə, insanlar da, ayrı-ayrı fərdlər də cəmiyyətlə münasibətdə, konkret desək, bir-birinə münasibətdə həmin Tanrı nizamına söykənməlidirlər”. - Bu, tək yazıçılara, qələm sahiblərinə deyil, cəmiyyətin hər bir üzvünə, xalqın hər bir övladına müraciət-xəbərdarlıqdır. Öyüd-nəsihət deyil, əzəli-əbədi reallıqdır və elmi həqiqətdir.

Tarazlıq - varlığın əsasıdır. Tanrı kainatı ikili yaratmışdır. “T” hərfinin 2 qanadı da buna işarədir. Bu 2 qanad tərəzinin - tarazlığın iki gözüdür. Bu gözlər taraz-bərabər olanda, - odla su tarazlıq həddində olanda sevgi, həyat, doğum, artım, inkişaf, yüksəliş başlanır. Təbiətdə pozulan tarazlıq - onu da insanın kor əməlləri pozmursa, - gah istinin, gah soyuğun artması yenidən öz-özünə bərpa olunur. Cəmiyyətdə də belə olmalıdır. Bunu hər bir fərd gözləsin gərək. Bəs kim necə gözləyir? Necə riayət edir bərabərliyə-tarazlığa? Guya dahi Ələkbər Sabirin də adı

qalıb, sözü unudulub: “Mən salim olum, cümlə-cahan batsa da batsın!”, “Millət necə tarac olurolsun, nə işim var?!” - misraları tamam unudulub. Daha Ələkbər Sabir sərf eləmir bu millətə, bu cəmiyyətə... “Fəhlə, özünü sən də bir insanmı sanırsan?!” Necə oldu o fəhlə? Axı Sabir bu şerləri sovet-kommunist rejimindən 15-20 il əvvəl yazmışdı. Yəni onda da kapitalizm idi, indi də. “Fəhlə sinfi” ilə birlikdə fəhləyə, fəhləliyə qiymət də dəyişib. Hamı olub bəy və cənab. Fəhlə yoldaşlığı da, “yoldaş” sözü də qəribçiliyə salınıb. “Yoldaş”ın taxtdan endirilməsi tarazlığın pozulmasının başlanğıcı oldu...

Axı heç də hamı bəy deyil, heç də hamı cənab deyil. Bu adlar qazanılmalıdır. Bəy adının bəyliyinlə yaraşasan gərək. “Quru bəylər” kimlərə deyilib? O kəslərə deyilib ki, əvvəl əsl bəy səviyyəsində olub cəmiyyətdə tutduğu mövqeyi ilə. Sonra nə səbəbdənsə bu mövqe itirilib və onun bəyliyindən quruca bir “bəy” adı qalıb. Cənab olmaq üçün gərək rütbən, alicənab təbiətin, ətrafındakı sadə insanlara maddi-mənəvi köməyin, bir iş görməyə, bir tapşırıq verməyə səlahiyyətin olsun gərək. Yoxsa bütün kişiləri bəy, cənab, bütün qadmları da xanım çağırmaqla heç də hamısı dönüb bəy, cənab və xanım olmur. Dərd içində üzən bir adama “bəy” deyəndə acığı gəlir, az qalır desin ki, ay müəllim, durduğum yerdə məni nə üçün təhqir edirsən? Bəy adı mənim bu acı günüməmi, bu müalicəsiz qalmağımamı yaraşır, evimin rütubətinəmi yaraşır?! Məgər işin-gücün yoxdurmu sənin? Başlamısan bəy belə gəldi, cənab da belə getdi...

Bəyin bəy kimi, cənabın da cənab kimi dolanışığı, günügüzəranı olsun gərək. Hamı “bəy” və “cənab” olanda “sən ağa, mən ağa, bəs, inəkləri kim sağal?” olur. Sən səni düşünür, mən məni. Cənab adlanmaq üçün intellektual səviyyən olsun gərək. Yoxsa torpaqlarının 20 faizi qalıb işğal altında, düşmən qız-gəlinlərimizi əsir-yesir aparıb, körpələrimizi dəmir boruların içində yandırıb diri-diri, neçə şəhərimizi, kəndimizi yerlə yeksan edib, bizim bəy, cənab adlandırılmağa haqqımız qalıbmı heç?!

Söz yox ki, “Tək mən salim olum, cümlə-cahan batsa da batsın!” - düşüncəli cənablarımız da az deyil. Elə onların da əlindən bu millət az qalır ki, dəsmal götürüb ağlasın.

Deməli, Hüseynbala Mirələmov təkcə yazıçılardan yox, hər bir ziyalıdan. hər vicdan sahibindən tarazlıq haqqında düşünməyi gözləyir.

Bir həkim söhbəti düşdü yadıma: İnsan hər dəfə normasından, qədərindən artıq yeyəndə buna onun daxili orqanları davam gətirmir. Bədənin hər üzvü öz funksiyası yalnız tarazlıq həddində yerinə yetirə bilir. Bu həddi gözləməyəndə xəstəliklərə yol açılır.

İnsan xarakteri, onun bütövlüyü, düşüncədə və əməldə tarazlığı gözləməsinə xidmət etməlidir. Bəs ona nə deyirsən ki, xalqının keçmişini, gələcəyini unudan ziyalı fıkrində özünə bəraət qazandırır: “Ey xalqım! Mən hələ səni bir az unutmalıyam. Sənin keçmişini inkar edənlərlə həmrəy olmalıyam. Mən də hələ rahatlığımın xatirinə onlara qoşulub deməliyəm ki, sənin bu torpaqda izin olmayıb. Sən heç bir mədəniyyət-fılan yaratmamısan. Keçmişindən sənə heç bir mədəni irs qalmayıb. - Mən hələlik bunu deməliyəm. Çox da ki, Əhməd Cavad demədi, səni danmaq istəmədi. Mən onun nə günə salındığını unutmamışam. Mən onun yerişini yeriyə bilmərəm. Mən də, neçə dost-tanışım da düşmənin cəbhəsinə keçməyi rəva gördük özümüzə. Düşmən bundan xeyli güclənsə də, başqa yol yoxdur...”

Beləcə, düşmənin dəyirmanına su tökən ziyalılarımız, sizin hər biriniz gələcək əsərlərin, sabah yazılacaq romanların, çəkiləcək kinoların yüz qat lənətlənən qəhrəmanları olacaqsınız.

Sizlər bu gün öz şəxsi rahatlığınız naminə düşmən dəyirmanına su tökərək haqq-ədalət tərəzisinin gözünü əyirsiniz. Siz tarazlığı bilərəkdən pozmaq nümunəsi göstərirsiniz. Və siz bununla öz divanınızı hazırlayırsımz. O bəyəndiyiniz rahatlıq nəyin hesabına olmalıdır?

Hansı hesaba olur-olsun, xalqın keçmişini danmaq hesabına olmamalıdır.

Azərbaycan xalqı ta əzəldən təbiətin özü kimi tarazlıq qanunları üstündə köklənib. Səsi, avazı - musiqisi ilə, muğamatı, bayatısı, şikəstəsi ilə, öz orijinal ifası, öz oxuyan boğazı ilə, guşəsi, zənguləsi, zili, bəmi ilə, ahəngdarlığı ilə heyranedicidir. Dünyada 3000 dildən cəmi bir neçəsi aqqülinativdir - ahəng qanununa tabedir. Azərbaycan dilinin fonetik quruluşunda tarazlığa baxın: sözün l–ci hecası qalın saitlə başlanırsa, sonuncu hecası da qalın, incə saitlə başlanırsa, sonuncu da incə saitlə

qurtarır: ata-ana - atə-anə yox; sarı-sari yox; aba-əba yox, uzun-füzun yox, axşam-əxşam yox, qardaş-qardeş yox, adam-adəm yox və s.

Hüseynbala müəllim bu gözəllikdə, bu ahəngdarlıqda - tarazlıqda dilimizə də laqeydliyin, biganəliyin dözülməzliyini, bəzi məclislərdə hələ də keçmiş "böyük qardaşın" dilinə üstünlük verildiyini acılığı ilə nəzərə çatdırır. Özəl radio dalğalarında şit, bayağı, səviyyəsiz söhbətlərdən rahatsızlığını bildirir.

Musiqimizin ahəngini pozan "aranjemançı" cığ-cığ müğənni "Aman ovçu vurma məni" xalq mahnısını komik vəziyyətə salır, oxumağa qabiliyyəti çatmadığı üçün mahnının lirikasını öldürür. Və bunu bu başabəla müğənniyə irad tutan olmur. Yaxud yenə də səsi məlahətdən məhrum "müğənni" aparıcının bir kəlmə xoş sözündən cuşa gəlib ekrandan xalqa meydan oxuyur. "Mən "məşhur" sözünü özümə təhqir sayıram! Mən yalnız dahi müğənniyəm!"

Gözəl səsli müğənnilərimizin neçəsi isə Nizami, Xəqani, Nəsimi, Füzuli, Vaqif, Vahid kimi dahiləri, ustadları unudub, kimlərinsə yazdığı, sənətkarlıq baxımından səviyyəsiz misraları dilə gətirməklə gözəl ifalarının təsirini heçə endirirlər.

Yenə də tarazlıq pozulur.

Hüseynbala müəllim "müsəlmançılıq" termininin son vaxtlar mənfı mənada səsləndiyinə diqqət yönəldir. Bu mənfılik - o yerdə başlayır ki, insan öz keçmişini bəyənmir. Və bu hallarda tərəzi əyilməsin, neyləsin! Bizim müsəlmançılığımız, Tanrıçılığımızın, ənənələrimizin davamıdır. Və ənənələrimizin unudulması əsl fəlakətdir. Belə davam etsə, xalqımızı böyük fəlakət gözləyir.

Hüseynbala müəllimin dediyi kimi, bizdən keçib gedən tarix bu gedişlə boşluğa gedəcək. Özümlüyümüz olmayanda özümüz də olmayacağıq.

Hörmətli yazıçımız min dəfə haqlıdır. Bir yandan torpaqlarımız, abidələrimiz, musiqimiz işğal olunur, bir yandan da özümüz özümüzü inkar edirik... Biz bu fəlakətin - bu aşınmanın, bu özünüinkarın heç olmasa qarşısını bir az almağa borcluyuq.

***1 may 2004***

## HƏYƏCAN TƏBİLİ

***Söhrab Tahir AZƏRAZƏR***

***Xalq şairi, Dünya Azərbaycanlıları Mədəniyyət Mərkəzinin prezidenti.***

Hörmətli yazıçımız, filosof-publisist, pedaqoq, bildiyimə görə bacarıqlı istehsalat təşkilatçısı Hüseynbala Mirələmovun “Kredo” qəzetində, 24 apreldə çap etdirdiyi “Mənəviyyatımızın ekologiyası” adlı məqaləsini ürək ağrısı və iftixar hissi ilə oxudum. Həqiqətən də hörmətli yazıçı bu məqaləni ürək ağrısıyla, Azərbaycan qeyrətilə yazmışdır. Və bu yazının əhəmiyyətinin bir cəhəti də ondadır ki, əsər hazırda iki ictimai quruluşun bir-birini əvəz etmək prosesinin məsuliyyətli vaxtına təsadüf edir. Bəşəriyyətin feodalizmdən kapitalizmə, feodalizmdən sosializmə keçmək təcrübəsi demək olar ki, vardır. Ancaq sosializmdən kapitalizmə keçmək təcrübəsi yoxdur. Belə bir məsuliyyətli dövrdə Mirələmovun müraciət etdiyi bu mövzular çox məsuliyyətlidir, həm də həyəcan təbilini səsləndirməkdir.

*“Mənəviyyatm ekologiyası” məqaləsinin müəllifi yazır: “Ozəl televiziya və radiolarda, xüsusilə şou proqramlarda Azərbaycan dilinin başına açılan oyunlar adamın qəlbini dağlayır. Dilə bu cür münasibət, zənnimcə, mənəviyyatımıza vurulan ən ağır zərbələrdən hesab olunmalıdır.*

*Savadsız şou aparıcılarmm şit hərəkətləri xalqın mənəvi tərbiyəsində şikəst məktəb vəzifəsini icra edir. Dilimizin saflığı uğrunda mübarizəmiz mənəvi safhğımız uğrunda mübarizəmizlə eyniyyət təşkil edir. Bir qədər əvvəl Azərbaycanın müsəlman ölkəsi olduğunu yada salmışdım. Bu mənada, dinimizin təmizliyi uğrunda mübarizə də xüsusi əhəmiyyət kəsb edir. Qeyri dinlərin açıq və yaxud gizli emissarları meydan suladıqları kimi, İslam dininə xələl vuran müxtəlif təriqət adamları da İslam dininə az zərbə vurmurlar.*

*Bütün bunlar göstərir ki, indi Azərbaycanda dəhşətli mənəvi müharibə gedir. Mənəviyyatımızı işğal etməkdə olan yabançı mənəvi meyllər Qarabağ müharibəsinin vurduğu zərbədən daha təhlükəlidir”* **(“Kredo” N 33-34 (203-204). 24 aprel 2004–cü il).**

Hüseynbala müəllimin məqaləsindəki toxunduğu “işğal” məfhumu məni ciddi düşündürdü. Bu məsələ həddindən artıq həssas və məsuliyyətli bir mövzudur. Çox doğru buyurur ki, işğal müvəqqətidir. Həqiqətən də dünyada imperiyaların apardığı işğal siyasəti müvəqqəti olmuşdur. Xalq və ya ölkə geç-tez işğaldan qurtaracaqdır. Ancaq işğalın mənəvi təsiri təlim-tərbiyə metodu bir xalqın və ya ölkənin uzun müddət yaddaşında və məişətində qalır. Bundan xilas olmaq üçün xalq yüz illərlə mübarizə aparır.

Azərbaycan xalqı öz xüsusiyyətlərinə görə bu kimi işğaldan və ya realistcəsinə desək, bir əsrə yaxın sovet təlim-tərbiyəsi metodundan bəhrələnib və həm də onunla mübarizə aparıb. Belə ki, artıq istiqlal əldə edən Azərbaycan xalqı sovet təsiri altından çıxmaq üçün cəhd edir, eyni zamanda, qarşıdan gələn kapitalizm təlim-tərbiyəsini, mənəviyyatını və digər yaxşı cəhətlərini qəbul etməyə, məişətinə daxil etməyə başlamışdır.

Qərb mədəniyyətinin bir çox yaxşı və gözəl cəhətləri vardır. Bundan Azərbaycan xalqı həmişə bəhrələnmişdir. Hələ yazıçı babalarımız, M.F.Axundov kimi dahilərimiz bizə Qərb mədəniyyətinə yiyələnməyi tövsiyə etmişdilər. Rus və Qərb mədəniyyətinin üstün cəhətlərinin bizim xalqımızın inkişafında çox böyük təsiri olub. Ancaq Hüseynbala müəllimin dediyi kimi, Qərb mədəniyyətinin eybəcər cəhətləri də vardır. Bu cəhətlərdən hətta, avropalılar özləri də, demək olar ki, beziblər. Və bu kimi eybəcərlikləri təbliğ edən, təşviq edən, yayan emissarlar, kinolar, videolar, şoular və digər bu kimi vasitələri Avropa xalqları artıq öz həyatlarından, məişətlərindən qovmaqdadırlar. Və göstərdiyimiz bu eybəcərliklər artıq Azərbaycana və digər bu kimi ölkələrə üz tutmuşdur. Xarici kinolara baxarkən ata ilə bala bir evdə, bir otaqda oturduqları halda, həyəcan və təhlükə keçirirlər. Çünki bu kimi kinolar əxlaq pozğunluqları və mənəvi alçalmaları elə şəkildə göstərir ki, ata-bala bir-birindən xəcalət çəkirlər. Əlbəttə ki, son vaxtlarda bu kimi kinoların və yaxud bu kinolardakı bəzi pozğun səhnələrin ixtisar olunmasına nail olmuşuq. Ancaq bütün bunlar çox azdır. Və yenə də Hüseynbala müəllimin çaldığı həyəcan təbili vacibdir, zəruridir.

Elanlar, şoular, "xanalar" barədə müəllif ürək ağrısıyla, böyük milli məsuliyyətlə xəbərdarlıq edir. Bu kimi peşələrin vasitəsilə asan yolla varlanmağa tələsənlər bəlkə də başa düşmürlər ki, xalqın mənəviyyatı və milli əxlaq xüsusiyyətləri ilə oynayırlar.

Bu kimi eybəcər cəhətlərin üstünə əgər Azərbaycan xalqının bu sahədəki təcrübəsizliyi və humanistliyi də əlavə olunarsa, gələcəyimizi bu bəlalardan xilas etmək üçün bütün gücümüzü səfərbərliyə almalıyıq. Gəlin, unutmayaq ki, həyəcan təbili çalan müəllif birbaşa hamımızın gördüyü, bildiyi, təəssüf ki, çoxlarımızın sükutla müşahidə etdiyi faktları diqqətə çəkir. Hüseynbala müəllim "Mənəviyyatın ekologiyası" məqaləsində göstərir: *"Yollarda, keçidlərdə adamlara elanlar paylanır. Əsasən rus dilində yazılmış "Massajnı salon"ların elanlarına diqqət edək. "Molodıe massajıstki predlaqayut svoi usluqi".*

*Hansımız görməmişik. Amma düşünmüşükmü? Bu elanların arxasında nə dayanır. Hətta bəzən həmin elanlara daha bir qeyd əlavə olunur: "İntim münasibətlər üçün müraciət etməyin". Demək, artıq ictimai fikir kifayət qədər məlumatlıdır; həmin xidmətlərin mahiyyəti və məzmunu nədən ibarətdir... Hər–halda bütün bunlar haqqında düşünməyə dəyər. Mən inanıram ki, əsrin bəlası hesab olunan SPİD virusuna qarşı elm sipər çəkə biləcək. Bəs mənəviyyatımızm yoluxduğu SPİD virusundan daha qorxulu mənəviyyatsızlıq virusuna qarşı kim və necə dayanmalıdır?*

*Azərbaycan İpək Yolunun üstündədir. İpək Yolu ilə Azərbaycan iqtisadiyyatının dirçəlişinə təkan verə biləcək imkanlar gəlir. Ancaq İpək Yolunun üstündə olmaq həm də o deməkdir ki, bu yolla mənəviyyatımıza yad təsirlər, daha qorxulu meyllər də yol aça bilər* **("Kredo" qəzeti, N – 33-34(203-204) 24 aprel 2004-cii il)**. Bu qeydlərdə müəllifı təkcə yazıçı kimi yox, bir pedaqoq kimi görürük. Tərbiyəçi-müəllimin narahat ürəyinin döyüntülərini eşidirik.

Məqaləni oxuyarkən mən hiss etdim ki, müəllif xaricdən gələn mənfı təsirlərə böyük müqavimət göstərməyə çağırır. "Fövqəlbəşər" millətlər, dövlətlər, başqa xalqların millətləri özlərindən aşağıda görür, onlara yüksək, mənəvi dəyər kimi qail olmurlar. Berlində yaşayan bir dostum mənə gileylənirdi ki, Almaniyada özünü "fövqəlbəşər" hesab edən adamlar Azərbaycandan gedən və yaxud digər Asiya

ölkələrindən gedənlərə alçaq nəzərlərlə baxır. O deyirdi ki, mən bir alman qızla evlənmişəm. İki qızım, bir oğlum var. Arvadım müəyyən qədər əlil hesab olunur. Buna baxmayaraq, onun qardaşları bayram günləri, təvəllüd günləri gəlib maşınla bacısını və uşaqları götürüb şənliklərə aparırlar. Ancaq məni dəvət etmirlər. Mənə yuxarıdan baxırlar. Belə bir şəraitdə Azərbaycandan gələn cavanlar gecə saat 2-dən sonra restoranlarda qab yumaqla pul qazanırlar. Ağır yollarda, magistrallarda asfalt çəkməklə, ağır pivə çəlləkləri daşımaqla öz məişətlərini təmin edə bilirlər. Maşında, avtobusda gedən hər hansı bir "fövqəlbəşər" xanım yanındakı boş yerə sevimli itini oturdur. Ancaq ayaq üstə qalan bizləri görmür. Bu kimi mənəvi eybəcərliklərlə dörd tərəfdən əhatə olunmuşam, - deyir dostum. Müqayisə ilə baxsaq, "fövqəlbəşərlərlə" Azərbaycan xalqının çox böyük fərqi vardır. Azərbaycan xalqı övladcanlı, evcanlı, ərcanlı, qonaqcanlı, zəhmətkeş xalqdır. Onun evinin ən yaxşı guşəsində təsadüfən gələn qonaqlar üçün təmiz yorğan-döşək bir-birinin üstünə qalanıb əziz qonaqları gözləyir. Azərbaycan xalqı güzəştlə yaşayan xalqdır. Qonşularına, yadlara, hətta qapısına gələn tanımadığı adamlara da ürəyinin ən mərhəmətli guşəsində yer verir.

Mən dəfələrlə görmüşəm ki, münaqişə nəticəsində yeganə oğlu qətlə yetirilən atanın evinə iki ağsaqqal gəlməsi və bağışlamaq mənada əllərini ağ saqqallarına çəkməsi ilə balası qətlə yetirilən atanın ürəyi mərhəmətlə dolur, güzəşt edir, hətta durub onların üzündən də öpür. Mən deməzdim ki, bu kimi yüksək mənəvi xüsusiyyətlər başqa xalqlarda yoxdur. Ancaq hələlik mən bu kimi səhnələri başqa xalqların həyatında görməmişəm.

Belə bir xalqın məişətinə, ictimai həyatına Qərb ölkələrindən qovulmuş eybəcərliklərin gəlib yer salması və yaxud milli məişətimizə daxil olması böyük faciədir.

Hüseynbala müəllim, sizin çaldığınız həyəcan təbili məhz xalqımızın indiki ictimai-siyasi dövründə çox-çox vacib və zəruridir. Hələ ədəbiyyatımıza, demək olar ki, bu kimi mənf1 cəhətlər daxil ola bilməmişdir. Xarici ölkələrin mürtəce romantistlərinin ədəbi məktəblərinin təsiri daha faciəli ola bilər. Təkcə Fransa yazıçısı, mürtəce romantist hesab olunan Şotaberyamn əsərlərini oxuyarkən insan düşgünləşir, guşənişin olur. Həyatda işıqlı yol tapa bilmir. Dekadentizmə, ifrat

düşgünlüyə, rahibçiliyə yuvarlanır. Siz bir yazıçı kimi, dramaturq-publisist, xalq filosofu kimi bədii ədəbiyyatımızın yaradıcılıq auditoriyasını fəth etmək əzmində olan eybəcərliklərin qarşısını almaq üçün səy və cəhd göstərməyə çağırırsımz. Bunlar kapitalizmin miraslarıdır. Kapitalizm şəraitində yaşayan yazıçılar bunlardan imtina etmişdir. Unutmayaq ki, kapitalizm özü də ideal deyil. Onun özünəməxsus eybəcərlikləri var. Və siz əslində, bunu nəzərdə tutursunuz.

Hüseynbala Mirələmov Şərq və Qərb mədəniyyətinin ziddiyyətli tərəflərini diqqətə çəkir, Azərbaycan xalqının bu ziddiyyətlərin doğurduğu bəlalardan necə ağrılar keçirdiyini həyəcanla, millətinin taleyindən nigaran bir yazıçı kimi ürək ağrısı ilə göstərir: *"İki od arasında... Bu, adi epitet deyi]. Elə bu qeydlərinin içərisində də həmin üç sözü işlətməklə, bədii emosional çaların effektini artırmaq məqsədini güdmürəm. Mən həqiqətən iki dünyanın arasında, iki düşüncə tərzinin qovuşuğunda əziyyət çəkən xalqımı görürəm"* **("Kredo" qəzeti, N - 33-34(203-204) 24 aprel 2004-cü il)**. Əlavə şərhə ehtiyac varmı? Sətirlərin arasında döyünən, çırpınan insan hisslərini görməmək mümkündürmü?

Hal-hazırda dünya siyasi-iqtisadi və mədəni cəhətdən qloballaşmağa doğru addımlayır. Əlbəttə, Azərbaycan xalqı az müddət içərisində bütün ictimai quruluşlara, ictimai təzyiqlərə müqavimət göstərsə də, uyğunlaşmağı da bacarır. Ondan millətin xeyrinə bəhrələnməyi də bacarır. Qloballaşma hələ millətlər üçün, xalqlar üçün tam açılmayıb. Ancaq biz onu bilirik ki, qloballaşma dünyanı birgə istiqamətdə, dairəvi şəkildə idarə etmək deməkdir. Siyasi qloballaşma iqtisadi, mədəni qloballaşma demək olar ki, mənəvi qloballaşmaya aparır. Burada da sizin həyəcan təbiliniz səslənməlidir. Ancaq hələ qloballaşma ilk addımlarını ata-ata onun əleyhinə bəzi Avropa ölkələrində mitinq və nümayişlər keçirilir. Qloballaşmanın bizim üçün ən ağır cəhətləri dilimizin, milli mədəniyyətimizin, din və təriqətlərimizin qloballaşa bilməsidir. Azərbaycan xalqı çox güman ki, bunu heç vaxt qəbul etməyəcək və öz məişətinə daxil etməyəcəkdir. Buna baxmayaraq, biz xalqımızın bir çox gözəl xüsusiyyətlərinə, bu dəmir müqavimətinə, bu müqəddəs mübarizəsinə ziyalı, yazıçı kimi kömək etməliyik. Daha doğrusu, bütün şüurlu həyatımızı xalqımızın bu müqəddəs mübarizəsinə həsr etməliyik.

Siz çox mənalı və çoxcəhətli məqalənizdə və hətta çap etdirdiyiniz çox dəyərli, ağırçəkili kitablarınızda bütün probiemlərə toxunursunuz. “Müsəlman” məfhumunun son illərdə ucuzlaşdırılması və bu məfhumdan dəhşətli mənalar yaratmaq cəhdləri imperiyaların uğursuz məqsədlərinə çevrilib. Artıq bütün dünya ictimaiyyətinə bəllidir ki, imperiyalar “müsəlman” - islam aləmi haqda qəddarcasına qeyri-münasib fikirlər, təsirlər yaradırlar. Mənim fikrim belədir ki, imperiyalar “müsəlman” - “islam” məfhumları altında dünyanın bir çox ölkələrinə və xalqlarının həyatına kök salmış sosializmiə mübarizə aparırlar. Bunu çox gizli saxlayırlar. Dünyanı demək olar ki, informasiya blokadasına alıblar. Biz dünyanın bir çox münaqişəli regionlarında baş verən hadisələr haqqında real informasiyalara yol tapa bilmirik. İmperiyaiar həmişə olduğu kimi, indi də müxtəlif ölkələrdə hadisələri özləri törədirlər, özləri yaradırlar, sonra da oraya hayasızcasına köməyə gedirlər. Yenə də hamı - siz bilirsiniz ki, imperiyalar özləri üçün böyük düşmən axtarırlar. Yalandan düşmən quraşdırırlar. Onunla mübarizə aparmaq üçün gərginlik yaradırlar. Və hərbi sənayelərini işə salmağa cəhd edirlər. Azadlıq hərəkatlarına, xalq hərəkatlarına, xalqların ictimai ədalət uğrunda apardığı mübarizələrə terrorizm adı qoyurlar.

Belə bir dövrdə sizin yazdığınız məqalələr, nəşr etdirdiyiniz kitablar daha mənalı, zəruri səslənir. Mən də digər oxucular kimi bu əsərləri ürək ağrısıyla oxuyuram.

Azərbaycan xalqının mənəviyyatının, milli xüsusiyyətlərinin xaricdən gələn pis cəhətlərdən qorunması siz buyuran kimi, hamını, xüsusilə, yazıçıların, publisistlərin, şairlərin və bütün incəsənət, ədəbiyyat, mədəniyyət işçilərinin müqəddəs vəzifəsidir. Bir daha sözün əzabına qatlaşan cəfakeş yazıçının səmimi sözlərini yada salıram: *“Söz silahdır. Özü də ən qüdrətli silah. Bu gün yazıçıların kəsərli sözünə, birbaşa sözünə, açıq sözünə cəmiyyətin ehtiyacı var. Qəlbində vətəndaşlıq yanğısı olmayanlar günümüzün reallıqlarına biganə qala bilər. Ancaq unutmayaq ki, vətəndaşlıq yanğısı cəmiyyətin övladı olan yazıçının mənəvi pasportudur”.*

Mən sizin “Mənəviyyatın ekologiyası” məqalənizdə çalınan həyəcan təbilinin səsinə səs verərək təklif edirəm ki, mənəviyyat ekologiyası istiqamətində xalqımızın müqəddəsliyini, onun xoş arzu və istəklərini müdafıə etmək üçün yeni bir cəmiyyət

yaradaq. “Mənəviyyatımızın Ekologiyası Cəmiyyəti”. Bu cəmiyyətdə və ya mərkəzdə və ya assosiasiyada alimlərimiz, yazıçılarımız, publisistlərimiz fəaliyyət göstərməli, ümumi dəyərlərimiz naminə birləşməli, dövlətçiliyimizə dayaq durmalı, xalqımızı ali məqsədinə istiqamətləndirməlidir.

***06.05.2004***

## DOĞMALARDAN QORXUNC YADLAR TÖRƏYIR

***İlyas TAPDIQ***

Yazıçı-publisist Hüseynbala Mirələmovun son illərdə “Kredo” qəzeti və başqa mətbuat səhifələrində - xalqın vətəndaşlıq mövqeyi, milli-mənəvi dəyərləri, əsrlərdən keçib gələn müdrik ənənələri, humanist və ədalətli düşüncə tərzini yaşatmaq, onu qoruyub saxlamağa yönəlmiş məqalələrini oxumuşam. Hər dəfə də vaxt tapıb bu mövzuları yada saldığı, vicdan, mürvət, ədalət, insaf meyarlarını insanların yadına salması, mənəvi dünyamızı yüngül yad tesirlərdən qorumağı tövsiyə edən müəllifə çox zaman telefonla zəng edib təşəkkürümü bildirmişəm. O, hələ “Azərbaycan pioneri”, “Azərbaycan gəncləri” qəzetində əməkdaşlıq etdiyi cavanlıq çağlarında da bu qəbildən olan məqalələrlə çıxış edir, vətənsevərliyi, insansevərliyi ilə fərqlənirdi. 90-cı illərin faciəli hadisələri insanların yaddaşını elə korlayıb çevirdi ki, hələ 60-70-ci illərdən mətbuatda hekayələri, məqalələri çap edilən Hüseynbala Mirələmovu bəzi oxucular 90-cı illərm ortalarından sonra yaradıcılığa başlayan bir müəllif kimi qəbul edirlər. Halbuki, sadəcə olaraq H.Mirələmovun son illərdə yaradıcılıq üfüqləri genişlənmiş, qələmi aktuallaşmlş və yenı guclu keyfiyyətlər kəsb etmişdir.

“Kredo”nun 24 aprel 2004-cü il sayında onun “Mənəviyyatm ekologiyası, yaxud iki od arasında” məqaləsi yazıçının bır nov həyəcan təbili kimi səsləndi.

Bu mövzuda görkəmli sənət adamları, publisistlər dəfələrlə müsahibələrində, dövri mətbuatda, məqalələrində fıkir söyləyiblər. Son illərdə mən bu mövzuda sevimli xalq şairimiz Bəxtiyar Vahabzadənin, böyük müğənnimiz Lütfiyar İmanovun, görkəmli bəstəkarımız Vasif Adıgözəlovun, daha bir çox görkəmli musiqi xadimlərimizin və filosoflarımızın ayrı-ayrı məqamlarda dəyərli fikirlərini eşitmişəm.

Mənəviyyatımızla əlaqədar "Kredo" qəzetinin H.Mirələmovun məqaləsi ilə başlayan bu müzakirəsi təqdirəlayiqdir.

Artıq bu mövzuda Xalq şairi Söhrab Tahirin, şair-jumalist Əjdər Fərzəlinin hər biri bir qəzet səhifəsi olan məqalələri də çap edilmişdir. Onlar da H.Mirələmovun bu mövzusunun müzakirə üçün meydana atılmasını təqdir etdilər.

H.Mirələmovun məqaləsində günümüz üçün çox vacib məsələlərin başlıca tezisləri verilmiş, müəllif fikirlərini yığcam bir şəkildə şərh etmişdir.

O, bu gün müqəddəs mənəviyyatımızın qorunub-saxlanılması, onun mənfi çalarlı yad meyillərdən qorunması barədə, bu mövzuya daha həssas münasibət bəsləyən yazıçıların da çıxışlarını vacib saymışdır.

Yeri gəldikcə bu mövzu ilə əlaqədar yazıçılar da müxtəlif çıxış və məqalələrində öz fikirlərini söyləmişlər. Qılman İlkin, Sabir Əhmədov, Vidadi Babanlı, Nəriman Həsənzadə, Anar, Elçin, Əkrəm Əylisli, Ələviyyə Babayeva, Arif Şamo, hörmətli akademikimiz, görkəmli alimlərimiz Budaq Budaqov, Ağabəy Sultanov, Qara Mustafayev, Bayram Ələsgərov və başqalarının da efirdə, qəzetlərdə bu barədə fikirləri ilə müntəzəm rastlaşmışam.

Uzun illərdən bəri mənəviyyatımızla əlaqədar Qılman İlkinin, Hacı Hacıyevin, Cəmil Əlibəyovun, Vasif Səmədovun, Azad Şərifin, görkəmli filosof-sosioloq, professor Cəmil Əhmədlinin kitablarında çox ibrətamiz fikirlərlə tanış olmuşam.

Əgər bu günün gəncləri Mirzə Cəlilin, Sabirin, Haqverdiyevin, S.Rəhimovun, Mir Cəlalın, İlyas Əfəndiyevin, İsa Hüseynovun, Sabir Əhmədovun əsərlərini əsl oxucu kimi oxusalar mən inanıram ki, həmin insanlar öz kökünə xor baxmaz, ana torpağa, Vətənə daha möhkəm köklərlə bağlanar.

Nəbi Xəzrinin, Bəxtiyar Vahabzadənin, Hüseyn Arifin, Qabilin, Məmməd Arazın, Cabir Novruzun, Fikrət Sadığın, Fikrət Qocanın, Tofiq Bayramın, Musa Yaqubun, Zəlimxan Yaqubun və başqa görkəmli şairlərimizin kitablarında da mənəviyyatımızın qorunması ilə səsləşən çox gözəl şerlər vardır. Hələ mən folklorumuzu demirəm. O folklor ki, bayatısında, laylasında, qoşmasında Vətənimiz, xalqımız haqqında hansı gözəl söz qalıb ki, deməsin?! Bu yerdə ilk öncə Abbas Tufarqanlının bir şerini xatırladım:

*Bəd övladı mən tanıram əzəldən,*
*Çör-çöp yığar, yad ocağın yandırar.*
*Səhər durar, ar-namusun gözləməz,*
*Suyu tökər, öz ocağın söndürər.*

*İlğım coşa gəlsə, köpük yağ olmaz,*
*Söyüd bar gətirsə, bağça-bağ olmaz.*
*Güllük təpə olsa dönüb dağ olmaz,*
*Yel asanda alçaqlara endirər.*

*Abbas bu sözləri deyər səmadan,*
*Arxı vurun, suyu gəlsin dərindən.*
*El bir olsa dağ oynadar yerindən,*
*Söz bir olsa zərbi kərən sındıran*

Bu şerin çağırışı nədir? Yadlaşma, xalqına qayna-qarış, onunla bir ol, onda sözünün gücü, zərbi olar!

Özünə, valideyninə yadlaşmaya dair Abbas Tufarqanh (XVII yüzildə) bu sözləri də söyləmişdir:

*Ay ağalar, bir zəmanə gəlibdi,*
*Ala qarğa şux tərlanı bəyənməz.*
*Oğullar atanı, qızlar ananı,*
*Gəlinlər də qaynananı bəyənməz.*

Bəlkə elə bu gün də Abbas deyən kimi bir çox cavanlar valideynlərinin keçdiyi həyat-düşüncə tərzini, bəzi qızlar-gəlinlər də qaynanalarının evin kişisinə olan sədaqətinin, namuslu ömür-gün sürməsini bəyənmir!

İndiki gənclər bəlkə qüdrətli el aşığı Alının illərlə sınaqdan çıxmış bu şerindən də xəbərsizdirlər:

*Özgələrdən bizə xəta yetişməz,*
*Eləməsək özümüzə özümüz.*
*Bir alışaq, bir tutuşaq, bir yanaq,*
*Qoy söykənsin gözümüzə gözümüz!*

"Bir alışaq, bir tutuşaq, bir yanaq" bu, bizim gənclərimiz üçün gözəl, müdrik məsləhət deyilmi? Axı köz-közdən aralı düşəndə də ocaq sönür. İnsanlar gərək milli fikirdə, milli düşüncədə Aşıq Alı dediyi kimi birləşsin, əks halda təklənənləri, yadlaşanları qurd yeyir, quş didir, özgələşir, milli sifətini itirir. Onlardan törəyənlərin də kim olacaqları aydındır!

Bu yerdə el şairi Qurbanın da (Ağdabanlı) bir şerini xatırlatmaq istəyirəm. Oğlu Aşıq Şəmşir bir söhbətində atasının vəfatından bir qədər əvvəl söylədiyi "Dağlar" şeri ilə əlaqədar demişdi: "Atam xəstə yatırdı, artıq yeyib içmirdi. Bugünlük-sabahlıq idi. Mənə dedi: - Oğul, mənim yönümü dağlara sarı çevir. Yönünü dağlara çevirdim". O vaxt bu şeri söylədi: ·

*Əzəl mətahımız torpaqdan, sudan*
*Sən bizə atasan, anasan, dağlar!*
*Pərvəriş vermisən mədhi-zəminlə*
*Bəzən qərq edirsən, fənasan, dağlar!*

*Daha çətin qalım, çoxdu azarım,*
*Mətahım dürr mətah, yoxdu bazarım,*
*Düşə, ya düşməyə bir də güzarım,*
*Səfərdi, salamat qalasan, dağlar!*

Dedim, ay dədə, dağlarla vidalaşırsan, bəs bizə nə deyirsən? Dedi: - Oğul, sizi də dağlara tapşırıram. Bu şerdən sonra mən öz şerlərimdə yazdım:

*“Atam Dəlidağdı, anam İstisu,*
*Nəvəsidir oğlum-qızım dağların!”*

Rəhmətlik Qurban kişi dağları öz övladlarına, həm də Vətən övladlarına tapşırmışdı. Əvvəl o dağların bütün meşələri qırıldı, yox oldu. Sonra da özü düşmən əsarətinə düşdü. Kəlbəcəri pəhləvan cüssəli oğulları qoruya bilərdilər, arada birlik olsaydı. Bu gün Aşıq Qurbanın, Aşıq Şəmşirin yurdu dağılmazdı, el qaçqın, köçkün olmazdı.

Əlbəttə, bu, bir misaldır, bunun kimi çox misallar gətirmək olar. Bəlkə bunlardan təsirlənib mən Əməkdar incəsənət xadimi Vaqif Mustafayevin “Fransız” filmində yadlaşıb fransız olan, öz dilindən imtina edən gəncə söylədiyim misraları yazmışam:

*Ev dağılır, yurdda otlar göyərir,*
*Doğmalardan qorxunc yadlar törəyir,*
*Yubatma gəl, vədəsində bil dərdi!*

Bəli, “doğmalardan yadların törəməsi” qorxunc bir işdir. H.Mirələmov məhz buna görə bu problemi həyəcan təbili kimi ictimaiyyətin nəzərinə çatdırır.

Yadların heç özlərinə rəva bilmədikləri meyllər, nədənsə Azərbaycanın şəhərlərində tez bir zamanda özünə “tərəfdarlar” tapır. Geyimlərini yarımçılpaqlaşdırır, saç-başlarını dərhal dəli keçiyə oxşadanlar ekranlarda nümayiş etdirilir. Sənətində heç bir yenilik olmayanlar yenilik adına, musiqi qanunlarına, şer-sənət vəznlərinə heç bir dəxli olmayan, insanların zövqünü korlayan musiqini, şeri yetkin dünyagörüşə malik olmayan “məqsəd”li sponsorların havadarlığı ilə ekrana çıxardırlar. Bir çox “yenilikçilər” xalqın üzlərinə söyməsini, başına yumurta-pomidor atmasını belə pəsinmir. Hətta ən ağsaqqal, görkəmli xadimlərimizin məsləhətindən

sonra (ekranda bunun dəfələrlə şahidiyik) stal bir həyasızlıqla ekranda daha da yer alır, daha çox çılpaqlaşırlar.

Hörmətli Hüseynbala Mirələmov da, Xalq şairi Söhrab Tahir də, jurnalist-yazıçı Nahid Hacızadə, Əjdər Fərzəli də, Firuz Mustafa, Şəmistan Nəzirli də, hətta deyərdim ki, bir çox ağsaqqal ata-ana da ekran qabağında söyüb-söylənir, ay oğul, televizoru söndür, bu üzləri batmışlar lap ağ eləyiblər deyirlər.

Lakin məndə belə bir inam var ki, gənc nəsil bəzi şeyləri dişinə vurur, tez tanınmaq, məşhurlaşmaq xatirinə saç-başını müxtəlif löyünlərə salır. Az zamanda sənətindən də, yanlış əməlindən də əl çəkir.

Bəlkə bu narahatlığı keçirməmək yaxşıdır. Aradan pərdə götürülür. Bəzi sırtıq bəndələr camaatın acığına bu gün xalqımıza nəsib olan demokratiyadan, hürriyyətdən sui-istifadə edirlər.

H.Mirələmov haqlı olaraq yazır: “Mən hiss edirəm ki, hər gün, hər saat, hər an mənəviyyatımızda aşınma gedir və biz yad təsirlərin mənəvi işğalına məruz qalırıq!” Burada söhbət gəncliyin bəzi nümayəndələrinin yad təsirlərə düşməsindən gedir. Bu ölçülər 40-50 yaşında olan insanlara şamil edilə bilməz. Ancaq yeniyetmələr və 20-25 yaş arasında yad meyllər güclü ola bilər. İnsan nisbətən yetkinləşib ailə həyatı quranda, dünyanın yaxşıyaman üzünü görəndə, şübhəsiz, yenə özünə qayıtmalıdır.

Əsli, soyu olan ailələr də belə mənfı təsirlərə qapılmağa yol verməz. Elə həyəcan təbili çalan H.Mirələmovun öz gözəl ailəsində böyüyən dörd övlad ali təhsilli gözəl mütəxəssislər, mədəni insanlardır. Yəni ailədən-ailəyə bu məsələlər müxtəlif yöndə görünə bilər.

Ali məktəblərimizdə çox ciddi, tələbkar, yüksək şəxsiyyətii müəllimlərin mühazirələri, gənclər qarşısında gündəlik söz-söhbəti də müsbət yönə tuşlanan yolun işığını artırır.

Biz tələbə olanda yolda rast gəldiyimiz müəllimlərimiz qarşısında yenə uşağa dönərdik. Əlimizdə siqaret olsa, gizləyərdik.

Orta məktəblər bu sahədə ən böyük ümid yerimizdir. Hər uşaq orta məktəb pillələrindən üzü gəncliyə doğru gedir. Belə böyük, yetkin müəllim ordumuz, gözəl təlim-tərbiyə olan yerdə inanıram ki, hələlik biz tam nagüman olmayaq. Üzeyir

Hacıbəyov, Səməd Vurğun, Yusif Məmmədəliyev, Qara Qarayev, Rəşid Behbudov yetirən xalqın övladları kiçik səhv addımlar atsa da, yadlaşa bilməz. Sazını-sözünü, muğamatını, anasının laylasını unuda bilməz.

Bu çox təqdirəlayiq bir işdir ki, yanlış addım atıb öz dilini öyrənə bilməyən insanlarda indi Azərbaycan dilini öyrənməyə, o dildə danışmağa bir məhəbbət yaranmışdır.

Bu yaxınlarda məşhur pianoçumuz Fərhad Bədəlbəyli şair Teymur Elçinin 80 illik yubiley təntənəsində çıxışında dedi: - Mən o vaxt Azərbaycan dilini yaxşı bilmirdim. Teymur müəllim mənə dedi: - Sən Bədəlbəylilərdənsən, gərək ana dilini gözəl biləsən. Cəhd elə, öyrən...

Mən həmin çıxış zamanı xat1rlad1m ki, Azərbaycan Televiziyasının gənclər üçün verilişlərinin baş redaktoru olduğum illərdə (l978-84) Fərhad müəllim redaksiyaya çıxış üçün dəvət olunmuşdu. Azərbaycanca verilişdə rus dilində danışmaq istədi. Mən redaktor kimi razılıq vermədim. O, küsüb getdi. Lakin bu gün onu, çalışıb doğma dili öyrənən Poladı və onlarca belə öz dilini öyrənən ziyalıları alqışlayıram!

***15 may 2004.***

## MİRƏLƏMOVA MƏKTUB

Hörmətli Hüseynbala müəllim! Mən hiss edirəm ki, daha çox sizin narahatlığınız televiziyaların gecə kanallarında göstərilən kriminal xronikaların, çəkişmələr üstündə baş verən cinayətlərin, paxıllıq, gözügötürməzlik, xainlik kimi mənfi xislətlərin daha çox meydana çıxması, nümayiş etdirilməsidir.

Bir az da bəzi verilişlərin aparıcılarının öz şəxsi səviyyəsindən gələn açıq-saçıqlığı, az kitab oxumuş, kamil təhsil almamalarının nəticəsi kimi efirə çıxan sərbəstliyidir.

Mənə elə gəlir ki, o insan tam sərbəst ola bilər ki, həyatın eniş-yoxuşunda, elm-ədəb yolunda xeyli sınaq görmüş olsun. Naşı adamlar çox ciddi mövzuları bəzən lağlağıya çevirir, aşağı səviyyəli insanlar da ekranda çıxış zamanı ağınabozuna baxmadan bundan istifadə edirlər.

Bir var görkəmli bir yazıçının, filosofun söhbətini dinləyəsən, həyat kredosu ilə tanış olasan, sənət, sənətkarlıq haqqında Arif Məlikovun, Lütfiyar İmanovun, yazıçı-alim Elçinin, akademik Bəkir Nəbiyevin, Rəfael Hüseynovun, Nizami Cəfərovun, Vasif Adıgözəlovun söhbətini dinləyəsən, bir də var iki-üç toy mahnısı oxuyub saç-başını eybəcər hala salan, məqsədli sponsorun hünərinə ekrana çıxmış sənət dəllallarının! İkincilər bizim yetişməkdə olan gənc nəslə nə verə bilər? Olsa-olsa onları yolundan çaşdıra bilər.

Axı onlar hələ nəyi oxuyub öyrəniblər ki, başqalarına da nə öyrədələr!

Siz məqalənizdə haqlı olaraq yazırsınız: “Azərbaycanın min illik mənəvi sərvətləri tarixi köklərin üstündə bərqərar olmaqla Şərq aləmindən bəhrələnmişdir. “Doğrudur, uzun zamanlar belə olmuşdur. İndi isə dünya qloballaşmış, şərqlilər də, elə bizim özümüz də Qərbə - Avropaya daha çox meyl edirik. Avropa standartları ilə yaşayanlar və yaşamağa can atanlar indi Azərbaycanda çoxalmışdır. Həm də Azərbaycan Avropa Şurasının üzvü olmuşdur. Deməк, Avropaya meyl təbii bir prosesdir. Lakin bu prosesdə milli mentaliteti, milli dəyərləri də unutmaq olmaz. Sınaqdan çıxmış, bütün dünyada rəğbətlə qarşılanmış mənəvi keyfiyyətlərimizə də biganə qalmaq olmaz.

Mən 1970-ci illərdə Çexoslovakiyada, Macarıstanda, Latviyada, Estoniyada olmuşam. O vaxtlar oralarda gördüyüm bir sıra ideal cəhətlər var ki, hələ Azərbaycanın ən böyük şəhərlərində bu gün də həyata keçirilməyib.

Adlarını çəkdiyim yerlərin Praqasında, Budapeştində, Riqa və Tallinində, hətta başqa kiçik şəhərlərindəgördüyüm təmizliyi hələ bu gün də Bakıda, ya başqa şəhərlərdə görmək mümkün deyil. Bu çox adi misallardır: Tallində, yaxud Riqada küçələrdə müəyyən bir şeyi satıb gedən adamlar həmin yerdən uzaqlaşanda onlar bir gül ləçəyini, bir kibrit çöpünü, siqaret kötüyünü belə yerdə qoymazdılar. Elə bilərsən ki, heç burda alver getməyib, siqaret çəkilməyib. Heç kəs zibil qabları olduğu halda yerə - asfalt üstünə bir ləməcik, bir qırnıq şey atmaz. Ancaq bizim satıcılar, həm də alıcılar buna alışmayıblar. Onlar alveri qurtarıb gedəndə iki dalandar yerin zibilini, kağız qırıntılarını, siqaret kötüklərini güclə süpürüb təmizləyirlər. Ayaq altda atılmış siqaret qutuları, xarab olmuş “zajiqalka”lar, lenti dağılmış, dinləyicinin xoşuna

gəlməyən kasetlər... və nələr, nələr ürək bulandırır. Bəs bunu yerə töküb şəhəri zibilləyənlər nə haqla özlərinə mədəni adam deyirlər. Həm də ensiz bir küçədə - çox adamlı yerdə sürətlə maşın sürənlər özlərinə nə haqla mədəni adam deməlidir.

Gözəl geyim-kecimli üç-dörd gənc (bəzən də yaşlı adam) baş-başa söhbət edib dayandığı metro qabağında, insanların gur yerində, bir də görürsən “mədəni” geyimli adam siqaretini ayağı altına atıb əzdi. Və elə eybəcər gülüş səsləri ilə ağzını qulağının dibinəcən ayırıb boş bir şeyə qəh-qəhə çəkdi.

Orta və ali məktəblərin bəzi cavanları görürsən küçədə şit zarafat edir, ağsaqqal-qarasaqqal tanımır. Avtobuslarda özlərindən yaşlı adamlara - ağbirçəklərə hörmət etməyib yerlərindən qımzanmırlar.

Bundan əlavə bir çox avtobus sürücüləri ara müğənnilərinin heç bir bədii məzmunu olmayan, keyfiyyətsiz zapis edilmiş xırıltılı - hər cür eybəcər səsə bənzədilən kasetlərlə avtobuslarda oturub gedənlərin başını ağrıdırlar. Hətta bunu irad tutanlara da hökümlü, kobud cavab verirlər. “Öz avtobusumdur, özüm bilərəm, kefım belə istəyir!” · deyə qışqırırlar.

Bəzən avtobusda oturmaq üçün yer olmamasını da nəzərə almayıb adamları avtobusa üst-üstə doldururlar.

Halbuki indi şəhərdə avtobus çoxdur. Sərnişinlər növbəti avtobuslarda da rahat gedə bilərlər!.. Dəfələrlə avtobusu saxladıb, eybəcər kasetlərin hay-küyünüdən başını tutub yarıyolda düşən adamlar görmüşəm. Sürücülər böyük bir xidmət göstərmiş kimi elələrinin arxasınca yaxşı-yaman danışıb qürrələnirlər...

Hörmətli Hüseynbala müəllim, bu məsələdə də çox haqlısınız ki, şəhərdəki bəzi təzə tikililər Bakının planlı arxitekturasını pozur. Şəhərin ahəngdar ansamblını, milli koloritini, evtikmə üslubunu gözləmir.

Əlbəttə, şəhərdə memarlıq baxımından təzə naxışlı-bəzəkli evlər də lazımdır. Ancaq bunlar qədim memarlıq binaları arasında olmamalıdır, boş sahələrdə tikilsə yaxşıdır.

Sizin də, bizim də müşahidə etdiyimiz dəhşətli nöqsanlardan biri də toylarda musiqini səsgücləndiricilərlə həddən artıq hay-küylə verilib, gözəl bir məclisin gözdən salınmasıdır. Aman Allah, bizim şadlıq saraylarında keçirilən əksər toylarda

ağız deyəni qulaq eşitmir, səs-küydən, ləzzət alacağın toydan başağrısı və əziyyətlə qayıtmalı olursan.

Ən gözəl aqilanə söylənmiş sözləri də bu hay-küy adamlarm başından çıxarır. “Toyda nə gördün, nə eşitdin, necə keçdi?” sualına hər kəsin belə bir hazır cavabı var: - Hayküy! Tamadanın dəridən-qabıqdan çıxmasını!

Hüseynbala müəllim, bunu təəssüflə deməliyəm ki, indi toyların çoxunda adamların musiqi zövqü korlanir. Pullu tamadalar toyu məruzə-şer məclisinə çevirirlər. Bu da iştah korlamaqla nəticələnir. Belə hallar bizdə artıq 20-30 ildən bəri başlayıb. “Usilitel”, “mikrofon” çıxandan bəri. Gözəl dədə-baba toyları üçün çoxlarının indi burnunun ucu göynəyır.

Mən bir dəfə bir hay-küylü toydan şikayət tərzi ilə yazdığım bu şerimə görə tamada dostlarım məndən küsüb incimişlər. Deyirdilər: Qoymazsınız çörəyimizi qazanaq!

*Toylardan qaçıram, - görməyim deyə*
*Pullu tamadanın sırtıq üzünü.*
*Həsrətəm səmimi söz eşitməyə,*
*Görməyə insanın birüzlüsünü...*

Məqaləninin “Kredo” qəzetinin keçən sayında qeyd etdiyim kimi H.Mirələmovun “Mənəviyyatın ekologiyası, yaxud iki od arasında” adlı “həyəcan təbili” daha bir sıra publisistik yazıların və şerlərin də meydana çıxmasına səbəb oldu.

Bu müzakirəyə baş redaktoru olduğu “Kredo” qəzetində yer verən Əli Rza Xələflinin “Bir yuxu görmüşəm” şerində - feodal dövrünün Azərbaycanın başına gətirdiyi bəlalar bir daha yada salınır.

Yuxu şəklində ruhların gəlməsi Vətənin bu günündə birliyə çağırış andı kimi səslənir. Bu o deməkdir ki, mənəvi ekologiyamızm pozulmasında şerimizin də üzərinə məsuliyyət düşür.

*Bu necə yuxudu - zaman səddi yox,*
*Cavanşir dünəndən bu günə gəlir!*
*Bu necə yuxudu - məkan həddi yox,*
*Min illik yolları bir günə gəlir!*

*Xətai çağırır qızılbaşları,*
*Xürrəmidinlərə Babək hay vurub!*
*Bu xalqın başına düşən daşlara*
*Atabəy Məhəmməd bir divan qurub!..*

*Ruhlar bir-birilə necə danışır,*
*Qılınc sözdən alır xeyir-duanı.*
*Şair hökmdarla burda yanaşı;*
*Tarix salamlayar bunu duyanı!*

*Bu ruhlar yığışıb fərman verirlər,*
*Didişmə-çəkişmə bu gündən bitir.*
*Dirilər, fərmanı dərman verirlər,*
*Arzuma çatmaqla yuxum da itir.*

***

Biz Sumqayıtın 14 saylı və İsmət Qayıbov adına 1 saylı məktəbində keçirilən görüşdən çox məmnun olduq. O məktəblərin şagirdləri həm sizin, həm də bizim görmək istədiyimiz milli ənənələr əsasında düzgün təhsil alırlar. Onların "Savalan" qəzeti redaksiyası əməkdaşları və hörmətli alimimiz, biologiya elmləri doktoru, professor Qara Mustafayevlə görüşlərindəki məzmunlu və sərbəst çıxışları, söylədikləri şerlər, oxuduqları mahnılar bu mənəvi keyfiyyətdən xəbər verirdi. Bir çox məktəblərimizdə müəllimlər şagirdlərin əsl vətəndaş kimi yetişməsi üçün çox ciddi çalışırlar. Bunları qiymətləndirməmək insafsızlıq olardı. Həmin məktəblərdə

şagirdlərin geyimləri, ədəb-ərkanı, davranışları da fərqlənirdi. Bu, o deməkdir ki, mənəvi borc Azərbaycanın müəllim ordusu tərəfindən unudulmayıb, belə gözəl keyfiyyətləri Şəmkir, Gədəbəy rayonlarının məktəblərində də görmüşəm.

Dərdlərdən, özü də mənəvi dərdlərdən biri budur ki, bəzi cavanlar, "kitab yoxdur" - deyə kitabı oxumurlar. Halbuki, Azərbaycanın şeri, nəsri, nağılı, dastanı müdriklik xəzinəsidir. Heç uzağa getməyək, təkcə XIX yüzillikdə yetişmiş Ələsgər bəsdir - nə qədər hikmətli mənaları öyrənməyə.

Buna da çox təəssüf edilməlidir ki, indi bizim respublikamızda pislik etməkdən, qan qaraltmaqdan zövq alan, hətta nazir səviyyəsinə qədər yüksələn insanlar da çoxdur. Mən belə bir nazir tanıyıram ki, Azərbaycanın ən görkəmli adamları ona nifrət edir. Belə xəbis, xain, qara ürəkli qərəzkarlar da əsl istedadlara mane olur. Ona xeyir verən bir "qarmonçu" görkəmli bir bəstəkardan, sənət korifeyindən üstün olur.

Təəssüf ki, belə hallar da mədəni-mənəvi dünyamıza, yetişməkdə olan güclü istedadlara mənfi təsir edir. Onları ruhdan salır. Üzlülər, zəif istedadları olanlar daha çox meydan sulayırlar. Bu da bugünkü mənəvi ekologiyamızın doğru yolunu çaşdırır.

Bir ehtiyac da duyulur ki, son dərəcə dünyagörüşlü, yüksək intellektli şəxsiyyətlər haqqında məsələn, Səməd Vurğun, Yusif Məmmədəliyev, Xudu Məmmədov, Adil Əfəndiyev, Mir Cəlal, akademik Həsən Əliyev, Bağır Seyidzadə, Məmməd Cəfər, Qoşqar Əhmədli, Mehdi Mehdizadə kimi istedadlara qolqanad verən insanlar haqqında, televiziya ekranlarında geniş söhbətlər aparmaq gənclər üçün nə qədər faydalı ola bilər!

Pislik etməkdən zövq alan qısqanc adamlar xalqa da, onun istedadına da fayda verə bilməz!

***22 may 2004***

## YAZIÇI SÖZÜNƏ EHTİYAC VAR

***Elçin KAMAL***

İndi sərhədlər açıqdır. Avropa ölkələrinə, Amerika və digər xarici ölkələrə gedib-gəlmək su içimidir. Əlbəttə, imkanlı adamlar üçün. Eləcə də sərhədlərin açıq

olması imkan verir ki, müstəqillik qazanmış respublikamız bir sıra xarici ölkələrlə iqtisadi, siyasi və mədəni əlaqələr qura bilsin. Artıq həmin ölkələrlə alış-veriş edirik, bazar və dükanlarımız əcnəbilərin yeyinti məhsulları və sənaye malları ilə ağzınacan doludur. Buna pis baxmırıq. Özündə yoxdursa, başqalarından pul verib almalısan. Eyni zamanda özündə artıq olanı da başqasına verməlisən. Məsələ burasındadır ki, ölkəmizə təkcə xarici ticarət məhsulları idxal olunmur, bununla yanaşı, əcnəbi mənəvi dəyərlər də idxal olunur və mənəviyyatımızı bu yad təsirlər aşınmaya məruz qoyur. Məni isə narahat edən budur. Bu barədə az-çox ürəyimdən keçənləri yazmağa çalışmışam. Ancaq bu dəfə məni bu mövzuda bir daha yazmağa məcbur edən yazıçı-publisist Hüseynbala Mirələmovun "Kredo"da (24 aprel 2004-cü il, N-33-34(203-204)) çap olunmuş "Mənəviyyatın ekologiyası, yaxud iki od arasında" adlı publisistik düşüncələri oldu. Günümüzün reallığını əks etdirən bu məqalə yazıçı qəlbinin döyüntüləridir. Mən bu döyüntülərə ağrıya-ağrıya qulaq asdım. H.Mırələmov yazır: "Azərbaycan müharibədən çıxmayıb, hələ torpaqları işğal altındadır. Sadəcə təmas xəttində nisbi sakitlikdir. Ancaq məndə bir əminlik var ki, biz torpaqlarımızı erməni faşistlərinin işğalından azad edəcəyik. Tarixən əksər xalqlara qarşı ədalətsizliklər olub və gec-tez həmin xalq qanı bahasına olsa belə, haqqını qaytarmışdır. Mən daha təhlükəli müharibə haqqında danışmaq istəyirəm. Bu, mənəviyyatımızda gedən müharibədir. Mən hiss edirəm ki, hər gün, hər saat, hər an mənəviyyatımızda aşınma gedir və biz yad təsirlərin mənəvi işğalına məruz qalırıq..." Bu, danılmaz həqiqətdir, nə qədər acı olsa belə. Yaxşı yadımdadır, H.Mirələmov təqribən 5-6 il bundan qabaq deyirdi ki, belə olmaz, mənəviyyatımızda çatlar yaranıb. Bunu o zaman demişdi ki, hələ onda yad mənəvi dəyərlər beynimizi işğal eləməmişdi. İndi o mənəvi çatlar "mənəvi yarğanlarla" əvəz olunub. Bu həqiqəti, bu ağrını Hüseynbala Mirələmovun hər cümləsində, hər sətrində duymaq olur. Bax məni kədərləndirən budur. İstər-istəməz içimdə belə bir sual gəzib-dolaşır: "Görəsən, babalarımızdan bizə miras qalan adət-ənənələrimizi, əxlaqi dəyərlərimizi nə üçün qoruyub saxlamırıq, fələyin badına veririk? "Bu sual məni rahat buraxmır və cavab tapa bilmədiyimə görə yenə də kədərlənirəm. Ancaq boynuma alıram ki, H.Mirələmovun "Mənəviyyatın ekologiyası, yaxud iki od arasında" publisistik düşüncələri həm də məni sevindirdi.

Sevindirdi ona görə ki, yad təsirlərin mənəvi işğalına məruz qaldığımız bir zamanda Azərbaycanın üzdə olan, tanınmış ziyalılarından biri buna biganə qalmır, dözməyib ürəyinə yığılanları heç olmasa, kağıza "boşaldır". Çünki yazıçı demişkən: "Söz silahdır. Özü də ən qüdrətli silah. Bu gün yazıçıların kəsərli sözünə, birbaşa sözünə, açıq sözünə cəmiyyətin ehtiyacı var. Qəlbində vətəndaşlıq yanğısı olmayanlar günümüzün reallıqlarına biganə qala bilər". Bir də sevindim ona görə ki, H.Mirələmovun bu məqaləsi təsirsiz ötüşmədi, əks-səda doğura bildi. Bir çox qələm adamlarının müzakirə obyekti oldu. Bəli, Hüseynbala müəllim sözünü dedi, onun ardınca yazıçı-tədqiqatçı Əjdər Fərzəli və Xalq şairi Söhrab Tahir sözlərini dedilər və çox istərdim ki, başqa tanınmış söz sahiblərimiz də sözlərini desinlər. Çünki onların sözünə cəmiyyətimizin böyük ehtiyacı var. Biz elə bir xalqıq ki, həmişə böyüklərin dediyi ilə oturub-durmuşuq, ən çətin, ağrılı məqamlarda yazıçı və şairlərimizin sözünü çevirib iki eləməmişik. Onların arzu və istəkləri xalqın arzu və istəklərini ifadə edib. Necə ki, H.Mirələmovun istəyi elə hər bir azərbaycanlının istəyidir... "Mən istəyirəm ki, Azərbaycanda hər hansı bir memarlıq abidəsi tarixi köklərə, ənənələrə söykənsin, Azərbaycana gələn hər hansı bir qonaq önündə dayanıb baxdığı abidədən hansı ölkədə olduğunu, hansı xalqın arasında dayanmasını dərk eləsin..."

Hər bir millətin mentaliteti olur və buna görə də digər millətlər içərisində seçilir. Fikir vermisinizmi, ömrünü qürbətdə yaşayan bir azərbaycanlı qayıdıb gələndə onda millilikdən əsər-əlamət qalmır; yerişini-duruşunu, hətta sözünü belə dəyişir. Hər bir millətin özünəməxsus memarlıq abidələri, adətənənələri, əxlaq ölçüləri, məişəti və s. olur ki, əgər bunları onun əlindən alsaq, milliliyini itirər. Bakı Azərbaycanın və azərbaycanlıların baş şəhəridir. Təəssüf ki, paytaxtımızda gedən tikililər milli memarlığımıza bir qədər uyğun gəlmir. Bizim qədim şəhərsalma tariximiz var. Şəhər təkcə torpağın üstündə salınmır, eyni zamanda torpağın altında da salınır. Günü-gündən çoxalan hündür binaların tikintisini alqışlamaq lazımdır. Ancaq bu tikinti yaşıllıqların hesabına getməməlidir. Köhnə evlər üçün nəzərdə tutulmuş kanalizasiya sökülüb yeni binalara uyğunlaşdırılmalıdır. Heç olmasa, köhnə evləri kölgədə qoyan çoxmərtəbəlilərin həndəvərində yaşıllıqlar salınmalı, uşaq bağçaları və məktəblər tikilməlidir. Mən memar olmasam da, gələcəkdə bizi haqlayan

ağrını indidən görürəm. Ancaq ən qorxulusu odur ki, tikinti zamanı Avropa memarlığına üstünlük veririk. Hətta evlərimizi də Avropa üslubunda təmir etdirib, qapımıza da Avropa qapıları asırıq. Düzdür, Avropaya qapı açmışıq. İstəsək də, istəməsək də Avropadan nəyisə götürməliyik. Ancaq bir şərtlə ki, özümüzünkünü itirməyək. Sözümə söykək çıxsın deyə, O.N.Topbaşın "Mövlana dərgahından əsintilər" kitabından oxuduğum bir parçanı nəzərinizə çatdırmaq istəyirəm: "...Məlumdur ki, II Bəyazid dövrü Osmanlı mədəniyyətinin təməllərinin atıldığı dövrdür. Elə o dövrdə məşhur İtaliya rəssamı Leonardo de Vinçe II Bəyazidə məktub göndərir. Məktubda yazır ki, mən İstanbulda came və digər memarlıq abidələrinin layihəsini işləmək istəyirəm. Bütün saray əhli sevinc içərisindədir; zarafat deyil, o boyda rəssam İstambulu tikəcək. II Bəyazid isə yanındakıları məyus edir. O, deyir ki, biz buna razı ola bilmərik, çünki belə olsa, ölkəmizdə kilsə memarlığı hakim olacaq, onda biz Şərq–islami memarlığımızı inkişaf elətdirə bilməyəcəyik..."

Doğrudan da, ağıl buna deyirlər. Milli ornamentlərlə zəngin olan binalarımız çoxdur. Ölkəmizə gələn qonaqlar elə bu binalara görə bizi tanıyırlar. Avropa memarlıq üslubunda olan binalar isə onlarda çoxdur və onların gözlərini döyənək edib. Axı biz Şərq ölkəsiyik. İndi bərk-bərk vurulduğumuz Avropa həmişə Şərq təfəkküründən faydalanıb.

Ərəb ölkələrində çadraya xüsusi meyl var. Biz isə çadranı atıb "Azad qadın" heykəli yaratdıq. Bədbəxtliyimiz isə elə o vaxtdan başladı. Həmin azad qadınlar yazıçı-publisist Sahib Abdullayevin yazdığı kimi, evə qonaq çağırmağa başladılar. Ərəb ölkələrində yetkinlik yaşına çatan qızlara çadra almağı toy·bayram kimi qeyd edirlər. Çadranı qızın isməti kimi qiymətləndirirlər. Bəlkə də, mən mühafizəkarlıq edirəm. Ancaq bu günkü qızların bu qədər açıq-saçıq geyindiyini görəndə nədənsə çadra yadıma düşür. Kişi və qadın geyimləri arasında fərq itib. Elə bu fərq kişi və qadınlar arasında da itib. Kişilər də (yaxşı ki, bunların sayı azdır) saçını boyayır, gözünə "linza" qoydurur, manikürə, pedikürə gedir, qadınlar da.

Bu günlərdə bir dostumla "Elmlər Akademiyası" metrosunun yanında dayanmışdıq. Dostum dedi:

- Sənə bir "anekdot" deyim?

- Bəli!

O, universitetə gedən uşaqları əli ilə göstərib dedi: - Bunlar elə bilirlər ki, oxumağa gedirlər. Dostumun dillənmədiyini görüb soruşdum:

- Qurtardın?

- Hə!

Doğrudan da, ağır “anektod”dur. Bu günlərdə iki tələbə qızdan eşitdiyim söhbət onların necə “oxumaları” barədə təsəvvür yaradır. Onların söhbətlərindən mənə aydın oldu ki, indi oxumaq istəyənlərə birtəhər baxırlar. Qiymət almaq üçün ya pul verməlisən, ya da fənn müəlliminin kitabından birini almalısan...

İndi kəndlərimizdə elə məktəblər var ki, onların işi Allaha qalıb. Müəllimlər və şagirdlər sinif otaqlarında yox, örüşdə görüşüb siqaret mübadiləsi edirlər. Kəndlərdəki kitabxanaları hörümçək toru basıb. Ancaq vaxt varıydı ki, kitablar bizim üçün əyləncə vasitəsiydi. Kitablarla yatıb-durardıq. Televizor hər birimizin evində var və səhərdən axşamadək bu məişət cihazının qabağındayıq. Televiziya ilə bütün dünyanı evimizə gətiririk. O dünyanın içində isə hər şey var. Qəddarlıq təbliğ edən kinolar da, açıq-saçıq səhnələr də. Dərd də burasındadır ki, ağlımıza sığışdıra bilmədiyimiz səhnələr günün günorta çağı göstərilir. Bir nəfər həmkarım danışırdı ki, televizora baxırdım. Təbii ki, ailəliklə. Birdən öpüşmə səhnəsi göstərdilər. Balaca oğlum soruşdu ki, ata, onlar nə edirlər? Qaldım, mat-məəttəl. Yalandan dedim ki, oğlum, qızın ürəyi gedib, oğlan ona nəfəs verir.

Televiziya ekranlarında yayımlanan reklamlar isə lap biabırçıdır. Sadəcə baxmağa xəcalət çəkirsən. Məgər buna nəzarət etmək olmazmı? Yaxud da məzmunsuz klipləri, çılım-çılpaq, “qışqıran müğənni”lərin ekranlara gedən yolunu kəsmək olmazmı? Əlbəttə, olar. Elə biz də bunu istəyirik. Bu gün televiziya uşaqların tərbiyəsində mühüm rol oynayır. Buna görə də televiziya verilişlərinin keyfiyyətinə diqqət yetirilməlidir. Reklamlarm hazırlanmasında və kinolarda milli adət-ənənələrimiz unudulmamalıdır. Axı hər şeyi pula qurban vermək olmaz. Pulu her zaman qazanmaq mümkündür. İtmiş mənəviyyatı qaytarmaq isə çox çətindir. Mən isə mənəviyyatımızın işğalının kökünü televiziyada görürəm. Gördüyüm üçün isə susa

bilmirəm. Çünki ağzımıza su alıb durduqca, boyatıyıb zəhrimara dönür və mənəviyyatımız çirklənir. Nə qədər ki, belə davam edəcək, milli simamızı itirəcəyik.

Axırda mən yazıçı H.Mirələmova belə bir mövzunu gündəmə gətirdiyinə görə təşəkkür edirəm. Çünki mənəvi eybəcərliyi, əxlaqsızlığı, üstümüzə yeriyən mənəvi işğalı görüb susduqca, millətimizin səsini eşidə bilməyəcəyik.

***15 may 2004.***

## MƏNƏVİYYATI İTİRMƏK FACİƏDİR

***Nahid HACIZADƏ***

“Yazıçı dostum, hardasan, danış! Mən səni eşitmək istəyirəm! Bəlkə, nəyisə düz demədim?”

Qələm dostumuz Hüseynbala Mirələmovun bizə - öz həmkarlarına bu səmimi, ürəkdən gələn müraciətini oxuyanda qəlbim yerindən oynadı. Qələm götürmək istədim. Ancaq xeyli düşünməli oldum. “Kredo”nun ötən saylarında şair və yazıçılarımızdan Söhrab Tahir, İlyas Tapdıq, Əjdər Fərzəli, Elçin Kamal onun səsinə səs verdilər, bu mövzu ətrafında ürək yanğısı ilə söz açdılar.

Onların bir çox fikirləri, qaldırdıqları problemlər mənim də ürəyimdən xəbər verdi.

Vətəndaşlıq mövqeyi, dəst-xəttilə seçilən, milli-mənəvi dəyərlərimizin təbliğində dönməz mövqe tutan, öz səhifələrində xalqımızın inam və etibarını qazanmış elm və mədəniyyət xadimlərinə geniş meydan verən “Kredo”nun belə vacibdən vacib mövzu ətrafında müzakirəyə başlaması təqdirə, alqışa layiqdir.

Yazıçı Hüseynbala Mirələmov son illərdə respublikamızda baş verən ictimai-siyasi hadisələrə, təbəddülatlara öz publisistikasında, nəsr və dramaturgiyasında çox həssaslıqla yer verən söz adamlarından biridir. Onun Qarabağ müharibəsinə həsr olunmuş “Xəcalət”, “Güllələnmiş heykəllərin fəryadı” povestləri, “Vicdanın hökmü” pyesi, silsilə hekayələri, publisist yazıları geniş əks-səda doğurmuşdur.

Biz taleyimizin, tariximizin çətin sınaqlara çəkildiyi bir vaxtda yaşayırıq. Ellərimiz, elatlarımız düşmən tapdağındadır. Torpaqlarımızın yaralarından qan sızır, ürəklərimiz qan ağlayır.

Belə bir vaxtda dərdli ürəklərimizin səsini bir-birinə qoşaraq:

Zaman ağır zamandı,
Güman axır gümandı,
Dost baxır, düşmən baxır,
Möhkəm dayan, amandı,
Amandı, Azərbaycan! - deyirik.

Biz gələcəyə ümidlə, inamla baxırıq. İnanırıq ki, çox çəkməyəcək torpaqlarımızın ərşə dayanan ahı-amanı, göyləri yandıran fəryadı qələbə fişənglərinin qövsü-qüzehində eşidilməz olacaq, köç yolları geri dönəcək, Araz boyunda, Həkərinin, Bərgüşadın sahillərində toy-büsat başlayacaq, Şuşa, Laçın, Kəlbəcər dağları qol-qola verib yallı gedəcək.

Yazıçı Hüseynbala Mirələmov da öz düşüncələrinə bu f1kirlə, bu inamla başlayır: “Azərbaycan müharibədən çıxmayıb, hələ torpaqlar işğal altındadır. Sadəcə təmas xəttində nisbi sakitlikdir. Ancaq məndə bir əminlik var ki, biz torpaq· larımızı erməni faşistlərinin işğalından azad edəcəyik. Tarixdə əksər xalqlara qarşı ədalətsizliklər olub və gec-tez həmin xalq öz haqqını qanı bahasına olsa belə, qaytarmışdır. Mən daha təhlükəli müharibə haqqında danışmaq istəyirəm. Bu, mənəviyyatımızda gedən müharibədir. Mən hiss edirəm ki, hər gün, hər saat, hər an mənəviyyatımızda aşınma gedir və biz yad təsirlərin mənəvi işğalına məruz qalırıq”. Müəllif mənəvi aləmdə gedən, dərinliklərə rişə atan mənəvi aşınmanı - erroziyanı dayandırmaq üçün, onun qarşısını almaq üçün həyəcan təbili çalır və sözü köməyə çağırır. Təbii ki, bu da ulu ənənədən gəlir - Nizami, Xaqani, Nəsimi, Füzuli, Sabir, Mirzə Cəlil, Səməd Vurğun ənənələrindən.

Böyük Mirzə Cəlil yazırdı: “Qələmin müqəddəs vəzifəsi xalqın xoşbəxtliyi yolunda xidmət etməkdir. Bu gərək ola hər bir qələm sahibinin amalı”.

Yazıçı Hüseynbala Mirələmovun dedikləri bu müdrik fıkrə söykənir, onunla həmahəng səslənir: “Söz silahdır. Özü də ən qüdrətli silah. Bu gün yazıçıların kəsərli sözünə, birbaşa sözünə, açıq sözünə cəmiyyətin ehtiyacı var. Qəlbində vətəndaşlıq yanğısı olmayanlar günümüzün reallıqlarına biganə qala bilər. Ancaq unutmayaq ki, vətəndaşlıq yanğısı cəmiyyətin övladı olan yazıçının mənəvi pasportudur. Bundan

imtina edən yazıçı vətəninin, xalqının oğlu deyil. Yaxud o, artıq özünün mənəvi kökləri ilə onu böyüdən, onu tanıyan, qəbul edən xalqdan çoxdan ayrılmışdır. Onlar artıq özlərini dəfn etmişlər".

Əlbəttə, vətəndaşlıq yanğısı bütün zamanlarda yazıçının ürəyini məşələ döndərib. Sənətkar qəlbi həmişə işıq saçıb, insanları saflığa, duruluğa, xeyirxah əməllərə çağırıb. Bu gün də belədir, sabah da belə olacaq.

Ancaq indi söz elə bil hardasa korşalıb, kəsərini itirib, eloziyaya uğrayıb.

Qələm naşı əllərə düşəndə yazıq söz neyləsin? Söz azadlığını astar üzündən başa düşən bəzi qəzetçilər hədyan üyüdür, böhtan, çirkab yağışı yağdırır. Belə olanda söz ayaqlar altına düşür, tapdanır. İlahi, bu qədər də rəzalət olarmı?

Hardandır bu qədər kəmfürsət, başkəsən, cibəgirən, zavallı qələmi özünə qalxan eləyib, çəyirtkə kimi idarə və müəssisələrə daraşan üzdəniraq müxbirlər? Onlara adamın müxbir deməyə də dili gəlmir.

Çox ağrılıdır ki, həqiqi jurnalistlər, söz-sənət adamları bu boz-bulanıq axının içində yetərincə boy verib, boylana bilmir. Yaşadığımız günlərin çətinlikləri yazıçıları küncə, dalana sıxıb. Onlar sözlərini gur səslə deyə bilmirlər. Belə olanda da sözün, sənətin işığı azalır, faciəsi başlayır. Bunun da zərbəsi ilk növbədə mənəviyyata dəyir və yenə də xalq ziyan çəkir.

Ölməz Səməd Vurğun deyirdi:

*Bizdə şer də var, sənət də vardır,*
*Şerə, sənətə hörmət də vardır!*

Şerə, sənətə o ulu, azman hörməti qaytara bilməsək, çox fəlakətlər, faciələr ayaq alıb üstümüzə yeriyəcək.

Biz düşmənlə göz-gözə, üz-üzəyik. Düşmənə nifrətimizi, qələbə əzmimizi həmişə ovxarda saxlamalıyıq.

Ancaq biz nə görürük? Bu boyda Bakını qarış-qarış gəzsən, heç yerdə çağırış ruhunda, düşmənə nifrət ruhunda bircə dənə də şüar, plakat görmək çətindir. Bu nə deməkdir? Bu, bizi hara aparır?

Ancaq bunun əvəzində cərgə-cərgə şadlıq sarayları, restoranlar, əyləncə mərkəzləri, barlar, kafelər sərgisi gözü döyənək eləyir. Bunlara da itirilmiş yurd

yerlərimizin, şəhərlərin, müqəddəs saydığımız, bir zaman səcdəsinə getdiyimiz guşələrin, bağların, bulaqların adlarını veririk. Bir baxın: “Laçın dəhlizi”, “Şəhri-Şuşa”, “Xan bağı", “Xarıbülbül”:

Arzu edərdik ki, xalqımız fıravan yaşasın, şadlıq evlərimizin də, istirahət guşələrimizin də çayı, çeşidi bundan da çox olsun! Buna yalnız və yalnız sevinərik. Ancaq acı bir həqiqət də var: bu gün xalqımızın bir gözü gülür, bir gözü aglayır. Ona görə də “Xarıbülbül”də “Qarabağ şikəstəsi”, “Şuşanın dağları” oxutdura-oxutdura atılıb-düşmək başucalığı gətirmir. Bu heç bir ədəb-ərkana da sığışmır.

Biz öz qədimdən-qədim yurdumuzla, tariximizlə, mədəniyyətmizlə, dilimizlə öyünür, bundan qürur duyuruq. Bu torpağın övladı olmaq hər birimiz üçün həqiqətən də böyük fəxarətdir.

Azərbaycan unikal bir ölkədir. Məmləkətimiz ta qədimlərdən təbii gözəlliklərilə, sərvətlərilə dünyada tanınıb, şöhrət qazanıb. Azərbaycan qonaqpərvərliyi dildə-ağızda gəzir. Bu diyarı bir görən, bir də görüm deyir.

Sərhədlər açılıb, əlaqələr durmadan genişlənir, ölkələr bir-birilə yaxınlaşır. Avropa və Şərq sivilizasiyası bir-birinə qovuşur.

Təbii ki, bu, zamanın, dövrün tələbidir. Belə də olmalıdır. Ancaq biz hər addımı atanda yüz ölçüb, bir biçməliyik. Qələm dostlarına üz tutan yazıçı Hüseynbala Mirələmov bununla bağlı öz nigarançılığını, təşvişini gizlətmir. O yazır: “Azərbaycan İpək Yolunun üstündədir. İpək Yolu ilə Azərbaycan iqtisadiyyatının dirçəlişinə təkan verə biləcək imkanlar gəlir. Ancaq İpək Yolunun üstündə olmaq həm də o deməkdir ki, bu yolla mənəviyyatımıza yad təsirlər, daha qorxulu meyllər də yol aça bilər”.

Müəllif haqlıdır. Biz bu nigarançılığın, təşvişin ilk sımptomlarım, işartılarını indidən görürük. Bu, geniş bir söhbətin, təhlilin mövzusudur.

Bu müzakirənin hüdudlarına sığışmayan ağrılı məsəıəıər ürəyimizi göynədən dərdlər çoxdur.

Könül küsdürən, ürək dağlayan, təəssüf və təəccüb doğuran hadisələrlə rastlaşdıqca qəlbimiz göynəyir, ruhumuz od tutub alovlanır. Düşünürük: “Axı bu niyə belə olur? Axı bunlar bizə yaddı?”

Ancaq neyləməli? Həyat - həyatdır. Reallıqdan, həqiqətdən qaça bilmərik. Belədir yaşadığımız günlərin mənzərəsi.

Həkim ölüm pəncəsində çırpınan, ondan imdad diləyən xəstə ilə qonorar davası eləyirsə, onda yazıqlar olsun Hippokrata da, onun andına da!

Müəllim heç bir savad, bilik verməyə-verməyə şagirddən, tələbədən nəsə umursa, vay bizim halımıza! Belə müəllimlərlə biz uzaq gedə bilərikmi?

Əgər hakim nəfsinin qulu olub, haqqın başından basır, nahaqqa qəhmər durursa, ədalətin tərəzisinin gözü əyilir, insanın içində inam ölür.

Varlı-karlı övladlar öz ata-analarını aparıb “Qocalar evi”nin bir küncünə atırsa, qayıdıb öz evində rahatca yatırsa, bu, dəhşətdir!

Oğul ataya, anaya, bacı-qardaşa əl qaldırırsa, onların qatili olursa, demək dünyanın axın çatıb!

Riya, böhtan, şantaj, satqınlıq ayaq tutub yeriyirsə, kimlərsə bu yolnan çeşid-çeşid vəzifələrə dırmaşaraq ölkənin sərvətlərini çapıb-talayırsa, Yerdə inam öləziyir, göydə Günəşin, Ayın işığı.

Bunlar hamısı mənəviyyatla bağlıdır. Kamil insan heç vədə belə bəd əməllərə yol verməz. Çünki insan bəşər övladıdır.

Dağlar, düzənlər, meşələr eroziyaya uğrayanda, dənizlər, göllər, çaylar çirklənəndə, təbiət bizə köntöy baxır, üz döndərir bizdən.

Bəlkə də mənəvi aşınmanın vurduğu zərbələri onunla müqayisə etmək belə çətindir. Çünki zaman keçdikcə dağların, düzənlərin, meşələrin, dənizlərin, çayların, göllərin könlünü alır, onları yenidən sevincə qovuşdurur, öz ahəngi, nəğməsi üstündə kökləyə bilirik.

Mənəvi aşınmanın ağrı-acıları isə gec gedir, zaman-zaman ürəkləri də yandırır, yaddaşları da:

Öz kökündən, keçmişindən, mənəviyyatından uzaqlaşmaq - öz əlinlə əcəl zəngini çalmaq deməkdir.

Mənəviyyat - hər şeydən öncə ulularımızın bizə öyüd-nəsihəti, söz yadigarı, əmanətidir. “Əmanətə xəyanət olmaz” · deyib müdriklərimiz.

Mənəviyyat - yaddaşdır. Böyük qırğız yazıçısı Çingiz Aytmatovun dili ilə desək, yaddaş qurtaran yerdə manqurtluq başlayır.

Mənəviyyat əbədi qoruqdur - milli dəyərimizin qoruğu! Biz ona yad nəfəsi dəyməyə qoymamalıyıq!

Ulularımızdan bizə miras qalan dürlü-dürlü ədəb-ərkanı və onun cəmindən yaranmış şah əsəri - xalqımızın “Milli dəyərlər konstitusiyası”nı göz bəbəyimiz kimi qoruya-qoruya gələcək nəsillərə əmanət verməliyik!

İnsan - bütün yaranmışların əşrəfidir. İnsanı insan eləyən nə sərvət, nə şöhrətdir. Vətən, xalq qarşısında təmənnasız övladlıq borcunu yerinə yetirmək onun mənəvi ucalığıdır.

Mənəviyyat qurtaran yerdə insan da, insanlıq da şam kimi öləziyib gedir. Bu, amansız həqiqətdir, bütün zamanların, sivilizasiyalarm əbədiyyətə üz tutan qanunudur, ölməz, sönməz, dönməz qanunu!

***27 may 2004***

## BAKIM, SABAHIN XEYİR!

***Eldar Səfa ŞAHVƏLƏDLİ***

***İcazət olmasa hərgiz, cahan içrə bəla gəzməz. (Seyid Nigari)***

***Bakının gerbində üç alov dilli məşəl şölə çəkir. Hər üç məşəlin alov dilləri zaman-zaman şöləlləndikcə “Allah, Allah” ifadəsi zikr olunur...***

***Elbrus Səfaoğlu***

Bakı sözündəki “ı”-nı heç cürə qəbul edə bilmirəm. Bu şəhərin adı Baki kimi qəlbimdə qərarlaşıb. Doğulduğum bu şəhəri zaman-zaman və hər zaman sevmişəm...

Peyğəmbərimiz (s.ə.s.) nə gözəl buyurmuşdur: “Vətən sevgisi imandandır!”

Millətin, elin, elatın yuvası Vətəndir. Fərdin ev itirməsinə bir təhər dözmək olar, amma millətin, elin Vətən itirməsi bütün bəşəri xoşbəxtlikləri itirmək deməkdir.

Bu dünyadan köçməklə də. Vətən əldən çıxmaz. Altında yatırkən də bizimdir yerin üstü!

Vətən övladının mənəviyyatı zəngin olduqca siması, sifəti də öz yerində olur. Mənəviyyatın ekologiyası - fəzası pozulduqda həyat normalarının harmoniyası da tarazlığını itirir.

...Kəpəzin göz yaşlarından yaranmış, ilahinin qüdrətindən pay almış, Azərbaycanın füsunkar gözəli Göygölü hamımız sevirik. Və o qədər dəhşətlə sevdik ki, Göygölün ətrafını viranəliyə çevirdik, nə yaxşı ki, qadağa qoyuldu...

Üz tutduq Şuşaya, Damcılı bulağa... bizdən sonra üfunət qoxuyan, xarabalıqları andıran mənzərələr qaldı. Bu yay fəsli o dilbər guşənin səfasını sürüb, gələn yaya kimi unudurduq. Ayaqaltı, tapdaqaltı elədiyimiz yerlərin ürəyinə xal salırıq... Bəlkə də Şuşa (və digər yerlər) doğma oğullarının çirkin əməllərinə, biganəliklərinə, ögeyliklərinə görə düşmənə təslim edildi. Üzü dönük oğullarından qisas almaq istədi, onları qandırmaq və yandırmaq istədi... Dönüklərin halma heç təfavüt eləmədi... Üz tutdular respublikanın digər görümlü, baxımlı yerlərinə; Pirqulu, Altıağac, Çuxuryurd, Məlhəm, Alçalı pir yaylasına. Nə sirdisə, ayaqları dəyən yerlərdə yüz il ot bitmir, tüstüsü göylərə bülənd olur... Kor qoydular o müqəddəs yerləri də. “Koroğlu”, “Qarabağ”, “Dəmirçi”, “Laçın”, “Ağbaba”, “Qaçaq Nəbi”, “Turşsu”, “Alagöz” kimi yüzlərlə kafe, bar və restoranlar yapdılar. Nağd Şuşa qalasını qoyub, nisyə Şuşa qalası yaratmağa cəhd göstərdilər. Vətən manqala qoyulmuş ciyər kimi sızıldamaq da, göynəməkdədir... Cariyələr saqi dolandır. Haram halala qarışır. İnsanın varlığını təəssüf hissi çuğlayır. Vətənin hirsdən qurum bağlamış içi korun-korun inildəyir. Bu hirsin külü insanın ürəyinə hopur. Göz yaşının külü ürəklərə hopduğu kimi.

Mənəviyyatın ekologiyası pozulanda həyatın bütün sahələrinə sirayət edir, iyrənc, qaba bir formada bu və ya digər yerdən vurub çıxır... Toylarm nə dadı qalıb ki?!

Musiqilərimiz, muğamlarımız, xalq mahnılarımızda öz abrına qısılıb qalıb. “Təzə, seçmə” muğamlarımız daşı da ağladır: “Qardaş segahı”, “Ana segahı”, “Ata segahı”, “Ya Həzrət Abbas” və s.

Hüzr yerlərində molla sifarişi göndərirlər: bir Yasin oxu gedək. Yasin oxunur, oturanlar öz aralarında, başlayırlar söhbətə... Orucluq da beləcə, namaz da beləcə adiləşir. Həcc ziyarətinə titul üçün gedənlər də bir başqa cürə... Axı Həcc ziyarəti dəb üçün deyil, borcdur, borc!!

Süfrə üstündə söyüşənlər, yer üstündə, "zakaz" üstə döyüşənlər, əyişənlər, didişənlər hər addımda adamın ayağının altından çıxırlar. Axtarmaqla deyil ki... Küçələrdə, QAZellərdə, avtobuslarda, yalnız adı qalmış toylarda sevgi adıyla oxunan-zarman, camaatın mənəviyyatını işğal edib, zorla ona sırmaq bu sırtıq səs-küylü "mahnı"lar çeynə-tüpür olub qulaqlarımızı yağır eləyir. Bu əzablara dözə bilməyənlər toylara getmirlər... "toylarm birində bazburutlu bir cənab ortaya çıxdı: mənimçün "Şuşanın dağları"nı çalın, oynamaq istəyirəm, - dedi. Yalan olmasın, qalstukunun qəbzəsindən qan damırdı, qılıncının qəbzəsindən yox haa. Özünün də yağı burnundan damırdı. Sonra "Qarabağ"ı oynadılar, daha sonra "Yandır Kərəmi" ("Yanıq Kərəmi" yox haa) oynadılar. Belə məqamlarda heç olmasa, insan özü-özünü doyunca söyə bilir. Nə qədər sarınmaq, nə qədər sırınmaq və nə qədər haram ekologiyadan danışmaq olar?! Dad hara çatar?! Mənəviyyatın ekologiyası tarazlığını itirəndə, balans əyilir, təzahürləri fəsad törədir.

"Ana", "Vətən" kimi müqəddəslikləri iynə (nakolka) ilə əlinə, qoluna, ürəyinin başına döydürənlərdən birisi 10 min manata müğənnidə (ona müğənni demək Mirzə Məhəmməd Həsənə, Sarəngə, Cabbara, Seyidə, Alimə asi olmaq kiinidir) "Ana üreyi"ni "zakaz" eleyir, özü isə tay kimi dolu cilərindən semiçka çıxarıb çırtlayır, çırtladıqca da yanındakıların üst-başına (üzünə demirəm) tüpürür qabığı. Bir də xəbər tutur ki, "Ana ürəyi"ni "oxuyub" qurtarıb "müğənni". Başını bulayır: "bundansa gedib bazardan bir dana ürəyi alıb kabab eləsəydim, bomba olardı, deyir... Az keçmiş toya qırğın düşür:

- Sən niyə mənim "zakaz"ıma girmisən?!.

Bülbül "Sənsiz"i Üzeyir bəyin cənazəsi üstündə nalə çəkib oxuyanda, millət - izdiham göz yaşları tökmüşdü.

İndikilər "Sənsiz"i oynayırlar... Meyden başları, beyinləri keyləşmiş cahillər "Şuşanın dağları"nı oynamaqla təhqir edirlər. Əhli-məclis də öz "işindədir"...

*Çoxu*

*çoxdan atıb*

*uşaqlığın daşını,*

*Boşalan cib kimi*

*çevirib yaddaşını*

*çırpıb ürəyindən,*

*çırpıb başından*

*daş qoymadığı Yurdu,*

*Yurdda ulayan Qurdu...*

*(... indi itlər ulayır... )*

*Unudub*

*dalınca əl açan*

*uşaqlığın fəryadmı*

*Göyləri göy üzü,*

*Dizləri yer üzü.*

*Əlləri çörək ətirli*

*Süd qoxulu qadını...*

*Dəyişdirib adını*

*qırıb*

*adına güvənən*

*ümidlərin qanadını*

*yeyib öz keçmişinin*

*başını;*

*Halma yanmadığı*

*qədr ağacı əkmədiyi*

*torpaqlar kimi...*

*Atıb o yerlərin daşını;*

*Qardaşa atılan daş kimi.*

*"Şuşanın dağlar1"na,*

*“Sənsiz”ə, “Qarabağ”a,*
*“Yanıq Kərəmi”yə*
*qol süzənlər*
*atılan şabaş kmi.*

(10.01.2003)

Ha tərəfə çevrilirsən rəzalət görürsən. Ailədə, məişətdə, məktəbdə, musiqimizdə, jurnalistikamızda və mənəviyyatın digər sahələrində pozulub mizan-tərəzimiz, pozulub mənəvi-axlaqi sərhədlərimiz.

Göydə nə qədər ulduz varsa, bizimdir; Zöhrədən tutmuş ta Karvanqırana kimi.

Bıznes olanda nə olar ki? Məgər biznes köhnəni təzənin, çəndiri ətin, yaşı qurunun, öfkəni quyruq yerinə sırımalıdır?! Əcəb işdir, Vallah!

20 Yanvar qırğınının səhərisi bəzi sürücülər insanları (sərnişinləri yox haa) ikiqat qiymətə daşıyırdılar. Beləcə, ar, namus, qeyrət, kişilik sərhədləri adiləşdi. Hörmət-izzət getdi işinin dalınca...

Qadınların, qızların 85-96 faizi artıq şalvar geyməkdədirlər; yaraşdı, yaraşmadı - dəstədən qalma geri. Gülünc bir görkəm, sırtıq bir iqlim qarsır abır-həyasını insanların. Türkürpədici bir ağlamaq, bir haray dolaşır... Abırlı kişi kişiliyə, ismətli qadın qadınlığa, həyalı qız qızlığa, sevgili oğlan sevgiyə tüpürmək istəyir.

İnsan yalnız və yalnız, əhşədəmbillah yaxşı əməlləri ilə kamilləşir.

Mənəviyyatın ekologiyasında hansısa yad bir ünsür, yad bir əl “Mehriban düşmən” əli öz işini görməkdədir. Nə televizora baxmaq olur, nə də bulvara çıxmaq... Mənəviyyatı xalis olanlar, mənəviyyatdan xali olanlarm əzabını yaşamağa məhkum ediliblər elə bil. İndi çoxlarının canı dişindədir. Kilidlənmiş dişlərin arxasından nə qədər boylanmaq olar? Nə qədər qısılıb, canı dişində yaşamaq olar?!

Bakımız öz sifətinə, görkəminə, milli sima və abrına qayıtdıqca, şalvarizm təvərədən salmağa daha çox meylli, qəsdli, qərəzlidir... İşindən, vəzifəsindən, qabiliyyətindən asılı olaraq layiqli və abırlı formada şalvar geyən qadın və qızlarımız hörmətə layiqdirlər!

Yaraşmayan şalvarlar çoxlarını qızlıq, xanımlıq taxtından salmaqdadır. Dərd burasındadır ki, bayağı cavanlarımız da az deyil...

“Qadına xanım yox, gərək mələk, məlaikə deyiləydi. Mələklər göydən enib xanım oldular. Yaraşmayan şalvarla xanımlıqdan enmək üzrədirlər (A. Musa).

Elə bil indi heç kimin və heç nəyin həm şəri, həm də hüquqi qanunlar üzrə “astanovkası” - dayanacağı (məqamı) yoxdur. Həyatın rəngi də mənəviyyatın ekologiyası kimi bozarır...

*Bazar od tutub yanır;*
*gələni də yandırır,*
*gedəni də...*
*gödən, güdəni də.*
*Qiymətlər düşməliykən*
*Qurban, Orucluq, Bahar*
*bayramlarında*
*qiymət qalxır bazarda;*
*çəkilir islam qanı*
*Üələrdən...*
*Gözlərdən. ..*
*Tərəzilərdən. . .*
*Belə getsə, quruyacaq Xəzər də...*

...Taxtdan da düşmək olar, təravətdən də... Allah bizi nəzərdən salmasın! Bu Yurd üstə Allahın da gözü var... Allahın gözündən düşmək Vəhşətdir!

*Vəhşətdir yamaq kimi*
*yaşamaq!*
*YaImana-yalmana yalaq,*
*yana-yana dalaq olmaq*
*Vəhşətdir!*

Alaq olmaq, yalağa yamaq olmaq, yamağa yamaq olmaq, umsuna-umsuna damaq olmaq rəzalətdir, vəhşətdir!

Peyğəmbər əfəndimiz (s.ə.s.) deyirdi: Üç yalan günaha yazllmaz: 1. Savaş vaxtı deyilən yalan (çünki o, savaş məharətinə aiddir)

2. Zövcəsinin könlünü almaq üçün kişinin uydurduğu yalan.

3. İki adamı barışdırmaq üçün deyilən yalan.

Bizlər isə hər şeyə və hər zada and içirik; ağ yalan, boz yalan, qara yalan...

Şər üzündən, şər ucbatından Həcc ziyarətində olmuş bir şəxsin qapısına borca getməyə məcbur oldum. Hər zaman işi aşanda mənə kiçiklənən bu şəxs mən qapısına yetişəndə toyuq-cücəyə baxırdı, əlindəki bir toyuğun da ürtməyindən bərk-bərk yapışmışdı. Salam verdim. Nə toyuğu buraxdı, nə tövrünü dəyişdi. Məramımı bildirəndə duruxdu, qanrıla-qanrıla qarnının dibindən gələn qaranlıq bir and içdi: (Əş-şeybani dəstiri) - tutduğum haqqı yoxdur, - dedi.

Mən onun nəyə və kimə and içdiyini kəsdirə bilmədim, gördüyüm isə əlində tutduğu toyuq idi...

Vətən ruhumuzun aşiyanıdır Bu Vətən həm sənindir, həm mənim.

*Mən də qəribliyi az–çox dadmışam,*
*Keçməyib boğazdan naharım mənim.*
*Sən verən duz–çörək baI olub mənə,*
*Anam, - başı qarlı baharım mənim.*

2 il yataqxana həyatını yaşadım. Heyf! - dağlarımızdakl təmiz havaya, suya, ota, ələfə, taxıla, biçinə deyirdim. Gənc oğlan və qızlarımızın halına məyus olurdum. Ata-analar da deyirdi ki, oğlum qazanc dalınca gedib, oxumağa gedib... Həyatın dibində yaşayan bu gənclər getdikcə xılt kimi ömürlərinin dibinə çökürdülər. Nə qarınları, nə də qədirləri üçün yaşadıqlarını anışdıra bilmirdilər. Sanki çəkilib atılmış siqaret kötüyü kimi bir az közərib, bir az tüstüləyib sozalırdılar, sısqalaşırdılar. Və mən ürəyimdə asılan bu “daşı” tövbə məqamlı yazıya çevirdim:

*Ketin çəpik çalır ala buludda,*
*O ala bulud da ötüb gedəcək.*
*Öz ata yurdunda silinib yaddan,*
*Adın küçələrdə itib gedəcək.*

*Küçələr çəkərlər biri–birini,*
*Yaş olub başına damcılar bir gün.*
*Küçələr əkərlər biri-birini,*
*Qəhərin boyuna sancılar bir gün.*

*Torpaq görməyirsən utanmağın yox!*
*Bu asfalt küçələr qınamaz səni.*
*Onsuz da onların süpürəni çox...*
*Dağlar oğulların sinə taxtıdır!*
*Daş·daşı gəmirir, üyüdüb dəni;*
*Sənin dağlarında biçin vaxtıdır,*
*Durnalar qayıdır, köçün vaxtıdır!..*

Hörmətli yazıçımız Hüseynbala Mirələmovun "Mənəviyyatin ekologiyası, yaxud iki od arasmda" publisist düşüncələri həyatın bütün sahələrinə güzgü tutur. Yurdun, Vətənin, Vətən övladının sabahından nigarançılıq keçirir, ona rahatlıq verməyən naqislikləri acı təəssüflə qeyd edir. Və oxucuda mənəviyyatın ekologiyasının tarazlaşacağına ümid yaradır. Oxucu da iki od arasında qalır...

Bakımı indi daha yaxşı tanıyıram. (Bakım deyəndə bütöv Vətənimizi nəzərdə tuturam). İnsanları ilə daha çox sevirəm bu doğma məmləkət. Sabahına inanıram.

*Allah nəzərindən salmasm bizi!*
*Əssalamu Əleyküm, Bakım!*
*Bakım, sabahın xeyir!*

*Allahın gözündən düşməyən Bakım!*

***5 iyun 2004***

## BİR SALAMIN UCALIGI

Mən Hüseynbala müəllim haqqında eşitmişdim. Lakin yazıçı–filoloq, publisist olduğundan bir qədər xəbərim yox idi. Nə qədər daxili zənginlik varmış bu şəxsiyyətin mənəviyyatında...

Allah-taala dünyanı SÖZlə yaratdı. SÖZdü həyat, SÖZdü zaman, SÖZdü dünyanın canı, SÖZdü hər şeyin qanı. Divin canı şüşədə olduğu kimi, bəşəriyyətin canı SÖZdədir.

Cəmiyyətimizin getdikcə öləziməkdə olan əxlaqi–prinsipləri görkəmli yazıçı, publisist, filoloq, pedaqoq Hüseynbala müəllimi dərindən narahat etmiş, rahatlığına qənim kəsilmiş bu problemlərin həllini həyəcan təbili çalmaqla, sənət adamlarında yazıçılarımızda görmüş və məhz qüdrətinə inandığı SÖZƏ söykənərək "Mənəviyyatımızın ekologiyası" dillemmasını gündəmə gətirmişdir. Əksəriyyətin ürəyindən xəbər verən bu yazı yazarlarımızı düşünməyə vadar etmişdir. Bu problemin nə qədər ağır və ağrılı olmasını duyuruq. Qor olub yatağımıza tökülmüş, yuxumuzu ərşə çəkmiş əxlaqi-etik məziyyətlərimizin "can üstə" olması dəhşətli kabus kimi bizi heyrətə gətirir. Allah gerisindən qorusun! Allah bundan betərini saxlasın!

Biz Hüseynbala müəllimə minnətdarıq ki, zamanın ən aktual problem-mövzusunu ortaya qoyur...

SÖZ xəbərdarlıq atəşidir. "Salam"a "əleyküm" deyən yoxdur, canım!? "Salam" rəbbimizin mübarək isimlərindən biridir. Salam İslamın sevgi və rəhmət qapılarının açarıdır. Salam möminlərin bir-birləri üzərindəki qarşılıqlı haqlarıdır. Salam haqqında Peyğəmbərimiz nə gözəl buyurur: "İman etmədikcə Cənnətə gedə bilməzsiniz. Bir–birinizi sevmədikcə də iman etmiş sayılmazsınız. Yerinə yetirəcəyiniz təqdirdə sevinəcəyiniz bir şeyi sizə söyləyimmi?.. Aranızda salamı yayın!"

Sabahın Xeyir! Günaydın! Hər Vaxtınız Xeyir! və s. ifadələr nə qədər şirin deyilsə belə "Salam"ın yerini və fəzilətini ödəyə bilməz. Salam verən kimsə, tək olsa belə, cəm şəkildə salam verməlidir. Yəni: "Əssalamuəleyküm". Salamı alan kimsənin də "və əleykümsalam" deməsi lazımdır. "Və"... Qətiyyən tərk edilməməlidir. Əks-təqdirdə, salam mənə deyil, sənə olsun - fikrini ifadə etmiş olur. Yəni Allahın xeyir-duasından, bərəkətindən, hifzindən imtina etmiş olur. Salamı əvvəl vermək Allah nəzərində daha fəzilətlidir. Peyğəmbərimiz buyurur: "İnsanların Allah nəzərində ən Məqbul olanı öncə salam verənləridir".

...Və ən dəhşətli bir söz, bir ifadə insanlar arasında intişar tapmaqdadır. "Baş üstə" ifadəsi. Vaxt var idi "baş üstə" ilə qan yatırılır, qada sovuşurdu, günahlar bağışlanırdı. Qanlılar barışırdı. "Baş üstə" ilə bir dəliqanlının hirsinin, hikkəsinin qarşısı alınırdı. Xəncər qapan ağlıçaş xəncəri qına qoyurdu. "Baş üstə" hirsi, əsəbi, qızmış beyini mum kimi yumşaldırdı, bircə anda insanın hədəqəsindən çıxmış gözlərini, nalayiq sözlərini, əsən əllərini və xəta törədəcək ən son anını ovsuna salırdı. İndi ən rəzil yalana çevrilib "baş üstə" ifadəsi. Üzündə İslam qanı olmayan bir ifadə. "Baş üstə" deyib bic-bic qımışmaq, get-gələ salmaq, "baş üstə" deyib aldatmaq, aldatmaqla alçatmaq, alçatmaqla rəzil etmək nə qədər caizdir, əcəba?!

Nəçiliyi kimliyindən gərəkli olub, heyrətlərdə qeyrətlənən, salamı almayan salamsızlar simasız "baş üstə"lərlə rədd cavabı verirlər. Bu "baş üstə"lər ən rəzil rədd cavabıdır ki, fikirləşmək, əngəl törətmək, badalaq vurmaq üçün manevrdir. Aldatmaq, aldadıb vaxt qazanmaq, aradan çıxmaq üçün naməqam, kəmfürsət anıdır. "Mehriban düşmənin" qəfil atəşi kimi. Bu, üzündə İslam qanı olmayan "baş üstə"lər səni qoyurlar daş üstə... İnanırsan və aldanırsan. İnanmasan aldanmazsan. Sən inamlı, o, inamsız. Sən imanlı, o, imansız!

Vətənin adını və dadını bir çoxları 1988–ci ildə anladılar, elə bil. Demə, bu da fərqli anlamlar və anlamalar imiş. Vətən, kimisi üçün pul kisəsi, kimisi üçün qeyrət, namus, kimisi üçün torpaq, kimisi üçün status, xarici maşın, kimisi üçün alver - "prilavka", kimisi üçün göz yaşı, kimisi üçün humanitar yardım, vəzifə, stol oldu. Kimisi üçün girəvə, kimisi üçün kirvə. Kimisi üçün əkmək, kimisi üçün əkilmək

meydanı oldu. Kimisinə bulvar, kimisinə şalvar... Kiminə dərd, kiminə nərd, kiminə azar, kiminə bazar... (kiminə qol, kimi· nə “ofsay” oldu).

Vaxt var idi ki, kəndimizdə toy zamanı maşın adam vururdu. İstər böyük, istər uşaq. Hüzr sahibi hadisəni gizlədirdi ki, toy yarımçıq qalmasın. Çörək pulu qazanmaq üçün daş, sement gətirən maşınların izinə milis düşərkən kənd camaatı həmin maşınları ot tayasmm altmda gizlədirdilər. Böyükdən kiçiyə gördüm deyən olmurdu. Mərdimazarlığa çox pis baxırdılar. Sözü bütöv, əməli bütöv kişilər vardı...

Dənizkənarı qəsəbələrin birində isə hamı hamını satır, güdaza verir. Yaxşılığa yamanlıq dəbdədir. Ağsaqqal tapmaq müşkül işdir.

Rayonlarımızın birində isə tamam başqa cür imiş; əllərinə düşən “yadın” dərisini soyub saman təpirlərmiş sən demə. Mayor Qırmanc dəstiri... “Oka” markalı maşın “07" markah maşını vurub yoldan çıxarır. İçərisində dörd nəfər gənc olan “07” təpəsi və yanı üstə fırlanır. Maşın sıradan çıxır. İçindəkilər də əzik-üzük olurlar. “Oka”nı sürənin nə hüququ, nə vəsiqəsi, nə də səriştəsi olub maşın sürməyə. Yanında da iki qadın - yoldaşı və qardaşı arvadı. Maşın aşarkən “Oka”nı sürən düşüb “07”yə baxıb və istəyib ki, qaçsın. “07”dəki oğlanlardan qismən salamat olanı (ailənin tək uşağı) çıxıb “Oka”m süräni yaxalayıb, süpürləşiblər. Sərxoşoğlunun başına köhnədənqalma bir yumruq dəyib. Xəbər verilsə də hadisədən iki saat sonra mayor Qırmanc əsəbi halda gəlib çıxıb hadisə yerinə. İki saat ərzində Bakı-Astara şose yolu ilə hadisə yerindən 400–dən çox maşın keçib. “07”dəki oğlanlardan biri özünü itirmiş halda mayora yaxınlaşıb ki, hadisəni izah etsin. Bilmədən mayorun ayağını tapdalayıb. Bəhanə axtaran Qırmanc tətikdə olan güllə kimi açılıb: Günah sizdədir, “Oka”nın sürücüsünü döymüsünüz, məni də tapdalayırsınız. Demə, mayor Qırmanc hadisəni tam şəkildə elə iş yerində öyrənib, plan cızıb gəlibmiş. “Oka”nı sürən də onun öz qonşusu imiş. Odur ki, işi yığıb, yumurlayıb qoyub ailənin yeganə uşağının boynuna. İşi ört-basdır etmək üçün hər iki tərəfı təcili surətdə barışdırıb. Aranı balaca xəlvət etməklə işi “qarışdırıb” - ailənin tək uşağı üçün cinayət işi açıb. Guya “Oka”nın sürücüsü Sərxoşoğlu bir yumruqla ikinci qrup əlil olub. Hadisədən iki ay iyirmi bir gün sonra həkim-ekspertdən arayış alıb ki, Sərxoşoğlu küt alətlə vurulub, başının sağ yanı qançır olub (əslində, anadangəlmə olub).

Ateist bir priyomla mayor Qırmanc hadisə yerindən keçən 400 maşından dördünü şahid kimi seçib. Təsadüfün nadürüstlüyünə və naqisliyinə baxın ki, dörd şahidin dördü də mayor Qırmanc və Sərxoşoğlunun kəndlisi çıxıb. Sərxoşoğlunun arvadını və qardaşı arvadını da təlimatlandırıb ki, durun ailənin tək uşağının üzünə. Nə çıxsa bundan çıxacaq. İşi ləngitməklə mayor (nahaq yerə mayor rütbəsi almayıb ki?) Qırmanc hadisədən iki ay on dörd gün ötməsinə baxmayaraq, Sərxoşoğlu üçün sürücülük vəsiqəsi də alıb, bu işi də qoyub “yoluna”. Mayor Qırmanc necə “dəqiq” işləyibsə, bir nüansı da unutmayıb; “07”dəki dörd oğlandan birinin idmançı olmasını və ayağını tapdalayan kök oğlanı. İki ay iyirmi bir gündən sonra dərin tədqiqatları və gərgin əməyi hesabına dürüstləşdirib ki, onun ayağını məhz ailənin yeganə oğlu “'tapdaıayıb”, elə “idmançı” da odur. Beləliklə, hadisənin əsas hissəsini, bazisini, törəmə səbəblərini arxa plana keçirib, rəsmi barışıqla işi xətm üçün dəmə qoyur...

Hadisənin qeyri–əsas, quşqun hissəsini ön plana çəkməklə allahsız, böyüksüz, haqsız, ədalətsiz və qanunsuz güdaz bir qövmlə Allahı başının üstündə, Allah xofu və mərhəməti ürəyində olan riyanın, qərəzin, nadürüstlüyün, əyyaşlığın nə olduğunu bilməyən 17 yaşına qədər Allah–taalanın mərifətullahını qazanmış dupduru, halal bir oğlanı üz-üzə qoyur. Nə yaxşı ki, hakim Allah adamı və öz zatını bilən bir şəxsiyyət olub.

Yalandan nəyəsə, kiməsə şahidlik etmək, günahsız insanları suçlamaq, tələyə salmaq, böhtana uğratmaq, insanların nüfuzunu, etirafını cəmiyyət içində aşağı salmaq lənətullahların peşəsidir. Rəbbimiz buyurmuşdur: “Mənim xalis qullarım yalandan şahidlik etməzlər”. Yalan və yalan şahidlik insanın üz qarasıdır. Peyğəmbərimiz Hədisi-şərifiərindən birində deyir ki: “Bir kimsə bir müsəlmanın əleyhinə yalan yerə şəhadət edərsə, cəhənnəmdə yerini hazır bilsin!”

Deməli, yalançı şahid mücrimdir, insanlıqdan uzaqdır, şəfqətdən yoxsuldur, kəsəsi, Allahına qarşıdır. Onda nə heysiyyət, nə fəzilət, nə də əxlaq vardır.

Hüseynbala müəllimə bizi dilləndirən, düşündürən dərdlərimizi gündəmə gətirdiyi üçün minnətdarıq. Hər kəs öz yerındə, oz məqamında olarsa, onun öz sözü, öz üzü, öz hökmü olar.

***12 iyun 2004***

## KİMDİR GÜNAHKAR?

İnsan yaxşı əməlləri ilə kamilləşir. Cəmiyyət o zaman cahiləşir ki, yarımçıq və nadan insanlar çayır kimi əl-ayağa dolaşırlar. Elmdən, mərifətdən xali olanlar özlərini yekəxana aparırlar, dindən qandığı qrafası olmayan cahillər (istər yaşlı, istər cavan) özlərini əsl dindar, zahid kimi göstərirlər. Üzündə əcaib formada saqqal (emblemasını, məqsədini bilmədiyi saqqal forması), əlində uzun bir təsbeh, barmaqlarında bir neçə yaşıl qaşlı üzük (dırnaqlarının altında qapqara zibil, yaxası qatran bağlamış köynəyindən, yalan olmasın, 6 ayın tər iyi üfunət qoxuyur; hətta: müqəddəs Həcc ziyarətində olmuşlardan bəziləri də bu görkəmdə olurlar) başlayır vəz verməyə: kim Həcc ziyarətində olan şəxsə "Hacı" deməsə, boynuna qurban gəlir, gərək qurban kəsib üzürxahlıq eləsin. Metrolarda satılan dini kitablardan bir-ikisini alıb qoyub cibinə (bu dini kitabları kimlər çap edir, nə məqsədlə çap edirlər, bunu bir Allah bilir), hətta mollalıq edirlər... Qayış bilir ki, öküz nə çəkir?! Mədə niyyətimiz mədəniyyətimizi üstələyir. Mənəviyyat cahil-cahil işbazlar tərəfindən zora, məhrumiyyətlərə məruz qalır. Özlərini el gözünə, camaat gözünə dindar kimi göstərirlər: kəlmeyi-şəhadəti, salavati-şərifi bilir, namaz haqqında eşidib, ac qalmağı oruc sayır... Nə insafı var, nə də imanı. Her şeyi iman həll edir. İmanı olmayan müsəlman deyil... "Din bir vicdan məsələsidir" (Atatürk).

Həcc ziyarətində olmuş 3 nəfər bəhsəbəhslə necə gedib-gəldiklərindən danışırdılar, amma nə tövbədən, nə də dini incəliklərdən danışmırdılar deyə soruşdum: - Bəs siz tövbəni harada, hansı məqamda etdiniz? Elə bil üstlərinə su çiləndi, bir-birlərinə baxdılar və tövbə, nə tövbə, - deyə-deyə üz-üzə, göz-gözə gəlməyə sanki qorxdular. Tövbə-zad yoxdur, elə gedən kimi Hacı olursan - dedilər.

Mədineyi–Münəvvərə məscidindəki xütbəsində Peyğəmbər Əfəndimiz buyurmuşdur, Həcc ziyarəti zamanı: "...bir müsəlman tövbə etmədiyi halda, müqəddəs Kəbə ətrafında təvafta (onun dövrəsinə 7 dəfə fırlanmaq) bulunarsa, Allahın qəzəbinə gəlir, cəhənnəmin odunda əbədi yanar... Günah sahibi olan müsəlmanın bu fikrə düşməsi ağır küfrlərdən sayılır".

Mirzə Ələkbər Sabir Tahirzadə Şirvani demiş:

- Tövbə!

ət–tövbə xəta!

bilib etdiklərimə!

bilməyib etdiklərimə!!!

***

Allah-taala dünyanı SÖZlə yaratdı, SÖZdü həyat, SÖZdü zaman, SÖZdü dünyanın canı, SÖZdü hər şeyin qanı...

Dizim üstə Füzulinin ulu “Divanı”,

Mizim üstə Araz gözlü Şəhriyar baxır.

Hərəkət SÖZlə başlayır. Söz öz-özünün tərcümanıdır. Söz sonsuz və nişansızdır. Peyğəmbər sözün könüldə xəzinə olduğunu görüncə dedi ki, könül Allah göyünün ən uca qatıdır. Söz yaradıcı, göy və səma, lövhə və qələm, dörd ünsür, doqquz göydür (əqli-küll-Allah), Ərş-ilahi böyüklüyün təcəlləgahıdır. Təsəvvüfdə ərş-könül, fərş-yer üzü, lövh-ilahi kəlamın mühafızə olunduğu məkansız məkan, qələm-kəlamın sübut vasitəsi, 4 ünsür - su, od, külək, torpaq. Nöh asiman - doqquz göy (Zöhrə, mərix, ütarid, müştəri, zühəl, günəş, bürclər və atlas göyləri).

Söz cəlladdı, Söz loğmandı... Söz bəhərli və qəhərli kəlamdır.

Söz tərtəmiz İsa, Adəm, Məhəmməd, zamanın sahibi Mehdidir. Söz qeybi bilən fəzldir. Söz dənizinin hüdudu yoxdur (İ.Nəsimi)

Dağdan ağır kişilər sözün ağırlığına tab gətirməyiblər. Hər zadın başında və dibaçəsində söz durur. Açar da sözdür, kilid də. İnsanı öldürən də, güldürən də, duruldan da sözdür:

*Can deməklə candan can əskik olmaz,*

*Məhəbbət artırar, mehriban eylər.*

**(Aşıq Ələsgər)**

Ot kökü üstündə bitər. Hər kəs öz nəslinə, nəcabətinə sahib dura bilsə, mənəviyyatını qoruya bilsə cəmiyyətimizin harmoniyası, tarazlığı öz sanbalını saxlayar. Hər kəs öz ömrünü yaşayır. Və hər kəs öz ölürriünü qazanır. Və hər kəsin bir nağd ölümü varsa, soyadına sahıb dursa yaxşıdır.

*Soyad var nəslə quyruq kimidir,*
*Soyad var Allahdan buyruq kimidir.*

*Soyad var ki, üz qarası gətirir,*
*Soyad var ki, mərdüməzar bitirir.*

*Soyad var ki, soyulduqca zay olur,*
*Soyad var ki, ona-buna züy olur.*

*Soyad var ki, yamaq kimi sırınır,*
*Soyad var ki, yalaqlıqla barınır.*

*Soyad var ki, ocağa su calamaz,*
*Soyad var ki, tüpürdüyün yalamaz.*

*Soyad var soyuna qarğış kimidir,*
*Xaraba üstündə bayquş kimidir.*

Hər adam nəslə, nəslin soyadına sahib dura bilməz. Gərək Allah qismət eləsin insana bu titulu, rütbəni, məqamı. Məsələn: Cəfərli, İsmayıllı, Qızıl Hacıbabalı, ŞahvəIədli - bu mənim soyad şəcərəm. Bu da bir qismətdir, Allahın işidir, Bəxtidir, Taleyidır, Alın yazısıdır. Nəsli, soyadı təmsil eləmək haqdan gəlir o şəxsiiyətin boynuna. Hər kəsə nəsildə Dədə deyilməz. Nəsil göstəriciləri - Dədələr 7x7 yəni 7 aşağı, 7 yuxarı arxa dönəninə qədər, ondan da o yana yaşaya bilərlər. Dədələr ötürücü zirvə kimidirlər; 7 dağ o yana, 7 dağ bu yana - Dədədən Dədəyə...

Mənə saz havalarını Dədəm “öyrədib”; uşaq vaxtı mən səhər yuxusunu yatarkən tezdən duran Dədəm radionu açardı, səhərin şirin yuxusuna saz havaları - yovşan, yarpız, çiçək ətri qarışardı... Bu, gənclik illərimə qədər belə oldu. Dədəmi də

saz havası kimi sevirdim... Uşaq vaxtımdan Dədəmin namaz üstündə dediyi duanı da sevirdim:

- Allah-taala dua üzü hörmətinə, Məhəmmədin gül camalına bağışlasın ümmətini! İndi də o dua qulaqlarımdadır, hər səhər sübhçağı eşidirəm.

Mənə qəribə gələn bu duaya sonralar "Dədə Qorqud" boylarında rast gəldim: "Adı görklü Məhəmməd Mustafa yuzi (üzü) suyuna bağışlasın, Xanım hey!.."

Soyuna, soyadına, əxlaqına bələd olduğum: 30 ildən artıq - bir qərinəyə bərabər dostluq etdiyim, çörək kəsdiyim Mirmahmud ağa həmişə deyir: "Ya Rəbbim, elədiyim yaxşılığı, etdiyim andaca unutdur mənə". Nə qədər səmimi, nə qədər gözəl və isti bir söz. Nə qədər saf və dupduru bir əqidə... Ətəyində namaz qılması, ayağına baş qoyulası tutiyə insanlarımız az deyil... Əfsus ki, sözü ilə əməli baş-ayaq olan dırnaqarası insanlar, adamlar, mollalar, yazarlar, hacılar, möminlər də cəmiyyət içrə intişar tapırlar. Bu soyuq qanlar necə qoşulub qanımıza?! Hardan gəlib? Nə bilim, Vallah?!

...Başında buxara papaq, barmaqlarında qaşı 3-4 sm olan üzüklər, sifətində altı və üstü xətt vurulmuş, üzə yapışan saqqal, çantasında da qanı və suyu axıb yerə tökülən 5–6 mal, qoyun, quzu çiyəri... oturub avtobusda göndələn. Yanında oturası olan kimsə ya onun bir dizinin üstündə, ya da ki, bir yanı üstə oturmalıdır. Buxara papaqlı bu Hacc zirayətində olmuş şəxs arada ayaq üstə olan bir qıza və gəlinə təklif edir ki, əyləşsin onun yanında. Uşaq sığışan yerdə qadın oturmalı olur. Buxara papağın (buxara papaq məni bağışlasın gərək, onunla işim yoxdur) gözü qalıb ayaq üstə dayanan qızda. Qız özünə yer tapa bilmir, qadm da narahatdır. Mən isə buxara papağı qınayıram.

Bir də görürsən ki, günün indisinə qədər yerini, sözünü vz özünü bilməyən bir qadın birdən-birə qapalı geyinməyə, çarşab örtməyə başlayır. Onun əxlaqına bələd olan, həqiqətən həm dindar, həm də qapalı geyinənlər az qala çarşaba, dini paltara nifrət eləyirlər... Yəqin bu da bir cür atmaqdır.

*Axı kimdir günahkar?!*
*Günahkar kimdir, axı?!*

- Atalarmı, analarmı? Müəllimlərmi? Baxçalarmı? Zəmanəmi? Cəmiyyətmi? Budur əsas məsələ! Hamı hamını günahkar sayır, heç kim öz boynuna düşən işi, haqqı, günahı etiraf etmək istəmir. Bu “hamı”lar hamılıqda öz yerində olarsa, mizan-tərəzi də pozulmaz, mənəviyyatımızın ekologiyası zəhərlənməz. Bir rayona başçılıq eləyən şəxs düşünmür ki, kadr məsələsində şəxsiyyət amili vacib şərtdir. Dünənə qədər sözü-söhbəti, əməli qiybət olan, ona-buna şəbədə qoşub vedrə bağlayan, adamlığı bir şahıya dəyməyən birisinə təlim-tərbiyə ocağında vəzifə verir, səlahiyyət verir. Nadanlığın bu hürr balası tərbiyədən dərs deyir, tərbiyə ocağında. Natamam təhsilli və qabiliyyəti kəm olan bir kəmtər bizlərə həyat məktəbindən dərs keçir, öz “praktika”sından sitatlar gətirir... Əfsus! Səd heyf!

*Nə qəbrini çəkmişəm mən qədirsizlərin,*
*Ürəyimin xoş anını yelə vermişəm.*
*Adamlığı bir şahıya dəyərsizlərin,*
*Yanındaca öz namımı yerə vermişəm.*

Vay bizim halımıza. Başında beyin əvəzinə peyin daşıyanları qandırınca adam az qalır qammaz olsun! Nədir bu millətin günahı? Bu günahın baiskarları kimdir axı?!

Qədim yunan mifologiyasında küləklər hökmdarı Eolun oğlu Sizif Allahları aldatdığı üçün cəzalandırılır. Və cəza olaraq nəhəng bir daşı dağın başına qaldırmalıdır; zərrə-zərrə, qarış-qarış, iynə-iynə, dizin-dizin o daşı yuxarı aparmağa cəhd edir, can qoyur, əldən-dildən düşür, candan olur, qat-qat qabıq qoyur, əlləri, çiyinləri, sifəti, dizləri sıyrım-sıyrım, soyuq-soyuq, əzik-əzik olur, bədəni təpədən-dırnağa kimi qançır tökür. Lakin hər dəfə Sizif o daşı zirvəyə qaldırmağa bir az, bir an qalmış daş əlindən çıxıb aşağı yuvarlanır... Bir dəfə, 10 dəfə, 100 dəfə, min dəfə və əbədi... Və Sizif əzabı başlayır. O daşı zirvəyə qaldırana qədər bu əzab davam edəcək...

Muqhəmat - insanı cəhənnəmə sürükləyən böyük və təhlükəli günahlar deməkdir.

“Quran” ayələrində məhv edilmiş xalqlar barədə deyilir: “Məgər onlara özlərindən əvvəlki Nuh, Ad, Səmud tayfasının, İbrahim qövmünün, Mədyən əhalisinin və mötəfikirlərin (şəhərləri alt-üst olmuş Lut tayfasının) xəbəri gəlib çatmadımı? Peyğəmbərləri onlara aşkar möcüzələrlə gəlmişdilər, Allah onlara zülm edən deyildi, lakin onlar özlərinə zülm etdilər” (Tövbə 70).

Roma imperatorluğunun incisi sayılan Pompey şəhəri də Lut qövmü kimi cinsi pozğunluğa mübtəla olmuşdular. Onların da sonu Lum çölü kimi acınacaqlı oldu. Pompeyin məhvi Vezuvi vulkanının püskürməsilə həyata keçmişdir. İndi Vezuvi “İbrət dağı” adı ilə adlandırılır.

Ad (qövmü) isə uğultulu, çox (soyuq) şiddətli bir küləklə tarmar oldu. Allah o küləyi yeddi gecə, səkkiz gün ardı-arası kəsilmədən onların üstünə əsdirdi (Haqqə surəsi 6-8).

Səmud (qövmü də) təhdidləri yalan saymışdı (Qəmər surəsi 23-26).

Firon nəslini (dənizdə) batırdı. Onların hamısı zalım idi (Ənfal surəsi 54).

Səba xalqı və ərim seli - ... Biz də üstlərinə Ərim (bədinin) selini göndərdik. Onların iki bağçasını (tikanlı) acı meyvəli, yulğun ağacları və bir az da sidr ağacı olan iki bağçaya çevirdik (Səba 15–16).

Həzrəti Süleyman və Səba mələyi (Bilqeys) - (Bilqeys) dedi: “Ey Rəbbim, mən özümə zülm etmişdim (günəşə sitayişlə). Mən artıq Süleymanla aləmlərin Rəbbi olan Allaha təslim oldum (Nəml 44).

Əshabi - Kəhf - mənbələrə görə məhz 249-251-ci illərdə Daqyanusun - Roma imperatoru - vaxtında İsa peyğəmbərin ardıcıllarını işgəncələrə məruz qoymuşdu. O zaman gənclər mağaraya sığınıb: “Ey rəbbimiz! Bizə öz dərgahından mərhəmət bəxş et və işimizə fərəc ver!” - demişdilər (Kəhf 10) onlar mağarada üç yüz doqquz il qaldılar...

Qonşu dağlara qar yağır...

Nə əlimiz, nə dilimiz yorulub, nə belimiz quruyub, nə dizimiz təpərdən düşüb, nə gözümüz işıqdan qalıb, nə də özümüz həvəsdən düşmüşük, nə doymuşuq, nə

doyurmuşuq?! Ona görə də tövbə etmək hələ tezdi bizimçün deyir dünyagirlik hərisində olan insanlar... Gözləri tövbəli deyildir deyə qonşu dağlara yağan qarı görmürlər, qulaqları tövbəli deyildir deyə haqq sözləri yox, nahaqqı eşidirlər. Dilləri tövbəli deyildir deyə yalandan and içirlər, qeybət, böhtan, şər danışırlar, üzləri tövbəli deyildir deyə haqq–nahaqq üzə dururlar, əlləri, ayaqları, dizləri, başları tövbəli deyildir deyə hər addımbaşı günah işlədirlər. Ürəkləri tövbəli olmayınca iman sahibi ola bilməyəcəklər.

Nursuz, işıqdan qalmış gözə, təpərdən düşmüş dizə, kar olmuş qulağa, quruyan belə, lallanmış dilə, oğurluqdan qalmış ələ, ayağa və daşlaşmış ürəyə nə tövbə?!

Tövbənin öz vaxtı var, o vaxt ki, insan hər bir əzası tövbə eləyə bilsin. Düz yola qayıtsın.

"Quran"ımızda adı çəkilən İsgəndər Zülqərneyn "O, (məğribə çatmaq üçün) yola çıxdı. (Tövbə qapısı məğribdə olduğuna görə səfərini oradan başladı) (Əl-Kəhf (Mağara) - 85. səh.273).

Adəm və Həvva şeytanın vəsvəsəsinə inanıb buğda sünbülündən yedilər. (Əvvəlcə Həvva nənəmiz və onun təhrikiylə Adəm də yedi) Hökmü-ilahiyə görə hər ikisi cənnətdən çıxarıldı. Adəm Hind tərəfinə və Həvva Ciddəyə düşdü. Hər biri ayrılıq və tənhalıq qüssəsinə giriftar olub dünyanın zəhmətini və məşəqqətini çəkməyə başladılar. Xüsusən Adəm (ə) fərmani-ilahidən çıxmağına və o səbəbə cürbəcür nemətlərdən məhrum qaldığına ağlayıb həmişə dua və niyaz edərdi:

*Adəm ki, fəzayi-aləmə basdı qədəm,*
*Ənduhi-bəlaya oldu Həmdəm.*
*Məxsusdur Adəmə bəlayi–aləm,*
*Aləmdə bəla çəkməyən olmaz adəm.*

**(M.Füzuli)**

Duayi-Adəm bu idi ki: "Ya Rəbb, Məhəmməd və Ali Məhəmməd haqqı üçün tövbəmi qəbul et".

Bir gün bargahi-İzzətdən nida gəldi ki, "Ey Adəm, sən Məhəmmədi nə bilirsən ki, zeyli-şərafinə mütəməssik olursan?" Adəm ayıldı: "Ya Rəbb, Məhəmmədin ismi-şərifın səfheyi-saqi-ərşdə sənin nami-lətifinə müqarin gördüm. Bildim ki, ondan əşrəf və əfzəl xəlqın yoxdur, ona təvəssüm edərəm" (M.Füzuli, "Həqiqətüsşühəda" əsəri).

Adəm (ə) Hindistana endirildikdən sonra ona vəhy gəlmişdi ki, o, Həcc üçün yola çıxmalıdır. Tövbəsi qəbul olunub, ziyarəti bitirib Ərəfatda gəlmişdir. İllər ilə ayrı düşmüş Həzrəti-Həvva ilə Ərəfatda görüşüb tapışmışdı.

İlk günah işlədən və ilk tövbə edən Adəm atamız olmuşdur.

**19 iyun 2004**

## QAĞAYI FƏRYADI

***...Gedirik qayıtmağa... Üz yeri qoysaq;***

***Üz yeri qoyduğumuz bu dünyaya qayıtmağa gedirik...***

124 saylı avtobusda belə bir yazı oxudum: "Kim bizə nə arzulayırsa, biz də onun yüz mislini ona arzulayırıq". Hamının bir-birinə dov gəldiyi bir zaman və məkanda yerində deyilmiş sözdür; məqsədin də, məramın da cövhəri sözdür! Yazıçı Hüseynbala Mirələmov narahat bir insandır. Onun nigarançılığı və narahatçılığı əsərlərində və publisist yazılarında özünü büruzə verir. Sadə qəlbli, kövrək ürəkli bu insanın "Mənəviyyatın ekologiyası, yaxud İki od arasında" publisist yazısında onun bütün narahatçılıqları üzə çıxır. Hüseynbala müəllimin daha böyük və xeyirxah işlər gördüyünü eşitmişəm. Peyğəmbərimiz nə gözəl buyurmuşdur: "İnsanların ən xeyirlisi, insanlar üçün faydalı olanıdır. Gördüyü işlərin müqabilində Hüseynbala müəllim heç nəyi reklam etmir... Balığı tut, at dəryaya, balıq bilməsə də, xaliq biləcək. Yaman olur anlamaq dərdi. Elə ki, insanlardan dürlüdürlü sifətlər görürsən, insanlığın zatına yenirsən, başlayırsan yanmağa. "Bəzən bir kütlə, bacarmır kütlə" (F.Qoca).

***Mərifətdən azad,***
***Hörmətdən azad***
***Hər şeydən azad***

***Hər şeydən xali***
***Danışır ali-ali***
***Qışqırır qazı-qazı***
***nadanlığın bu sevimli***
***bu hürr balası.***

***(Ə.Kərim)***

“Biz insam gözəl şəkildə yaratdıq. Sonra onu aşağıların ən aşağısı etdik. Yalnız inanıb yararlı işlər görənlər bunun xaricindədir” - bunu ən müdrik kitabımız “Quran” deyir.

Mənəviyyatın beyni quruduqca manqurta dönür və bütün məziyyətlərini itirir.

Mənəviyyatın əl üzə verən vaxtıdır.

Hər bir mehrin öz sehri var. Sənin hörmətin mənə şərəf, mənim qabiliyyətim sənə başucalığı, sənin-mənim mərifətimiz Vətənə üzağlığı gətirir. (Qəbahətlə, xəcalət də eləcə). İşlərimizin, əməllərimizin çoxu küt gedir. Bəzi yazarlarımız sözü qurtarmış aşıq kimi “yaram, yaram” deyirlər. Hər kəs hər şeyə və hər zada şutt eləyir.

Hər millət bir zadın bazıdır, biz millət hər şeyin və hər zadın bazıyıq; evimizin, mərtəbəmizin, maşınımızın, telefonumuzun qəlbimizə yatan nömrəsi olmasa, nəyin bahasına olursa-olsun onu dəyişdiririk...

Dadını, adını, ləzzətini itirmiş restoran toylarında “Qarabağ şikəstəsi”ni oxudub, çəpik, əl çalıb, şırıqqa ilə qarşılayırıq. Amma Qarabağı unuduruq, Qarabağı yox, şikəstə oxuyanı alqışlayırıq. Qarabağ özü ömrümüzün, günümüzün güzaranımızın, könlümüzün, qəlbimizin, səbrimizin və qəbrimizin şikəstəsidir. Könlümüzü qarət eləyən şikəstəsi. Biz ağlamalı havaya gülə və oynaya bilən xalqıq. Tarixən oynağan olmamışıq. Kərəmə od qoyub yandıran havaya oynayırıq. Dərd orasındadır ki, gülməli havaya da ağlaya bilirik.

Bir neçə toyda yerli-yersiz oynayanlarm əlindən zinhara gəldik. Məclis tez-tez seyrəlirdi, sən demə sakitləşdirici dərman içməyə düşürlərmiş bu arsız-yersiz oynamaqlardan (dingildəməklərdən) bezən, zara gələn abırlı insanlar, xüsusən də

qadınlar. Mən də mikrofonla, oynayanları da təbrik edib: Allah sizi oynatsın!!! - dedim.

İnam, etibar ayaqlara düşüb, nankor adamların əlindən zəlil olubdur. Alabaşa qarabaş deyənlər mənəviyyatı da rəzil günə salıblar. Heç nə öz dadını vermir... Heç nə öz adıyla çağrılmır.

Əvvəllər bir çörəklə bir neçə adam doyardı, indi bir çörəklə bir adam güc-bəla ilə doyur. Çörəyin çəkisini qırta-qırta bulkiyə döndəriblər.

Duzda duz tamı yoxdur, billah! - ağu kimidir. Qənddə də qənd tamı qəhətə çıxıb - duz tamı verir. Altı dənə analgin-demidrol xəstəni nə yatıra bildi, nə də ağrılarını kəsdi. Dərmanda təsir gücü yoxdur. Adı da, soyadı da balaca hərflə yazılmalı olan insanlar hələ ki çoxdur, məmurlar da eləcə.

Bizi əsəbiləşdirib cin atına mindirənlər xərdə və kor yabıda köndələn gəzirlər. Kor atı minib köndələn çapırlar, ölən məziyyətlərimizin üstündə onlar tost, biz isə ağı deyirik, çifayda?!

Bakıda 13 nömrəli maşın yoxdur və olmayacaq. Hər 5 maşından üçünün nömrəsində sevimli 7 rəqəmi var. İş burasındadır ki, bu 7-yə polislər də hörmət edirlər.

20 min manatlıq mobil telefon nömrəsini 3 min dollara alırlar ki, - “Zerkalnı”dı. Hər şeyə şübhə ilə yanaşmağa məcbur olursan. Mənəviyyatın olmasa bal ilə şora eyni qiymət veriləcək. Bala, çaya elə şeylər qatırlar ki, bal suya, çay da rəngə dönür, dad itir.

Mənəviyyatdan yazmaq, ona dayaq durmaq hər bir əli qələm tutub, adlı-sanlı şair və yazarlarımızın birbaşa, sözün müstəqim mənasında borclarıdır. Yoxsa nəyə və kimə xidmət göstəririk ki?! Kütləvi şəkil alsa da, kampaniya xarakterinə düşsə mənəviyyatm dəyəri itəcək; sarı, qırmızı, qara, çəhrayı, boz, ala-bula, qara, yaşıl, ağ yazmaqla... Bu oldu çevir tatı, vur tau. Ona görə də mənəviyyatdan ləyaqətlə və ləyaqətli yazılar yazmaq lazımlı və gərəklidir. Gərəkli və görəklidir. Yazmaq xatirinə yox, ləyaqət, millət, Vətən xatirinə yazmaq. Yazan ətəyindəki daşı yerə töküb, sonra yazmalıdır ki, kiminsə bostanına daş düşməsin, Çünki bu bostan hamımızındır, həm sənindir, həm mənim. İllacını tapmaq gərək!

Yas mərasimlərində mərsiyəxanlıq edən qadın ermənidirsə, vay bizim halımıza!?

P.Çobanoğlu dedi ki, daş düşüb... Mirzə də qayıtdı ki, gedib o daşı öpürlər... Bəlkə də daş yağdı... O düşən daşı öpənlər hardan bilsinlər ki, o daş başımıza düşüb?

İndi 35 yaş məsələsi çox şeyi dəyişib; gül balalar mütləq və mütləq əsgər getməlidirlər. Bu, labüddür. İndi əsgərlik az miqdar üçün Vətənə xidmətdir. Əsgərliyin vətənpərvərlik mahiyyəti duyulmur. Bu əsgəri müddət hərbi bilet üçün vacibdir. Vacibdən vacib də odur ki, dürlü-dürlü vəzifələrə gedən yol hərbi biletdən keçir. Və ən ləzzətlisi də odur ki, əsgəri xidmət zonasını, hərbi hissəni valideyn təyin edir. Necə?! Qeydiyyat (yaşayış) yerini dəyişməklə! və sairə və ilaxirə...

Yenə bir erməni qadını deyib ki, bu savaş 30 il davam edəcək, artıq o zaman siz Qarabağı unutmuş olacaqsınız...

Hörmətli Hüseynbala müəllim, sizin yuxunuzu ərşə çəkən, istirahətinizi təlx eləyən anormal cəmiyyətin naqislikləri hər bir qələm əhlini, hər bir ziyalını narahat və rəncidə etməlidir. Və hər kəs, hər bir vətəndaş “mən kiməm” sualına cavab tapmaqda özündə güc hiss eləsə, ağa ağ, qaraya qara deyə bilsə, ona bir başqası “sən kimsən?”- deyə bilməz. Bir balaca əxlaqımıza, bir azca ətrafımıza baxa bilsək, özümüzü bir balaca yığışdırsaq cəmiyyətimiz də bizə oxşayacaq... Mənə elə gəlir ki, öz üzümüz qara olanda “zəmanənin üzü qara olsun” deyirik. Zəmanənin günahı odur ki, zəmanəmiz bizə oxşayır, biz də yaratdığımız zəmanəmizə; bütün əxlaqımızla, bütün məziyyətimizlə və əziyyətlərimizlə. Hətta əzilən ruhumuzla, dəhşət və vəhşətlərimizlə.

Əyrilərdən və əyriliklərdən çəkindiyim və qorxduğum olmayıb. Qorxduğum dədəmin ittiham edən baxışları olub...

Mənəviyyatın qanunu yazılmır, mənəviyyat haqdan gələn tale, qədər, qismət və vergi kimidir... Mənəviyyat hərraca qoyulduqca savadsızlıq, nadanlıq, laqeydlik, biganəlik boz sifət kimi üzə qabarır; vəhşi heyvan, qırt toyuq, çöl donuzu, it-pişik qabaran kimi...

Ətəyimiz təptəzə daşlarla doludur, bütün dahilərimizə bəs elər? Əxlaqı kamil olan yazarlarımızı təzə daşlara (R.Rövşən) qonaq eləmək bizdə vərdiş halını

almaqdadır. Millətə yananı yandırmaq bizim üçün “çeşmi”dir. Erməni boyda hiyləgər, bic, oğru, qorxaq, erməni düşmənimiz olduğu halda, bizlər bunu edirik. Düşmənimiz olmasa bir-birimizin ətini şişə çəkərik.

Başımızın altında erməni kimi düşmənimiz var. Tökün ətəyinizdən o daşları, qoyun başınızın altına, dar gündə gərəyimiz olar. Mənəviyyatımızı lüzumsuz intriqalara israf etməyin, hayıfsınız. Hər zaman və zaman-zaman bizim qəhrəmanımız özümüz olmuşuq. Və bəşəriyyətin başında alb-az-ər-i-lər olub. Papağımızı günə yandırmaqla üz ağartmaq olmaz. Hörmət təmənnaya çevrilir, nüfuzdan düşür. Dahi insanlar bir büdrəməklə onu sevənlərin nifrətinə yuvarlanıblar, hörmətdən, izzətdən, ali məqam və mərtəbəsindən başı aşağı yeniblər; gözündə, üzündə və alnında olan kölgəni kimsənin görməməsi üçün bir daha başlarını yuxarı qaldırmaq zorunda olmayıblar. Və mənəviyyatın bütün çalarları öz min bir rəngli varlığıyla ayaqlara düşərkən insan özüylə döyüşə qalxır, yalnız qurd kimi ulamaq, uluların ruhunu köməyə çağırmaq üçün uladıqca ulamaq istəyir bəşər... Qağayı kimi ömrün son akkordunu vurub, fəryadla həyata onda nəğməsini bərdaşt eləyir.

***Mələklər ruhumu çəkirlər dara***
***Başımı min ümid, güman bələyir...***
***Ömrün qüzeyində qurd düşüb qara,***
***Ömrün güneyində quzum mələyir.***

Bəli, Hüseynbala müəllim, mənəviyyatımızın ekologiyası pis gündədir, ürəyimizdə qövr eləyən tikan kimi, ağrıyan diş, yetişmək bilməyən çiban kimi zoqquldayır. bozaran dünyamız boz sifətlərə güzəşt imtiyazları verməyə amadədir.

Sonuncu dəfə yağış yağanda dedilər ki, palçıq yağıb, mən də gördüm... Bəli, təbiətin, kainatın ekologiyası pozulanda palçıq, qum, qurbağa, ilan-çayan yağır...

Mənəviyyatın ekologiyası pozulanda isə daş yağır... Daş düşur...

Elə bil zaman da, dünyamız da, özümüz də hədəfdən yayınınq, özümüzlə üz-üzə gəlməkdən çəkinirik. Burada qalırsan iki od arasmda:

*Hələ bu dünyayla çox işlərim var,*
*Atını səyridib*
*yolumdan keçir.*
*Döndərib doğanaq eyləyib məni,*
*Ozüsə sağımdan, solumdan keçir.*

*25 iyun 2004*

## HAMI BELƏDİRSƏ...

*Fariz ÇOBANOĞLU*

Hüseynbala Mirələmovun "Mənəviyyatın ekologiyası, yaxud iki od arasmda" publisistik düşüncələri qəzetimizdə dərc olunduqdan sonra bu mövzu neçə vaxtdır müzakirə obyektinə çevrilib və sanki özü ilə duruluq, saflıq gətirən bir bulağın, təbii çeşmənin gözünü açıb. Və hər bulağın suyu da dərdlərə dərman olmadığı kimi, şübhəsiz, hər yazılan yazı da ruha istənilən qidanı verə bilməz. Ancaq kimsə də deyə bilməz ki, insanın mənəvi aləminə güzgü tutmaq üçün deyilmiş sözlər, yazılmış fikirlər təsirsiz ötüşər, əsla yox. Unutmaq olmaz ki, havaya atılmış güllə belə hədəfə dəyməsə də, ən azı kimsəni diksindirir və qəfıl səsdən qorxan, diksinən adam dərhal ətrafına diqqətlə baxaraq səsin hansı tərəfdən gəldiyini anlaşdırmağa çalışır. Təsəvvür edin ki, bu, bir xarici təsirdir, məqsədli şəkildə insanın, daha doğrusu hər hansı bir fərdin müəyyən anda hisslərinin oyanmasına yönəldilmiş bir qıcıqdır. Bütün canlıların daha canlısı olan insan isə nə qədər nadan bir şəxs olsa belə, hər hansı qıcığa qarşı reaksiya verməlidir. Ta ki, beyni oyanmış olsun. Ətrafına açılmış güllədən sonra gözüaçıq baxmış olsun. Bax onda təhlükənin hansı tərəfdən gəldiyini, kim və nə olduğunu daha dəqiq görür, bütün qüvvəsini səfərbər edərək müdafiəyə hazır olur. İnsan üçün ən böyük təhlükə isə onun ruhunun xərçəngi - mənəvi aləmini, iç dünyasını görə bilməməsi, mənəvi korluğudur. "Mənəviyyatın ekologiyası, yaxud iki od arasında" məqaləsi ətrafında düşünənlər, bu istiqamətdə öz sözlərini deyən qələm adamları zaman-zaman bizi yaxalamış, indi isə artıq xırxaladığı bir məqamda bu təhlükəni dəf etməyin zəruriliyinin həyəcan siqnalını çaldılar. Ruslar hərbdə buna

“trivoqa” deyirlər. Özü də bu çağırışa hazır olmayan əsgəri ciddi cəzalandıraraq ömrü boyu yaddan çıxmayan bir dərslə “mükafatlandırırlar”. Ədəbiyyatın ağırlığını, məsuliyyətini öz çiyinlərində daşıyan, mənəviyyatında hiss edən hər bir qələm adamı da özlüyündə bir əsgərdir. Cəmiyyətin mənəvi saflığını qoruyan, tərəqqisinə xidmət edən bir əsgər. Zənnimcə, qəzetimizi oxuyan hər bir oxucu, hər bir ziyalı, hər bir elm və ürfan sahibi, nəhayət, əli qələm tutmağı bacaran hər bir vətəndaş bu məsələyə öz münasibətini bildirsə, rəy və mülahizələrini, ən başlıcası, müşahidələrini oxuculara çatdırsa yaxşıdır. Çünki sağlam cəmiyyət arzusunun göyərməsi, insanın hər cürə maddi və mənəvi rifahının yüksəlməsi yalnız mənəvi intibahla mümkündür. Xəstə ərzin sağalması üçün heç də zəngin, təbii sərvətlər kara gəlmir. Əgər gəlsəydi, yəqin ki, bu gün Azərbaycan bir ovuc erməninin qarşısında diz çökməzdi. Bəlkə də, politoloqlar, hərbi-siyasi xadimlər müharibədə uduzmağımızın səbəbini tamam başqa cür izah edərlər. Nə qədər müxtəlif cavablar eşitsək də, müxtəlif, şərhlər, izahlar ortaya çıxarılsa da, son düzgün qərar mənəvi-psixoloji hazırlığın vətəndaş təəssübkeşliyinin üstündə dayanmalıdır. Bir sözlə, elmdə, ədəbiyyatda, sənətdə, incəsənətin müxtəlif növlərində yenilik axtaranlar ilk növbədə mənəviyyatlarında yeniliyiə - insanlığa xidmət edən yeniliyə nail olmalıdırlar. Bu barədə, qəzetimizdə məqalələri dərc olunan tanınmış söz adamlarından Ə.Fərzəli, S.Tahir, İ.Tapdıq, N.Hacızadə və həmkarım Elçin Kamaldan sonra söz deməyə çətinlik çəksəm də, bir vətəndaş olaraq məni narahat edən məsələləri deməkdə borcluyam. Və mənə elə gəlir ki, buna mənim mənəvi haqqım çatar. Əvvəlcə onu demək istəyirəm ki (xahiş edirəm bunu irad kimi qəbul etməyin), məndən əvvəl mənəvi-əxlaqi dəyərlərin ucuzlaşmasını, cəmiyyəti için-için yeyən mənəviyyatsızlıq sindromunun kütləvi xarakter almasını qeyd edən müəlliflər yalnız sözügedən xəstəliyin - mənəviyyatsızlığın nəzərəçarpan, daha çox görünən tərəflərini qeyd etməklə kifayətləniblər. Mənə elə gəlir ki, kütlənin küll halında görə biləcəyi tərəflərdən söhbət açmaq çox azdır. Xəstəliyi doğuran, yaradan, kütlənin görə bilmədiyi amillərdən danışmaq bir qədər də faydalı olardı. Adətən naşı həkimlər başı ağrıyan xəstələrə “Analgin” atmağı məsləhət görürlər. Təcrübəli həkimlər isə başın niyə ağrıdığının səbəblərini üzə çıxardıqdan sonra əsaslı surətdə müalicəyə başlayırlar.

Əlbəttə, bu səbəbləri mənəvi mühitin zəhərlənməsinə şərait yaradan amilləri sadalamaq heç mənim də işim deyil. Ancaq onu bilirəm ki, ziyalılar cəmiyyətdə mənəvi-əxlaqi dəyərlərin daşıyıcısı hesab olunurlar. Haqq-ədalət uğrunda mübarizədə öndə getməlidirlər. Odur ki, mənəvi-ekoloji tarazlığın pozulmasında birinci növbədə elə ziyalılar günahkardırlar. Ziyalı məfhumu "ziya" sözündən yaranıb; nur, işıq deməkdir. Və bu ziya, nur deyilən parıltını, insanın qəlbinə axan o işığı isə biz hər ziyalının üzündə tapa bilmirik. Yalnız nadir hallarda rast gələndə sevinirik. "Pa atonnan, kişinin sifətindən elə bil nur yağırdı", - deyə təəccüblənirik. Bir anlığa təsəvvür edin ki, yaşadığımız cəmiyyətdəki ziyalıların hamısı belə ürək açandır və hər kəs beləələri ilə ünsiyyətdə olmağa nə qədər dərin ehtiyac duyur. Onda görün dünyamız nə qədər gözəl görünərdi. Tanrı öz yaratdığına baxıb bütün bəlaları yer üzünün əşrəfi sayılan insandan kənar etməzdimi. Çox təəssüf hissi ilə qeyd edirəm ki, ziyalıların böyük əksəriyyəti bu şərəfli adı yalnız ləkələməyə çalışırlar. Onlara necə ziyalı deyəsən? Görün iş nə yerə çatıb ki, ziyalı adamların yaxşı və pis olduğunu fərqləndirmək üçün "ziyalı" sözünün əvvəlinə hökmən gəlişigözəl sözlər əlavə edirlər. "Filankəs olduqca xeyirxah, əxlaqlı və çox səmimi bir ziyalıdır" - deyirik. Hətta bəzən ziyalı məfhumuna yanaşma tərzində də yanılırıq. Əksər vaxtı ziyalı o kəsləri hesab edirik ki, ali təhsillidir və yaxşı bir işdə çalışır. Həqiqətdə isə ziyalılıqdan heç bir əsər-əlamət yoxdur. Məhz beləələri ictimai mühitdə ziyalı adına qarşı mənfi rəy formalaşdırır, cəmiyyətdə öz danışığı, hərəkəti və əməli ilə mənəviyyatları zədələyir.

Xalq yazıçıları Anarı, E.Əfəndiyevi respublikanın əhalisinin böyük əksəriyyəti ziyalı kimi qəbul edir. Di gəl ki, Anarın, Elçinin kitabını yandıranlar da tapılır. Gələcəkdə özlərini onların yerində görmək arzusu ilə oda-közə vururlar. Faciə orasıdır ki, bu adamlar həm də özlərini ədəbiyyat, poeziya həvəskarı hesab edirlər. Hələ "novatorluqlarını" bir kənara qoyuram. Heç olmasa, onu da bilmirlər ki, kitab onların özlərinin də hər hansı məqsəd üçün istifadə etdikləri çox zəngin bir xəzinədir. Yandırdıqları kitablar mədəni irsimizi, tariximizi, milli adət-ənənələrimizin öyrənilməsində və gələcək nəsillərə ötürülməsində xüsusi rol oyanayan qiymətli sərvətdir. İndi özünüz düşünün, kitabı yandıran ziyalıdan (əgər onlara ziyalı demək

mümkünsə) xalq necə faydalana bilər? Yaxud bizim müasir ədəbi gəncliyin səviyyəsi büdursa, xəstə mənəviyyatlar necə sağala bilər? Hərdən öz-özümə sual verirəm ki, görəsən zamanın ala-toranından, gündoğanından üzü bəri min illərdir hürr doğulub, hürr yaşamış bir millətin üstündən hansı bəd külək əsdi ki, qara üz, polad qılınclara boyun əyməyən xalqın övladları bu qədər xırdalandı, cılızlaşdı. Vüqarını, əzəmətini, yenilməz türk qüdrətini hər şeyə dəyişdi. Bu gün orta yaş həddində olan şairlərin, özü də istedadlı, ilhamlı şairlərin yaradıcılığını vərəqləyəndə qəlbim yanır, ürəyim dağlanır. Oxuduğum şerlərdə müəlliflərin özünüintiharını görürəm, acıdan-acı etiraflarını görürəm. Qəpiyə-quruşa satıldıqlarından hisslərinin, duyğularının heç cürə barışa bilmədiyi yalançı tərifə getdiklərindən yeri gəldi-gəlmədi, kiminsə şəninə çəpik çaldıqlarından istedadlarını boğazını yaşlamaq xatirinə xərclədiklərindən ağrı-əzab çəkdiklərinin şahidi oluram. Buna mənəviyyatsızlıq deməyə dilim gəlmir. Axı necə deyim? İnsanı məcburiyyət qarşısında qoyurlarsa, çörəyi bu yolla verirlərsə necə qınayım? Deyiləsi məsələlər çoxdur, hansını deyim? Bəyənmədiyimiz sovetlər dövründə insana nəzarət, qaygı vardı. Hər kəs peşəsinə, sənətinə uğyun özünə iş tapıb ailəsini, uşağını dolandıra bilirdi. İndi iqtisadi çətinliklərlə üzləşmiş yüzlərlə ailələr var və onlar öz uşaqlarını da məktəbdən, təhsildən ayırıb çörəkpulu dalınca göndərməyə məcburdurlar. Küçədə qızılgül satan uşaqdan soruşanda ki, niyə məktəbə getmirsən? Deyir: - Anam deyir ki, görmürsən, oxuyanların hamısı aralıqda qalıb? Atan bir ay işləyib səkkiz “şirvan” evə pul gətirir, sənsə atanın bir ay gətirdiyini iki-üç günə qazana bilirsən. Bu, o deməkdir ki, artıq elmə, təhsilə, istedada qiymət verilmir. Əgər verilmirsə, sağlam mənəvi mühit formalaşa bilərmi?

Deyirlər kamillik elmlə ruhun vəhdətindən yaranır. Bütün elmlərin bünövrəsini insanlar ilk dəfə müəllimdən öyrənirlər. Bu gün orta məktəb müəllimlərinin vəziyyətinə baxıb “şaxsey-vaxsey” vurmağa ana-bacı gərəkdir. Maddi böhran içərisində boğulan müəllim hansı şagirdə mənəviyyat təlimi keçə, elmin, zəkanın əvəzsiz sərvət olduğunu anlada bilər? Əlbəttə, mümkünsüzdür. Cəmiyyətdə mənəvi-ekoloji tarazlığın pozulmasnın esas səbəblərindən biri də işsizlik problemidir. Bu problemlə qabaqlaşan adamlar hər cürə mənəvi əxlaqi dəyərləri ayaqlarının altına atıb hansı vasitəyləsə ailəni dolandırmağı üstün tuturlar. Xanımlarını öz əlləriylə Dubaya,

Türkiyəyə, İrana yola salan kişilər məgər bilmirlərmi ki, namuslarına kəsir gəlir, şərəfləri kiminsə ayaqları altında tapdamr. Gecə nəqliyyat yollarının üstündə örtüyə bürünüb ləyaqətini, ismətini satmağa çıxan qız-gəlinlər də çörəyini alış-verişlə qazanırlar. Küçələrdəki dilənçilərin yaş həddi hüdudsuzdu. Körpə uşaqdan tutmuş cavanına, qocasına qədər rast gəlmək olur. Doğrudur, bu cür dilənçiliklə çörək qazanmağı özlərinə peşə seçən adamlar da çoxdur, lakin böyük əksəriyyəti zamanın, dövrün məhsuludur. Bütün mənəvi dəyərlərin uca tutulması, şəxsiyyətin bütövlüyü, tamlığı üçün insanın maddi təminatı əsas şərtlərdən sayılır. Əgər bu təminat minimum səviyyədə də deyilsə, mənəviyyatdan söhbət açmaq, ictimaiyyətə mənəviyyat, əxlaq dərsi keçmək əbəsdir. Yəqin ki, bu gün irsi öyrənilməyən, təbliğ olunmayan və çoxlarının bəyənmədiyi Mirzə Cəlilin məşhur "İki alma" hekayəsini oxumamış deyilsiniz. Hər halda, hekayənin qısa məzmununu xatırladıram: "Oxumuş, təhsilli bir ziyalı öz uşağının əlindən tutub gedərkən bir dilənçi uşaq onlara əl açır, kömək istəyir. Kişi ziyalı olduğundan uşağı xeyli təhər-töhmət edib dilənçiliyin yaxşı peşə olmadığım ona uzun-uzadı başa salmağa çalışır. Ayrılıq məqamında kişinin öz oğlu əlində tutduğu iki almanın birini dilənçiyə uzadır".

Budur bizim axtardığımız mənəviyyat; uşağın hərəkətini deyirəm. Yəni ziyalılıq sözdə yox, əməldə olanda xalqa fayda verə bilir, mənəvi tərəqqiyə xidmət etmiş olur. Zəruri anda kiminsə dadına yetməkdə, ehtiyacını ödəməkdən böyük ziyalılıq ola bilərmi?

Həzrəti Əlinin kəlamıdır: "Yaxşılıqla insanları qul etmək olar". Bu fikri müxtəlif tərəflərə yozmaq olur. Əsas məna budur ki, insanı məhəbbətlə tərbiyə etmək asandır, nəinki ona nifrət edəsən. Yaşadığımız cəmiyyətdə insanların bir-birinə məhəbbətdən çox soyuq münasibətini, düşmənçilik hissləri ilə bir-birini dalamasını müşahidə edirəm. Elə bil bizə Allah qarğışı keçib, Ən böyük düşmən - erməni qalıb kənarda, özümüz-özümüzü qırmaq istəyirik. Bu da yalnız bizim millətə məxsus mənəviyyatdır.

Torpaqları yad ölkəyə - düşmənə satmaq da yalnız bizlərə məxsus mənəvi keyfiyyətdir.

...Dünən axşam həyətə çıxmışdım. Laçınlı qonşumuz 90 yaşlı Anaxanım nənənin kövrək sızıltılarını eşitdim. Laçının Qaragölündən danışırdı. Dedi ki, ay bala, Qaragölü hələ biz Laçından çıxmamışdan xeyli qabaqlar satmışdılar ermənilərə. Onlar da bizim gölün balığını tutub bizə pulla satırdılar. Demək, biz pulsuzlayanda torpağı da sata bilirik. Bax budur bizim mənəviyyatın ekologiyası. Həmin o torpaqları satanlar da ziyalıdırlar. Hansı ki, prezident seçkiləri ərəfəsində yenidən hakimiyyətə gəlməyə can atırdılar. Görəsən, indi haranı satmaq fikrindəymişlər. Axı insanın həyasızlığının da bir həddi-hüdudu olmalıdır. Mən o adamları nəzərdə tuturam ki, hakimiyyətə gəlməyin, siyasi mübarizənin ideoloji yollarını, üsul və vasitələrini də bilmirlər. Yadınızdadırsa, mərhum prezidentimiz Heydər Əliyevi az qala ölümünə görə ittiham edirdilər. Xəstəliyini dillərində şüar edib harda gəldi, şəxsiyyəti təhqir xarakterli yazılarla çıxış edirdilər. Bu da bir cürə ziyalı mənəviyyatsızlığıdır. Görəsən o ziyalılar XVII əsr ingilis mütəfəkkiri Con Donku oxuyublarmı? Con Donk ruhanidir və təsadüfən demirdi ki, əgər bir gün kilsə zənginin harayını eşitsən soruşma, kımdır dünyadan köçən. Adi sözlərlə deyilmiş bu müdrik kəlam böyük bir mənəviyyat dəstanıdır. İnsanın kamillik mərtəbəsində qərar tutduğu ən uca zırvədən oxuduğu sevgi nəğməsidir. İnsanları bir-birinə doğmalaşdıran, qırılmaz tellərlə bağlayan ruhani, sevgi nəğməsi.

Bu yerdə dediklərimə nöqtə qoymaq istəyirdim. Ancaq qəflətən bu yaxınlarda bir dostumun mənə tutduğu iradın cavabında özümü sığortalamaq məqsədilə - eh, onsuz da hamı belədir, deməyim yadıma düşdü. Qraf Tolstoyun ən çox qorxduğu və ən böyük təhlükə hesab etdiyi “Hamı belədir!” ifadəsi. Əgər hər kəs cəmiyyətdə baş verən xoşagəlməz- hallara görə özünü də günahkar hesab etmirsə, özünə nəzarət edib qüsurlarını görmürsə və əvəzində “hamı belədir” deyirsə, onda, vay bizim halımıza. Və əgər doğrudan da hamı belədirsə, yenə vay bizim halımıza.

**5 iyun 2004**

## HƏYƏCANA ƏSAS VAR

***Hidayət SƏFƏRLİ***

Hörmətli redaksiya! Tanınmış yazıçı-publisist Hüseynbala Mirələmovun 24 aprel 2004-cü il tarixli “Kredo” qəzetinin 33-34-cü sayında dərc edilmiş “Mənəviyyatın ekologiyası, yaxud iki od arasında” adlı publisistik düşüncələrini ürək çırpıntılarından doğan həyəcan hissilə, dərin bir maraqla oxudum. Burada ifadə olunan fıkirlər tanınmış yazıçını daim naharat edən məsələlərdir və onun zəngin, dərin məzmunlu yaradıcılığının əsas qayəsini, ideya istiqamətini müəyyən edir. Bu publisistik düşüncələr onu göstərir ki, H.Mirələmov çoxları kimi ətrafda baş verən neqativ hallara laqeyd qala bilmir, vicdammn səsinə qulaq asaraq həyəcan təbili çalır, vətəndaş narahatlığını, yazıçı uzaqgörənliyini ifadə etməklə mənəvi rahatlıq tapır, onun həlli yollarını arayır. Yazıçı haqlı olaraq qeyd edir ki, bu gün mənəviyyatımızda gedən müharibə bədxah qonşularımız tərəfındən bizə qarşı aparılan ədalətsiz müharibədən daha dəhşətlidir, daha ağır nəticələr verə biləcək faciəvi sonluğa malikdir.

Dahi frarisız bioloqu Lui Battan yazırdı: “Ya insanlar elə edəcəklər kı, havada tüstü azalacaq, ya da tüstü elə edəcək ki, Yer üzündə insanlar azalacaq”. Lui Battan bu sətirləri yazarkən bəşərıyyəti sülh və müharibə problemindən sonra daha çox narahat edən ekoloji problemə toxunmuşdur. Əgər bəşər övladı bu problemin həlli yolunda yaxşılığa doğru əsaslı dönüş yarada bilməsə, özünün yaratdığı bu böhranlı, ekoloji şəraitin qurbanı ola bilər. Məqaləni oxuyarkən məndə belə bir fıkir formalaşdı: Təbiətdə, bizi əhatə edən ətraf aləmdə müşahidə olunan ekoloji problem mənəviyyatın ekologiyasından doğur. Çünki mənəviyyatımız təmiz deyilsə, ekologiyamız da təmiz olmayacaq. Bu ifadənin qoyuluş tərzi, milli-mənəvi dəyərlərimizdə baş verən aşınmaların “mənəviyyatın ekologiyası” adlandırılması yazıçı H.Mirələmova məxsus sərrast, həm də obrazlı deyimdir. O, yazır: “Yuxarıda “ekoloji tarazlıq” ifadəsi işlətdim. Qayıdıram həmin məntiqə... Əlbəttə, bu qeydlərimdə təbiətlə canlı aləm arasında münasibət haqqında danışmaq fikrində deyiləm. Mən belə hesab edirəm ki, cəmiyyətlə onu təşkil edən insanlar arasmdakı münasibətlər daha ciddi ekoloji problemlər doğurur. Artıq həmin termini mən bir qədər məcazi mənada işlədirəm”.

Cəmiyyəti formalaşdıran insanlar arasındakı qarşılıqlı münasibətlər psixologiya elminin tədqiqat obyektidir. Təklik yalnız yeganə olan varlığa - Allaha məxsusdur. Hər birimiz ata, ana qayğısına, bacı-qardaş ünsiyyətinə, dost-yoldaş ülfətinə, kiminsə sevgisinə möhtacıq. Təəssüf ki, bu insani münasibətlər həmişə lazımi səviyyədə olmur, bu münasibətlərin pozulması isə ata-anaları qocalar evinə, uşaqları isə uşaq evinə məhkum edir, boşanmalar nəticəsində uşaqlardan bir qismi atasız və ya əksinə, anasız böyüyür. Bu gün gəlin-qaynana münasibətləri o həddə çatıb ki, gənc ailələrin xeyli hissəsi ata-baba ocaqlarından uzaqlaşıb, yurd yerlərimiz nənə və babalarımızın ümidinə qalıb. Övlad var ki, aylarla, illərlə ata-anasını itirib-axtarmır. Ölüm xəbərini eşidərkən “xala xətrin qalmasın” göz yaşı tökür. Bütün bunlar nəyə lazımdı, “daldan atılan daş topuğa dəyər” məsəlini xatırlatmırmı? Bu mühitdə böyüyən uşaqlardan cəmiyyət gələcəkdə nə gözləyə bilər, bu, bizləri mənəviyyatın gələcək ekologiyasına, onun daha dəhşətli formasına yaxınaşdırmırmı? Axı qocalar evindəki atılmışların, uşaq evlərindəki kimsəsizlərin sayı bugünkü reallığı tam əks etdirmir. Bir damın altında şam kimi əriyərək təklikdə dünyasını dəyişən ata-analarımız, küçələrdə dilənməyə, bit tikə çörək üçün ən ağır fiziki işə qatlanmağa məcbur olan körpə balalarımız var. Bax budur mənəviyyatm ekologiyası.

Çox hörmətli H.Mirələmov “iki dünyanın arasında, iki düşüncə tərzinin qovuşacağında əziyyət çəkən xalqı”na yardımçı olmağa çalışaraq azadlıq və demokratiya haqqında öz düşüncələrini bölüşür. Azadlıq və demokratiya heç də özbaşınalıq deyil. Onun bizə verdiyi imkanlardan sui-istifadəyə heç kəs yol verməməli, onu “cana fayda verən həblər kimi qəbul etməliyik”. Bu gün klub və kinoteatrlarımıza, televiziya ekranlarımıza “ayaq açan” erotik, qəddarlığı, amansızlığı təbliğ edən “boevik” filmlər azadlıq və demokratiya pərdəsi altında gizlənən bir qrupun maddi gəlir mənbəyidir. Bu cür filmlərin geniş tamaşaçı auditoriyası olan televiziya ekranlarında nümayiş etdirilməsi daha dözülməzdir. Çünki ekran qarşısında həm qocalar, həm qadınlar, həm də uşaqlar əyləşir, onların mənəviyyatı zədələnir. Tez-tez kanalları dəyişmək məcburiyyətində qalan valideynlər həmin anda hansı hissləri keçirir hər birimizə aydındır. Braziliya, Meksika həyat tərzini əks etdirən teleseriallarm, ayrı-ayrı əxlaqsızlıq yuvaları nümayiş etdirilən kadrların, qadınların

“Dubay səfərləri”ndən bəhs edən tamaşaların hansı tərbiyəvi əhəmiyyətindən danışmaq olar? Axı bütün bunlar dost və düşmənlərimiz arasında xalqımız barədə fikir formalaşdırır. “Bəlkə də həmin biabırçılıqları bütün çılpaqlığı ilə göstərməyə lüzum yoxdur. Bəzən bu cür mübarizə daha pis nəticələr doğurur. Axı mənəviyyat paltara bənzəmir: köhnələndə təzəsini alasan”. Haqlısınız, Hüseynbala müəllim!

Pul elə bir populyar, məşhur iqtisadi amildir ki, onun vasitəsilə insanlar, xalqlar, ölkələr arasında iqtisadi və mədəni münasibətlər həyata keçirilir və daim təkrar olunur. Pulun arxasında insanlar durur, onların bir-birilə qarşılıqlı münasibətləri gizlənir. Pula fövqəltəbii bir qüvvə kimi baxanlar, puldan ötrü hər cür cinayətə əl atanlar onun əsl mahiyyətini və həyata keçirdiyi funksiyalarını dərindən dərk edə bilmirlər. Bu zaman pul talançılığı, çapqınçılığı, cinayətkarlığı törədən mənfi amilə çevrilir. Ən təhlükəli hal budur ki, pul bütün insani hissləri üstələyir, bir növ onu özünə əsir edir, xəbis xislətli varlığa çevirir. Unudulmaz şairimiz Sabir demişkən: “Tanrı hər yerdə pulu bir ürəyi səxtə verir, mərifət müftədi çün kasıbi-bədbəxtə verir”. Bəzi adamlarda pula hərislik o dərəcəyə çatıb ki, hətta salam verərkən, sağ ol deyərkən də səndən pul umur. Utanıb-qızarmadan “quru salam”, “quru sağ ol” ifadələrini işlədərək milli dəyərlərimizə arxa çevirir, ata oğulun, oğul atanın, qardaş qardaşın, bacı qardaşın əlinə göz dikir. Pulun varsa sənə hörmətlə yanaşırlar, vəzifən varsa qarşına qaçırlar, təzim edirlər. Cavanları heç demirəm, qocalarımız, ağsaqqallarımız üçün bu, bağışlanmaz haldır. Bir yas məclisində baş verən hadisə dediklərimə əyani misal ola bilər. 70–80 yaşlarında bir ahıl kişinin oğlu yaşda olan vəzifəlinin qarşısına əzilə-büzülə necə yaxınlaşdığını, hətta onun əlindən öpməyə cəhd göstərməsini xəcalət hissilə seyr etdim. Pul sahibi, vəzifə yiyəsi olmaq heç də əsas vermir ki, ağsaqqal özünü onun qarşısında alçatsın, özünü gülünc vəziyyətə qoysun. Ağsaqqal yerində olmayanda, ağbirçəyin sözü eşidilməyəndə mənəviyyatımızda aşınmalar labüddür.

H.Mirələmov yazır: “Avropa adət və ənənələri, Avropa düşüncə tərzi çox sürətlə mənəviyyatımıza daxil olur. Ədalət naminə etiraf etmək lazımdır ki, biz bundan imtina edə bilmərik. Bu gün Qərbi Avropanın bir çox üstünlükləri var ki, biz bundan imtina edə bilmərik”. Bu, həqiqətdə belədir. 80-ci illərin əvvəllərində Sovet

Ordusu tərkibində Macarıstanda hərbi xidmətdə olmuşam. Dyor şəhərində gördüyüm səliqə-sahmanı, insanların öz doğma şəhərlərinə qayğılı münasibətini nə Bakıda, nə də başqa şəhərlərimizə görmürəm. Yol kənarlarında əkilmiş meyvə ağaclarına əlini uzadan, küçələrdə qoyulmuş ərzaq məhsullarına, özü də sahibsiz satış mallarına toxunan bir adama da rast gəlmədim. Macarların qeyd etdiyinə görə, 1958-ci ilə kimi, yəni Sovet Ordusunun oraya gəlişinə qədər mağazalarda satıcıya və hər hansı bir gözətçiyə ehtiyac duyulmayıb. Elə bizim mənəviyyatımıza da müəyyən dərəcədə Sovet hakimiyyəti illərində zərbə vurulub. Macarlarm daha bir gözəl xüsusiyyətindən bu gün bəhrələnmək olar. Onlar avtobus dayanacaqlarında dayanıb o zamana qədər gözləyirlər ki, oturmaq üçün boş oturacaqları olan avtobus gəlsin. Bütün oturacaq yerləri dolmuş avtobusa minmək mədəniyyətsizlik sayılır. Çünki hər hansı bir adamın dolu avtobusa minməsi kiminsə narahatlığına səbəb olur, buna isə yol vermək olmaz. İndi gəlin bir anlıq Bakının küçələrini, onun küçələrində o yan-bu yana şütüyən mikroavtobusları göz önünə gətirək. “QAZel” deyilən bu minik vasitəsində nəinki boş oturacaq, heç ayağını qoymağa da boş yer tapmazsan. Eyni marşrutda işləyən digər “QAZel”dən önə keçmək üçün dəridən-qabıqdan çıxan sürücünün avtobusda baş verənlər heç vecinə də deyil, onu daha çox pul qazanmaq maraqlandırır. Həyat yoldaşı, qızı, anası ilə bu avtobusa minənlər cəhənnəm əzabı çəkirlər, bu adam ifrat dərəcədə qısqanc olarsa, daha dəhşətli mənzərələr yaranır, insanlararası münasibətlər pozulur.

Bar və diskotekaları, restoran və şadlıq evləri ilə zəngin olan şəhərimizdə təəssüf ki, kitabxanaları, kitab mağazalarını barmaqla saymaq olar. Bu gün internetin imkanlarından istifadə edən gənc nəsil mütaliədən uzaq düşməklə milli-mənəvi dəyərlərimizdən də uzaq düşür. Latın qrafikalı Azərbaycan əlifbasını bilməyən orta və yaşlı nəsil üçün isə bu məsələ daha ağrılı hal alıb. Bədii ədəbiyyat həyatı bədii obrazlarla əks etdirərək yeni insan tərbiyə edir, onun hərtərəfli bir insan kimi formalaşmasında müstəsna rol oynayır. Kitab mağazalarında müşahidə etdiyimiz bahalıq, kitabxanalardakı oxucu sayının az olması hər birimizi narahat etməlidir. Bir də ki, torpaqlarının 20 faizi işğal altında olan bir ölkədə bu qədər əyləncə yerlərinə ehtiyac varmı? Sanki dəbdəbəli şadlıq evlərində dəbdəbəli toyların yarışına girmişik.

Bəy-gəlin taxtında bəzən “papalarının gül balaları” olan gənclər əyləşir, bu izdivaclar ən möhtəşəm şadlıq saraylarında keçirilsə də uzunömürlü olmur. Çünki belə gənclər hər cür imkana malik olsalar da mənəviyyatca şikəstdirlər. “Hay-küyün, daha çox bayağı musiqinin təsiri altında dumanlıqlar içində xumarlanan gənclərin bir çoxu - mən onları bəlkə də qınamazdım, çünki insan cəmiyyət tərəfindən nəzarətdə olmadıqda onun təbiətindəki mənfı keyfiyyətlər daha çox qabarır, üzə çıxır - bu şəraitdə istirahət evlərində, restoranlarda yaradılmış əxlaqsızlıq şəraitindən “bəhrələnməkdən” vaz keçmirlər”. Bəli, gənclərimizi bu gün daha çox idman oyunları saraylarında, rəsm qalereyalarında, kitabxanalarda, teatrlarda görmək istərdik.

Mənəviyyatımızın düzgün formalaşması müəllim-şagird, müəllim-valideyn münasibətlərindən çox asılıdır. Cəmiyyət öz müəllimlərinin, bütövlükdə təhsil sisteminin qayğısına qalmalıdır. Bəzən məktəbə, ayrı-ayrı müəllimlərə, müəllimlik sənətinə ünvanlanmış tənqidi fıkirlər təhqir həddinə çatır. Bu isə şagird-müəllim, valideyn-müəllim münasibətlərini korlayır. Mən heç də təhsil sistemində neqativ halların olduğunu inkar etmək fıkrində deyiləm. Amma bunu tam çılpaqlığı ilə televiziya ekranlarına çıxarmaq, hətta orta məktəb şagirdlərinin məktəb və müəllimlər əleyhinə çıxışlarını təşkil etmək, valideynləri də bu diskussiyaya cəlb edərək şou yaratmaq hansı məqsədləri güdür? Bu barədə o adamlar danışır ki, məktəblə heç bir əlaqəsi yoxdur, məktəbin ehtiyacını, şagirdin adi bir qələm, dəftər ehtiyacını ödəməyib. Danışmağa sözü qalmayan şou aparıcıları, əyləncəli verilişlərin iştirakçıları da bu incə məsələyə öz qabiliyyətləri çərçivəsində yanaşır, müəllimə ünvanlanmış dayaz fıkirləri ilə öz dayaz düşüncə tərzlərini də nümayiş etdirirlər. Bu adamlar yaxşı olar ki, “Bizim Cəbiş müəllim” fılmindəki Cəbiş müəllim, “Həm ziyarət, həm ticarət” fılmindəki Mustafa müəllim obrazlarını gözləri önünə gətirsinlər, müəllimə sələflərinin qiymət vermək bacarığından öyrənsinlər. Ümumiyyətlə, ixtisasından, peşəsindən, dini və milli mənsubiyyətindən asılı olmayaraq hər hansı bir insanın heysiyyətinə toxunulması yolverilməz bir haldır, mənəviyyatsızlığın təzahürüdür.

Hüseynbala Mirələmov məqalənin sonunda yazır: “Yazıçı dostum, hardasan danış! Mən səni eşitmək istəyirəm. Bəlkə, nəyisə düz demədim?”. Artıq bu yazı mətbuatda geniş əks-səda yaradıb. Ürəklərdə yığılıb qalan ağrı-acıları üzə çıxarıb. Xalq şairləri Söhrab Tahir, İlyas Tapdıq və başqaları fikirlərini geniş oxucu kütləsi ilə bölüşüblər. Hər bir yazı sizin yerində deyilmiş ağıllı fikirlərinizin təsdiqinə çevrilib. Siz bütün məqamlarda haqlısınız, Hüseynbala müəllim. Mən də bu yazımla heç də Amerika kəşf etmədim, dediyiniz fıkrləri təkrar etməklə sizinlə bütün məsələlərdə həmfıkir olduğumu göstərməyə çalışdım. “Mənəvi eybəcərliyi, əxlaqsızlığı, üstümüzə yeriyən mənəvi işğalı açıq-aşkar görən” bir insan kimi susa bilməzdim, buna mənim mənəvi haqqım yoxdur. Çünki Azərbaycan mənəviyyatının üstündən keçib gedən addım səslərini mən də eşidirəm. Və xalqımın hər an üzləşə biləcəyi ağır nəticələrdən qorxuram. Tanrı bizləri qorusun!

**19 iyun 2004**

## MƏNƏVİYYAT YOLUNDA...

***Əlibala ZALOĞLU***

Bəşər tarixində insanlığın unutmayacağı bir əbədi mövzu var, bir ədəbi söykənc yeri var. İnsan kamilliyinə bir əbədi və işıqlı yol var. Bu mənəviyyat mövzusudur, bu Arximedin axtardığı istinadgaha bərabər olacaq, dayaq, söykənc olan mənəviyyat aləmimizdir, bu mənəviyyatdan keçən yoldur.

Məlum həqiqətdir ki, dünya ədəbiyyatı tarixində yaranmış və yazılmış, əbədilik qazanmış bütün əsərlər bu və ya digər şəkildə mənəvi məsələlərə, insan mənəviyyatının tərəqqisi naminə yazılıb, yaradılıb. Çox təəssüflər olsun ki, buna çox zaman dolayısı ilə, vasitə ilə ifadə etməyə çalışılıb, səy göstərilib.

Mənəviyyat mövzusunu müzakirə obyektinə çevirmək, ona səhifələr həsr eləmək bir ədəbi hünərdir, əxlaqsızlıq və əxlagsızlar dərəsinə daş atmaq deyil, qaya helləməkdir. Necə kı, yazıçı-publisist Hüseynbala Mirələmov bu hünəri göstərdi. Onun “Kredo qəzetində gedən “Mənəviyyatın ekologiyası...” yazısı güclü əks-səda doğurdu. Tanınmış qələm sahıbləri bu müzakirəyə qoşuldular.

Bu müzakirənin açılması, hamı kimi, mənim də ürəyimcədir. Bu, milli olduğu qədər bəşəri olan mənəvi dəyərlərimizin tənəzzülünün qarşısına hücum cəhdidir. Bu, könül, qəlb dünyasının qapısı mənəviyyat aləminə açılanlara dəstəkdir. Allah rəhmət eləsin, yaşı yüzdən keçmiş Pəri nənəm deyərdi:

**Mən aşıq qar altıdı,**
**Dağ başı qar altıdı.**
**Baxarsan adama bənzər**
**Əslində, qaraltıdı.**

Bu dünyada ləyaqət, namus, görüntü olub görəv yaradır. O ki, qaldı mənəviyyatımıza "çürüyüb, yoxdur" - sözlərini ürəkağrısı ilə deməyə məcburuq. Əgər varsa, aerokassada bilet alanların bileti kimə almağını, kimi yola salmağını saf-çürük etməliyik. Eləsi var ki, bilet alıb özü gedir, eləsi var ki, bilet alıb xanımını yola salır və yola salarkən tapşırır: "xahiş edirəm mənim xanımımdan muğayat olun". O da muğayat olur. Budur müasir Azərbaycan mənəviyyatı. Atam deyərdi ki, çoxdan, lap çoxdan bir dəfə tərəkəmə həyatının cavan vaxtlarında üstümə doqquz erməni düşdü. Yaxınlığımda da bir əmim oğlu dayanmışdı. Böyrümdə isə bir qara-ala itim vardı. Ermənilərlə döyüşdüm, mən vurdum, məni də vurdular. Haqq üçün mən qalib idim. Amma yaxınlıqdakı əmioğlum mənə itim qədər yaramadı. Budur bizim mənəviyyatımız. Bu gün əxlaqımızdan, tərbiyəmizdən nə umuruqsa, onu keçmişdən gətirməliydik. Mənəviyyat böyük anlayışdır. Mənəviyyat tərbiyədə, tərbiyə əxlaqda, əxlaq davranışda əksini tapır. Əgər bu gün biz davranışımızla əxlaqımızı, əxlaqımızda tərbiyəmizi inkar ediriksə yoxuq, bir heçik, küll halında inkarıq.

İnsan yaranandan insanlıq da yaranıb, yaşayıb, intişar tapıb. Şərəfli və şərəfsiz həyat yaşayanlar seçiliblər. Şərəflilər canlarından keçiblər. Qəm-kədər, könül naxoşluğu insanlara əyar olub. Qüssədən-qəmdən keçib haqqa tapınanlar yarıyolda büdrəməyiblər, üfüqə can atıblar, eşq üçün, sevgi üçün kama çatanlar, ürfanlılar, elmlilər olublar.

Bax, qohum-əqraba çağırır, haylayır, kömək istəyir filan yerdə işə düzəlmək üçün, əmək haqqı olsun deyə. Heç soruşmurlar ki, zəhməti nədir? Müxtəlif yerlərə

səyahət eyləyirəm. İşə düzəlmək təmənnasında olanların sayı-hesabı yoxdur. Qadınlı-kişili “hər şərtə” razılaşırlar. Bu “şərt”lər isə bizim mənəviyyatımızı çökdürür.

Üz tutaq ekrana; ən alicənab möhtərəm şairimiz, yazıçımız millət vəkilidir. Döşüyür e..., gözəl, qəşəng, çiçəkli, bəzəkli, əvəzedilməz, yaraşıqlı, kargüzar və s. bizim taleyimizi həll edənlər.

Qoy yaxşını-yamanı bilənlər, bilməyənlər taleyimizə gün yazsınlar, mənəviyyatımıza yoxsulluğun başı üzərindən əl yelləyib, ağı desinlər. Qoy aşınmış, tənəzzül eləmiş milli adətlərimizin köksünə xəncər sancan, insanlığın üzünə gülməyən, əhd-peyman anlamayan, qaranlıq gecələrdə sinsiməyən, insanlığını təsdiqdə iddia eləyən, “sultanlıq taxtında oturan insanların”, insanlığa qəribsəmişlərin, zəmanəmizə yal olanların və bir də qüsursuzların şərəfini varaqlayaq. Qoy kimsə bilməsin ki, yaranmışlara nəğmə oxuyuruq. Biz yarayanlara, yaradanlara, qəlbə hökm eləyənlərə yarayanlarıq. Mənəviyyat bir səhifədir kitabsızlar, vərəqsizlər oxuya bilməz. Mənəviyyat Avropadan gəlmir, Asiyasızdır, Amerikasızdır, dərdsizdir, şərtsizdir, yaxud mənəviyyat həm dərddir, həm də şərt. Mənəviyyat qızlarımızın kişi geyimi deyil. Mənəviyyat kişilərin boyası deyil.

Qardaşım deyirdi ki, mənim bir rəisim var idi, dodağına boya çəkirdi, sonralar o, nazir müavini işlədi. Bu günlərdə bir dostum isə söhbətimizdə filankəs “nazir bülbülün atası” dedi. O nadan mənəviyyat nədir anlaya bilməz. Yaxud Seyid Şuşinskidən, Xan Şuşinskidən, ya Cabbar əmidən damşanlar mətləbin arxasında mənəviyyatın dayandığını anlamalıdırlar.

Qəlbimə yağış yağır, şübhələr içində çırpınıram. Qarşımdakılar mənəviyyatın nə olduğunu bilmirlər. Zənnimcə, mənəviyyat, muğamlarımız, dostluq və sədaqətimiz, qibləmiz, əqidəmiz, könlümüz, vicdanımız və sairimizdir. Mənəvi yoxsulluğumuz isə ən böyük məğlubiyyətimizdir. Deyirlər ki, Tanrı kaman, yerlər ox, günahlar yay, nişançı Allah, nişangah insan olsa, o, hara qaçmalıdır? Şübhəsiz, Tanrıya sarı. Biz isə dağ arxasına, təpə arxasına, bir sözlə, daldalığa qaçırıq.

Üzümüzü mənəviyyat sorğusunda olanlara tutub deyirik: Ey mənəviyyat sorğuçuları, ey mənəviyyat axtaranlar, açın gözünüzü, açın qulaqlarınızı əməlinizdə

düz olsanız, yerişinizdə, sözünüzdə, dolanışığınızda düz olsanız tapacaq sizi düzlük! Mənəviyyatınız da öz-özünə yaranacaq. Ta ki, siz ondan imtina etməyəsiniz.

Bilirsiz əqidə nədir, bilirsiz mənəvi düzlük nədir? Yox, bilmirsiniz. Bilsəydiniz bu əngəllər baş verməzdi. Bilirsiniz nəyi deyirəm? Küçələrdəki dilənçiliyi, əşyalarınızı götürüb qaçan oğruları, sizə sağ ol deyib arxanızca lənət oxuyanları və s. Bax budur bizim mənəvi ekologiyamız. Çox eşidirəm, Suriyada, İraqda, Əfqanıstanda filan-filan olub. Əsl filanlar bizdədir. Torpağını satan, sonra da haqq qazanan, azad olunan, ona şüarlar yazan, ona şerlər deyən, çox hörmətli kürsülərdə oturan bizdədir. Bəs bu mənəvi ekologiya mənəviyyat aşınması deyil? Gözümüzün qabağında ordular basan, haqlar tapdalayan, insanın ömürlük həbsxanaya düşdüyünü və azad olunduğunu isə gördük. Kərəm əhlində zər, zər əhlində kərəmin olduğunu görməmişik. Yağıların basdığı, yağıların od qoyduğu oğulların bayraq qaldırıb tarana getdiyini görmüşük. Qiymətini aldığını görməmişik. Bəs bilmirikmi:

**“Zülmət gecələrdə yanmayan çıraq,**
**Günəşli gündüzdə yandı nə fayda.**

Tale bizə çoxlu mənəviyyat dərsi keçib. Qonşunun bostanına daş atmaq, könül sevdasını aldatmaq, ilqarı pozmaq və s.

Mənəviyyatımızdakı aşınmanı, tənəzzülü bəlkə de, qaçqınçılıqla, köçkünçülüklə bağlayırlar. Lakin bu, bu günün, dünənin, srağagünün işi deyil. Bunu Yusif Vəzir də, Əbdürrəhim bəy Haqverdiyev də, Üzeyir bəy Hacıbəyov da yazmışdır. Əslində bu, xalqımızın mənəvi-psixoloji yaddaşıdır. Nə poçt qutusunun yanında oturan Novruzəli, nə qonaqlıq söz verib axurda gizlənən Qurbanəlibəy bizim mənəviyyatımızın daşıyıcıları deyil. Onların kütləviləşməsi bizim mənəviyyatımızın əsasıdır. Mən Koroğlunun, Babəkin nəvəsiyəm deyənlər, həm də elə Məhəmməd peyğəmbərə (ə.s.), İmam Əliyə səcdə eləyənlərdir. Başa düşmürük, bu ikiüzlülük insanlığın ziddiyyətləridirmi? Əslində, İslamı sevənlər, Babəki sevməzlər, Babəki sevənlər İslamı sevməzlər. Bu, bir misaldır. Bunu dərk etməmək ilqarsızlıqdır, sevgisizlikdir, mənəvi düşgünlükdür. Qoy mənəviyyatdan dərs deyənlər bunun qütblərini anlasınlar. Harda, kim nə dayanır, ayırd etsinlər. İndi mənəviyyat qlobal problemdir. Hələ yaxşı alim olmaq, savadlı müəllim, yaxud yaxşı həkim olmaq,

zəlzələyə davamlı bina tikmək, yaxud tikdirmək, nərmənazik şerlər yazmaq kamil mənəviyyat sahibi olmaq demək deyil. Bu gün mənəviyyat məsələsi ilə bütün dünya filosofları, pedaqoqlar, psixoloqlar məşğul olmalıdır. Bir ölkədəki mənəviyyatsızlıq gec-tez digər ölkəyə nüfuz edir.

Tarix yorğun-arğındır. Özü ilə gətirdiklərini gələcək nəsillərə ötürmək üçün çox əziyyət çəkir. Bu gün "Yeddi gözəl" və bir çox müsabiqələr keçirilir. Bir anlıq düşünün: kişi arvadını, bacısını gözəllik müsabiqəsinə, gözəllik yarışına buraxır. Buyurun, bu kişinin mənəviyyatı haqqında nə istəyirsiniz yazın, deyin.

Köç-köç daşınan yurdumuz, ağla gəlməyən bəlalara düçar olan yurddaşlarımız ac-yalavac həmvətənlərimiz mənəviyyat dərsini dinləyərmi, yaxud onlara mənəviyyatdan nə danışsaq da kar kəsməz. Çoxdan, lap çoxdan - 10 il əvvəl bir tanışım mənə xahiş elədi ki, (o, məhkəmə işçisi idi) bir ünvana baş çəkək. "Mənzil mübahisəsidir, - dedi; getdik. Qapıda bizi qarşılayan üç mağazanın sahibi, əslən ağdamlı olan bir nəfər idi. Və ilk sözü bu oldu: yardım gətirmisiniz? Budur bizim mənəviyyatımız.

Yarlı-yaraşıqlı, bərli-bəzəkli evlərdə yaşayan, bəzəkli çarhovuzlarda yuyunan insanların mənəviyyatına şübhə eləmək şübhəlidir. Lakin təcrübə göstərir ki, toxun acdan xəbəri yoxdur. Milli Məclisin deputatı, şair Z.Yaqubun belə bir sözü var:

**Sevinc gəldi sünbüllədi dənimi,**
**Sevinc nədir, qəm-kədərin qənimi.**

Mən çox düşünmüşəm, qəm-kədərin mənəviyyata dəxli var. Atalar yaxşı deyib: ac qılınca çapar. Bəzən qəm də, kədər də aclığın üstə köklənir. Necə deyərlər, cib boş, əl boş, üz də ki, qara. Əslində isə bu, maddiyyat qanunudur. Məşhur rus mütəfəkkiri N.Cernişevski deyirdi: "Biz nə vaxt aclığın məngənəsindən qurtulsaq, onda mədəniyyət və fəlsəfə haqqında düşünərik". Deməli, mənəviyyatların əsasında həmişə olmasa da, çox zaman aclıq və səfalət dayanır. Folkner isə belə deyirdi: "Toxluqla dolan, ac günü yaddan çıxarma". Bax həqiqət budur. Elə fəlsəfə də, elm də bunu deyir. Kim olursan ol, içində dolaşanlarla hərəkətlərin arasında ziddiyyət yaranırsa, mənəviyyat qapın bağlıdır.

Böyük Şəhriyar zəmanənin böyük oğlu olsa da belə, dövlətin böyük mükafatını ala bilmədi. Elə qəbr evinə də o nisgillə getdi. Ömrünün sonunda: - Deynə, sənin şair oğlun Şəhriyar bir ömürdü, qəm üstündən qəm qalar", - dedi. Elə bu, bizə ən böyük mənəviyyat dərsidir.

Gəlin görək kim oturub öz-özünə mənəviyyat dərsi keçir. Keçmişdən üzü bəri dədələri ulu bilmişik. Bu haqda düşünəndə yenə ulu Şəhriyar köməyimizə gəlir.

**"Yaxşılığı əlimizdən aldılar,**
**Yaxşı bizi yaman günə saldılar".**

Yaxşılığı əlindən alınan bir xalq nə edə bilər? Mənəviyyat geniş anlayışdır. Orda bizim məişətimiz, əxlaqımız, dünyagörüşümüz, adi davranışımız öz əksini tapır. Təkrar da olsa yenə deyirəm, tərbiyə əxlaqda, əxlaq davranışda; davranış isə adi hərəkətlərdə əks olunur. Mənəviyyat isə bunların hamısında görünür. İnkar etmək olmaz, çoxlu bacı-qardaş izdivacları baş verir. Səbəbi harınlamışların gizli "kəbin"ləridir. Dana bilərik, amma, el ağzını da yummaq olmaz. Bu fakt ölkəmizdə var. Ala qapılar ağzında atılmış uşaqların tapılması, qocalar evinin artması, qardaşın-qardaşı darda qoyması, yaxud qardaşın-qardaşa faiz hesabı mənəviyyatın ekologiyası haqqında xəbər vermirmi? SOS deyilmi? Məşhur Azərbaycan yazıçılarından birinin əsəri var - "Ondan yaxşı qardaş yox idi". Bu, bizim mənəviyyat ekoloqlarımıza xəbərdarlıq deyildimi?

İnsan böyük hərflə yazılmalıdır. O, bunu qoruyubmu? Bu gün bir-birini aldadan, bir-birinə xəyanət edən insanın mənəviyyatı haqqında böyük hərflə danışmaq olarmı? Bu gün tələbə müəllimə əxlaq dərsi deyir, xəstə həkimə insafdan danışır, adilər məmurlardan mürvət diləyir. Bu diləklər yetirmi? Bu gün şairlər vicdan haqda şerlər yazır, dünyanın düzlüyü haqqında nəğmələr qoşurlar.

Vallah, dünya fırlanır. Allah sənə rəhmət eləsin Qalileo Qaliley.

Mənəviyyat elə bir okean, elə bir ölkədir ki, orda hər dürlü - nələr-nələr görünür. Qoy bizim başbilənlərimiz mənəviyyat dərsini 45 dəqiqəlik keçməsinlər, taleyin ümidinə də buraxmasmlar. Nə "Yeddi gözəl" müsabiqəsi, nə təhsilimizdəki özbaşınalıq, nə səhiyyəmizdəki hərc-mərclik, nə əxlaqımızdakı şərəfsizlik, nə məmur

özbaşınalığı hələ bizim mənəviyyatımızın özü deyil. Məşhur macar şairi Şandor Petefı deyirdi:

**Qalx macar, qalx macar,**

**Nə qədər ki, gec deyil**

**Ya barış biryolluq köləlik ilə,**

**Ya azadlıq yolunda sən də gəl dilə.**

Hər birimiz mənəviyyat yolunda dilə gəlməliyik. Bu, nə ayrılıqda prezidentdən, nə nazirdən, nə qəzetçidən, nə müəllimdən, nə də həkimdən asılıdır. Bu, hər birimizdən asılıdır. Bu, bütövlükdə xalqdan asılıdır. Xalq öz mənəviyyatının keşiyində durmalıdır.

**26 iyun 2004**

## MƏNƏVİ AŞINMANIN SONU

***İskəndər ETİBAR***

***- Elə bir dövrdə və elə bir mühitdə yaşayırıq ki, yuxudan kal oyanmış hər dılğır ən böyük klassiklərə hücum edə, onları söyüb təhqir edə bilər. Ən müqəddəs adların ünvanına ağzına gələn hərzə - hədyanı yağdıra bilər və cəmiyyət də bunu tam biganəliklə qarşılayar.***

***ANAR***

***Yazıçı dostum, hardasan, danış! Mən səni eşitmək istəyirəm. Bəlkə nə isə düz demədim?***

***Azərbaycan alimi, elmi tədqiqatlarından bir günlüyə də olsa ayrıl. Başını qaldır, səni əhatə edən mühiti saf-çürük elə. Sözünü de, Anamızın öyrətdiyi dili hələ ki, unutmamışıq.***

***Hüseynbala MİRƏLƏMOV***

Hərdən mənə elə gəlir ki, aşınmaya düçar olmuş mənəviyyatımız Çürümüş cəsəd kimi parça-parça tökülür. Sonra baxıram ki, yox, bu, bütünlükdə belə deyil, yaxşılarımız da çoxdu və cəmiyyətimizi aşınmadan qoruyur. Hamını eyni dərəcədə günahlandırmaq olmaz. Deyirlər ki, Danəndeyi Bəhlul gülməzmiş. Şah qardaşı elan

edir ki, kim onun gülməsini görsə mənə xəbər versin. Ət dükanının önündə dayanan Danəndeyi Bəhlul qəhqəhə çəkib gülür. Bunu şaha xəbər verirlər. Şah onu çağırıb gülməsinin səbəbini soruSun O deyir; - Şah, nə qədər olmasa qardaşıq. Mən elə bilirdim ki, ölkədəki günahlarına görə o dünyada mən də cavab verəcəyəm. Ət dükanında gördüm ki, qoyunu qoyun, keçini keçi ayağından asıblar...

Bu gün əlimizi qoynumuzda gizlədib o dünyanı gözləməyə haqqımız yoxdu. Çünki mənəvi eroziya, aşınma elə xəstəlikdir ki, qarşısı alınmasa sonu uçurumdur. Yazıçı, əxlaqlı ziyalımız Anar demişkən "hər dılqırın... hər müqəddəs ünvana ağzına gələn hərzə-hədyanı yağdıra bilər". Anardan fikir nümunəsi gətirməyim heç də təsadüfi deyil. Çünki son zamanlar zurnalistlər (jurnalistlər yox haa) ən çox tanınmış ziyalılarımızı qarşı-qarşıya qoyur, meydan qızışdırır. Özləri üçün oxucu cəlb etməyə cəhd edirlər. Onlar bu canfəşanlıqları ilə, şeytan obrazına girməklə milləti uçuruma aparmaqlarını qanırlarmı? Qanmırlarsa, qandırmaq çətindir. Onlar ötən illərdə Anarla Əkrəm Əylislini üz-üzə qoydular. 2004cü ildə Anarla professor Kamal Abdullanı qoç döyüşünə cəlb etməyə çalışırlar. Əminəm ki, onlar bu dəfə istədiklərinə nail ola bilməyəcəklər. (Bu haqda sonra) Azərbaycan Yazıçılar Birliyinə ildə 2-3 dəfə ya gedirəm, ya da yox. Anarla nə isti, nə də soyuq münasibətim var. Amma ədalət naminə danışmağı özümə borc bildim. Onu tərbiyəli, Vətən, millət uğrunda mübariz bir ailənin üzvü, xalqımız, Vətənimiz, ədəbiyyatımız üçün çox iş görən bir adam kimi qəbul etmişəm. Hərdən özümə sual verirəm; Anarın əleyhinə çıxmağa haqqın varmı? Bütün daxili üsyanımla cavab verirəm - Yox! Çünki nə mən, nə sən, nə də sənlər, mənlər Anarın bu xalq, Vətən üçün gördüyü işin 10-30 faizini görməyib. Görə biləcəkmi? Fikirləşirəm: Əvvəl çat, sonra şıllaq at, ay qardaş, ay dost, ay millət oğlu.

Yazıçılar Birliyinin XI qurultayına nümayəndələri təşkilatda seçərkən Anarın yadına düşməmişdim. Sonralar Çingiz Əlioğlunun keçirdiyi müşavirədə qurultay nümayəndəsi seçildim. Yəqin ki, kimsə buna qərəzli münasibət bəsləyər və qəzəblə deyərdi: - necə olur ki, 1-2 kitabı çıxan və ya çıxmayan, heç kimin tanımadığı adamlar Anarın yadına düşür, 10-12 kitabın müəllifi, "Tək səbir" qəzetinin redaktoru Anarın yadına düşmür?

Yada düşməmişəmsə, deməli günah özümdədir ki, özümü tanıda bilməmişəm. İnsan əvvəl özünü günahlandırmağı bacaranda, nə başqasından inciməyə, küsməyə bəhanə qalır, nə də insan qərəzçiliklə yaşayıb özünü məhv etmir. Nə cin atı gəlir, nə də minilir.

Ədəbiyyatımızın bu günkü mübarizliyi, yenilikçiliyi heç də göydən düşməyib, Anar ailəsinin başçısı, orjinallığına görə döyülən, təhqirlərə məruz qalan Rəsul Rzanın həyatı, dincliyini itirməsi hesabına formalaşıb. Anar da ilk addımdan yersiz təhqirlərə az məruz qalmayıb və o AYB-nin sədri işlərkən də ondan əvvəlki işlərində də yeniliyə can atıb, onu alqışlayıb, təbliğ edib, yenilik ruhu hiss etdiyi gənclərə himayədarlıq edib. Gizli deyil ki, ədəbiyyatda vızıldayıb gedənlər, dızıldayıb gedənlər, bağırıb, çığırıb gedənlər olub, var və olacaq. Fəqət böyük təfəkkür, ilham sahibi olan və bütöv şairlər əbədiyyətə qovuşub və xalqın yaddaşında, Vətənin tarixində yaşayıblar. Bu, zorla, vəzifə ilə qazanılmayıb. Zorla, pulla, vəzifə ilə çoxlu kitabların çıxa bilər. Təbliğ oluna bilərsən, sonra yoxsan.

Cəmiyyətimizin mənəviyyatındakı ekoloji tarazlığın indiki dərəcədə pozulmasına tariximizin hansı zamanmdasa, rast gelindiyinə inanmıram. Bu dəhşətli faciə təkcə ədəbi mühitimizdə yox, ticarətimizdə, mətbuatımızda, məktəb və insti–tutlarımızda, hətta ailələrdə belə özünü büruzə verir. Çünki demokratiya anlayışı və onun düzgün anlaşılmaması hər şeyi bilən, heç nə bilməyən yarımçıq adamlarda çaşqınlıq yaradır. Dahilərimiz yaxşı deyiblər: "Nə qədər ki, elmdən xəbərim yox idi, elə bilirdim ki, məndən çox bilən, savadlı adam yoxdu. Elə ki, elmə yiyələndim, gördüm ki, heç nə bilmirəm".

Son vaxtlar demokratiya xalqımızın faciəsinə çevrilməkdədir. Demokratiya anlaşılmamazlığı, dərk edilməməzliyi "utanmaq", "ayıbdı" sözlərinin lüğətdən sıxışdırılması dəhşəti ilə üz-üzə qalmışıq (Xüsusən də, qadınlar, o cümlədən, gənc qızlar arasında daha çox). Bir gün Bakının Sahil bağında 248 nömrəli marşrutla işləyən avtobusla yol gəlirdik, iki nəfər cavan qız da orta cərgələrdən birində əyləşmişdilər. Avtobus duracaqdan-duracağa adlayır, bu iki gənc avtobusa minən nəinki özlərindən yaşlılara, ayaq üstə güclə dayanan qocaya da, qarıya da yer vermədilər. Bu, insanların gözündən yayınmır, adamlar bu gənclərə ikrah hissi ilə,

qəzəblə baxsalar da bu gənclərin veclərinə də deyildi. Sanki onlar üçün ətraf mühit yox idi. Nəhayət, onlar Tibb Universitetinin yanında avtobusdan düşdülər. Məlum oldu ki, utanmaq, ayıbdı hisslərindən məhrum bu gənclər bu universitetin tələbələridirlər. Doğrudanmı insan halına yanmayan bu laqeydlər gələcəyin həkimləri olacaqlar? Bir nəfər onlara öz etirazını bildirəndə ikisi də qəhrəmanlıqla, qürurla sinələrini irəli verib dedilər; - "Demokratiyadır, necə istəyirik, elə də yaşayırıq". Bunu eşidən bir kişi həm qəzəblə, həm də yana-yana dedi: - Bu demokratiya nə köpək oğlu şey imiş, Allah!

İndi hər yetənin qəzet çıxartmasına da demokratiya donunu geydirirlər. Vətən, millət eşqindən məhrum, ancaq və ancaq cib eşqi ilə yaşayanların bir çoxu baş redaktordur. Belə baş redaktorlardan biri bizimlə İraqa getmişdi. Yol, onun daxili aləmini öyrənməyə imkan verdi. Yolda İran şəhərlərindən birində yığcam bir baxçada tənəffüs etməli olduq. Bizim bu baş redaktor baxçada qoyulmuş, kimliyi bizə məlum olmayan büstə baxıb dedi; - "Bıyyy, Qasım bəy Zakirə nə qəşəng heykəl qoyublar!" Bu nadanlıq kiminin diqqətini cəlb etdi, kiminin yox. Bağdadda ikən avtobusta gedirdik, "Say" qəzetinin baş redaktoru Rafiq Əliyev bələdçiyə dedi: "Qasım, heç yaxşı olmadı, bizə çox şey göstərdiniz, amma şumerlərin muzeyinə aparmadınız". Bu sözü eşidən cümləmizin qəhrəmanı "baş redaktor" tez özündən çıxdı.

Necə? Müsəlman şəhərində şümürlərə muzey var? Bu nə müsəlmançılıqdı!? Adə, İskəndər, sən məni hara gətirmisən?" O, Məşədi İbad kimi özündən çıxıb "Dahiliyini", "Müsəlmançılığını" nümayiş etdirir, biz isə onun nadanlığına gülürdük. Bu hələ harasıdır. Bu redaktor özü və kiməsə yazdırdığı, öz qəzetində çap etdiyi hekayə və romanlardan ibarət kitablar nəşr etdirir, təqdimat mərasimləri keçirir. Kimsə "deyə bilər ki, bu kitablar, yazılar xoşuna gəlmir, oxuma. Məsələ burasındadır ki, kamil oxucu bu yazı və kitabların ilk cümləsindən onunla vidalaşır. Gələcəyimiz, beyni primitivliyə meylli gənc isə bü yazılara uya bilir. Və nəticədə o ya kamilləşə bilmir, ya da ki, gec kamilləşmir. Bu günümüz yox gələcəyimiz eroziyaya uğrayır, aşınır. Atalar deyir - Yüz dostun varsa, azdır. Bir düşmənin varsa, çoxdur. Belə "redaktorların" hesabına gələcəyimiz bir ziyalı itirirsə, bu da xalqa dəyən zərbədir.

Tez-tez əlifba dəyişməyimiz Azərbaycan xalqı üçün bir bəlaya çevrilib. Son əlifba dəyişilməsi əvvəlkilərdən daha ağrılı və faciəlidir. Əhalisinin 99,9 faizi savadlı olan ölkədə birdən-birə əhalinin 50-60 faizi oxumağı, yazmağı yadırğadı. Gənc nəsil əldə edilən uğurlardan, mədəni inkişafdan, ədəbi nailiyyətlərdən uzaq düşdü. Kim əmindir ki, bir neçə on ildən sonra bizi bir də bu qatardan düşürüb köhnə qatara mindirməyəcəklər? Necə edək ki, bu getdiyimiz qatar daimi olsun?

Yenə fikrimin əvvəlinə qayıdıram. Məgər dərdimizin, düşmənlərimizin axırına elə çıxmışıq ki, indi də özümüzlə vuruşur, illərin yetişdirdiyi ziyalılarımızı üz-üzə qoyuruq? Doğrudanmı bu gün ziyalı deyib arxalandığımız, azərbaycanlım! - deyib qürurlandığımız adamlarımız bu qədər cılızlaşıblar. İlan olub səni quyudan çıxardanın boğazına sarılmaq nə qədər də adiləşib, İlahi. Aləm elə qarışıb, şəxsi maraqlar elə tüğyan edir ki,... deməyə söz tapa bilmirsən. Adamlarımız çox zaman olduğu kimi yox, olmadıqları kimi, yəni böyük dahi kimi, ya da az qala Vətən, millət xaini kimi qiymətləndirilir. Nəticədə - itə ot, ata ət - xalq misalı həyatiləşir. Təəssüf ki, bu zaman 1920-1937-ci illər yada düşür. O zaman ki, dövlət repressiyası olardısa, görün yenə də kimləri, nələri itirərdik. Şükür, çox şükür...

Mənəviyyatımızın belə aşınması ilə vəzifəli, komersant yüzlərlə səviyyəli adamlara rəhbərlik edir. Yerli-yersiz hökm verir, “yol” göstərir. Ariflər nadan əlində girinc olur. Bir nadan savadsız sahibkarın nadanlıqla hökm verməsi, firavan həyatı gənclərdə təhsilə, elmə olan həvəsi öldürür. Uşaqlarda alverçi olmaq həvəsi alim olmaq həvəsindən güclüdür. Gələcəyimiz üçün bundan da böyük faciə olarmı? Nəticədə bütünlükdə xalq Vətən, dövlət onu aparatı hörmətdən düşür. Cəmiyyətdə yaxşıya da, pisə də ikrah, inamsızlıq, laqeyidlik yaranır. Bir ana həll olunmah (bəlkə də ən vacib) probıemlərimiz ıllərlə həll olunmur. El demişkən - “axırda çomaq millətin, xüsusilə kasıbın başında sınır”. İtirən Vətən, millət və heç özümüz də bilmədən sən, mən oluruq. İnsan çox zaman gözləmədıyı yerdən zərbə alır. Mənə mənimkilər, sənə səninkilər qənim kəsilib, özgələr arxa olub. İnsana ağır zərbəni ya dostu, ya da doğması vura bilər, çünki sirri bu adamlar bilir, sənin zəif damarını bu adamlar tanıyır. Özgə nəyini bilir ki, neyləsin də.

**3 iyul 2004**

## SƏHİYYƏMİZİN, TİCARƏTİMİZİN EKOLOGİYASI

Mənəvi ekologiyamızın eroziyaya uğrayan digər sahələrindən biri də səhiyyəmiz və ticarətimizdir. Hippokrat andı içmiş, əsrlər boyu xalqın xilaskar kimi tanıdığı, ağ xalatı ilə insanlarda sevinc oyadan bir çox həkimlər bu gün xilaskar yox, az qala əzrayılın icraçısı rolunu oynayırlar. İnsanların üstünə ümidlə, inamla getdiyi həkim sağlam adamı özünə xəstə kimi tanıdıb onun hisslərini qaynadır və həqiqi xəstəyə çevirir. Adi ağrı üçün həkimə müraciət edən insana həkim bir kisə dərman yazır və xüsusi aptekə ünvanlayır. Məlum olur ki, həkimlə aptek işçisi arasında müqavilə var, həkim nə qədər çox dərman yazarsa, əldə edilən pulun müəyyən faizi həmin həkimə çatır. Həkimə inanan "xəstə" həmin yersiz dərmanları qəbul etməklə müxtəlif xəstəliklərə düçar olur. Və beləliklə dünənki sağlam insan bu gün həkimlərin gəlir mənbəyinə çevrilir. Ağzım quruduğu üçün bir gün şəkərimi yoxlatdırmaq məqsədilə Bakının Füzuli küçəsindəki apketə müraciət etdim. (Bir tanışım ünvanlamışdı). Beş-on dəqiqəyə şəkərimi yoxladılar və bildirdilər ki, şəkərim 259-dur və bu, həyəcanlı vəziyyətdir. Məni həmin küçədə və həmin aptekə yaxın 4N-li xəstəxanada işləyən İbrahim (bəlkə də İbrahimov) adlı həkimin yanına göndərdilər. Xoşbəxtlikdən bu həkim həmin gün işə çıxmamışdı. İş qaldı növbəti günə. Mən və ailə üzvlərim elə həyəcanlı vəziyyətə düşmüşdük ki,.. Özümü ələ alıb səhərisi gün "Kaspar" xəstəxanasında işləyən dostuma müraciət etdim. O, burada şəkərimi yoxlatdı və məlum oldu ki, məndə şəkər yoxdur. Sən demə birinci "həkimciklər" məni zorla xəstə edib ciblərimi soymaq eşqində imişlər. Buyurun, bu da xalat geymiş həkim və tibb dünyamızdakı ekologiya!..

Nə yediyimizdən xəbərimiz varmı? - kərə yağı - deyib yediyimiz müxtəlif ünvanlı yağlar kərə yağıdırmı? Ümumiyyətlə ərzaq istehsalı ilə (xüsusən də çörək, süd və süd məhsulları) məşğul olan sahibkarlar sanki - bu xalqı daha çox kim aldada bilər! - yarışına qoşulublar. Unutmaq olmaz ki, Azərbaycanda hər bir şəxsin əli ilə istehsal olunan məhsul o şəxsin yox, birinci növbədə Azərbaycanın və azərbaycanlının keyfiyyət göstəricisinə çevrilir. Məsələn, Rusiyadan gətirilən və üstündə 15 faiz yağlılıq göstəricisi olan "smetan" ləzzətlidir, az qala qaymaq dadır.

Azərbaycanda istehsal olunan üstündə 20 faiz yağlılıq göstəricisi olan "smetan" isə son dərəcə dadsızdır. Məlum olur ki, bu "smetan"ın yağlılığı ya heç yoxdur, ya da 3 faizdən çox deyil. Kim inanmır, üstündə "Azərbaycan Respublikası, Bakı şəhəri, Rəsul Rza küçəsi 11-də" istehsal olunan və yağlılığı 20 faiz göstərilən "smetana osobaya"nı alsın və dadına baxsın.

Əziz istehsalçılarımız, doğma xalqına keyfiyyətsiz mal sırımaq mənəvi yoxsulluqdur. Niyə? Ona görə ki, diqqət verin, Rusiyadan gətirilən məhsulu satan və alan, nuşi canlıqla yeyən demir ki - "bu məhsulu filan sahibkar hazırlayıb. Deyir ki, bu məhsul Rusiyadan gətirilib. Rusiya istehsalıdır". Bax, adicə işdə, yəni "smetan" istehsalı ilə öz xalqının adını ucalda da, endirə də bilərsən. Nə üçün evimizə qonaq gələndə qürurla Azərbaycan məhsullarını yox, xarici ölkə məhsullarını düzək?! Sizcə cib doldurmaq, daşdatmaq, yoxsa Vətənin, millətin adını ucaltmaq şərəflidir? Halallıq da yaxşı şeydir. Haramzədəliyi kim görməsə də Allah görür və gec olsa da cəzası ağır olur. Beləlri məsuliyyətsizliklərini o qədər unudurlar ki, bir bəlaya düçar olanda Allaha üz tutub deyirlər: "İlahi, mən neyləmişəm, nə günahım var ki, mənə bu zülmü edirsən?!"

Gəlin xalqımıza, Vətənimizə qeyrətlə xidmət edək. Bu, həm də özünə xidmətdir. Mənəviyyatımızın ekologiyasını bütün sahələrdə qoruyaq, a millət, a millətin oğulu, qızı!..

**26 avqust 2004**

## ZƏRRƏ GÖZƏLLİKLƏRİ QORUMALI

***Minəxanım TƏKLƏLİ***

Neçə vaxtdır ki, tanınmış yazıçımız Hüseynbala Mirələmovun "Mənəviyyatın ekologiyası, yaxud iki od arasında" yazısını oxumuşdum. Yazı məni bərk düşündürsə də, oxucularımızla başqa görüşü qərarlaşdırdığım üçün cavab yazmaq haqqında fikirləşməmişdim. Burada qoyulan mənəviyyatla bağlı hər bir problemimiz haqqında ayrıca yazılarımla mətbuat səhifələrində çıxış etmək istəyirdim. Lakin hörmətli yazıçımızın müraciəti - söz adamlarımız susmuşdur deyə gileyləri "Azərbaycan alimi, elmi tədqiqatlardan bir günlüyə də olsa, ayıl", deyə məzəmməti nəhayət, məni bu

yazını qəzetə çıxartmağa sövq etdi. Əslində bu ekoloji böhran elmimizə də sirayət etmişdir. Elm də, alim də bu böhrandan heç də uzaqda deyildir. Nəhayət, bu aydınımız, xüsusən son zamanlar yazılarını xüsusi həvəslə gözlədiyimiz yazıçımızla öz fikirlərimi bölüşmək qərarına gəldim. Nə deyim, ən əvvəli isə şair demiş, ürəkləri, könülləri ilhama gətirən kiçicik olsun belə, ən xoş məramları, niyyətləri bir qığılcım kimi alışdırıb gur tonqala çevirən. çoxdan qəhətə çıxan o sevgini, gizlənmiş kiçicik sevdaları yaxşı görüm deyə, canı olan, qanı olan hər bir canlıya yüksəldikdən baxmağı qərara aldım. Amma... O yüksəkliklər düşmən əlində, nə isə...

"Dünyanı gözəllik xilas edəcək". Bu gün bu müddəa bir çox şou-müsabiqə, "gözəllik", "dünya gözəli" axtarış tədbirIərində necə də dəstəvuza çevrilib. Əfsus ki, Dostoyevski xilaskarın bədən gözəlliyi, əndamın qəşəngiliyi olacağını diişünməyib. Filosof bununla insanlığın, insan münasibətlərinin, qəlbin, ruhun gözəlliyini, düşüncənin, fikirlərin aliliyini, onun gözəl nəticələrini, əməlləri nəzərdə tutub. Bir sözlə, o arzu olunan gözəllik yer üzünə hakim olsa, o gözəllik ağıllara, düşüncələrə təsir etsə, onda, şərin, bəlanın yer üzündən kökü kəsilər. Əqidə və əməlin gözəlliyi müharibələri dayandırar, Lap tutalım erməni erməniliyini buraxar ki, vay, nahaq yerə başqa millətin Vətən kimi əziz nemətinə göz dikmişəm?!

Bəli, təkrar olmasın. Qəlb gözəlliyi baxışlara, səsimizə, çağırışlara qədər keçməli, xeyirxahlığın, sülhün, fədakarlığın aça bilmədiyi qapı qalmamalıdır.

Heç yadımdan çıxmır. Aeroportdakı bazara alış-veriş üçün getməli idim. Əvvəlki iri avtobuslardan idi mindiyim avtobus. Qabaqda - pilləkənlərin üstündə kiçicik meydançada durmuşdum. Üzü sərnişinlərə tərəf. İstər-istəməz onları seyr edirdim: Budur, bu bacı səhər heç üzünü də yumayıb, deyəsən evdən vuruşub çıxıb. Bu onun təhər-töhüründən də hiss olunurdu. Oturacaqda yanpörtü oturmuş, ağzı da hiss ediləcək şəkildə əyilmişdir. Görünür, hələ də daxilində asıb-kəsir, evdəkilərin qarasınca deyinir. Bəs bu oğlan? Üzü yəqin bir həftədir ki, qırxılmayıb. Yox, bunu o, dəbə görə etməyib. Saqqalı pırtlaşıq saçlarına qarışıb, köynəyi də yay-qış əynindən çıxarmayır yəqin. Xülasə, ona baxan adamın yadına natəmiz şeylər düşür. Bu bel şalına bürünüb oturmuş nənə də ki, öz evlərindən çölə çıxan yeganə adama oxşayır. Yəqin ev dolusu o haramxorlar yerlərində o üz-bu üzə aşırılıb axşama kimi

gözləyəcəklər ki, bu yaşında zirək bir gəlini andıran nənə tapdığından onlara nə vaxt gətirəcəkdir. Ən təsirlisi də bu adamların biri-birinə heç baxmamaları, uzaq yolun söhbəti-filam olmaması idi. Biri-birlərinə acığı, nifrəti üzlərindən bəlli idi. Bilirdin ki, bir himə bənddirlər. Ortaya bir söz düşsə, heç kəs-heç kəsə aman verməyəcək. Elə belə də oldu. Heç şəhərdən çıxmamışdıq heç nədən bir mübahisə qopdu ki... Yadıma tələbə vaxtı pedaqogikadan müəllimimizin kollektiv haqqında dedikləri düşdü: “Bütün insan yığınına kollektiv demək olmaz. Avtobusa da çox adam toplaşıb səfərə çıxa bilər, lakin o, kollektiv deyil. Kollektiv insanların məqsədi bir olur və sair, və ilaxir”. Deməli, nə çatmır. Məhəbbət. Mirzə Cəlil demişkən: “Əli gedib tutsun Vəlinin əlindən, Həsən də Hüseynin...”

Dava-dalaşa, təhqirə, hər cür hörmətsizliyə qorxuram adət edək yavaş-yavaş. Bəli, televiziyaların gecə kanalları məhz elə bu ölüb-öldürmələrin həzzini çatdırmaqdan özləri də həzz alır elə bil. Axı Hüseynbala müəllim özü demiş, bizim xalq öz etiqadınca müsəlmandırlar və müsəlman rəhimdilliyi, şəfqəti, mehribanlığı ilə seçilməlidir. Belə halda acıdillilik, tamah, küfür, qətl-qarət kimi günahlar niyə addımbaşı rastlanır? Bu gözəlliklərdən bizmi ayrı düşdük, yoxsa o gözəlliklər bizi tərk etdi? Nəyə görə?

O da maraqlıdır ki, millətlə bağlı olan bu faciələri istər bu xalqa dəyən fıziki, istər mənəvi zərbələr olsun, biri-birindən ayırmır müəllif. Çünki hər ikisinin ağrıları birdir. Bir çoxları Bakıda gündən-günə çoxalan, sıra-sıra düzülən binalara skeptik baxıb bu binaların tikinti materiallarının, nə bilim armaturunun saf yox, qatışıqlardan, hətta normadan nazik olmalarmdan, kimisi yeraltı sulardan belə yüksək binaların uçmaq qorxusundan danışsalar da, nikbinlər də çoxdur. Hətta o dərəcədə optimist ki, qoy tiksinlər, Bakıda nə qədər adamın evi yoxdur. Biri elə özüm. Evdə evlənməmiş üç oğlum, qızlarım da ərə gedib, amma ev vəziyyətləri çətindir. İstəmirəm deyəm ki, heç evdəki puldan danışmırsan. Adbaad evsizlərini dedin, arxasından xəbərin yoxdur. Amma dinmirəm. Çünki o evlərin hələ nə olacağı yox, Bakının özünün paytaxt şəhəri, özü də qədim şəhər simasını itirməsi adamı ağrıdır. Bəli, Hüseynbala müəllim. Bakı üzü dənizə doğru get-gedə alçalan təpələr üzərində tikilmiş, sahilə enə-enə bir amfiteatr şəklində qədim bir şəhərdir. Səhnəsi də sanki Xəzərin ayna suları idi.

Aleksandar Dümanın sevincinin Azərbaycan oxucularına nisgilə çevrilməsinə az qalıb. Sumqayıtla Bakının arasındakı qumlu çölü keçib şəhərə doğru gəlir. Hələ şəhərə çatmamış çox-çox uzaqdan dənizi görür və sevinir. Düşünürəm, bu yer görəsən haraymış? Fəhmlə qiyabi səyahətə çıxıram. Bəlkə Binəqədi təpəsi olub. Bəlkə bir az da bəri Marksın heykəli deyilən yerə - şəhərə doğru o dikdirə çatıbmış atlar. Bilmirəm, bir-iki il əvvəl şəhərin hər bir evinin eyvanından Xəzər görünürdü. İndi gözlərimizin qabağının tamam tutulmasına az qalıb. Axı bu evləri niyə Yasamalda, ya mikrorayonlarda tikmirlər? Bakının qədim evlərinin hər birinin yanında bu neft vışkaları kimi dimdik qurğu-binalar hamısı da qutu kimi - məqsəd nədir?

Hörmətli yazıçımızı yaralı mənəviyyatımız daha çox məşğul edir və düşündürür. Birbaşa bu münasibətlə mətləbə keçmək üçün elə "ocaq" sözündən başlayır. Ocaq birlik, müqəddəslik istər, təmizlik istər. Budur, bizim əsl sifətimiz. Ocaq sözünü bizdən nə qədər xalq götürüb öz dilinə daxil edib. "Ocağı sönsün", "ocağın gur yansın", "Ocağa çəkmək", "ocaq-pir", "aşına-aşına, çıxdım ocaq başına". Görün hələ nə qədər belə sözümüz var. Hələ müəssisə mənasında mədəniyyət ocağı, sağlamlıq ocağı, istirahət ocağı və s.

Müəllifin məqsədi var, yoxsa ocaq kimi müqəddəs bir kəlməni (mütəxəssislər otaq "ailə–nəsil" sözünü bu sözlə bağlayırlar) meydana çəkməzdi. Bəli, bütün ictimai yerlərdən indi soyuyub çəkilən ayaqlar getməyə yaxşı yer tapıb. Şəhərdə nə qədər əyləncə yeri olar, nə qədər toyxana (şadlıq evləri) olar. Hələ bir dəfə Şamaxıya çataçatda meşə cığırına yönələn bir yol göstərən ox gördüm. "Sauna" yazılmışdır. Ox məchul cığırlara millənmişdi. Cığırlar budaqları bir-birinə geyişmiş ağacların qalınlığından görünməz olmuşdu. O yolun bu cür mübhəmliyi qəlbimi sıxdı. Şamaxıyadamı gəlib çıxdı bu əyyaşlıq, - deyib köks ötürdüm. Gəlməsə də, gətirdilər. Hələ bu əyləncə yerlərinin adlarına baxın. Şərabın su yerinə axdığı Vətən qızlarının qucağdan-qucağa ötürüldüyü bu yerlərə müqəddəs adlarımız, yaralı Vətən adlarımız qoyulur. Vay o günə ki, o Şuşasız, Laçınsız, Xarı bülbüllərsiz, Xan qızısız qalan o "qəlbisınıq" soydaşlarımız özləri bu adların daldasnnda gizlənə-gizlənə, barmaqlarına

tüpürə-tüpürə ən çətin işi - yaşıl kağızları saymaq ola. Bu yollar hara aparır bizi? Bu bizim qismətimizmi?

***Suri cünun aşiqin başına rifət verir,***
***Hər kəsə dünyada həqq əqliycə dövlət verir.***

**(Nişat ŞIRVANİ)**

Təbii ki, oxucu anlayar. Dövlət o həmvətənimizin saydığı yox, ağıl, bəxt, qismət, gələcək deməkdir burada. Necə olur ki, insanlar buraya son qəpiklərinə qədər xərcləyir. Amma teatr rəhbərliyi ucuz biletlərini dostluq-tanışlıq gücünə də satdırıb teatra, konsertə adam cəlb elətdirə bilmir. Heç bundan az kədərli deyil ki, alim sözünə, yazıçı sözünə, bir sözlə, ziyalı məsləhətinə ehtiyac duyulsun. Nə üçün sağa-sola baxıb, ziyalı sözünə, bir ağıllı məsləhətə, idrak, vicdan səsinə qulaq asmayasan? Qasım bəy Zakir Mirzə Fətəli Axundova məktubunda yazırdı:

*Aşina, müsahib yaıü-həmsayə,*
*Lazımdır yetişə qövrə, harayə*
*Kitabətin dəyər mülki dünyayə*
*Nə hacət istəmək, simü-zər səndən?*

İndi bu simu–zər bazarında bu kitabətlərin tozunu silən, bir arasını açan varmı? Düşünürsən, səbəb yalnız cahillikdir, elmə, təhsilə, savada yaranan biganəlikdir.

Hələ mahnıların müğənninin özü tərəfindən uydurulmuş bəsit mətnləri, təzədən dəbə düşən primitiv meyxanalar. Axı bunlara göz yummaq olarmı? Göz yuma-yuma bunlar millətdə aşağı zövq tərbiyə edir axı. Odur ki, dövlət radiosunda, televiziyasında min zəhmətə başa gələn tarix, mədəniyyət proqramları qalır bir yana, bu özəf radioların qurulmuş oyuncaq bülbülləri bütün günü canlı efırdə adamın canını alır, vaxtını alır... Dəyərlərini unutdurur.

Düşünürəm ki, hökumət birinci növbədə dövlət televiziyasını, radiosunun maddi bazasını yüksəltməli, ona dəstək olmalıdır. Nə gizlədək, elə bu mənbəyi məlum olmayan möhkəm maddi bazası olan özəl kanallar üstələyir dövlətin radio-televiziyasmı.

Azərbaycan Milli Televiziya Şurası nəyə baxır? Onlara nəzarət mexanizmi varım? Yoxsa hazır vəzifələrdi tutub-oturublar. Onlarm gündəlik işləri, gündəlik nəzarətləri, koordinasiyaları olmalıdır. Həqiqətən naməlum mənbələrdən bazasını möhkəmlədən, bu saat özlərini qüdrətli, imkanlı sayan bu kimi televiziyalar xalqa zidd fılmləri, yabançı ideyaları, deyim ki, antiazərbaycan təbliğatı az qala düşmənçilik ideyalarını Azərbaycana yönəldirlər. Maraqlıdır ki, bu səbəbdən yenə onların maddi imkanları artır, və bazaları zənginləşir.

Azadlıq, ardınca demokratiya. Bu yorğun ayaqlarını soyunub çəmən üstə gəzib azad dolaşmaq deyil, əsl azadlıq ruhun azadlığı, beyinin, düşüncənin sərbəstliyidir. Azadlıq öz hüquqlarını bütöv şəkildə dərk etməkdə, bu hüquqların qorunmasındadır. Hörmətli yazıçımız dediyi kimi, yoxsa o Sumqayıt yolu boyunca cılız, amma görünür, arxasında iri şirlərin dayandığı “obyektlərin” eybəcərliyinə dözməyə məcbur olduğumuzda deyil azadlıq və demokratiya. Bəli, hörmətli Hüseynbala müəllim, bu qorxu top, tüfəngin qorxusundan heç də az dəhşətli deyil.

Xülasə, qorxu təkcə bağlarımızın ağaclarını kəsən, bağçalarımızın gülün-çiçəyin solduran, Hacı babamızın Bakıya min zəhmətlə çəkdirdiyi suyu elə həmin anbarlardan şüşəyə töküb satdıran acgözlərimizdən, qədim Bakının daşına-torpağına dədə malı kimi sahib çıxan təzə dəllallarımızdan çox o qəlbimizə çəngəlini atıb onu rəhimsizcəsinə çıxarıb qanını içən, öz fikrimizə, əməlimizə özümüzü peşman edənlərdəndir qorxu.

Qoy Allah bizə özü yar olsun, qelbimizə şəfqət ziyaları axsın. Zərrə gözəlliklərin də qədrini bilək, özümüz o gözəllikləri yaradanlardan və bəxş edənlərdən olaq.

**4 sentyabr 2004**

## İKİ OD ARASINDA HARAY

***Səttar ZƏRDABİ***

Teatr tamaşalarından, rəngarəng yazıları ilə imzasından tanıyırdım Hüseynbala Mirələmovu... Hüseynbala Mirələmovun “Kredo” qəzetində “Mənəviyyatın ekologiyası, yaxud, iki od arasında” yazısını oxuyanda elə bil bir zirvədə millətimin

qeyrətli oğlunun həyəcan təbilini eşitdim. Bu insanın necə ucalıqda dayanmasını gördüm! Sanki uzun müddət canımda hərlədiyim qançar olmuş yarama şəfalı cərrah bıçağı çəkildi... hardasa özümdə bir rahatçılıq hiss etdim.

Yadıma xeyirxahlıq mücahidi, millət fədaisi Həsən Bəy Zərdabi haqqında dediyim, “Belə oğulları olan millət heç vaxt, hardasa boynu bükük qala bilməz! ” - ifadəsi və böyük öndərimiz, ümummilli liderimiz Heydər Əliyev cənnətməkan haqqında dediyim “Belə oğullar millətimin mənəviyyat pasportudur, qeyrət simvoludur” - sözləri düşdü... Sevindim ki, şükür sənə, İlahi, bu gün bu təlatümlər, qasırğalar içində çalxalanan, alovlar qoynunda üzü qarsıyan millətimın səsinə səs verənlərin, onun milli ruhunu alqışlayanların sayı çoxdur!..

Bu dərd köhnə dərddir... Uzun müddətdir ki, böyük mütəfəkkirimiz, xeyirxahlıq mücahidi Həsən bəy Zərdabının "Əxlaqi - sərvətlərimiz” əsərinin sorağındayam. Bu qıymətli, mənəvi sərvətimizi tapmaqda bu günə kimi səsimə səs verən, harayımı eşidən olmamış. Mənəviyyatımızın harmoniyası pozulduqca bu qiymətli əsərin tapılmasına daha çox cəhd edirəm. Hüseynbala Mirələmovun bu həyəcan təbili elə bil məqsədimə nail olmaq üçün məndə bir təkan yaratdı. Demək istəyirəm ki, Hüseynbala Mirələmov bu gün bir qeyrət təbili çalıb. Bu qeyrət təbili çoxlarını mənəviyyatımızın keşikçisi olmağa haraylayıb.

Bu, elə böyük əhatəli məsələdir ki, fikrini, istəyini bildirmək üçün hansı istiqamətdən başlamağa çətinlik çəkirsən, baş sındırmağa məcbursan... Dilimizdən, dinimizdən, davranışımızdan əxlaqımıza kimi əhatəli bir məsələ olmağı ilə bahəm, həm də kövrək məsələdir...

Söhbət mənəviyyatdan gedir. Özü də ayrı-ayrı fərdin mə·nəviyyatından yox. Qədim bir millətin mənəviyyatından gedir. Kimə demək olar ki və yaxud kimə sübut etmək olar ki, ay filankəs, sənin mənəviyyatın, əxlaqın yoxdur!.. belə fərdlər deyə bilər ki, sənə nə?..

Bir haşiyə:

Biri ölüsünü pis ağlayırmış. Biri ağlayan adamın ayağına vurub qulağına pıçıldayır ki, belə ölü ağlayarlar, qabiliyyətli ağla! Sən demə, ağlayanın barmağında mazol var imiş. Ölü sahibi qayıdıb əxlaq dərsi verənin gözünün üstünə yumruqla

vurub deyir: Ölü mənim deyil?! Ağlamıram, goruna söyürəm, sənə nə?! Yas sahibinin nalayiq hərəkətini görüb hamı məclisi tərk edir. Otaqda bir ölü sahibi qalır, bir də cənazə. Cənazəni götürməyə gələn də olmur...

Bu haşiyəyə çıxmaqda fikrim budur ki, ictimai fıkrin, ictimai tənənin gücü lazımdır bu işdə. Bu, hamımızın dərdidir, bu, bir millətin dərdidir, bəlasıdır. Bu bəlanı aradan götürməyə biz qadirik! Hüseynbala Mirələmovun çaldığı həyəcan təbili çox kar qulaqları, kor gözləri açacaq! Məsələnin həlli üçün istiqamətlər seçilməlidir...

Söhbətə hansı tərəfdən müdaxilə etsəm yaxşıdır? - barədə fikirləşdim. Adətimə görə istixarə edəsi oldum. Bunun üçün televizoru açdım. Aman Allah, hansı kanalı açdımsa, lüt-üryan, yarım-üryan qızlar, gəlinlər və bundan betər biabırçı, mənəviyyatsız səhnələr gördüm. Kanalın birində uşaq verilişi gedirdi. Sevindim, dedim, uşaqlar bizim gələcəyimizdir!.. Məktəb yaşına çatmayan uşaq oxuyurdu: “A ceyran sevgilim, mehriban sevgilim!” uşağın oxuduğu sonuncu mahnı “Yaşın nə fərqi?” mahnısı oldu. İstixarəmə əməl edib bu istiqamətdə də fıkrimi bildirməli oldum.

Vətənin ən qiymətli sərvəti onun övladlarıdır. Mənəviyyatı olmayan insanın Vətəni yoxdur. Vətən hardan başlayır sualının cavablarından biri də “Vətən mənim mənəviyyatımdan başlayır!” - cavabıdır. Mən öz şəxsiyyətimi Allahımdan da üstün tutmuşam. Mən bunu Allahımın mənə verdiyi şüura görə edirəm. Şəxsiyyəti, mənəviyyatı, əxlaqı olmayan adamın nə Vətəni olar, nə Allahı!

Mənəviyyat nədir? Mənəviyyat sənin özünə hörmətin. Özünə hörmət nədir? Sənin dürüstlüyün. Dürüstlük nədir? Sənin halallığın, özünü cəmiyyətdə aparmağın, ətrafında olanların hörmətini, rəğbətini qazanmağın. Bu hörməti, rəğbəti necə qazanmaq? Yalandan, riyadan, şərdən, böhtandan kənar olmaqla, bütün insani keyfiyyətləri özündə cəmləməkIə!

Mənə bir nəfər tərif mənasında dedi ki, əhsən, səndə alman dəqiqliyi var! Bu söz mənim xoşuma gəlmədi. iradımı bildirib mənə tərif deyənə çatdırdım ki, məndə öz dəqiqliyim var. Qoy alman, ya qeyri millətin nümayəndəsi desin ki, “məndə Səttar Zərdabi dəqiqliyi var!”. Soruşsalar, o, kimdi? Desinlər, o, azərbaycanlıdır. Təbii ki, söhbət almandan, fransızdan, ingilisdən, ya başqa xalqdan getmir. Söhbət ondan gedir

ki, niyə biz həmişə başqalarından öyrənməliyik. Söz yox ki, yaxşı nə varsa, hamıdan öyrənmək, əxz etmək yaxşı şeydir. Halallıq naminə, qoy kimsə bizdən də bir şey öyrənsin, bizdən götürsən. Yaxşı nə var hamıdan öyrənmək, götürmək lazımdır. Ancaq nəyi, necə? Əgər hər hansı məmləkətdən gələn qonaq “şortik”, darbalaq geyibsə, biz də o dəqiqə şalvarımızı, tumanımızı çıxarıb şortı, ya darbalaq geyib onlarla hərlənməli deyilik. Əksinə, belə bir əcnəbi bizdən abır-həya nə olduğunu öyrənməlidir ki, insan abırlı-həyalı olar, ayıbının üstünü örtər...

Bu gün şəhərimizə çıxanda bilmirsən şəhərdəsən, yoxsa çimərlikdəsən. Hamı lüt-üryandır. Güya demokratik ölkədə yaşayırıq. Məgər demokratiya ifadəsinin lüğəti mənası, yaxud sinonimi abırsızlıq, əxlaqsızlıqdır? Belə çıxır ki, demokratiyanın beşiyi olan ölkə, məmləkət abırsız, həyasız, əxlaqsız yığnağıdır, yuvasıdır. Əsla belə deyil! Abırlı-həyalı, əxlaqlı olmaq bütün millətlərə məxsusdur. Və buna əməl olunur... lap hesab edək ki, hardasa belə bir məmləkət var, heç nəyə fikir vermir, biz də hər şeyə biganə olmalıyıqmı?

Hər xalqın öz əxlaqi keyfiyyəti var. Belə getsə, şəhərimizdə hamı - kişili-qadınlı şortı ilə darbalaqla gəzəcək.

Qadın sözü hardasa, ləyaqət ifadəsi kimi səslənir. Məşhur ifadə var: “filankəsin oğlu qız kimi, qadın kimi həyalıdır!" hansı ki, bu gün ətcəbala qızlar lümlüt düşüb küçələrə. Hətta təhsil ocaqlarımız daha betər olub. Artıq dəb düşüb, qızlar bir paltar da geysələr göbəklərini çöldə qoyurlar. Bu qızlar, gəlinlər hansısa bir ailədən çıxırlar. Bəs onların ata-anaları, qardaşları bunu görmürlərmi?!

Bu günlərdə belə bir üzdəniraq vəziyyətdə avtobusa bir qız uşağı mindi. Avtobusda olanlar yerbəyerdən bu üzdəniraga elə həqarətlə, elə nifrətlə baxdılar ki, o, növbəti dayanacaqlardan birində ayaqları bir–birinə dolaşa-dolaşa düşüb getdi. Əslində rədd oldu! Bir qədər ürəyimə sərinlik düşdü ki, deyəsən bu üzdəniraq qızın üzündə az da olsa, abır-həya qalıbmış. Nə yaxşı ki, belələrinə həqarətlə baxanların sayı çoxdur...

Sevindim ki, belə ola həmişə! Bu üzdəniraqlar kənarda deyil, bizim aramızdadır. Bu naqis vəziyyətin yaranmasına günahkar bizik, ictimaiyyətdir. Burada bəlkə də o üzdənirağın günahı o qədər deyil ki, bizim günahımız var. Ləyaqəti, abır-

həyası, qeyrəti olan kişi belə qızların yanından ikrah hissi ilə keçməlidir. Hər bir idarə, müəssisə rəhbəri tabeçiliyində olan belələrinə nəinki həqarətlə baxmalıdır, hətta belələrini heç işə götürməsin gərək, elə birinci günü iş üçün müraciət edəndə ona nifrətlə, həqarətlə elə baxmalıdır ki, belələri o idarədə, müəssisədə lövbər salıb qala bilməsin... Əksinə, idarə müdirlərinin yanına gedirsən, elə bil katibə əvəzinə, bu idarə müdiri ərşan-kirşanlı kisəçi qadın saxlayır. Günahı Dubayda axtarırıq. Guya, qadınlarımız ehtiyacdan Dubaya üz tutublar. Yalandır! Kim bunu deyirsə, yalan deyir! Heç bir namuslu qadın ehtiyac ucundan üstünə, üzərinə belə ləyaqətsiz idimi götürməz. Belə çıxır ki, kasıblar, imkansızlar Dubaya, ya qeyri yerə üz tutur. Əslində imkanı olanlar, imkanlılardır bu uzaq yerlərə üz tutanlar... Bunları yaradan bizim imkanı olan "qeyrətli" kişilərimizdir... Elə kişilərimizin başqa şəhərlərə üz tutmaları da belə! Onlar da ehtiyaca görə getmirlər... Kişi quru çörək yeyər, ailəsinin yanında olar... Tacir, kommersant kimi səfərə çıxmaq ayrı şeydir, illərlə ailəsini atıb müxtəlif guşələrdə dolanmaq ayrı şey... Bu kişilər hiss etməlidir ki, evdə, ailədə ana, bacı, qız, oğul qoyub gediblər. Əslində belə kişilərdən danışması yaxşıdır, danışsaq da gərək yanımızda su olsun, tez ağzımızı yaxalayaq. Biz analarımıza, bacılarımıza üz tutmalıyıq. Qadın adı, ana adı müqəddəsdir. Müqəddəs kitabımız "Qurani-Kərim"də deyildiyi kimi, cənnət anaların ayaqları altındadır. Şəxsən mən həmişə demişəm ki, bizim qeyrətli atalarımız, bizim qeyrətli, namuslu, ləyaqətli analarımıza borcludur!..

Hər şeyi sözdə yox, əməli işdə görməliyik. Söz deyəndə onu deməyə mənəvi hüququmuz olmalıdır. Bir də görürsən ki, bir əxlaq pozğunu əxlaqdan, namusdan danışır, söz açır. Belələrinin üzünə elə həqarətlə baxmalısan ki, sözü ağzında piy kimi donsun!..

Bu günlərdə bir yığıncağa getmişdim. Yığıncaq bu ruhda idi - qadın problemlərinə, qadın ləyaqətinə həsr edilmişdir. Özüm-özümdən xəcalət çəkdim. Üzbəüz, yanaşı oturduğum qadınların yerinə mən utanırdım, xəcalət çəkirdim. Demək olardı ki, məclis iştirakçılarının 90 faizi qadınlar idi. Dediyim kimi, söhbət qadın ləyaqətindən gedirdi. Bu məclis də mənə çimərlik təsiri göstərirdi. Müxtəlif yaşda olsalar da (bir-iki nəfər yaşlıları çıxmaq şərtilə) hamı lüt-üryan idi. Bəziləri də tez–tez sinəsindəki böyük, svarka (qaynaq) eynəyinə oxşayan parçanı (mən onun

adını deyə bilməyəcəyəm - bu sözün ilk hərfi “l” ilə başlayır, son hərfi “k” ilə qurtarır) tez-tez irəli çəkib sinəsinə boyalı dodağı ilə hava üfləyirdi.

Elə burda da söhbətin ana xəttində qadınların Dubaya üz tutması və kişilərin uzaq şəhərlərə getməsi dayanırdı... Bu şoğərib üz ətdəndir axı, onlara necə deyəydim ki, sizin bu mövzuda danışmağa mənəvi hüququnuz yoxdur!.. Deyə də bilməzdim, onda məclis pozulardı, onlar mənə əxlaqsız, ləyaqətsiz, tərbiyəsiz deyə bilərdilər, hələ alnıma daha pis etiket, yarlıq yapışdıra bilərdilər... Çox pis, pəjmürdə gəldim evə. Vəziyyətimi dəyişmək üçün televizoru açdım. Aman Allah, nə görsəm yaxşıdır?! Bu nə mühitdir! Hamımıza tanış, məşhur etdiyimiz, bir “qadın” müğənni lüt-üryan, sinəsində svarka “eynəyi” uzanıb yelləncəyə, biədəb yerlərini nümayiş etdirir. Belə “qadın”lardan ləyaqət gözləmək mümkün deyil! Günahkar bu üzdəniraqları o kanala buraxanlardır... Hələ onu demirəm ki, zina törədən bir “din xadimi” tez–tez bu kanallarda tərbiyədən, exlaqdan, qeyrətdən, namusdan, mənəviyyatdan danışır.

Mən heç kəsə əxlaq dərsi vermək fıkrində deyiləm. Belə biabırçılığın qarşısına hardasa sədd çəkmək imkanım da yoxdur... Fikirləşdim ki, bu ekranlara rəhbərlik edənlərin evdə arvadı, qızı, anası, bacısı yoxdurmu?! Bu dərəcədə də mənəviyyatsızlıq, əxlaqsızlıq olarmı? Bu səlahiyyət sahibləri özləri hansı əxlaq sahibləridir?

Hər şeyi demokratiyanın adı ilə bağlamaq olmaz! Və yuxarıda qeyd etdiyim kimi, demokratiya ifadəsinin lüğəti mənası əxlaqsızlıq, tərbiyəsizlik, mənəviyyatsızlıq deyil! Əxlaqsız xalq, xalq deyil, mənəviyyatsız məmləkət məmləkət, deyil, mənəviyyatı olmayan ölkədə demokratiya da ola bilməz. Əxlaqsız dünyanın harmoniyası pozula bilər!

Möhtərəm yazıçımız, layiqli ziyalımız, sözün əsl mənasında vətəndaş olan, milli qeyrət təəssübkeşi, qayğıçəkəni Hüseynbala Mirələmovun qaldırdığı məsələ (şəstlə deyərdim ki, gözümüzə soxduğu məsələ) çox vacib məsələdir. Bu məsələ ictimai fıkrə çevrilməlidir. Hətta mən deyərdim, Milli Məclis səviyyəsinə qaldırılmalı, prezident səviyyəsin. da öz layiqli nəticəsini almalı məsələdir. Hər halda möhtərəm şeyximiz bu işdə yardımçı olmalıdır və ümid edirik olacaqdır da.

Azərbaycan xalqı tərbiyeli, əxlaqlı xalq olub və iftixarla bu şərəfli adı daşıyır. Mənəviyyatımızın əsası olan əxlaqımız dünyaya bəllidir. Bu gün onun yoluxduğu bu bəlaların qarşısı alınmalıdır. Və güman edirəm ki, alınacaq, özü də tezliklə. Bu millətin qeyrətli övladları olub, var və olacaq. Ümidvaram ki, Hüseynbala Mirələmovun bu həyəcan təbilinə səlahiyyətli şəxslər, ağsaqqallarımız, təhsil nazirimiz, qadın cəmiyyətləri, hətta möhtərəm şeyximiz öz münasibətini bildirəcək. Və bununla bağlı əməli işlər görüləcək...

**11 sentyabr 2004**

## MƏNƏVİ BÖHRAN PROBLEMLƏRİN MƏNBƏYİDİR

***Şakir ALBALIYEV***

Dünyanı narahat edən, bəşəriyyəti düşündürən qlobal prolemlərdən Müharibə problemi, Sülh məsələsi, Demoqrafiya (Əhali artımı), Energetika problemləri və s.-nin sırasına Ekoloji problem də daxildir. Bu problemlərin qloballığı ondadır ki, bu məsələlərin birisi şər qüvvə kimi meydana atılanda, dünyada insan adına sahib duran bütün külli-aləm öz rahatlığından olur, dincliyi pozulur. Müharibə başlaylbsa, mütləq qeyd-şərtsiz insan qırğınları, sülh yaratmaq mümkün olmursa, hökmən faciələrlə dolu həyat, dəhşətli ölüm-itim məsələləri qabarıq dünyanı ağzına alacaqdır. Digər qlobal məsələlər də beləcə, hərəsinin özünə görə fəsadları olur ki, bunların da zərbəsi bəşəriyyətə dəyir. Məhz buna görə də bu kimi məsələləri bəşəri problemlər - qlobal (irimiqyaslı) problemlər adı altında səciyyələndirirləır: Bütün dünyəvi problemlər cəmləşəndə, son ıiəticəsı Ekoloji böhrana aparıb çıxarır, yaxud da əksinə, Ekoloji tarazhğın pozulması digər qlobal problemlərin yaranmasına zəmin yaradır. Demək istərdim ki, bütün bəşəri problemlərin bır qütbundə ekoloji problem dayanırsa, digər qütbündə isə cəmi qlobal problemlərin məcmusu durur. Ekoloji problemin yaranması dıgər qlobal məsələlərin yaranmasında başlıca mənbə rolu oynayır, ya da digər qlobal problemlərin doğulması nəticədə Ekoloji problemin yaranmasına gətirib çıxarır. Bunu sxemlə belə göstərmək olar: Ekoloji problem = Müharibə, Sülh, Energetika, Demoqraflya və s. problemlər, yaxud Müharibə, Sülh, Energetika, Demoqrafiya və s. problemləri = Ekoloji problem.

Bunları deməkdə məqsədim odur ki, bütün dünyəvi problemlərin başında məhz ekoloji məsələnin qorunub saxlanması amili durur. Ekoloji tarazlığın pozulması digər qlobal problemlərin törənməsinə ayaq açır. Ona görə də ilk növbədə ekoloji məsələlərin qorunub saxlanmasının qayğısına qalınmalıdır. Bu cəhətdən də qəzetimizin 24 aprel tarixli sayında yazıçı-publisist Hüseynbala Mirələmovun bununla bağlı qaldırdığı həyəcan səsi çox önəmli, vacib məsələ kimi təqdirəlayiqdir. Ancaq ekoloji amil dedikdə təkcə insan və ətraf aləm, bioloji mühit kimi dar anlayışda düşünmək bəsitçilik olardı, bu məsələdə sosioloji ekologiyanı başa çəkmək zəruridir və yazıçının da problemə bu kontekstdən yanaşması bu məsələnin uğurlu qoyuluşuna gətirib çıxarmışdır. Yazıçının özünəməxsus üslubda adlandırdığı "Mənəviyyatın ekologiyası" anlayışı diqqətiçəkən olmaqla, həm də ekoloji problemin kökünün məhz mənəvi aşınmalardan rişələndiyini əks etdirir. Həmin yazıda ekoloji məsələnin sosioloji yöndə qoyuluşuna fikir verək: "...Mən daha təhlükəli müharibə haqqında danışmaq istəyirəm. Bu, mənəviyyatımızda gedən müharibədir. Mən hiss edirəm ki, hər gün, hər saat, hər an mənəviyyatımızda aşınma gedir və biz yad təsirlərin mənəvi işğalına məruz qalırıq. Azərbaycan müsəlman ölkəsidir. Müsəlmançılıq adlanan bir termin var. Çox təəssüf ki, son vaxtlar bu termini daha çox mənfi mənada işlədirlər. Biz Məhəmməd hümməti deyilikmi? Bu, onu göstərir ki, cəmiyyətdə ekoloji tarazlıq pozulmuşdur...

...Əlbəttə, bu qeydlərimdə təbiətlə canlı aləm arasında münasibət haqqında danışmaq fikrində deyiləm. Mən belə hesab edirəm ki, cəmiyyətlə onu təşkil edən insanlar arasındakı münasibətlər daha ciddi ekoloji problemlər doğurur. Artıq həmin termini mən bir qədər məcazi mənada işlədirəm".

Ümumiyyətlə, yazıçı-publisist Hüseynbala Mirələmov bu bir səhifəlik (qəzet səhifəsi) məqaləsini elə bir dildə qələmə almışdır ki, fikrimə isnad vermək üçün əsərdən başdan ayağa tezislər şəklində sitat gətirmək istəyi keçir könlümdən. Yəni burada hər söz yerli-yerində deyilmiş, hər fikir məntiqə uyarlı, tutarlı şəkildə yazıya alınmış, mənəvi problemlərimizin hər sahəsi sanki ayrı-ayrı tezislərin qovuşuq vəhdətində, ölçüyə-biçiyə salınmış vəziyyətdə məqalə formasına gətirilmişdir. Məqalədə heç bir artıq-əskik sözə yer verilməmiş, yığcam fikirlərdə çox dərin

mətləblərə toxunulmuşdur. Aşıq Ələsgərin “Arif odur eyham ilə söz qana, naməhrəmdən şərm eyləyə, utana” kəlamında vurğuladığı kimi, müəllif arifliyi burda özünü göstərmiş, “arifə bir işarə də bəsdir” deyimimizdəki kimi bir işarə ilə hərtərəfli fikir söylənilmiş, cəmiyyətimizdəki həyasızlıqlar həyalı bir tərzdə ittiham edilmişdir.

Doğrudan da, dünyada bəşəri miqyaslı problemləri yaradan da insanlardır, bu çətinliklərlə üzləşənlər də, ağrı-acıları çəkənlər də, bu məşəqqətdən çıxış yollarını axtaranlar da insanlardır. Ancaq sadə bir məntiqi unuduruq ki, bu problemlərin baş verməməsi üçün bəşəriyyətin, hər şeydən əvvəl katarzisə - mənəvi təmizlənməyə ehtiyacı var. Əgər bəşər övladı ruhən mənəvi aləminin saflığını qoruyarsa, “Mənəviyyatın ekologiyası” məsələsini tənzimləyərsə, onda heç nəinki cəmiyyətdə, dünyanın özündə belə ekoloji böhran həddi yetişməz, digər qlobal məsələlərlə də üzləşilməz. Hüseyn Cavid fəlsəfəsinin açılışı bunu ifadə edir:

**İblis nədir? Cümlə xəyanətlərə bais.**

**Ya hər şeyə bais olan insan nədir?**

**- İblis.**

Bəli, insan iblislikdən xilas ola bilsə, insan öz içərisində gizlənmiş tamah şeytanını öldürə bilsə, insanlaşar, bəşəri narahatçılıqlardan yaxa qurtarar.

Hüseynbala müəllim bu gün düşdüyümüz fəlakətin təhlükəliliyini çox dürüst ifadə edir ki, “indi Azərbaycanda dəhşətli mənəvi müharibə gedir. Mənəviyyatımızı işğal etməkdə olan yabançı mənəvi meyillər Qarabağ müharibəsinin vurduğu zərbədən daha təhlükəlidir”.

Başqa bir yerdə isə müəllif qeyd edir ki, “mən həqiqətən iki dünyanın arasında, iki düşüncə tərzinin qovuşuğunda əziyyət çəkən xalqımı görürəm”. Bu fikirlə də müəllif məqaləsinin ikinci başlığı kimi yazdığı “İki od arasında” epitetindən nə demək istədiyinə eyham vurmuşdur. Y.V.Çəmənzəminlinin “Qan içində” romanına verdiyi ikinci adı da “İki od arasında” adlandırmışdı. Hər iki əsərdə mövzu yaxınlığı, müharibə və Qarabağ məsələsi başlıca yer tutsa da, hər iki əsərdə xalqımızın iki od arasında qalması fikri verilsə də, Hüseynbala müəllimin yazısında qaldırılan məsələ - iki od arasında qalmağımız daha dəhşətli bir təhlükənin yetişdiyindən soraq verir. Belə ki, Yusif Vəzir yaradıcılığında sadəcə işğalçılıq fəlakətinin xalqımızı qarabaqara

izlədiyi tarixi hadisələrin fonunda verilirsə, burada daha qorxulu müharibə - mənəviyyatımızın da torpaqlarımız qarışıq işğal olunması fəlakətindən xəbər verilir, bu işğalın daha təhlükəli, daha doğrusu, xalqımızı ölümcül hala salacağı - bir xalq olaraq yer üzündən siləcəyi qorxusu ifadə olunur. Doğrudan da belədir. Mənə belə gəlir ki, burada göstərilən iki od həm də daha bir ikili əlamət kəsb edir: həm torpaqlarımıza müharibə, həm mənəviyyatımıza hücum olunub, həm qədim Şərqli mədəniyyətimiz, həm də buna əks çıxan "Avropa adət-ənənələri, Avropa düşüncə tərzi çox sürətlə mənəviyyatımıza daxil olur".

Bəs nədir bu "Mənəviyyatın ekologiyası, yaxud İki od arasmda" məqaləsində çalınan həyəcan təbili? Nədir burda çalınan "əcəl zəngi"nin bizi xəbərdar edən, duyuq salan səsi - harayı? Nədir bu bizi gözləyən fəlakət? Tarixi həqiqətdir ki, düşmənlərimiz zaman-zaman ölkəmizə xarici basqınlar etmiş, Vətənimizi işğal etmiş, gah fars, gah ərəb, gah da ki, rus əsarətində yaşamışıq. Lakin bizə dəyən bu maddi zərbələr - işğalçılıq zədələri xalqımızı məhv edə bilməmiş, əksinə, xalqımızın mübarizə əzmi daha da artmış, azadlıq eşqi alovlanmış, bu qanlı-qadalı, ölümlü-itimli savaş meydanlarında özünün saflığını - bir xalq kimi xeyirxahlığını - xalqlılığını milliliyini, mənəvi dəyərlərini orijinallığı ilə qoruyub saxlamışdır. Bir xalqın ki, dilini əlindən aldın, onu öldürdün, milli-mənəvi dəyərlərindən, folklor yaddaşından məhrum etdinsə, onu məhv etdin demək. Lakin indiyədək olan müharibələrdə, qanlı işğallarda, soyqırım səviyyəsində olan təcavüzlərdə düşmənlərimiz bunu bizə etmədilər, edə bilmədilər. Lakin bu dəfə belə dəhşətli bir bəlanın nəinki buynuzu görünməkdə, yoluxucu taun kimi açıq-açığına üstümüzə yeriməkdədir. Səməd Vurğunun "Cənab kimdir? O, Teylerdir, şlyapalı bir iblisdir. Ürəyimdən səslər gəlir: ingilisdir, ingilisdir" misralarını aforistik bir kəlam kimi qəbul edirəm, budəfəki işğalda ingilis hiyləsi · iblis fitnəsi gözəgörünməzliklə hörümçək toru kimi fəaliyyət göstərir, budəfəki müharibədə əzəli - qədim qarı düşmənimiz olan erməni məkrinin bic-bicəngi fəndi qurulub, indiki təcavüzdə bütün dünyanın adımıza - özümüzə qənim kəsilən qaranlıq divləri, şər ruhları birləşib birlikdə iştirak edirlər... Bu müharibə daha təhlükəlidir, ikitərəflidir, yəni ikibaşlıdır, ikibaşlı hiylə üstündə qurulub: həm torpaqlarımız, həm də mənəvi dünyamız - ruhumuz hədəf altına alınıb. Bu dəfə

düşmənlərimiz həm çoxdur, həm hiyləgərdir, daha böyük planlarla qanımıza yerikləyirlər. Artıq düşmən ayılıb, dərk edib ki, sadəcə işğal - əsarət zərbəsi ilə bu xalqı - Azərbaycanı məhv etmək mümkün deyil. Ona görə də bizi yer üzündən biryolluq bir xalq, bir millət kimi silib təmizləmək üçün oyun qurub, tədbir töküblər. Bu hiylə, bu tədbir mənəviyyatımızın işğalı, bununla da bizi manqurtlaşdırmaq siyasətidir.

Lakin bu, ayrı-ayrı fərdlərin deyil, bu, bütöv xalqa doğru hazırlanmış sui-qəsddir - kütləvi manqurtlaşdırma siyasətidir. Biz bu axırıncı düşmən oyunundan salamat çıxmağa çalışmalıyıq; bəli, ona görə axırıncı kələk-fənd deyirəm ki, bu hiylədən sağlam - cismən və mənən salamat çıxmasaq, əbədilik ölümə məhkum olacağıq və bu da düşmənlərimizin axırıncı oyunu - bizi torpağa dəfn edən sonuncu tədbiri olacaqdır. (Allah eləməmişl). Yox, əgər bu axırıncı qəsddən sağ çıxsaq - mənəvi aləmimizi ayıqlıqla qoruyub saxlasaq, düşmənlər tarixi keçmişlərdəki döyüşlərdə olduğu kimi, bu döyüşdə də bizi əbədilik məhv etməyin mümkünsüzlüyünü anlayacaq, budəfəki ölümsüzlüyümüz isə bütün külli-düşmənlərimizi ölümcül dərəcədə sarsıldacaqdır. Bizim xalq kimi ölməz olduğumuz dünyada tanınacaqdır. Gəlin hamılıqla ölümsüzlüyümüzü - mənəvi əbədi yaşarlığımızı dünyaya sübut edə bilək. Bizim - qələm adamlarının, yazıçıların müqəddəs borcu isə xalqı məhz bu ölüm təhlükəsindən huşyar edib, ayıq-duyuq salmaqdan ibarətdir. Hüseynbala Mirələmovun özünün gözəl yazdığı kimi: “Bu gün yazıçıların kəsərli sözünə, birbaşa sözünə, açıq sözünə cəmiyyətin ehtiyacı var, Qəlbində vətəndaşlıq yanğısı olmayanlar günümüzün reallıqlarına biganə qala bilər. Ancaq unutmayaq ki, vətəndaşlıq yanğısı cəmiyyətin övladı olan yazıçının mənəvi pasportudur. Bundan imtina edən yazıçı Vətəninin, xalqının oğlu deyil. Yaxud o, artıq özünün mənəvi kökləri ilə onu böyüdən, onu tanıyan, qəbul edən xalqdan çoxdan ayrılmışdır. Onlar artıq özlərini dəfn etmişlər”.

Bəli, yazıçı özünü ölümə məhkum etməklə xalqının da ölümünə zəmin hazırlayır, xalq isə ölübsə, onun yazıçısı da ölüdür, bəlkə o yazıçı nəinki ölüb, hətta heç doğulmamış kimi olur.

Ancaq biz ölgün xalq deyilik. Bizim zənginliyimizi göstərən qədim mənəvi incilər xəzinəmiz də bunların sübutudur. Deyirəm ki, bizim xalqın xalqlılığını göstərən onun özünəməxsus dərəcədə xəlqi-milli olmağındadır. Xəlqilik - millilik isə nə deməķ olduğu aydın məsələdir. Xalqın yaddaşı özümlü folklordur. Xalqımız öz mədəniyyəti, davranışı, adət–ənənələri, mərasimləri, ritual və ayinləri, mifləri, nağılları, musiqili-dini, dili və sair şifahi ədəbiyyat və folklorunun özünəməxsusluqları ilə dünyada tam seçilən, tanınan xalqdır. Tarix yaranandan bu günə qədər bizim xalqımızı da xalq edən, digər xalqlardan fərqləndirən məhz bu xüsusiyyətlərdir. Bax, bizim xəlqiliyimizi - milliliyimizi öldürmək istəyirlər düşmənlərimiz, biz manqurtlaşmamalıyıq, mənəviyyatımızın büllur saflığını qoruyub yaşatmalıyıq.

Bizim xalqda monoqamiya ailə tipi mövcud olub. Xalqımızda təbiətən, ruhən monoqam ailə - təkarvadlı ailə hegemon olub. Bu, həm də qadına, anaya hörmətimizin göstəricisidir, qadına kişi kimi baxmaq psixologiyamızdandır. Bir qadının bir kişisi - bir əri, bir kişinin, bir ərin də bir xanımı, bir arvadı olmalıdır. Bu, xalqımızın alnına yazılan həyat devizidir, ailə nümunəsidir. Ona görə də bu gün nadir hallarda təsadüf edilən ikiarvadlı kişilərə rişxəndlə baxıb bığaltı gülümsəyir, ikrah hissi ilə yanaşırıq. Bu, tarixən xalqımızın təkarvadlı ailə tipini formalaşdırmağından, təkarvadlılığı tutmaqdan dəstəkləmək psixologiyasmdan doğur. Bəli, mən də öz atamın oğlüyam, öz xalqımın övladıyam, müdrik babalarımızın nəsil davamçısıyam və mən də bu əqidədəyəm ki, kişinin bir arvadı olduğu kimi, hər qadının da bir kişisi - bir əri olmalıdır. Lakin son dövrlərdə “Mənəviyyatın ekologiyası” yazısında da qaldırıldığı kimi, bu problem - həya-namus məsələsi o qədər korlanıb ki, mən cəmiyyətimizdə özümə belə ləyaqətli, ismətli qadın seçməkdə vasvasılıq edirəm - hamıya şübhə nəzərləriylə baxıram və nəticədə “yaş da qurunun oduna yanıb gedir” - yaxşı qızlarımız da pislərin kölgəsində görünməz olur... Mənəvi ekologiyanın pozulması nəticəsində mən özümə bir halal süd əmmiş qız tapmaqda çətinlik çəkirəm ki, bu da hələ də mənim 36 yaşımda subay qalmağıma səbəb olub. Mən isə təvazökarlıqdan uzaq da olsa, deyim ki, sadə fərd deyiləm, ali təhsilliyəm, üstəgəl dissertantura mərhələsini bitirmiş şəxsəm. Bu da bir fərd kimi mənim timsalımda

digər qlobal problemin - demoqrafiya (əhali artımı) probleminin yaranmasma səbəb olur, əhali arasında ailə qurulması yolunda əngəllər, maneələr yaradır. Deməк, bir daha gördüyümüz kimi, məsələləri çözələyib incələyəndə, başlanğıc hissədə verdiyim kimi ekoloji tarazlığın pozulması digər qlobal problemləri də doğurur, o cümlədən də özümün timsalında misal gətirdiyim demoqrafiya (əhali artımı, ailə qurmaq) problemini də...

Gəlin Hüseynbala Mirələmovun adı çəkilən məqaləsində qaldırılan həyəcan səsinə hay verək, mənəvi böhranın qarşısını almaqla digər bizi gözləyən, cəmiyyəti və dünyanı narahat edən qlobal problergləгın də ayaq açmasının qarşısını alaq. Dərk edək kı, ekoloji problem mənəviyyatm ekologiyası da daxil olmaqla vaxtında həll olunarsa, digər müşküllükdən də qurtararıq irimiqyaslı problemlərimizin də ayağına kündə vurmuş olanq: Gəlin, qoruyaq özümüzü, ilk öncə özümüzü qorumağımızdan başlanır cəmiyyətimizi, Vətənimizi, eləcə də dünyamızı qorumağımız!...

**11 sentyabr 2004**

## MƏNƏVİYYAT VƏ QANUNUN VƏHDƏTİ

***Binnət HÜMBƏTOĞLU***

Təvazökarlıqdan uzaq olsa da, bəri başdan onu deyim ki, mən o qəbil insanlardanam ki, ümumən götürsək, hər təsirə, hər təsir amilinə o saat, o an reaksiya vermirəm, münasibətimi bildirmirəm. Yəni, çoxlarının faciə kimi qəbul etdiyi hər hansı bir amili, prosesi mən adi hal hesab edərək cəmiyyətin inkişaf qanunauyğunluğu kimi qəbul edirəm...

Lakin təəssüflər olsun ki, bəzən elə proseslərlə, elə gedişatlarla üzləşirik ki, bu proseslər nə qədər cəmiyyətin inkişaf qanunauyğunluğu kimi görüntü yaratsa da, əslində cəmiyyətə, onun gələcək inkişafına qarşı yönəldilmiş amansız bir vasitəyə çevrilir. Sözsüz ki, belə halların, proseslərin qarşısı vaxtında alınmazsa, onun törədəcəyi acı fəsadların aradan qaldırılmasının özü də bir prosesə çevrilər və bu prosesin nə qədər davam etməsi isə dibi görünməz qaranlıq bir quyuya bənzər ki,

dibindəkini görmək ən müşküllərdən biri olar. Məsələn, "SPID" xəstəliyi və onun fəsadlarının aradan qaldırılmasının müşküllüyü kimi...

Mən yazıçı Hüseynbala Mirələmovu şəxsən tanımıram. Yəqın ki, bu, o qədər də vacib deyil. Çünki mən onun bəzi qələm nümunələri ilə tanışam. Elə bu nümunələr də yazıçının mənəviyyatı barədə, kimliyi haqqında mənə kifayət qədər məlumat verib. Baxmayaraq ki, sonuncu yüzilliyin qələm əhlinin əksəriyyətinin ikili xarakteri, ikili mənəviyyatı çoxlarımızın gözü önündən keçməklə, qəlbimizdə əzabverici bir ağrıya çevrilmişdir... Yəni, demək istəyirəm ki, qələm əhlinin qələmi ilə əməli üst-üstə düşməlidir. Əgər bu baş vermirsə... Xalqımız belələrinin əməllərinin acısını son illərdə az dadmamışdır.

Yazıçını yaxından tanıyan və mənim inandığım insanlar, Hüseybala müəllimin alicənab bir insan, xalqının keçmişindən od alıb bu günü ilə alışan, gələcəyi ilə yanan bir vətəndaş kimi təqdim edirlər. Buna mən də öz növbəmdə şübhə etmirəm. Çünki yazıçının ürəyini ağrıdan, düşüncəsini yandıran məsələlər, ümumxalqın ürəyinin ağrısı, millətin fikir yanğısı, dərd yüküdür ki, indi belə məsələlər "əhli-kef harınlar"ı yox, məhz əsl insanı, əsl vətəndaşı narahat edə bilərdi.

Məhz buna görə də yazıçının "Mənəviyyatın ekologiyası, yaxud iki od arasında" məqaləsi ictimaiyyət arasında geniş əks-səda doğurmuşdur. Hüseynbala Mirələmovun bu mövzuya dair çaldığı həyəcan təbilinin səsinə öz səslərini qoşan tanınmış qələm sahibləri, mövzuya toxunulan məsələyə öz tutarlı münasibətlərini bildirmişlər. Hesab edirəm ki, bu da öz bəhrəsini verməkdədir... Mən daim cəmiyyət arasında olduğumdan, yəni süpürgəçidən tutmuş, yuxarı səviyyəli dövlət məmurları ilə münasibətdə bulunduğumdan (bir qələm əhli kimi adamların nə düşündüyünü bilmək mənim üçün daim maraqlı olmuşdur), hər hansı bir məsələyə insanların münasibətini daha çox müşahidə edirəm. Ona görə də, sözügedən məsələ ilə əlaqədar, istənilən qədər fikirlərlə rastlaşmışam. Yazıçının məqalədə toxunduğu məsələyə ümumxalq münasibəti demək olar ki, 70-80 faizə qədər müsbətdir. Söz yox ki, 10-15 faiz əhalini isə belə həyəcan təbillərinin səsi bərk narahat edir. O mənada ki, ölkənin varidatını əlində toplamış bu 10-15 faiz ölkə vətəndaşı baş alıb gedən və yazıçını, eləcə də çoxlarını narahat edən mənəviyyatsızlığın zövqi-səfasından ləzzət alanlardır

ki, belə mənəviyyatsızlıqlar üçün şəraitləri də məhz onlar yaratmışlar, yaradırlar və hələ də yaratmağı planlaşdırırlar...

Belələri deyir: "Əşşi, ay Hüseynbala, deyən gərək nəyin əskikdir ey, nəyinə gərəkdir ey, bir tikə çörəyin var, başını aşağı sal ye də... Xalqın dərdi sənə qalıb..."

Qeyrətli vətəndaşlar isə deyir: "Halal olsun bu kişiyə... Əşşi, vallah, onun yerinə başqası olsa, başını aşağı salıb öz işilə məşğul olar. Bu isə bütöv bir xalqın əxlaqının, tərbiyəsinin dərdini çəkir; Allah, sən özün belə qeyrətli oğulların sırasını artır, bəlkə bu milləti, xalqı bir tərəfə çıxaralar. Yoxsa namusumuz, qeyrətimiz ayaqlar altına atılıb qalacaq..."

Qalan 5-3 faiz isə (xəbislər, paxıllar, tənbəl-müftəxorlar, özlərindən bədgüman qeybətbazlar - maraqlıdır ki, bunlar heç vaxt görüşmədikləri, şəxsən tanımadıqları adamlar haqqında, vəzifə sahibləri, tanınmış adamlar haqqında elə əhvalatlar uydurur, elə "qeybətlər qırırlar" ki, necə deyərlər, adamın ayağının altından yer qaçır) deyir: "Əşşi, belələrinə yaxşı bələdik, üzdə bir şey deyirlər, arxada başqa iş görürlər; gözə kül üfürürlər, beləlləri" "Quran"dan don geyinsələr də" inanmaram" və s.

Belələrindən soruşursan: "Sən fılankəsi şəxsən tanıyıp san? Onunla hansısa bir iş və ya qeyri-bir əlaqən olub?"

Cavab verir: - Yoox...

Onda deyirsən: - Bəs hardan bilirsən?

Deyir: - Deyirlər...

Onda dahi Üzeyir bəy yada düşür: "Deyirlər ki, toy olacaq, Məşədi İbad qız alacaq, bəs nə vədə, nə vədə bu olacaq" ki, bunlar müftə yemək-içməyi "gözlərinə təpsinlər..."

Yaxud da böyük Səməd Vurğun yada düşür: "Deyirlər şirindir busənin dadı, o da kor bəxtimə qismət olmadı" ki, mən də kef çəkəm...

Atalar isə daha tutarlı deyib, "Yaman yeyənin olsun, yaman deyənin olmasın..."

Bax, budur millətimizin faiz mentaliteti... Bəs, onda səbəb nədir ki, azlıq çoxluğa diktə edir? Təbii ki, bunun bir çox səbəbləri var və biz ümumiləşdirsək, sözsüz ki, həm obyektiv, həm də subyektiv olaraq qruplaşar. Bu səbəblər və bu

səbəblərə münasibətlər barədə yazıçının sözügedən məqaləsinə işıq tutan qələm dostlarım hesab edirəm ki, yetərincə öz fikirlərini bildirmişlər.

Lakin müasir zaman, müasir cəmiyyət, xüsusən də gənc nəsil qələni əhlinin, söz sahiblərinin sözünün təsir gücündən, təəssüf ki, kənardadır. Bir daha təəssüf edirəm ki, "elmi-texniki tərəqqi şüurunun inkişafı" o dərəcədə sürət götürmüşdür ki, "əxlaq, mənəviyyat şüuru"nun ona çatmaq imkanı xeyli azalmışdır... Daha dəqiq desək, nəinki bu iki sahədə, bir çox digər sahələrdə də şüuri-tarazlıq pozulmuşdur. Heç şübhə yoxdur ki, bu da istər-istəməz şəxsiyyətin hərtərəfli inkişafı üçün böyük qüsurlar mənbəyinə, o cümlədən də, mənəvi qüsurlar, çatışmazlıqlar amilinə çevrilmişdir.

Mənəviyyat əsasən hissi məfhum olduğundan, nəfsi sayılır. Onun idarə olunması mütləq şüurdan asılıdır. Müqəddəs "Qurani–Kərim"də bu fikir aydın və sadə şəkildə bir ayə ilə açıqca anladılmışdır: "Ya Məhəmməd, de ki, Biz Sizi nəfisli yaratdıq. Lakin şüur verdik". Vəssalam, ayə bitdi. Mənası budur ki, əgər insan nəfsini şüuruna tabe etməyi bacarırsa (bunu isə mütləq bacarmalıdır), o insan heç vaxt xəta etməz, Allah yolundan çıxmaz. Çünki insanı daim hər hansı bir hissi - nəfisi düz yoldan sapındırır. Düz yoldan sapınan insan isə təbii ki, Allah yolu ilə yox, iblisin yolu ilə getməli olur və yaxud gedir. Əgər o kəs ki nəfsini şüuruna tabe etməyi bacarırsa, deməli, ali insani keyfiyyətləri də özündə cəmləşdirməyə qadir olur...

Yazıçı Hüseynbala Mirələmovun insanın bu keyfiyyətini, daha konkret desək, Azərbaycan xalqının mənəvi aləminin yüksək, ali keyfiyyətdə tərbiyə olunmasını, var olmasını görmək yanğısı ilə alışan mövqeyi, əsl insan, əsl vətəndaş qayğısından irəli gələn bir istəkdir. Ən dəyərlisi də odur ki, bu istək, bu çağırış bəzi tanınmış adamların şakəri olan "xal qazanmaq" xatirinə deyil, özünü, sözün həqiqi mənasında, bu yolda fəda etməyə hazır olan, əsl qəhrəman istəyidir, mövqeyidir.

"Kredo" qəzetinin yayıldığı sahələrdə qəzetdə gedən yazılar, o cümlədən də, yazıçı Hüseynbala Mirələmovun yaradıcılığı, şəxsiyyəti barədə bəzən kiçik dairədə də olsa, müxtəlif məzmunlu müzakirələr gedir. Bu müzakirələrdə müsbət münasibətlərlə yanaşı, olur ki, qeyri-obyektiv fikirlər də söylənilir. Məsələn, "Mirələmov özünü kiminsə gözündə qaldırmaq istəyir"; "Onun nəsə xalqdan bir

təmənnası var”; “Nəsə, yəqin bir fıkri var”; “Görünür, harasa seçilmək istəyir”; “Özünü tanıtmaq istəyir, camaata, yəqin dəstəyə ehtiyacı olacaq”; “Əşşi, nə mənəviyyatbazlıqdır ey, pul olan yerdə”. “Mənəviyyat çeynənmiş mövzudur”. “Ekologiyanın mənəviyyata nə dəxli var, ey...”, “Mənəviyyatla ekologiyanın fərqini bilməyənlər gəlib indi millətə dərs demək istəyirlər”, “Əşi, adi yazıdır də...” və s. və i.a. Doğrudur, belə qeyri-səmimi münasibətlərin cavabını yeri gəldikcə veririk, verməli oluruq. Ancaq görünür, belə münasibətlərə cavabı kiçik dairələrdə yox, daha geniş, yəni mətbuat vasitəsi ilə vermək daha önəmlidir. Ona görə ki, belə bəsit fikirlər aşağılardan yuxarılara kimi “ayaq tutub yeriyə” bilməsin...

Mən yuxarıda qeyd etdiyim kimi, nadir hallarda kitablar, əsər haqqında öz münasibətimi bildirirəm. Bildirəndə də əsasən elmi–tarixi əsərləri əhatə edirəm. O mənada ki, həmin əsərdə mənim daha mükəmməl bildiyim məlumatlar əks olunmayıbsa, yaxud da səhv təqdim olunursa. Məqalə haqqında isə 35 illik həyat fəaliyyətim dövründə heç vaxt fikir söyləməmişəm. Əgər ki, “Mənəviyyatın ekologiyası...” yazısına bəzi laqeyd və haqsız münasibətlər olmasa idi...

Hamı kimi mən də məqaləni oxumuşam, özlüyümdə təhlil etmişəm. Bəzilərinin dediyi kimi desəm ki, o qədər də əhəmiyyət kəsb etmir, bu, tam ədalətsizlik olardı. Yaxud desəm ki, əvəzsiz bir elmi əsərdir, bu da düz olmazdı. Çünki mövzu elə mövzudur ki, bu mövzu bir məqaləyə sığışmaz... Necə ki, mənəviyyat anlayışı üzrə filosoflar, psixoloqlar, pedaqoqlar cildlərlə əsərlər yazmışlar. Yazıçının isə bu məqalədə məqsədi mənəviyyat haqqında elmi konsepsiya yaratmaq yox, ölkə əhalisini mənəviyyatsızlığa sürükləyənlərə qarşı çıxmağı bacaranlara çağırış olmuşdur.

Mən bu yazımda bəzi özlərini “mənəviyyat alimi” hesab edənlərə mənəviyyatın nə olduğunu izah etmək fikrim yoxdur. Çünki qeyd etdiyim kimi, bu barədə dövrümüzə qədər kifayət qədər əsərlər yazılıb. Mənim məqsədim ilk növbədə sadəcə olaraq ekologiya anlayışı mənəvi mövqe və bunların bir-biri ilə əlaqəsinin nə dərəcədə olmasının çox qısa bir izahını verməkdir. Sonra isə digər məsələlər...

Yeri gəlmişkən, qeyd edim ki, ekologiya termini mənim xatirimdə çox acı bir xatirə ilə qalıb...

1980-ci illərin sonları idi. SSRİ Ali Sovetinin sessiyası gedirdi. Ali Sovetin daimi komissiyalarının yeni seçilmiş sədrləri özlərini təqdimatla çıxış edirdilər. Ekologiya komissiyasının sədri (o, ya Kabardo-Balkar, ya da Qarkalpaq MSSR-nın birinci katibi olmaqla əslən türk idi) çıxış edəndə Baltikyanı (Pribaltika) ölkələrinin deputatları ona ekologiyanın mənasının nə olduğu barədə sual verdilər. O da tamamən loru dildə; təbiət, aləm, yaşıllıq, otlar, ağaclar, sular, heyvanlar və s. dedi. Sualı qəsdən neçə dəfə təkrar etdilər. O da eyni cavabı verdi... Bütün zal gülüşdü. Həmin deputatlar onu kifayət qədər ələ saldılar. Qorbaçov da gülürdü. Baxmayaraq ki, onu özü namizəd verib seçdirmişdi. Elə o vaxtdan da hər dəfə “ekologiya” terminini oxuyanda, ya da eşidəndə də qəlbimdən kədərli bir ağrı keçir...

Beləliklə, bilməyənlərə bir daha xatırladıram; “ekologiya” sözü yunanca “oikos” ev, yaşayış məskəni və “logos” - söz, təlim sözlərindən əmələ gəlmişdir. “Məskun olunan yer, ev” mənasında işlədirlir.

Məlum olduğu kimi, “ekologiya” termini ilk dəfə İyen Universitetinin professoru Ernet Hekkel tərəfindən 1866-cı ildə təklif edilmişdir. O, bu terminin yalnız bioloji elmlər sahəsində başlıca olaraq zoologiya sahəsində işlədilməsi üçün irəli sürmüşdür. 1904-cü ildə E.A.Brokqauz və İ.A.Efronun nəşr etdirdikləri lüğətdə ekologiya heyvanlar üçün “evlər" tikintisi ilə əlaqələndirilir: “Ekologiya, yaxud ekologiya" zoologiyamn bir hissəsidir və heyvanların yaşayış yeri, daha dəqiq desək, yuva, hin, yataq və s. haqqında məlumat verməklə məşğuldur”.

Görünür, bizim bəzi ağzıgöyçəklər də Baltikyanı ölkələrin deputatları kimi, ekologiyanı məhz bu anlamdan başa düşürlər. Ancaq beləəri bilməlidirlər ki, müasir ekologiya anlayışı daha geniş sahələri əhatə edir.

“Ekologiya” sözünün tərkibindəki “oikos” (ev) anlayışı müxtəlif izahlara (traktovkaya) malikdir. Lakin adətən olduqca geniş və məcazi mənada - sadəcə olaraq ev, məskun olunan yer mənasında deyil, yaşayış üçün yararlı olan ətraf mühit anlayışı altında insanın təkcə evi, təbii mühiti deyil, həm də ölkəni, şəhəri, xalqı, kollektivi, bütün Yer kürəsinin (onun üz qabığında məskun olunan hissəni) və nəhayət, kosmosu nəzərdə tuta bilər. Bütün bunlar yalnız “oikos”a aiddir. Lakin terminin ikinci -

“loqos” (loqos) hissəsi hələ elm aləmi tərəfındən birinci hissə kimi geniş izah edilməmiş qalır.

Məgər Hüseynbala Mirələmovun günahıdır ki, “ekologiya” termininin ikinci hissəsi olan “loqos” ifadəsinin məcazi mənalafindan birini mənəviyyatla bu sahə alimlərindən əvvəl birləşdirə bilmişdir?.. Bu məharətinə görə niyə də ona təşəkkür etməyək?.. Hələ 1995–ci ildə Y.A.Kosıgin (vaxtilə SSRİ Nazirlər Sovetinin sədri işləmiş A.N.Kosıginin oğlu - B.H.) yazırdı ki, əgər sözün qədim yunan mənasını götürsək, bu, təkcə elm deyil, həm də sözdür, nitqdir, müddəadır, mülahizədir, formulirovkadır, tərifdir, müzakirə predmetidir, sualdır, əqldir (əgər belədirsə, niyə də mənəviyyat olmasın? B.H.) və s. Y.A.Kosıgin haqlı olaraq qeyd edir ki, nəzərə alınan iyerarxiyalılıq və mümkün, nəhəng məkan, həmçinin saysız-hesabsız ixtisaslaşma olduqda “elm”, hətta “elmlər” sözü bizə bu məsələdə faydalı ola bilməz. Bizə bütün elmlərin və həyat fəaliyyətinin bütün növlərinin əhatə etdiyi “anlam”, “dərrakə”, sərf edir...”

Bəli, ona görə də ekologiya təkcə elmlər sistemi deyil, daha böyük, konkret desək, dünyagörüşüdür. Və bizim “yaman deyən”lərimiz bunu mütləq bilməlidirlər...

İndisə, bir neçə kəlmə də mənəvi mövqe haqqında:

Elmi, dünyagörüş bu qənaətə gəlmişdir ki, insanın, şəxsiyyətin mənəvi mövqeyi olması üçün ilk növbədə, gərək onun mənəvi mədəniyyəti olsun. Bu gün mən fəxrlə deyə bilərəm ki, hələ dünyada elə xalq, elə bir millət yoxdur ki, onun mənəvi mədəniyyəti Azərbaycan - türk xalqı, milləti qədər qədim və zəngin mənəvi mədəniyyətə malik olsun (təəssüf ki, bizlərdən çoxunun bundan xəbəri yoxdur).

“Mənəvi mədəniyyət şəxsiyyətin sosial yetkinliyini göstərən əlamət olmaqla, bilik və hisslərin ahəngdarlığında, əqidə ilə hərəkətlərin, sözlə işin vəhdətində, məqsədlərin və onların həyata keçirilməsi vasitələrinin əlaqələndirilməsində, davranış tərzinin ardıcıllığında öz ifadəsini tapır.

Şəxsiyyətin əxlaq və həyat mövqelərinin tam və fəal olması mənəvi mədəniyyətin ən mühüm xüsusiyyətidir. Bundan bəhrələnən mənəvi mövqe isə insanın hadisələrə, ictimai hallara, əməllərə prinsipial münasibəti deməkdir. Mənəvi mövqe həyatın aydın dərk edilməsi ilə, şəxsiyyətin fikir və hərəkətləri ilə

səciyyələnir. O, hətta həyatda yoxlanmış bilik və əqidələri, hissləri və iradəni əhatə edir. Eyni zamanda, insan xarakterinin müəyyən yekunu rolunu oynayır. Mənəvi mövqe insan xarakterinin elə bir keyfıyyət vəziyyətidir ki, onun sosial və əxlaqi möhkəmliyini müəyyən edir. Mənəvi mövqedə şəxsiyyətin bu tam xassəsi həyat mətinliyi, ardıcıllıq, öz əməllərinə cavabdeh olmaq, mürəkkəb həyat faciələrinə davam gətirmək, müxtəlif münaqişəli hallarda öz nöqteyi-nəzərini müdafıə etmək qabiliyyəti üçün təminatdlr.

Mənəvi mövqelərin tamlığı idealları və praktikanı əlaqələndirmək, yabançı meyllərə, mənfı təsirlərə müqavimət göstərməyi bacarmaq, müxtəlif həyat problemlərinin və ziddiyyətlərinin həlli zamanı düzgün yollar tapmaq deməkdir.

İnsanın əqidəsi mənəvi mövqeyin ən mühüm göstəricisidir. Biliklər və həyat təcrübəsi üzvi surətdə əqidədə öz əksini tapmışdır. Əqidənin yetkinliyi, sabitliyi belə bir inam oyadır ki, insan hər cür vəziyyətdə öz prinsiplərinə sadiq qalacaq, onlara xilaf çıxmayacaq, təzyiqə davam gətirəcək, geri çəkilməyəcəkdir. Möhkəm mənəvi əqidəni “bərkdən-boşdan çıxmış” öz hisslərinin, münasibətlərinin, əməllərinin süzgəcindən keçirilmiş bilik də adlandırmaq olar”.

Bax budur, Hüseynbala Mirələmovun mənəviyyatla ekologiyanı, yazıçı mövqeyi ilə mənəvi mövqeyi birləşdirən vətəndaş mövqeyi. Budur, onun “tək əldən səs çıxmaz” atalar misalına rəğmən yazıçı dostlarına yönəltdiyi çağırışının məğzi. Ancaq hörmətli Hüseynbala müəllim, nəzərə alın ki, fəal əxlaqi mövqe tərbiyə edilməsi mürəkkəb və uzun sürən prosesdir. Bu cür mövqe kortəbii yarana bilməz və ya həyat hadisələrinin avtomatik nəticəsi ola bilməz. Bundan əlavə, həmin mövqeyin formalaşması prosesində müxtəlif sapmalar həmişə olub, bu gün də var və gələcəkdə də olması istisna edilmir. Laqeydlik və passivlik əsassız olaraq heç bir işə qarışmamaq, biganəlik, gözləmə və sazişçilik mövqeyi - “Mən salim olum, cümlə-cahan batsa da batsın”, “Mənə dəyməyən qurd min yaşasın”, “Məndən keçdi, qardaşıma dəydi” prinsipləri ilə yaşayanlar hələ də aramızda kifayət qədərdir. Təbii ki, getdikcə belələrinin sayı da artmaqdadır. Çox təəssüf...

Bir qarın çörəkdən ötrü, qəpik-quruşdan sarı hər şeylərini, hətta yaşadıqları vətənlərini də satanları az görməmişik... Belələrinə söz təsir etməz. Çünki beləri

sözün nə olduğunu anlamazlar. Baxmayaraq ki, söz yarası ən dəhşətli silahın vurduğu yaradan ağrılı olur. Mən sizinlə tamamilə şərikəm. Biz birləşməliyik. Vətəndaşlıq qeyrəti, vətəndaşlıq mövqeyi olan hər kəs sizin səsinizə səs verməlidir. Biz birləşib, bir olub əxlaqsızlığa, mənəviyyatsızlığa qarşı mübarizə aparmalıyıq. Necə? Təbii ki, sözlə, "el qınağı" deyilən bir məfhumla... Mən pessimist olmasam da bunun bizim təsəvvür etdiyimiz səviyyədə effekt verəcəyinə az inamım var. Çünki sizi bilmirəm, mən mənəviyyatsızlarla çox-çox ratslaşmışam... Onlarin mənəvi palçığı elə həyasız varlıqdan hazırlanıb ki, qınaq anlayışı haqqında təsəvvürləri belə yoxdur. Ona görə də, onlara el qınağı, vətəndaş təhnizi təsir etməz, kar eləməz. Onlara qarşı daha tutarlı, daha optimal vasitələrdən istifadə etmək gərəkdir. Biz gərək istiqamətimizi birbaşa hədəfə yox, onların törədicisi amillərinə yönəldək. Bəlkə onda müəyyən nəticə əldə edə bilərik...

Bunun üçün ilk növbədə mənəviyyatımıza təcavüz eləmiş xarici müdaxiləni dəf etmək barədə düşünməliyik. Sonra dövlətin qanunvericilik və icra orqanları qarşısında müəyyən təkliflərlə çıxış etməliyik. Təbii ki, elmi-nəzəri əsaslarla və təcrübi nəticə vasitələri ilə. Bunun üçün böyük bir elmi institut yaradılmalıdır. Burada mənəviyyatın nəzəri əsasları işlənməli, əxlaqın, tərbiyənin xüsusi konsepsiyaları hazırlanmalıdır. Bunlar üçünsə konstitusiyaya uyğun olaraq, dövlətin xüsusi qanunları yaradılmalıdır. Bir sözlə, bu və buna uyğun sahələr üzrə dövlət proqramı hazırlanıb həyata keçirilməlidir. Daha dəqiq desək, müstəqil Azərbaycan Respublikasının ideoloji konsepsiyası yenidən işlənməlidir və s.

Bütün bunlar yaradılana kimi isə xüsusi qanunçuluq aktları qəbul edilməlidir. Niyə də yox?! Dünya, elə bizim qanunverici orqanlarımız da ekologiya ilə bağlı bilirsinizmi nə qədər qanun və qanunçuluq aktları qəbul etmişlər. Bəs, cəmiyyətin, bu cəmiyyəti təşkil edən ayrı-ayrı əhali qruplarının mənəviyyatı korlanırsa, çirklənirsə, bu çirklənmə təbii yolla, öz-özünə təmizlənmirsə, nə etmək lazımdır? Durub eləcə seyr etməkmi? Bəs, xalq, onun gələcəyi necə olsun? Bu xalqın qanı bahasına yaratdığı dövlətin gələcəyini necə təsəvvür edirsiniz? Ondan qorxmursunuz ki, gələcəkdə Qərbdəki kimi bizim də müqəddəratımızı mənəviyyatsız şəxslər həll edə bilər?..

Bu yaxınlarda, televiziya kanallarının birində, ABŞ-ın hansısa ştatının qubernatorunu istefa verməyə məcbur etmişdilər... Homoseksualist olduğuna görə. Ondan ailəsi, uşaqlarının buna münasibətini soruşanda, sadəcə “xəcalət çəkirəm” deməklə kifayətləndi... Görün, əgər bizdə belə hal baş verərsə... həmin şəxsi tutduğu vəzifədən uzaqlaşdırmaq üçün, qanunla tənzim olunan hansı mexanizm var? Bəlkə də var, ancaq mənə məlum deyil... Bir vaxtlar Milli Məclis üzvləri bir-birini məhz homoseksualistlikdə təqsirləndirirdilər. Biabırçılığı təbliğ etməkdə mahir olan mətbuat da bu məsələni əməlli-başlı şişirtdi. Nəticəsi nə oldu? Təbii ki, heç nə, boşboğazlıq. Əgər bu sadəcə boşboğazlıq idisə, məgər o səviyyədə aparıla bilərdimi? Məgər Milli Məclis, dövlətin qanunvericilik orqanı boşboğazlıq yığıncağıdırmı? Niyə belə bir mötəbər orqanı hörmətdən salanlar qanunla cavab vermədilər... Əgər dediklərini sübut edə bilmədilərsə! Yox, əgər sübut edə bilirdilərsə, nəyə görə ittiham olunan, heç olmazsa, məclis üzvlüyündən uzaqlaşdırılmadı?.. Bax, belə halların öhdəsindən gələ bilməmək, elə mənəviyyatsızlıq barədə “qanuni-aktlar”ın olmamasına dəlalət etmirmi?.. Yoxsa, mənəviyyatsızların, mənəviyyatsızlığı siyasi cəhətdən, elə maddi cəhətdən də təbliğ və təmin edənlərin arxası daha güclüdür ki, bizim qanunlarımızın onlara gücü çatmir?

Çox təəssüflə qeyd etməliyəm ki, bu, mənim gümanımda elə belədir də. Çünki cəmiyyətin 10–12 min illik tarixində dünyanın şərq bölgəsi çox yüksək dərəcəli bir mədəni həyat yaşadığı halda, Qərb əhalisi son üç minilliyə qədər hələ də cəngəlliklərdə sürünür, paltar nə olduğunu belə, tam təsəvvür etmirdilər. “Avropalılara paltar geyinməyi türklər öyrətdi” fikri də təsadüfi deyilməmişdir. Şərqin mədəniyyətini mənimsəyib inkişaf etdirdikdən sonra, Şərqə, onun yüksək mədəniyyətli, mənəviyyatlı əhalisinə də qənim kəsilən elə onlar, avropalı qərblilər oldu. Onlar öz bəd niyyətləri ilə xeyirxah Şərqin bütün mədəniyyətini, o cümlədən də, mənəvi mədəniyyətini vəhşi-zorakı üsullarla talayıb məhv etdilər, dəyərli bildiklərini isə toplayıb öz ölkələrinə, şəhərlərinə aparıb, muzeylər yaradıb özləri üçün əlavə gəlir mənbəyinə çevirdilər... (bu, bütün sahələrdə bu gün də davam edir) Bu talançılıqdan, qəsbkarlıqdan “şok”a düşmüş Şərq özünə gəlməyə başlayanda Qərb artıq siyasətini dəyişməyə məcbur oldu... Yəni, mənəviyyatlarındakı naqislikləri

müxtəlif üsullarla Şərqin yüksək mənəvi aləminə sırımağa, sirayət etdirməyə başladı... Bu siyasət · xalqların mənəviyyatsızlaşdırılması siyasəti talançılığın elə bir əsaslı dayağıdır ki, heç bir zorakı siyasət və üsullarla müqayisə edilə bilməz...

Çünki mənəviyyatsız insanda, mənəviyyatsız xalqda mənlik, heysiyyat ola bilməz, bu, mümkün də deyil. Əgər bu ola bilsəydi, yəqin ki, mənəviyyatsızlıq da olmazdı. Mənlik, heysiyyat olmayan yerdə isə namus, qeyrət, ədəb-ərkan və əxlaqın olması mümkün deyil. Bunların olmadığı yerdə isə Vətən, torpaq, xalq, dövlət, dövlətçilik hissi, onun varlığının, sərvətinin qorunması hissinin olması da təbii ki, müşkül məsələdir...

Yuxarıda qeyd etdiyim kimi, mənəviyyat, hissi məfhum olduğundan, nəfsidir. Mənəviyyatsız insanlar da ancaq nəfsinin təminatı barədə fikirləşir, necə olur olsun, hansı yolla olur olsun... Nəfsin əsiri olan belə insanları, nəfsinin ardınca hansı səmtə, istiqamətə desən çəkmək çox asandır...

Bax, Qərbin dəyirmanı uzun illərdir ki, Şərqə beləcə mənəviyyatsızlıq dənini üyüdür, toxumunu səpir. O cümlədən də, hələ indi-indi ayaq tutub yeriməyə başlayan körpə Azərbaycana. Onu ayağa qalxmağa qoymamaq üçün, “körpəni elə bələkdə boğmaq üçün...” Qərb bunun üçün istənilən qədər vəsait xərcləməyə, qrantlar ayırmağa həmişə hazırdır. Təki biz buna meylli olaq. “Bizsə” nəfsin qulu olduğumuzdan, Qərb üçün heç bir problem yaratmırıq. Hətta bəzən belə meyl “bizlərdə” o dərəcədə qüvvətli olur ki, heç onların dini “sekta”larına, “emissar”larına, “messa”çılarına, “missioner”lərinə ehtiyac da qalmır... Mən onların təbliğat vasitələrindən isə danışmayacağam. Çünki bu təbliğat vasitələri hər gün, hər saat Azərbaycanın mətbuat, efir - ekranı vasitəsilə evimizin çağrılmamış qonağıdır...

Qərb yaxşı başa düşür ki, bugünkü gənc nəsili özlərinin istədiyi kimi, yəni onlara lazım olan kimi - mənəviyyatsız olaraq nə qədər güclü yetişdirsələr, onlar (qərblilər) gələcəkdə bir o qədər çox qazanacaqlar. Bütün sahələrdə! Çünki bugünkü gənc nəsil gələcəyin rəhbəri, idarəedicisidir. Bir haldaki onların arxalarında “toxum səpənlər özləri dayanacaq”. Bela olduqda, xalqın, dövlətin sərvətini talamağa nə var ki... Onda ki, o dövlətin strukturlarına homoseksualistlər (mavilər), lesbianlar (çəhrayılar) hakim kəsiləcəkdir...

Bu siyasət, elə Azərbaycanda marağı olan İslam aləminin də siyasətinə uyğun gəlir. Ən yaxşı halda, Azərbaycan dövlətini dünyavilikdən uzaqlaşdırıb dini dövlətə çevirmək baxımından. Yəni mənəviyyatsızlıq nə qədər çox baş alıb getsə, bir o qədər onların məramının tez həyata keçməsi mümkünlüyü baxımından... Uzağa getmək lazım deyil, şah rejimi zamanı İranda Qərbin törətdiyi eybəcərliklərin nəticəsi olan 1979-cu il islam inqilabına nəzər salsaq kifayət edər... Azərbaycan müsəlman ölkəsidir. Müsəlman dininin isə özünəməxsus qanunları vardır (həm müsbət, həm də bəzi icraçılar tərəfindən həyata keçirilən mənfı cəhətlər nəzərə alınmaqla). Nəzərə almaq gərəkdir ki, bu dini qanunlar, həm də Azərbaycan-türk millətinin milli-mədəni, mənəvi-əxlaqi dəyərləri ilə üst-üstə düşür... Sözsüz ki, bu xalq, bu millət gec-tez öz milli-mənəvi dəyərlərinin məhv olmasının nə vaxtsa qarşısını almağa çalışacaq. Bu, nə falçılıqdır, nə öncəgörənlik, nə də münəccimlik. Bu, hazırda səpilmiş mənəviyyatsızlıq toxumunun nə vaxtsa cücərmə ehtimalının törədəcəyi fəsadların bugünkü fəhmidir.

Mən, şəxsən Böyük Yaradana, onun bizə yol göstəricisi kimi göndərdiyi "Qurani–Kərim"ə səmimi qəlbdən bağlıyam və bir olan Tanrının varlığına səcdə edirəm. Lakin vətəndaşı olduğum dövlətin dünyəviliyinin tərəfdarıyam. Ona görə də dövlətimizin bugünkü dünyəvilik siyasətini alqışlayıram. Nəyə görə? Təcrübə göstərir ki, dünyəvi dövlətlərin hərtərəfli inkişafı qapalı dövlətlərin inkişafından daha sürətli olur. Belə bir sürətli inkişaf isə gənc Azərbaycan dövləti üçün bu gün hava, su kimi vacibdir. Lakin bu o demək deyildir ki, bu inkişaf xalqımızın maddi, mədəni, mənəvi və əxlaqi dəyərlərinin talanması və məhvi hesabına başa gəlsin. Onda bu inkişaf kimə gərək olardı? Sözsüz ki, bu cür inkişafda marağı olan xaricilərə, xarici dövlətlərə... Qərb dünyası bu gün dövlətimizin dünya dövlətləri birliklərinə intiqrasiyasından yetərincə istifadə etməyə çalışırlar. Onlara "Demokratiya"nın artıq ilkin mənasını itirmiş anlamından, fauna, flora və insan cəmiyyətinin bütövlükdə hüquq anlamından öz şəxsi məqsədləri üçün istifadə edərək, dövlətimizin dünyəvi birliklərə, o cümlədən də inkişafın əsas amili olan iqtisadi birliklərə daxil olmasına mane olmağa cəhd edirlər. Yəni onlar çalışırlar ki, müəyyən süni qadağalardan istifadə edib müxtəlif məqsədlərini ölkəmiz daxilində həyata keçirmək üçün müəyyən

sərbəstliklər, müəyyən imtiyazlar əldə etsinlər. Bunun üçünsə onlar ilk növbədə ölkəmizi Qərbdə "demokratiya" adı altında formalaşan və müxtəlif Qərb eybəcərliklərinin üstünü ört-basdır edən qanun və konvensiyalara qoşulmağa sövq etdirirlər. Təbii ki, bu cür "sətiraltı mənalı" konvensiyalar Azərbaycan xalqının mənafeyinə ümumən zidd olduğundan, xalqımızın mütərəqqi dairələri tarəfinfən birmənalı qarşılanmır.

Məsələn, mən dəqiq bilmirəm, söz gəzir ki, homoseksualistlərin cəmiyyəti var və o, dövlət tərəfindən qeydiyyata alınıb. Əgər bu doğrudursa, gəlin görək, bu, Azərbaycan xalqının hansı mənəvi və qeyri dəyərləri ilə üst-üstə düşür? Hələ Azərbaycan - türk xalqının ən azı 10 min illik tarixində, bu xalqın yaratdığı dövlətlərin (ictimai quruluşundan, formasından asılı olaraq) heç birində belə bir əhvalat baş verməmişdir... Olmazmı ki, dövlət belə məsələlər ortaya çıxanda, ona heç olmazsa, əvvəlcə sosial yönümdən yanaşsın? Belə halların mənəvi-fizioloji xəstəliyini və ya harınlığınmı nəticəsində əmələ gəldiyini müəyyən etsin? Hər iki (və ya qeyri-bir halda da) halda belə məsələlərə dövlətin daxili qanunları prizmasından yanaşılsın? Yəni belə hallar harınlığın nəticəsidirsə, müvafiq qanunlarla qarşısı alınsın. Yox, əgər bu artıq fizo-cismi xəstəliyə çevrilmişsə, o da artıq qanunla tənzimlənsin, cəmiyyətdən izolə edilsin. Müalicə oluna biləndisə, müalicə olunsun... Nəinki onların cəmiyyət arasında yayılmasına qanunla rəvac verib xərçəng xəstəliyi kimi metastaz yolu ilə artmasına şərait yaradılsın... "SPİD" kimi müalicə olunmaz xəstəliyin də elə törədicisi bu qəbildən olanlar deyildirmi?

Yəqin ki, bu fikirlərimə görə xarici dövlətlərin qrantları hesabına bu dövlətlərin quluna çevrilmiş və mənəviyyatsızlığın təminatçısı olan bəzi "insan və mənəviyyat hüququ müdafiəçiləri", əlbəttə, dırnaqarası müdafiəçiləri, üsyan edəcəklər ki, mən demokratiyanın, insan hüquqlarının məhdudlaşdırılmasına çağırıram... Əgər belələri tapılsa, mən onlardan məmnuniyyətlə soruşardım; bəs, sizin hüquqlarını müdafiə etdiyiniz mənəviyyatsız insanlar, öz mənəviyyatsızlıqlarını yaymaqla, çoxaltmaqla mənim və mənim kimi yüz minlərlə insanın milli-mənəvi əxlaqını pozmurmu, məhdudlaşdırmırmı? Əgər demokratiya budursa, mənəvi hüquq budursa, onda bizim təmiz mənəviyyatımızın hüquqlarını kim müdafiə edəcək?.. Məgər bizim haqqımız

yoxdurmu ki, öz hüquqlarımızı, bütövlükdə xalqımızın mənəvi hüquqlarını tələb edək, onun pozulmasına qarşı öz etiraz səsimizi ucaldaq?..

Bu günlərdə eşitdim ki, Fred (bəlkə də Fredi) adlı bir qərbli alim mənəviyyatsızlığı təbliğ edən bir kitab yazıb və dünyaya yayıb. Buna - "cəhənnəmə", - deyərdim əgər dübarə eşitməsəydim ki, bir Azərbaycan alimi də bu kitabı təbliğlə məşğuldur. Acınacaqlıdır, elə deyilmi?

Əgər bizim bu barədə qüdrətli qanunumuz olsaydı, güman etmirəm ki, o kitab və onun kimi yüzlərlə mənəviyyatımıza əks təbliğat vasitələri ölkəmizin ərazisinə yol tapa bilərdi. Fakt isə odur ki, bu vasitələr artıq çoxdan Azərbaycandadır və öz təsirini sürətlə gənclər arasında göstərir. Hamıya məlumdur ki, gənclik insanın elə bir dövrüdür ki, həm mənəvi, həm psixoloji, həm də şüuri cəhətdən kamil dövrdən (Nizaminin dediyi "insan 40 yaşında kamilləşir" fikrinə rəğmən) xeyli geri qalır. Ona görə də istənilən yaxşı və pis işlərin (gənclər isə öz növbəsində pis işlərə daha çox meyl edirlər) təsiri altına düşmək gənclik üçün elə də bir problem yaratmır. İngilis pedaqoqu Con Lok hələ vaxtı ilə qeyd edirdi ki, "uşaq ağ lövhəyə bənzəyər, ona görə də "onun üstünə istədiyini asan yaza bilərsən". Sovet pedaqoqları isə eyni zamanda, mühiti əsas götürürdülər. İndi bugünkü Azərbaycanda demək olar ki, hər iki amil birləşmişdir... Deməli, gəncliyi öz şüurunun öhdəsinə buraxmaq, onu uçuruma yuvarlatmaqla, müqayisə oluna bilər. Ona görə də müəyyən-hüquqi qanunların yaradılmasını, mən bir daha deyirəm, mütləq hesab edirəm... Yəni əgər dünyada "mənəviyyat hüququ" deyilən bir anlam mövcuddursa, deməli, bu mənəviyyatın pozulmasının qarşısını almaq üçün müəyyən hüquqi qanunlar da mövcud olmalıdır...

Hüquqşünas alim, filosof Rəşid Hüseynov "Ekoloji cinayətlər, onların aradan qaldırılmasının hüquqi-sosial və fəlsəfi əsasları" haqqında gözəl bir kitab yazıb. Olmazmı ki, elə "mənəviyyatı cinayətlər və onun aradan qaldırılması yolları haqqında" da geniş, əhatəli bir kitab yazılardı. Və bu kitab da R.Hüseynovun kitabı kimi tutarlı qanun və aktlara söykənəydi... Axı mənəvi cinayətlərin qarşısı vaxtında alınmayanda bu cinayətlər tədricən fiziki, iqtisadi və digər cinayətlərə çevrilir; məsələn, tibbi, bioloji, quldurluq, talançılıq, qatillik, rüşvətxorluq, korrupsiya, hər cürə əxlaqsızlıq, satqınlıq, vətən xainliyi və s.

Hörmətli Hüseynbala müəllim, mən sizə bu məqaləni yazdığınıza görə bir daha təşəkkür edirəm və sizin vaxtında qaldırılmış harayınıza qoşuluram...

Əlbəttə ki, kitablara sığışmayan bir mövzunu bir məqaləyə yerləşdirə bildiyinizə görə də bir daha öz təşəkkürümü bildirirəm.

Bir də ki, məqalənizdə hesab etdiyim boşluqları bu haşiyə yazımla doldura bilmişəmsə, deyilməyənləri deyə bilmişəmsə, buna görə də sizə minnətdarlığımı bildirirəm.

Və böyük sayğılarımla ümid edirəm ki, sizin xalqımızın, millətimizin mənəviyyatının qorunması barədəki cəhdiniz hədər getməyəcək. Xalqımızın gələcəyi olan gənc nəsil bunu qiymətləndirəcək və bundan öz bəhrəsini götürəcəkdir!

**18 sentyabr 2004**

## MƏNƏVİYYAT ÜÇBUCAĞI

***Sevil SULTANQIZI***

Alimə, tədqiqatçıya beyninin məhsulunu öz oxucusuna çatdırmaq üçün müəyən vaxt lazımdır. İşıq üzü görən hər hansı bir əsərin isə konkret, aidiyyatlı oxucusu olur. Bundan fərqli olaraq, mətbuatın oxucusu bütün xalqdır. Mətbuat cəmiyyətin görən gözü, vuran nəbzidir, çünki o, informasiyanı tez, qərəzsiz oxucuya çatdırır və ictimai rəy yaradır. Hər hansı bir məsələyə, hadisəyə münasibət qəzet səhifələrində öz yerini tutur və cəmiyyətin inkişafını tənzimləməyə yardımçı olur. Bu baxımdan, Hüseynbala Mirələmovun "Publisistik düşüncələr, günümüzün reallıqları" silsiləsindən olan "Mənəviyyatın ekologiyası, yaxud iki od arasında" məqaləsi diqqətəlayiqdir. Onun günümüzün tələbindən doğan bu məqaləsi bir çox "gözübağiılar"a, "dili lal olanlar"a, həmçinin sadə insanlara, yəni loru insanlara şəffaf bir "ayna"dır. Elə bir "ayna" ki, hər kəs bu "ayna da hər şeyi, hər kəsi olduğu kimi görə bilər.

Mən H.Mirələmovun məqaləsindəkı bəzı məqamlara münsibətimi bildirmək istəyirəm.

Demək olmaz ki, bu cəmiyyət keçən əsrin 80-ci illərinə qədər gözəl, qərəzsiz, saf mənəviyyatla yaşayıb. Bugünki informasiya zənginliyi qlavlitin olmaması ilə

bağlıdır. O vaxt da bu problemlər var idi, bu gün də var. Sadəcə, o vaxt hər bir informasiya oxucuya çatdırılmırdı. Sovet vətəndaşının psixikasını, tərbiyəsini pozmamaq, kommunizmin gözəl, ideal insanını yetişdirmək üçün cəmiyyətin ideologiyasına yabançı hər bir şey gizlədilir, "pərdə arxasında" qalırdı. Ona görə də bugünki mənəviyyat ekologiyası tarazlığının pozulması bizi təəccübləndirməməlidir, çünki 80-ci illərdəki "perestroyka" qəlblərdəki, beyinlərdəki, vücudlardakı ağ və qara, nə varsa, hər şeyə azadlıq vermişdir!.. Dünən ləyaqətli həmvətən bildiyin, "ətəyində namaz qılınan" bir insanı tanımaq olmur: bu insanda nə qədər məkr, qansızlıq, ədalətsizlik var?!

Bu gün bəyənmədiyimiz, milli mentalitetimizə yad hərəkətlər, münasibətlər heç də təzə deyil. Bunlar həmişə olmuşdur, "Qorbaçov perestroykası" bizə yabançı olan, həmişə gizlətməyə, üstünü ağartmamağa çalışdığımız bəzi üzdəniraq münasibətlərə rəvac vermişdir.

İnsanların biri-birinə münasibətində xoşagəlməz, ikrah olunan xüsusiyyətlərə görə cəmiyyət ittiham olunmalıdır. İnsanın yaşamaq uğrunda mübarizəsini cəmiyyət tənzimləməlidir, çünki insan cəmiyyətin yetişdirməsidir. O necə qurulub, yaşayırsa, eləcə də insanı tərbiyə edir. Əgər adi bir arayış üçün mənzil istismar sahəsinə 1000-2000 manat... tələb olunursa, təbii ki, qəbz verilmədən, aldığımız maaşın haralarda və necə, bizdən "oğurlandığını" və bunun yaratdığı acı nəticələri açıqlamağa artıq heç bir ehtiyac qalmır.

Ümumiyyətlə, kölelikdə doğulmuş insan azadlığı sevərmi? Onu qiymətləndirə bilərmi? Xeyir! O ancaq qul psixologiyasına malik ola bilər.

H.Mirələmov qeyd edir: "Azərbaycan müsəlman ölkəsidir... Biz mənəvi mentalitet baxımından şərqliyik. Asiya ölkəsiyik"...

Hər şeydən əvvəl, qeyd etmək lazımdır ki, Azərbaycan coğrafı və tarixi baxımdan, dünya xalqlarını birləşdirən beynəlxalq TRASEKA tranzit-ticarət yolunun üstündə qərarlaşmışdır. Azərbaycan xalqının etnogenezində bir çox tayfa və xalqlar iştirak etmiş, eyni zamanda, onlar da bu xalqdan bəhrələnmişlər. Avropa ilə Asiyanın qovuşuğunda yerləşən Azərbaycan qüdrətli bir dövlət olmuşdur. Hələ Uzun Həsə–nin vaxtında sözükeçən beş dövlətdən biri idi. Daxili çəkişmələr, xarici basqınlar

zaman-zaman Azərbaycanı zəiflətsə də, o öz əsil mənəviyyatını qoruyub saxlaya bilmişdir. Bu günümüzə qədər gəlib çatmış şifahi xalq yaradıcılığı nümunələri bu saf təmizlikdən xəbər vermirmi?

*Gedin, deyin Xançobana*
*Gəlməsin, bu il arana.*
*Apardı sellər Saranı*
*Bir alagözlü balanı...*

Müsəlman ölkəsi olmamışdan əvvəl, Azərbaycan Azərbaycan deyildimi?!

Məncə, insanları, dövlətləri, xalqları regiona, dini mənsubiyyətinə, cinsinə, əqidəsinə görə bölmək, onlara qiymət vermək olmaz, çünki hər yerin, hər kəsin müsbət və mənfi xüsusiyyətləri vardır. Sadəcə, hər hansı kənar təbliğata, siyasətə hazır olmaq lazımdır. **Əgər cəmiyyətdəki mənəviyyat tarazlığının pozulmasının qarşısını almaq, bu tarazlığı tənzimləmək istəyiriksə, onun səbəbini axtarmalı və həllini göstərməliyik.**

Mənəviyyat tarazlığının hardan başlandığını və necə inkişaf etdiyini izləmək, anlamaq üçün, ilk öncə, yerin, göyün, cəmi varlığın yaradıcısı olan Tanrını anmalı və ona "Şükür!" etməliyik, çünki gündəlik həyatda elə bir şey yoxdur ki, insan onu Tanrıdan daha mükəmməl yarada bilsin, çünki ən güclü ateistlər, yəni allahsızlar belə həyatlarının sonuncu anında Allahın varlığını dərk etmiş və insanlığı Yaradanı tanımağa çağırmışlar. Bu, təkzibolunmaz faktdır.

Tanrı yaratdıqlarının ən alisini İnsan - qadın və kişi adlandırdı, onlara ruh-eşq verdi. Bu ruh-eşq qadına yaradan və yaşadan, kişiyə isə qoruyan səlahiyyəti verdi. Tanrı eşqi insanı rüşeym halında olduğu zamandan dünyasını dəyişənədək - yaşadır və sonra əbədiyyətə qovuşdurur.

Bu araşdırmaya diqqətlə nəzər yetirsək, görərik ki, insanın yaranması anından, yan tərəfləri bərabər olan bir üçbucaq - mənəviyyat üçbucağı, mənəviyyat çərçivəsi əmələ gəlmişdir. 1- Tanrı eşqi 2- qadın 3- kişi. Üçbucağın zirvəsindəki bucaq Tanrı eşqi, sol bucaq qadın, sağ bucaq isə kişidir. Deməli, Allah yaratdığı insana üçbucaq

çərçivəsində ruh - eşq vermişdir. Bu ruh - eşq isə dözüm, tab, etibar, sevgi, məhəbbət, qayğı, hörmət... deməkdir. İnsanlar arasındakı münasibətlərdə bu xüsusiyyətlər nə qədər çox olarsa, mənəviyyat üçbucağı böyüyər, şaxələnər, yəni bəşəriyyət çiçəklənər, gözəlləşər, insan firavan yaşayar. Az olarsa, sıxılar, balacalaşar, bu zaman mənfi xarakterli olaylar baş verər: müharibələr, dağıntılar, qəlb evini viran qoymalar, bivaxt ölümlər, yetim uşaqlar, ərsiz qadınlar,köməksiz insanlar.

**Cəmiyyətin mənəviyyat tarazlığının pozulması haradan başlanır?**

Yuxarıda qeyd etdiyimiz mənəviyyat üçbucağının zirvəsi dəyişməz, sabit qalır: bu, Tanrı eşqidir, dəyişən sol və sağ bucaqlardır. Qadın və kişi Yaradanın onlara bəxş etdiyi sevgi ilə ailə qurur. Bu zaman vahid mənəviyyat çərçivəsindən yeni üçbucaqlar yaranır: arvad-ər, ər-arvad. Övlad dünyaya gəldikdə qadına ana, kişiyə ata deyirlər: ana-ata, ata-ana: 1) ana-övlad, 2) ana-qız övladı, 3) ana-oğul övladı, 1) ata-övlad, 2) ata-qız övladı, 3) ata-oğul övladı. Bunların hər biri öz əsas bucağından yaranır və getdikcə artır, həyatımızın qayəsinə çevrilir.

Tərəflər arasındakı münasibət bu mənəviyyat üçbucağında - çərçivədə özünü bariz göstərir: bu üçbucaq hər hansı anlaşmadan genişlənir, yəni "ürəyim elə böyüyüb ki, elə bil uçmaq istəyirəm"; anlaşılmamazlıqdan isə sıxılır, yəni "ürəyim sıxılır, elə bil havam çatmır".

Ailədə anlaşılmazlığın yaranmasının səbəbi nədir?

**Deyirlər ki, əvvəl valideynlər uşaqları öyrədir, sonra uşaqlar valideynləri. Bu fikirdə danılmaz bir həqiqət var,** çünki övlad dünyaya gələnədək onilliklər keçir, zövqlər, düşüncələr, cəmiyyətdəki həyat tərzi dəyişir. Valideyn hər şeyi qəbul edə bilmir, övlad isə ailədə yox, cəmiyyətdə gördüyü kimi yaşamaq istəyir. Təbii ki, bu hər kəsə aid deyil. Bəs bu konfliktin yaranmasına nə təsir edir? Həyatımıza, məişətimizə daxil olan küçə, orta məktəb, ali məktəb, bəzi xarici üzdəniraq filmlər, qəzet və jurnallar, internet saytları və s. Təbii ki, həmişə qadağan olunmuş maraq böyük olur. Demək, xarici mühitin ailəyə inteqrasiya etməsi nəticəsində uşaqların tərbiyəsi pozulur, valideyn-övlad, övlad-valideyn münasibəti gərginləşir və bu zaman çərçivə-üçbucaq sıxılır, qarşıya çıxan problem insan-cəmiyyət, qadın-cəmiyyət, kişi-cəmiyyət, övlad-cəmiyyət çərçivə-üçbucaqlarında öz əksini tapır.

Cəmiyyətin inkişafı nəticəsində dəyişən həyat tərzi kimisə cinayət, kimisə pozğun, kimisə şərəfsiz kürsüyə çıxarır. (Təbii ki, bu, həyat yolunu sağlam amalla getmək istəyənlərə və artıq bu yolu gedənlərə aid deyil.) Dünən az maaşına qane olub, bir qarnı ac, bir qarnı tox yaşayan insan bu gün daha çox qazanmaq, gəlir əldə etmək üçün hər işə girişir: bu, ailəni və şəxsən özünü dolandırmaq üçündür. Bu şəraiti yaradan cəmiyyət sonradan bu insanı mühakimə edir, düzgün yaşamadığı üçün... "Pul əl çirkidir, yuyarsan, gedər" el məsəlinə riayət etmədiyi üçün...

Bəs, bu cinayətkarlığı, pozğunluğu, şərəfsizliyi yaradan nədir?: harınlıq, vara, dövlətə hərislik, işsizlik, elindən, obasmdan, ev-eşiyindən didərgin düşmək-qaçqınlıq, köçkünlük, alıcı - satıcı münasibətində tarazlığın pozulması, hər hansı bir şəkildə rüşvətxorluq və s... Bunların nəticəsində əsəblərin gərginləşməsi və ailələrin başsız, uşaqların valideynsiz, yaşlıların baxımsız, qayğısız qalması baş verir və uşaq evləri, internat-məktəblər, qocalar evləri, öz yeni sakinlərini qəbul edir... Sonra da hüznlü, zərif, hələ bərkə-boşa düşməmiş körpələr ata-ana nəvazişini özgə atalardan, özgə analardan görürlər.

Dişi ilə, dırnağı ilə ev-eşik düzəldən, hər bir övladına bütün həyatını qurban, sadağa verən, nəvə-nəticələrini min bir dillə dindirən, indi isə qismətinə **ATILMIŞLIQ** yazılan yaşlı, ağbirçək, ağsaqqal ata-analarımızın kədərli baxışlarını, qubar bağlamış ürəklərini kim isidə bilər, kim onlara oğulun, qızın yerini verə bilər, beşik başında keçən yuxusuz gecələrə, övladları böyüdüb ərsəyə çatdarana kimi çəkilən əzab, əziyyətlərə kim əvəz verə bilər?!

Həyatımızın reallığı budur! İnsan seçdiyi həyat yoluna əsasən, mənəviyyat çərçivəsini - yaşam tərzini xoş, gözəl, gələcəkli və yaxud sıxıntılı, maraqsız, gələcəksiz qurur.

***

Həyat mübarizədir. Mənəviyyat çərçivəsi - insan–cəmiyyət: qadın-cəmiyyət, kişi-cəmiyyət, övlad-cəmiyyət - insan həyatının güzgüsüdür. Yaxşı yaşamaq üçün hamı çalışır. Hərənin özünəməxsus fəaliyyəti var: bu fəaliyyətdə heç kim heç kimi, heç nə heç nəyi məhv etmir, sadəcə, hərə öz ömrünü yaşayır. Hər bir canlı öz

təbiətinə görə ətrafdakılar tərəfindən mükafatlanır. Bu mükafat fərəhləndirici də olur, təhqiramiz də, etinasız da..., layiqli də, layiqsiz də...

Öz yaşam tərzini və həyat haqqında düşüncələrini hamıdan ali, hər kəsdən yüksək qiymətləndirən bir "qələm əhlinin", nə vaxtsa, yazı masamın üstündə "unutduğu" kiçik mənsur hekayəsinə (əgər buna hekayə demək olarsa) münasibətimi bildirmək istəyirəm.

Bir səhifəlik "mənsur hekayədə" zalım, qaniçən dişi hörümçəyin toxuduğu tora düşmüş gücsüz, kimsəsiz, zərif bir kəpənəyin aqibətindən söz açılır. Tora düşən "bakirə" kəpənək həm dişi, həm də erkək hörümçəklə əlbəyaxa olur, qurtulmaq üçün... Lakin zülm, zalımlıq, kobudluq zərifliyə, gözəlliyə qalib gəlir.

"Yazıq, kimsəsiz, zərif" kəpənək bu toru təsadüf hesab etsə də, həyatda heç bir təsadüf yoxdur. Təsadüf zərurətdən doğulur. Əslində, heç bir tor yoxdur, kəpənək bu torun özününkü olduğunu "anlaya bilmir", qəlbindəki xüdpəsəndliyə, özündən müştəbehliyinə, gözəlliyi, zəriHiyi yalnız öz timsalında gördüyünə, həyat tərzinin necə keçməsinə və nəhayət, özü-özünə hesabat verməməyinə görə... O düşdüyü toru təsadüf, özünü isə nankor, naxələf, üzdəniraq qonşularımız kimi "yazıq, köməksiz" adlandırır.

Burada Azərbaycan şairi S.Ə.Şirvaninin bir beyti yada düşür:

***Zahid, məni aldatma, cəhənnəmdə od olmaz,***
***Kimlər ki, yanırIar, odu burdan aparıblar.***

Ulu Tanrı hər kəsi, hər bir əşyanı, bir sözlə, cəmiyyətdə, təbiətdə rastlaşdığımız hər şeyi öz biçimində yaradıb, ona görə də kiməsə, nəyəsə "qaniçən, əzazil, pis" və yaxud "yazıq, gücsüz, fağır" demək olmaz.

Əgər, həqiqətən, hörümçək qaniçən, zalım olsaydı, Yaradan onu yerdəki sonuncu elçisini - Məhəmməd Peyğəmbəri kafırlərdən qorumağa göndərməzdi və nəhayət, bəşəriyyətin ən mükəmməl kitabı sayılan "Qurani-Kərim"də məxsusi "Ənkəbut" - "Hörümçək" surəsi olmazdı və bu surə məhz müqəddəs "Qədr gecələrində" oxunmazdı...

**Mənəviyyat çərçivəsi dar olanlar Tanrı eşqilə yaşayanların duyğularını, amallarını nə bilər?..**

***

**Cəmiyyət mövcud dövlətin ideologiyası və siyasəti ilə qurulmalı və yaşamalıdır, təbii ki, mütərəqqi-milli zəmin əsasında.** Aristotel "Politika" əsərində demokratik quruluşlu dövlətin əsasının qoyulmasını məktəbdən başlandığını qeyd edir. Bugünkü məktəbli sabahkı əsgərdir, alimdir, sənətkardır... O, vətəndaşdır. Onlar dövlətin dayaqlarıdır. Bu dayaqlar informasiya bolluğu şəraitində dünyaya necə baxıp lar? Mənəvi sərvətimizi necə qoruyurlar?

Hər axşam uşaqdan böyüyə hər kəs işini, gücünü atıb ekran qarşısına tələsir, xaricdən bizə ərmağan olunmuş seriallara, bədii filmlərə və s... baxmaq üçün... Və sonra müzakirə başlanır: kim haqlıdır, kim haqsız... Yaşından asılı olmayaraq, hər kəs bu müzakirəni məktəbdə, metroda, iş yerində davam etdirir və bu zaman özünün milli mentalitetini, əqidəsini unudur. Bu da, tədricən insanı öz kökündən, hətta özündən belə uzaqlaşdırır, özgələşdirir.

"Lider" telestudiyası ilə yayımlanan "Kulon" serialı maraqlı süjetə malik olsa da, əqidəmizə, dinimizə yad bir filmdir. Hər hansı bir sənət əsəri təbliğat xarakteri daşıyır, yarandığı dövlətin siyasətini, əqidəsini yayımlayır. Məncə, "Kulon" serialı da belə tipli əsərdir. Filmdə müqəddəs ailə münasibətləri, ərəb qadınlarının qadınlıq, analıq hissləri müasir Qərb həyatına münasib nümayiş etdirmir. Tez–tez "Qurani–Kərim"dən verilən ayələr isə bayağı xarakter daşıyır və  qəribədir ki, tamaşıçıların əksəriyyəti bu filmə "həyati filmdir", - deyib Ərəb İslam həyatını əcnəbi aktyorların nümayiş etdirdikləri kimi qiymətləndirirlər, bununla da öz əqidələrini, mənsub olduqları nəsli, xüsusilə də İslam dinini mənəvi xilaskar bilib, öz inamından dönərək, ona tapınan minlərlə insanı, bütövlükdə İslam dünyasını təhqir etmiş olurlar. Məncə, heç bir valideyn övladının bu və ya digər şəraitdə belə bir vəziyyətlə qarşılaşmasını istəmir. **Ancaq, nə edəsən ki, hər hansı bir olay insan şüurundan, yaddaşından izsiz keçmir!..**

Tanrı hər şeyi görür, her şeyi bilir. O, dərgahına sidq ürəklə əllərini qaldırıb imdad istəyən bəndələrini bağışlayır. Əqidəmizi, həyatımızı zəhərli, yabançı hisslərdən qorumaqda Tanrı bizə kömək olsun!

**P.S.: "Mənəviyyat üçbucağı" çox geniş bir mövzudur. Bu mövzu günümüzün reallığıdır. Bu barədə düşünməyə dəyər...**

**9 oktyabr 2004**

## CƏHALƏT, MƏLAHƏT, ƏMƏLİYYAT...

***Nijat MİKAYILZADƏ***

Hörmətli yazıçımız Hüseynbala Mirələmov dərdlərimizi çözələyən, diqqəti bəlalarımıza cəlb edən, həyati vacib problemlərimizi yada salan "Mənəviyyatın ekologiyası, yaxud iki od arasında" adlı məqaləsinin ("Kredo" qəzeti, 24 aprel, 2004) elə ilk sətirlərində haqlı olaraq yazır ki, son vaxtlar müsəlmançılıq termini daha çox mənfi mənada işlədilir. Doğrudan da, mövhumatın, xurafatın, çəhalətin dini üstələyib, hökmfərma olduğu, "müsəlmanam" deyə döşünə döyənlərin onlara dinin "Quran"da yazılmış, Məhəmməd peyğəmbərin hədislərində izah edilmiş prinsiplərindən danışanları bəhai, vəhhabi, kafir adlandırdıqları (axı dində törətdikləri əyintilərdən faydalananlara din özü lazım deyil!) bir zamanda müsəlman"lıq"dan elə mahiyyətinin, bəlkə, 90%–i İslama zidd olan müsəlman"çılıq" qalır.

Hazırda dövri mətbuat, radio-televiziya sanki qəsdən xalqın kütbeyinləşdirilməsi siyasətini yeridir. Bütün fırıldaqçılar - hər cür falçılar, görücülər, bilicilər, şəfavericilər, ekstrasenslər, telepatlar, astroloqlar canfəşanlıqla reklam olunur, müntəzəm surətdə ulduz falı, horoskoplar dərc edilir və s.

Həmin redaktor və rejissorlar unudurlar (bəlkə də qəsdən) ki, hələ on dörd əsr əvvəl Məhəmməd peyğəmbər bütün bunları ifşa edərək, son dərəcə mənfı fıkirlər söyləmişdir. Bunu həmin fıırıldaqçılara uyanlara da xatırlatmaq vacibdir.

Şəxsən belə bir biabırçılığın şahidi olmuşam ki, ali savadlı şəxs bir məsələni öyrənmək üçün xüsusi olaraq rayondan Bakıya falçının yanına gəlib. Yaxud bir santexnik yaşadığı ərazidə qardaşının milis sahə müvəkkili təyin olunmasından ruhlanaraq, yəni daha ona heç kəsin toxunmayacağından arxaym olandan sonra (guya, fırıldaqçıya toxunan var!) ekstrasens olduğunu elan edib. Məhz elə bu vaxt yuxuda gördüyü uzun ağ saqqallı pirani bir qoca ona vergi veribmiş ki, get, insanları

müalicə elə. Daha gülməlisi (əslində faciəlisi) budur ki, santexnikin insanı yox, insanın oturduğu unitazı təmir etdiyini başa düşməyən ziyalılar, hətta tibb işçiləri tapılıb onun qapısında uzun növbəyə düzülmüşdülər. (Məndən olsa, bu nadanların diplomu alınmalıdır.) Bunlar "müsəlmanam" desələr də, "Quran"dan, peyğəmbərin kəlamlarından xəbərsizdirlər: "Şərab da, qumar da, bütlər də, fal oxları da şeytan əməlindən olan murdar bir şeydir. Bunlardan çəkinin ki, bəlkə, nicat tapasınız!" ("Əl-Maidə" surəsi, 90-cı ayə).

"Falçının cəzası qılıncla öldürülməsindədir",- deyən Məhəmməd peyğəmbərin hədislərində, o cümlədən, ulduz falına baxanlarm və hətta onlara müraciət edənlərin də cəzaya layiq olduğu söylənilir: "Uduza baxıb fikir söyləyən, qaibdən xəbər verən və belə xəbər verənə baş vurub ondan bir şey soruşan adamın qırx gecəlik namazı qəbul edilməz". Məhəmməd peyğəmbərin guya insanların gizli fikirlərini bilən telepatlar (o vaxt bu termin mövcud olmasa da), insan bədəni haqqında təsəvvürü olmayıb "müalicə" edənlər barədə də kəlamları vardır: "İnsanların ürəklərinə girib qəlblərindən keçənləri araşdırıb oxumağa, sirlərini öyrənib bilməyə vəkil edilməmişəm". "Kim həkimliyi və təcrübəsi məlum olmadığı halda müalicə etməyə başlarsa, təqsirkar olur".

Ziyalılarımızın bütün bunları xalqa başa salıb, fırıldaqçıları ifşa etmək əvəzinə, onların qondarma "şücaətləri" barədə irihəcmli kitablar yazıb reklam etməsi xalqımızın faciələrindəndir. Bu kitablar nə qədər nəfis şəkildə nəşr edilib, zahirən cəlbedicidirsə, ziyanları bir o qədər çoxdur. Məsələn, tanınmış ziyalılarımızdan birisi xəbərsiz olduğu sahəyə girişərək, Məlahət Nəzərovanın fantaziyalarını qələmə almış və onun haqqında "Fenomen" ("Sumqayıt" nəşriyyatı, 1999) adlı, xalqın fikrini çaşdıran ziyanlı kitab nəşr etdirmişdir.

Akademiyanın bir söhbətdə iştirak edən tanımadığım gənc elmi işçisi astrologiya ilə məşğul olan alim haqqında kitab nəşr etdirdiyini söyləyəndə gülüb dedim ki, axı, astrologiya fırıldaqçılıqdır. İncidi. Amma mərhum ekstrasens Etibar Erkin (E.Məmmədəliyev) haqlı olduğumu bildiyi üçün həmin sözdən inciməyib, əksinə, özünəməxsus yumor hissi ilə yanaşmışdı. Bir dəfə ondan soruşdum ki, Tibb İnstitutunun sanitariya-gigiyena fakültəsini (o vaxt belə adlanırdı) bitirənlərə müalicə

etmək hüququ verilmədiyi halda, sənin bir neçə həftəlik kursunda oxuyanlara diplom verib ekstrasens adı ilə müalicə etməyə göndərməyin fırıldaqçılıq deyilmi?! Ürəkdən gülərək cavab verdi ki, bu işlər xaricdə inkişaf edirsə, biz niyə geri qalaq?!

Təəssüf ki, bu yaxşıdan çox pisi yamsılamaq meyli bizə xasdır. Xəzər Universitetinin hindistanlı tələbələri mənə metroda rast gələndə, təəccüblərini bildirirlər ki, siz niyə bizimlə bir yerdə - metroda gedirsiniz?! Bizdə universitet müəllimi ayda azı min dollar alır. ABŞ-da hətta beş min dollar alanı da var. Xaricdə vergilər yüksəkdir, deyə, bizdə də artıranlar, maaşa gələndə, heç xarici yamsılamırlar.

"Quran"da yazılıb: "Allah ona şərik qoşmağı əsla bağışlamaz. Bundan başqa olan günahları isə istədiyi şəxsə bağışlar. Allaha şərik qoşan şəxs, şübhəsiz ki, çox azmışdır". (Ən-Nisa", 116).

Məhəmməd peyğəmbərin hədislərində də oxuyuruq: "Qəbirlər üzərinə oturmaym və onlara qarşı namaz da qılmayın".

"Biliniz ki, insanların ən şərliləri peyğəmbərlərinin qəbirlərini məscid edənlərdir".

"Ey Allahım, qəbrimi özünə qarşı namaz qılınan bir büt etmə. Peyğəmbərlərinin qəbrini məscid edən qövmə qarşı Allahın qəzəbi şiddətli olur".

"Peyğəmbərinin məzarına sitayiş edən mömin məlundur".

"Quran"da Allaha şərik qoşanlar haqqında yazılanı hədislərdə, hətta Allaha ən yaxın insan olan peyğəmbərin öz qəbrini məscid edənlər və məzarına sitayiş edənlər haqqında deyilənləri nəzərə alsaq, deməli, günlərini pirlərdə keçirənlər ən bağışlanılmaz ağır günaha batdıqlarını dərk etmirlər. "Biz pirdə basdırılana yox, onun vasitəsilə Allaha ibadət edirik", - demələri də onlara bəraət qazandıra bilməz. Çünki "Quran"da bunun da böyük günah olduğu göstərilir, "Bil ki, xalis din ancaq Allaha məxsusdur. Allahı qoyub özlərinə dost tutanlar: "Biz onlara yalnız bizi Allaha yaxınlaşdırmaq üçün ibadət edirik!" - deyirlər. Şübhəsiz ki, Allah ixtilafda olduqları məsələlər barəsində onların arasında hökm edəcəkdir. Allah yalançı, nankor olan kimsəni doğru yola müvəffəq etməz!" (Əz-Zumər", 3).

Son zamanlar, təəccüblü də olsa, xüsusən gənclərimiz, sanki Allahın adım daha çox çəkmək, "Allah-taala", "Ulu Tanrım" sözlərini daha çox işlətmək üçün bəhsə

giriblər. Yəqin, bilmirlər ki, bu savab yox, günahdır. Hələ Bibliyada ("Əhdi-Ətiq") oxuyuruq: "Sən Allahın, Rəbbin adını boş-boşuna tələffüz etmə; çünki Rəbb Onun adını boş-boşuna çəkənləri cəzasız qoymaz ("Çıxış, 20").

Belə bir fikir Məhəmməd peyğəmbərin hədislərində də vardır.

Ölkəmizə bir türkün gəlməsi sensasiya olan dövrlərdə nəql edirdilər ki, Bakıya gəlmiş türk alimi ilə görüşən məşhur ədəbiyyatşünas professorumuz ona xoş gəlmək üçün "gəliyoruz, biliyoruz", - deyə danışmağa başlayır. Türk onun sözünü kəsib deyir ki, "efendim, siz öz dilinizdə konuşun, ben iyi anlayıram". 1992–ci ildə "Bakı" qəzetində (17 noyabr) dərc etdirdiyim "Yağışdan çıxmamış yağmura?!" adlı məqaləmdə yazmışdım: "Deyilənə görə, haradansa belə təklif edilib ki, Azərbaycan Elmlər Akademiyası ləğv edilsin... Türkiyədə akademiya yoxdursa, bizim nəyimizə gərəkdir?!. Türkiyədə akademiya yoxdursa, biz özümüzünkünü bağlayıb ona bərabər olmaqdansa, akademiklərimizin qüvvəsi ilə kömək edib, orada da akademiya açmaq daha yaxşı olmazmı?!"

Hələ gənc yaşlarımdan türk yazıçılarının ərəb və latın qrafikasında nəşr edilmiş əsərlərini, xüsusən, Namiq Kamalın, Tofiq Fikrətin şerlərini, Rəşad Nuri Güntəkinin, Səbəhəddin Əlinin romanlarını, Nazim Hikmətin pyeslərini, Əziz Nesinin hekayələrini sevə-sevə orijinalda oxumuşam. Bəli, dilimiz türk dilləri qrupuna daxildir. Lakin bu dillərin hərəsi müstəqil inkişaf yolu keçmiş və aralarında böyük fərqlər əmələ gəlmişdir. Ahəng qanunun yaratdığı incəliyi mühafizə etmiş dilimizin mükəmməl lüğət tərkibi, qrammatikası, orfoqrafiya və orfopepiya qanunları vardır. Bununla belə, nəinki türk və digər Şərq, hətta Qərb dillərindən də faydalanmaq vacibdir. Amma heç bizə doğma olan türk dilini də yamsılamaq, dilimizin sabit ənənələrini bir anda heç etmək olmaz. Bu iki dili yenidən bir qəlibə salmaq ona bənzər ki, riyaziyyat elminin inkişaf edib ayrılaraq müstəqilləşmiş cəbr, həndəsə, triqonometriya kimi sahələrini yenidən hesab adı altında birləşdirəsən.

Vaxtilə türk dili adlansa belə, bugünkü dilimizə Azərbaycan türkcəsi adı vermək də, yumşaq desək, lakoniklikdən uzaqdır. Axı, məsələn, beloruslar öz dillərinə Belorusiya ruscası demirlər ki?!

Yeri gəlmişkən, görkəmli anatomumuz, həm də uzun müddət terminologiya sahəsində çalışan professor Məmmədsadiq Abdullayev belə hesab edir ki, Rusiyanın, Türkmənistanın, Tacikistanın yerli əhalisi, ruslar, türkmənlər, taciklər və s. olduğu kimi, biz də azərlər və dilimiz azər dilidir. Axı təkcə biz yox, respublikamızda yaşayan rus, gürcü, ləzgi də buralı, yəni azərbaycanlıdır.

Hər halda, uğursuz bir şey qondarmaqdansa, elə qəbul olunmuş "Azərbaycan dili"ni saxlamaq daha yaxşıdır.

Hər bir elm sahəsində Azərbaycan dilində terminologiya işlənib hazırlanmış, qəbul edilmiş və uğurla işlədilməkdədir. Son zamanlar əsassız olaraq həmin terminlərə də əl gəzdirilir. Məsələn, sadə: "filankəsi operasiya etdilər" cümləsi türkcəni yamsılamaq xatirinə "filankəs cərrahi əməliyyat olundu" kimi eybəcər hala salınır. Belə yazanlar "operasiya" sözünün "Rusca-azərbaycanca lüğət"də (Bakı, 1991, II cild. 304-cii səh.) aydın göstərilən iki mənasını (tibbi mənası xüsusi qeyd edilmişdir) dolaşıq salırlar: "operai I tib. operasiya, sdelat operaib - operasiya etmək.

Operai II - əməliyyat; voenna operai - hərbi əməliyyat; nastupatelna operai - hücum əməliyyatı; bankovska operai - bank əməliyyatı".

Həmin cildin 595-ci səhifəsində: "predoperasionnı - operasiyaqabağı, operasiyadan əvvəl".

Elə "Azərbaycanca-rusca lüğət"də (Bakı, 1997, III cild, 629-630-cu səh.) də oxuyuruq: "Operasiya xirurqiçeskoe vmeşatelstvo, predprinimaemoe s leçebno elb pri nekotorıx zabolevannix ili ranenix. Operasiya etmək - sdelat operaib... Operasiya stolu - operaionnı stol, operasiya tibb bacısı - operaionna medsestra...

Bu haqda "Azərbaycan Tibb Jurnalı"nda (2004, N-2, 129-130-cu səh.) digər mətbuat orqanlarında da yazdığım üçün son zamanlar müxtəlif qəzetlərdə əlyazmamda heç bir dəyişiklik edilmədən dərc olunmuş məqalələrimdə məhz təkcə "operasiya" sözünün "cərrahi əməliyyat"la əvəz edilməsindən çox narahat oluram. Oxucular haqlı olaraq deyəcəklər ki, bizə "operasiya" öyrədir, özü "əməliyyat" yazır. Mənim üçün dil üzərində aparılan bu "əməliyyatın" bir gülünc cəhəti də var. Uzun müddət Azərbaycan EA nəzdində Terminologiya Komitəsi tibb seksiyasının məsul

katibi kimi akademiyada keçirilən yığıncaqlarda "möhtəviyyat" sözünü müasir bir terminlə əvəz etmək cəhdlərinin şahidi olmuşam.

"Əməliyyat"ın nəyi "möhtəviyyat"dan yaxşıdır ki?! Axı terminologiyada vahid bir prinsip olmalıdır.

Ümumiyyətlə, beynəlxalq terminlərdən imtina edilməsi düzgün istiqamət olmayıb, dili cılızlaşdırır. Həm də nəzərə almaq lazımdır ki, bunlarla yanaşı sinonim kimi işlətdiyimiz və əksəriyyəti ərəb və fars mənşəli olan sözlərin məna çalarları vardır. Rəy, təhlil, əməliyyat sözləri daha geniş, resenziya, analiz, operasiya sözləri isə nisbətən konkret məna daşıyır. Məsələn, hər bir kəs istədiyi şey haqqında rəy yaza bilər. Resenziya isə rəsmi xarakter daşıyan rəydir; məsələn, rəsmi opponentin dissertasiya işi haqqında resenziyası. Yaxud xəstənin qanı analiz ediləndən sonra həkim analizin nəticəsini təhlil edir və buna əsasən diaqnoz qoyur. Analiz sözündən imtina edilsə, deməliyik ki, həkim qanın təhlilinin nəticəsini təhlil etdi.

Rast gəldiyimiz səhvlər və səhv fikirlər təkcə dilə aid deyil.

Xeyli müddətdir ki, "Kredo" qəzeti səhifələrində qəzetin əməkdaşı Fariz Çobanoğlunun pedaqoji təhsilli jurnalist Binnət Hümbət oğlu Əliyevlə (Binnət Hümbətoğlu) müsahibələri ("Muğam dilli tarix") dərc edilir. Bu geniş erudissiyalı şəxslərin söhbətlərindən, xüsusən gənclərimiz, təkcə musiqiyə dair deyil, bir çox elm sahələrini əhatə edən müxtəlif maraqlı məlumatlar alırlar. Amma, təəssüf ki, B.Hümbətoğlunun bəzi səhv fikirləri onları çaşdırır. Məsələn, 12-13-cü söhbətlərdə F.Çobanoğlu tamamilə düzgün mövqedən çıxış edərək göstərir ki, elm şüuru beyinin məhsulu hesab edir və insan öləndən sonra şüurun da məhv olduğunu bildirir. B.Hümbətoğlu isə belə cavab verir: "İndi mən nə edim ki, o fikri söyləyən alim "ölüb-dirilməyib". Yəni klinik ölüm halı keçirməyib. Əgər o, ölmüş olsaydı və müəyyən müddətdən sonra dirilsəydi, nə etdiyinin, nə düşündüyünün, nə görüb, nə eşitdiyinin şahidi də elə o özü olardı. Sizcə, şüur ruhda yox, beyində qalmış olsaydı, ölmüş bədənin beyni bədənin qalxıb görə bilmədiyi aləmdə baş verənləri necə görə bilərdi?.."

Hamı bilir ki, insan bir dəfə ölür, bir insan üçün iki ölüm yoxdur. Xalq əbəs yerə demir ki, ölümdən başqa hər şeyə çarə var... Ölüm birdir - bioloji ölüm. "Klinik

ölüm” canvermənin son mərhələsinə verilən şərti ad, səhv termin, qələti - məşhurdur. Həmin səhv termin tibbdən uzaq şəxsləri, elə möhkəm əqidə sahibi olmayan bəzi tibb işçilərini də çaşdırır, həqiqətdən uzaq fikirlərin söylənməsinə, elmilik iddiasında olan fantastik filmlərin çəkilməsinə səbəb olur.

Heç kəs “ölüb-dirilməyib”. Sadəcə olaraq, can verən, yəni həyatla ölüm arasında olan şəxsləri ölməyə qoymayıb, reanimasiya (həyatın bərpa edilməsi) tədbirləri vasitəsiə həyata qaytarıblar. Onlar da hələ klinik ölümdən əvvəl ölümlə çarpışarkən gördükləri yuxuları danışıblar. Təbiidir ki, elə ağır vəziyyətdə olan adam cənnət bağı, ya geniş futbol meydançası görməzdi. Nəfəsi zorla gəldiyindən, huşsuz vəziyyətdə əl-qol atan, hipoksiya (oksigen aclığı) nəticəsində beyin fəaliyyəti gərginləşmiş, ürəyi və döş qəfəsi sanki məngənədə sıxılan şəxs ancaq qaranlıq yol, dar tunel, o dünyaya inanırsa, həm də Əzrayıl, inkir-minkir, xortdan və s. görə bilər. Odur ki, klinik ölüm vəziyyətindən çıxarılanların danışdıqları əksərən bir-birinə oxşayır. Məsələnin mahiyyətindən xəbərsiz olanlar isə həmin söhbətləri “o dünyanın” təsviri kimi qəbul edirlər. Bax, “ölmüş bədənin beyni bədənin qalxıb görə bilmədiyi aləmdə baş verənləri” belə görür.

B.Hümbətoğlu kimi geniş məlumatlı şəxsin də bu söhbətlərə uyması və hətta onların doğruluğunu sübut etmək üçün bəzi, hamıya məlum olan adi həqiqətləri təhrif etməsi təəssüf hissi doğurur. O söyləyir ki, “ölüm zamanı beyin bədən üzvləri arasında ən gec öz funksiyasını dayandırandı..., beyin digər üzvlərdən bir az gec ölür... Şüur isə ruhda qalır”. Halbuki, qan dövranı dayandıqdan sonra ilk ölən beyin qabığı hüceyrələridir və məhz 3-5 dəqiqədən sonra bunlar məhv olduğu üçün artıq reanimasiya mümkün olmur.

Ruha gəldikdə isə axı Məhəmməd peyğəmbər özü də ruh haqqında bir fikir söyləməkdən imtina edib. Ümumiyyətlə, ruh haqqında ciddi danışanlara həmişə gülməyim tutur. Təəccüb edirəm, niyə başa düşmürlər ki, cahiliyyə dövrünün ərəblərinə öz müdrik fikirlərini aşılamaq, onları düz yola, mədəniyyətə yönəltmək üçün Məhəmməd peyğəmbərin (elə ondan əvvəlkilərin də) onları cəhənnəmlə qorxutmaqdan və cənnətlə şirnikdirməkdən başqa çarəsi yox idi. XXI əsrin mədəni insanı isə niyə özünə sual vermir ki, axı mikroskopik bakteriyalardan, qarışqalardan

tutmuş, nəhəng fillərə, balinalara, qədim dinozavrlaradək heç bir canlının ruhu yoxdursa, bioloji baxımdan onlardan fərqlənməyən insanınki nə üçün olmalıdır?!

Milyon illərdə yaşamış milyard-milyard insamn ruhunu yenidən toplayıb saxlamaq Allahın nəyinə gərəkdir? Cəhənnəmdəki kişilər üçün, hurilər və qadınlar üçün qılmanları kimlər doğub göndərir? Cənnətdəki bu qədər ruh üçün ləziz xörəklər hansı ucsuz-bucaqsız mətbəxdə bişirilir və bədənsiz ruhlar bu xörəkləri necə yeyirlər? Cənnətdəki xörəklərin bişirildiyi nəhəng qazanlar və cəhənnəmdəki insanların yandırıldığı tiyanlar havada necə asılı qalır? Bəlkə Karlson kimi propellerləri var?! Əlbəttə, bu nağılları danışanların həmin suallara hazır cavabları var. Amma məntiqsizliyi sübut etmək üçün daha böyük məntiqsizliklərə əl atılır.

Hüseynbala Mirələmovun məqaləsini oxuduqda yada düşən problemlər bir, ya beş yazıya sığan deyil. Fikirlərin assosiasiyası adamı mövzudan ayırıb, mətləbdən çox uzaqlara aparır. Amma elə bunlar hamısı mətləbdir.

Demokratiya, azadlıq, əlbəttə, yaxşı şeydir. Amma bu nemətə hamı səmimiyyətlə yanaşırmı? Bəzən, yumşaq desək, "qoçaq mənfəətpərəstlər"in demokratiya adı altında gördüyü işlərin arxasından demokratiyanın özünü görmək olmur. Demokratiya savadsızlıq, mədəniyyətsizlik, tərbiyəzsizlik, əxlaqsızlıq deyil. Ən böyük bəlalarımızdan biri ictimai tərbiyənin yox dərəcəsində və ya, daha pisi, mənfi istiqamətdə olmasıdır.

Dünənki gənc dükandan aldığı, kitabxanadan götürdüyü kitablardan, dövri mətbuatda oxuduğu yazılardan, radio-televiziya verilişlərindən savad və tərbiyə alırdı. Diktorlar, aparıcılar, jurnalistlər, aktyor və müğənnilər böyük məsuliyyət hiss edirdilər. Gənclər onlardan təmiz Azərbaycan dilində danışmağı öyrənirdilər.

Bugünkü savadsızlar doğma dili öyrənməkdənsə, onu korlayıb öz səviyyələrinə endirirlər. Kitab köşklərində fırıldaqçıların mövhumat və mistika yayıb, xüsusən gənclərin dünyagörüşü üçün son dərəcə ziyalı olan "Qara magiya", "Falabaxma", "Böyük fal kitabı", "Ulduz falı, "Böyük yuxuyozma kitabı", "Horoskoplar" və s. kitabları qalaqlanıb. Televizoru açan gənc mədəni, tərbiyəvi, ədəbiyyata, incəsənətə dair verilişlərdən daha çox rəqqasə, ya müğənni olduğu bilinməyən, səhnə mədəniyyətindən xəbərsiz əlimikrofonlulara baxıb onların savadsız dildə

yekəxanalıqla verdikləri səfeh müsahibələrə qulaq asır, nəsə bir şeylə özlərini nəzərə çarpdırmaq üçün özgə dilləri və ya robotu yamsılayan, qırpmadan tamaşaçıya zillədiyi gözləri ilə onu sanki burğu kimi dələn, təlxəkliyi ilə çiyrindirən diktorları görür. Görəsən, yumşaq desək, "cinsi əlaqə rezini"ni reklam edən şəkli apteklərdə asılan müğənninin pafosla çıxış etdiyi dövlət səviyyəli təntənəli iclaslarda oturan rəsmi şəxslər, yüksək vəzifəli məmurlar özlərini təhqir olunmuş hesab etmirlər?! Böyük şairimiz Hüseyn Cavidin hələ bir əsr əvvəl yazdığı kimi, mədəniyyətin sonu vəhşilik imiş:

Təməddünün sonu vəhşətmidir, nədir əcəba?..

Radio-Televiziya Verilişləri Şirkətinin rəhbərləri, hansı səbəbdənsə, belə diktor və aparıcıları, müğənniləri ekrana buraxmağa məcburdurlarsa, niyə, heç olmasa, onları vaxtaşırı Aydın Qaradağlı, Valid Sənani, Roza Tağıyeva, Rafıq Hüseynov, Şövkət Ələkbərova, Nərminə Məmmədova kimi savadlı, tələffüzü və intonasiyası yerli-yerində olan, təmiz Azərbaycan dilində danışan, özünü təmkinli və tərbiyəli aparan, yüksək səhnə mədəniyyətinə malik sənətkarlarımızın lent yazılarına baxıb öyrənməyə məcbur etmirlər?!

Ümumiyyətlə, keçmişə hörmətlə yanaşılmalıdır. Əlbəttə, səhvləri bilib təkrar etməmək lazımdır, amma tarixi heç eləmək olmaz. Hər hansı Britaniya və ya Amerika ensiklopediyasında, ensiklopedik lüğətində bütün kralların, prezidentlərin xronoloji qaydada tam siyahısı verilir. Məgər onların arasında qəddarlar, acgözlər, əxlaqsızlar olmayıb?! Konstitusiyalarında da əsrlər boyu, bəlkə, cüzi dəyişikliklər edilib.

İ. V. Stalini şəxsiyyətə pərəstişdə günahlandıranda, görkəmli yazıçı, Lenin mükafatı laureatı M. A. Şoloxov demişdi ki, pərəstiş vardısa, şəxsiyyət də vardı. İndi ən kiçik bir idarənin ən kiçik bölməsinin müdiri tabeçiliyindəki 3-5 nəfərdən özünə pərəstiş tələb edir və başa düşmür ki, bu, şəxsiyyətə yox, şəxsiyyətsizliyə pərəstişdir. Belə ki, işin xeyrinə deyilən kiçicik tənqidi şəxsi təhqir kimi qəbul edir, kimisə yaxşı işinə görə tərifləyəndə hesab edir ki, onun özünü pislədilər.

Bunlar hamısı bizi geri qoyan amillərdir.

Bu gün kitabxanalardan Hegelin, Marksın, Engelsin və başqalarının əsərlərinin yığışdırılmasını, olan heykəllərinin dağıdılmasını da demokratiyaya zidd hərəkət hesab edirəm. Bunlar ki, siyasi xadim olmaqdan daha çox fəlsəfə alimləridir və yaşadığı ictimai quruluşdan asılı olmayaraq, hər bir ziyalı onların əsərlərini oxuyub tanış olmalıdır.. Fəlsəfədən canları qurtardığı üçün sevinənlər unudurlar ki, dialektikanın əbədi qanunları eramızdan çox qabaq məlum idi; bu elmi nəMarks gətirmişdi, nə də Qorbaçov apardı.

Əlbəttə, bu gün mənəviyyatsızlıq, mistika, xalqın kütbeyinləşdirilməsi siyasəti ilə mübarizə aparan, gənclərimizin tərbiyəsinin, geniş dünyagörüşünə malik insanlar kimi yetişməsinin qayğısına qalan möhkəm əqidəli ziyalılarımız, həmin mövqedən çıxış edən mətbuat orqanlarımız vardır. Elə H.Mirələmovun yazısını dərc edən hörmətli şairimiz Əli Rza Xələflinin baş redaktoru olduğu “Kredo” qəzeti sensasiya məqsədli yalanlardan, mistikadan, horoskoplardan uzaq, Xalq arasında hörmət qazanmış bir mətbuat orqanıdır. Qəzetin əməkdaşları və qəzet ətrafına cəlb etdikləri ziyalılar tariximizə, mədəniyyətimizə, musiqimizə dair maraqlı məqalələr, tərbiyəvi əhəmiyyəti olan yazılar dərc etdirir, uzun müddət kölgədə qalmış layiqli şəxsiyyətlərimizi, necə deyərlər, arxivdən çıxarırlar. Məsələn, XIX əsr Azərbaycan klassik ədəbiyyatının görkəmli niimayəndəsi Seyid Nigarinin xalqımıza qaytanlması “Kredo” qazetinin xidmətidir. Xeyli müddət qəzetin səhifələrində bu şaır haqqında yazılar, onun əsərlərindən nümunələr dərc etdikdən sonra bu yaxınlarda Əli Rza Xələflinin redaktorluğu ilə Seyıd Nigarinin əsərlərinin son yüz ildə ilk dəfə dolğun halda nəşri olan “Xaki-payin taci-sərim” kitabı (Bakı, “Azərbaycan” nəşriyyatı, 2004) çapdan çıxmışdır.

“Kredo” qəzeti səhifələrində diqqəti aktual problemlərimizə cəlb etməyi bacaran yazıçımız Hüseynbala Mirələmovun “Mənəviyyatın ekologiyası, yaxud iki od arasmda” adlı məqaləsinin və həmin məqaləyə həsr edilmiş maraqlı yazıların dərc edilməsini cəmiyyətimiz üçün çox faydalı olan böyük hadisə hesab edirəm. Zənnimcə, ciddi problemlərə toxunan bu məqalənin müzakirəsi heç vaxt bitməyəcək və getdikcə daha çox müəllifləri cəlb edəcək. Çünki bu yazı işığına yeni-yeni gəmilərin gəldiyi mayakdır.

**23 oktyabr 2004**

## MÜQƏDDƏS BORCUMUZ

***Bulud ƏLİŞOÖLU***

"Kredo" qəzetində Hüseynbala Mirələmovun "Mənəviyyatın ekologiyası, yaxud İki od arasında" məqaləsini oxudum. Onu da qeyd edim ki, Hüseynbala Mirələmovun "Gəlinlik paltarı" romanını da oxumuşam. Romanda cərəyan edən hadisələr məhz mənəviyyatın ekologiyasından bəhs edir. Yaşadığımız indiki zamanda bizi əhatə edən eybəcərliklər, gənc qızları "turizm" adı ilə yad ölkələrə aparıb orada satan bəzi üzdəniraq səlahiyyət sahiblərinin, iş adamlarının böyük pul qazanmaq hərisliyi əsərdə tənqid atəşinə tutulmuşdur. Hərislik o qədər gözünü bağlamışdır ki, sevdiyi qızı belə satmağa hazırdır.

Müstəqilliyimizi qazandığımız zamanda köhnə quruluşdan yaxa qurtarıb, keçid dövrünə ayaq basanda çətinlik, qıtlıq, ehtiyac bir çox ailələrin də qapısını döydü. Qapını döyəcləyən bu çağrılmayan "qonağı" görəndə bu "qonağı" hərə bir cür qarşıladı. Kimi onun gəlişinə etinasız yanaşdı. Kimi də acılayıb haray-həşir qopardı.

Ayaqları altına düşüb yalvardı. Arvadım da, qızım da sənə gurbandı. Al onları hara aparırsan apar, təki evımdən yağlı-plov iyi gəlsin. Amma sınəsini sıpər edən mərd oğullar:

- Bırcə ailəmə dəymə, namusuma toxunma, nə əzab-əzıyyət verəcəyin varsa onu mənə ver, mənə - dediər.

Ötən əsrin 60-80-cı illərində yazıb-yaradan yazıçı, şairlərdən fərqli olaraq Hüseynbala Mirələmov son illərdə yazdığı əsərlərlə oxucuların ürəyinə yol tapmışdır. Əsərləri teatr səhnələrində aparıcı olmuşdur. Məqaləni oxuyanda yenə yazıçı məsuliyyətini hiss edirsən. Ona dərin rəğbət bəsləyirsən. Çünki namuslu-qeyrətli, xalqını sevən insanların ürəyindən cavab verdiyinə görə düşünməyə məcbur olursan. Məqalədə qaldırılan məsələlər çoxdur.

"Vətəndaşlıq yanğısı cəmiyyətin övladı olan yazıçının mənəvi pasportudur. Bundan imtina edən yazıçı vətəninin, xalqının oğlu deyil".

Yazıçı bu kəlmələri yazmaqla Azərbaycanın yazıçı ordusunu qınayır, onlara baxıb susmaqda günahlandırır. Düz də eləyir. Bəli, bu, doğrudur. Bəzi yazıçıları çıxsaq demək olar ki, tarixin faciəsi olan erməni-azərbaycanlı müharibəsinə həsr olunmuş hələ də lazımi səviyyədə tələb olunan əsər yaradılmamışdır. Bu, təsviri sənətdə də özünü büruzə verməkdədir.

Yazıçı deyir: - "Tanrı kainatı son dərəcə dəqiq nizamlamış, zaman daxilində elə yaratmışdır ki, heç bir düzəlişə yer qalmamışdır".

Amma şüurlu insan öz münasibətlərini gündəlik həyatında tənzimləyərkən nə üçün səhvlərə yol verir, mənəvi dəyərləri tapdalayır?

Suallar çoxdur. Yazıçı verdiyi vacib suallar qarşısında əzab çəkir, buna səbəbkar olan günahkarı axtarır. Sonra da günahın elə özümüzdə olduğunu görür.

Hələ ibtidai icma quruluşundan bəri millətlər içərisində bir millət kimi tanınan, dövlətlər içində dövlət kimi formalaşan Azərbaycan indiki kimi azad olmamışdır.

## AZADLIQ VƏ DEMOKRATİYA

Bu tarixlər boyu babalarımızın arzuladığı, yaratmaq istədiyi dövlətdir. Belə olan halda biz, hər bir Azərbaycan vətəndaşı doğma vətənimizin çiçəklənməsi üçün nə edirik? Niyə qanı qanımızdan, dili-dilimizdən olan bəzi pul sahibləri varlandıqca mənəviyyatımızı tapdalamaqda davam edirlər.

Yazıçının qeyd etdiyi kimi, özünəməxsus gözəl relyefi olan füsunkar Bakımıza münasibətlər müxtəlifdir. Tarixlər boyu kasıb yaşayan sadə əmək adamlarında koma çalmadığı halda şahların, xanların, bəylərin tikdikləri indinin tarixi abidələri olan incilərin qorunmasında laqeyddirlər.

Estoniya Respublikasının paytaxtı Tallində də köhnə şəhər var. Hər bir əcnəbi Tallinin köhnə şəhərinə daxil olduqda özünü nağıllar aləmində hiss edir.

Bəs bizdə necədir?

Bizim İçərişəhərimizdə, köhnə Bakımız da həqiqətən Tallinin köhnə şəhərinə bənzəyiş olsa da şəhərə münasibətlər müxtəlifdir.

60-70-ci illərdə Bakının şəkillərini dərslik kitablarında görən kənd uşağı olaraq Bakıya oxumağa gələndə Bakının gözəlliyi məni də heyran qoydu. Rəssam gözlərim babalarımızın tikib-yaratdıqları qədim binaların fasadındakı bəzək-naxışları oxşayırdı.

Ömrümdə ilk dəfə gördüyüm, ayaq basdığım İçərişəhərə girəndə məni xof basırdı. Elə bilirdim ki, bir-iki dalan da getsəm azaram. Bu labirint küçələr ürəyimi üzürdü.

Sonralar rəssamlıq təhsili aldığım zaman gənc rəssamlarla İçərişəhərə Şirvanşahlar sarayına gəzintiyə gələndə özümü əvvəlki - şahlıq dövründə hiss edirdim.

Ancaq indinin nə xanı var, nə də sultanı.

Neyləməli, mənə doğma olan o xanlar, sultanların ruhları Şirvanşahlar sarayını divar oyumlarında olub insanları səsləyirdilər.

- Baxın - deyirdilər. Baxın görün, biz nə yaratmışıq, necə yaşamışıq, sizin üçün necə iz qoyub getmişik. İndi isə 60 yaşı haqladığım bir dövrdə İçərişəhərə qədəm qoyanda özüm-özümə suallar verirəm.

Məgər Bakı ətrafında bir bina, bir məkan tapılmazdımı ki, hərbi qarnizon İçərişəhərin ürəyində yerləşsin. Axı nə üçün Azərbaycan mətbuatının banisi, ilk xeyriyyəçi Həsən bəy Zərdabinin yaşadığı, bu millət üçün yazdığı "Əkinçi" qəzetinin redaksiyası indinin özündə hansısa xarici şirkətə icarəyə verilsin. 1983-cü illərdə Qroznı şəhərinə seminara getmişdim. Seminar iştirakçılarını şəhərlə tanış edən zaman bir ağacın yanında dayanan bələdçi - ağacın tarixi abidə olduğunu - deyəndə içimdə güldüm. Bakı və Bakının tarixi abidələri gözlərim önündə canlandı. Öz-özümə dedim:

- İlahi, bizi nə qədər xoşbəxt və bədbəxt yaratmışsan.

Babalarımızın bizə bəxş edib getdikləri varlığa, niyə biz belə biganəyik.

Düzdür. Son illərdə Bakı o qədər gözəlləşib, o qədər yeni göydələnlər tikilir ki, Bakıda doğulub, qocalanlar bu şəhərlə qürrələnir. Bakılı olduqları üçün fəxr edirlər. Amma bir məsələ də var. Evlər ucaldıqca şəhər quyu kimi dərinləşir. Di gəl bu quyunun dibində baş çıxar. Evdən çıx get şəhərə itmə. O cümlədən həyat yoldaşın da,

qızın da, bacm da, anan da itməsin. Evlər ucalır, binalar bir-birinə mehribanlaşır. Elə mehribanlaşır ki, bir pəncərədən kəmənd atıb o biri pəncərəyə bağlaya və yuyulmuş yaş əyin paltarını sərə bilərsən. Və ya axşam evlərdə işıq yananda qonşunun otağı sənə televizor ekranını xatırladır.

H.Mirələmov barları, restoranları tənqid edir. Orada rəhbərlik edən, pul qazanan manqurtların "çolpa", "cücə", "balıq" kabablarını reklam eləməklə qız, gəlinləri satdıqlarını ifşa edir. Hətta yana-yana qeyd edir ki, belə şeyləri kriminal kimi aləmə car çəkməyin də nəticələri daha dəhşətdir. O dönə-dönə qeyd edir ki, Azərbaycan 50, 100, 150 il bundan qabaqkı Azərbaycan deyil. Azərbaycanı dünyaya tanıdan Milli liderimiz Heydər Əliyevin istedadı sayəsində Azərbaycan Böyük İpək yolunun üstündə uzaqdan görünən bir ölkədir. Nə qədər ki, ölkəmiz Avropaya inteqrasiya edir biz də öz mənəviyyatımızı, milliliyimizi, sərvətimizi, dilimizi, ən nəhayət özümüzü qorumağı bacaraq. Çay görməmiş çırmanmaq bizim adətimiz olsa belə dönüb yeddi arxa dönənimizə baxaq. Kim odduğumuzu anlayaq. Özgə süfrəsində dadını, ləzzətini hiss edib, yeməyin qaydasını bilmədən əl uzadıb özümüzü biabır eləməyək.

Bu gün Azərbaycan dilinin başına gətirilən oyunlar adamın ürəyini dağlayır - deyən yazıçı ürəyini dərd yığnağına döndərib qələmə sarılır.

Ümumiyyətlə, hansı xalq olursa olsun dil ünsiyyəti zamanı onun vətəndaşı bağıra-bağıra danışırsa, o dil nöqsanlıdır. Dünya xalqları içərisində Azərbaycan dilini şirinlikdə, zənginlikdə rus dili ilə müqayisə etmək olar. Amma gəlin görək dil gözəlliyini qoruya bilirikmi? O kəs vətəninin, xalqının, dövlətinin, millətinin qeydinə qalar ki, onun sümüyü, əti, qanı o millətdən olar.

Hörmətli yazıçımız Hüseynbala Mirələmov onu narahat eden mənəviyyat, mənəviyyat ekologiyasınm tarazlığının pozulduğunu görüb yazarlara müraciət edir.

- Yazıçı dostum, hardasan, danış! Mən səni eşitmək istəyirəm.

Biz deyirik hörmətli yazıçı H.Mirələmov, nəinki təkcə siz, həm də bunu bütün Azərbaycan oxucuları gözləyir, eşitmək istəyirlər.

**28 avqust 2004**

## UNUTDUQLARIMIZI YAŞAMAĞA MƏHKUMUQ

*Sahib ABDULLAYEV*

Hüseynbala müəllim! Mən bu məktubu sizə çoxdan - ötən ildən yazmaq istəyirdim. Lakin hər dəfə Sizin "Kredo" qəzetinin səhifələrində işıq üzü görmüş "Mənəviyyatın ekologiyası, yaxud iki od arasında" publisistik düşüncələrinizi oxuduqca bu fikrimdən daşınırdım. Çünki hər dəfə sözügedən yazıya baxdıqca mənim içimi ehtizaza gətirən, bütün vücüdüma sirayət edən, mənəviyyatımda ocaq çatan milli-mənəvi ağrı-acılarımdan bəhrələnən duyğularımın inikasını sizin ya zınızda tapırdım. Və açığını deyim ki, Sizin yazınızda toxunulan məsələlər illərdir ki, məni narahat edib, iç dünyamda təlatümlər yaradıb.

Mən Sizin yaradıcılığınıza yaxşı bələdəm. Bu bələdçiliyin kökü isə nəşrə başladığı birinci sayından əməkdaşlıq etdiyim "Kredo" qəzetindən başlanır. Sizin həmin qəzetin səhifələrində gedən bütün yazılarınızı, işıq üzü görən bütün kitablarınızı oxumuşam və hətta rəhbərlik etdiyim kollektivdə B.Xələfli, E.Kamal, Ə.Zalov, Y.Dirili, B.Zeynalov və bu kimi sayılıb-seçilən qələm sahiblərinin iştirakı ilə sizin kitabınızın müzakirəsini də keçirmişik. Elə buradaca bir nüansı qeyd etmək istəyirəm ki, sizin əsərlərinzdə sözləri öz rənglərinə ayıra-ayıra qələmə aldığınız, içinizdəki torpaq itgisindən, yurd ağrılarından, bu xalqın, bu millətin taleyinə can yanğısından bəhrələnən duyğularınıza söz libası geyindirib ortalığa çıxardıqlarınız bir vətəndaş kimi, bir Vətən oğlu kimi və nəhayət bir şəxsiyyət kimi yaşadıqlarınızın inikaslarıdır. Daha doğrusu, ruhu nura bələnmiş Y.Əmrənin təbiri ilə desək sizin çölünüzə sızanlar elə içinizdəkilərdir. Kaş, ziyalılarımızın, qələm adamlarımızın hamısında Sizin içinizdə ocaq çatmış ağrı-acılarınızın, bu xalqın, bu millətin taleyinə can yanğınızın, milli-mənəvi dəyərlərə tapınmanızın heç olmazsa müəyyən bir qismi olaydı. Belə olsaydı bəlkə də Sizin heç iki od arasında qalıb həmin yazını yazmaq çıxılmazlığınız da olmazdı. Açığını deyim ki, hər dəfə Sizin sözügedən yazınıza göz gəzdirəndə hələ bir neçə il əvvəl bu mövzuda yazdığım "Mahiyyət adda pünhandır" publisistik düşüncələrimin bir çox məqamları beynimdə yenidən canlanır və həmin düşüncələri Sizinlə bölüşməkdən yan keçə bilmirəm:

Son zamanlar yeri gəldi gəlmədi hər sahədə - ədəbiyyatda, incəsənətdə, mədəniyyətdə - Qərb dünyasına meyllilik, Avropaya yöntutma ifrat dərəcəyə çatıb. Üslub zənginliyini bir və ya iki keyfiyyət ilə, başqa estetik xüsusiyyətlərdən təcrid olunmuş xüsusiyyətlərlə məhdudlaşdırmağa çalışan, üslub məsələsində metofizik bir sxematizmə yuvarlanan bir sıra Qərb nəzəriyyəçilərindən gözüyumulu bəhrələnmə musiqidə atonallığa, rəssamlıqda mücərrədliyə, poeziyada gərəksiz lakonizmə gətirib çıxarır ki, bu üslubda yaranmış əsərlərdə milli mentaliteti, fərdi milli müəyyənliyi heç zərrəbinlə də tapmaq mümkün olmur, bayağılıq, epiqonçuluq baş alıb gedir. Belə əsərlər yaradanlar bir nüansı unudurlar ki, ümumbəşəri dəyərlərə kor-koranə şəkildə kosmopolitcəsinə yanaşanda milli xüsusiyyətlər kölgədə qalır, itib-batır. Necə bilirsiniz bunun özü də mənəvi ekologiyanın korlanması, milli mənəviyyatımızın qalaktikasında "ozon deşiyi"nin böyüməsi deyilmi...

Hüseynbala müəllim, bu təkzibolunmaz həqiqətdir ki, hər bir xalq biri digərindən öz fərdi xüsusiyyətlərinə, milli-mənəvi çalarlarına, etik-əxlaqi nüanslarına görə fərqlənirlər. Bizim xalq isə tarixən başqa xalqlardan öz unutqanlığı ilə "fərqlənib". Bu unutqanlıq isə həmişə baha başa gəlib bizə. Aqillərin: "Tarixini unudan Xalq onu təkrar yaşamağa məhkumdur", fıkri öz təsdiqini həmişə bizim simamızda tapıb. Zaman-zaman düçar olduğumuz bəlaları, yaşadığımız faciələri, üzləşdiyimiz namərdlikləri unutmasaydıq onların təkrar–təkrar taleyimizə "təpilməsinə" imkan və şərait də yaranmazdı, onlar bumeranq kimi təkrar–təkrar qayıtmazdı özümüzə. Başqa zaman intervallarında yaşadığımız dövrləri demirəm, təkcə ötən yüzillikdə namərd qonşularımızın başımıza gətirdiklərini unutmasaydıq indi içimiz göynəyə-göynəyə, tüstümüz ərşə bülənd ola-ola Əlahəzrət Zamanın Qarabağ dövrünü yaşamazdıq. Xocalı faciəsinin ildönümü ərəfəsində telekanallardan birinin yayımladığı bir verilişə baxdıqca içimi acı bir təəssüf, hətta, bir az da özümüzə qarşı ikrah hissi qatılmış heyrət culğamışdı məni: respodentlərdən heç biri əsrin ən böyük faciəsinin - Xocalının darmadağın edildiyi, yağmalandığı tarixin nə ilini, nə də gününü bilmədi. Bu zaman insan öz iradəsini zorlayıb həmin verilişə baxdıqca içində bir ağrı duyur: xalqın namusunun ayaqlar altına salındığı, şərəf və

ləyaqətinin, ümumən insanlığın alçaldığı günü həmin xalqın övladı necə unuda bilər. Necə bilirsiniz, bunu da mənəviyyatın ekoloji aşınmasının ayağınamı yazaq?!

Xalqımız tarixən özünün böyük-kiçik yeri bilməsi, əxlaqi dəyərlərini qoruyub saxlaması, mənəvi keyfiyyətlərə hörmətlə yanaşması ilə fərqlənib həmişə. Döyüşkənliyinə, sücaətinə, mərdliyinə görə Rövşənə Qoç Koroğlu dedi xalqımız, inadına, əqidəsində dönməzliyinə, inanmında tərsliyinə görə Məmməd Qatır Məmməd adını qazandı, Tuti Bikə, Tomris, Nüşabə, Nigar... kimi qadınlarımız "aslanın erkəyi, dişisi olmaz" deyiminin ortalığa çıxmasına səbəb oldular, yağı əlinə düşməməsi üçün, rüsvayçılıqdansa ölümü əfzəl bilən, namusunu, ismətini qorumaq üçün özünü qayadan atan gəlin özü ilə bahəm o vaxta kimi adicə daş parçası olan həmin qayanı da əbədiləşdirdi, məşhurlaşdırdı: Gəlin qayası.

Bəs, indi başqasının yatağında öz ərinə mobil telefonla göstəriş verən arvadlarla, göbəyi muncuqlu qızlarımızla, özü evdə manqala od salıb başqasıyla eyş-işrətlə məşğul olub arvadını İrana, Dubaya alverə göndərən, gecələr arvad paltarı geyib, bəzənib-düzənib yol kənarında müştəri gözləyən kişilərimizlə hara gedirik, qardaş?!

Oğuz orunlarında, məsələn konkret olaraq Bayandır xanın divanında hər kəs öz yerini bilərdi: divanda kimin sağda, kimin solda, kimin dibdə və kimin eşikdə oturacığı dəqiq məlum idi və heç kəs bu qaydanı pozmaq cəsarətində buluna bilməzdi. Milli ədəbi sərvətimiz olan "Kitabi-Dədə Qorqud"da Beyrək Qazan xanı öyərkən deyir: "Sağda oturan sağ bəylər, solda oturan sol bəylər, eşikdəki inaqlar, dibdə oturan xas bəylər, qutlu olsun dövlətiniz".

Və yaxud yenə orada Qazan xan oğlu Uruzdan umduqlarını görməyəndə ona baxıb təəssüflə deyir:

**Bəri gəl, qulunum oğul!**
**Sağ ələ baxanda**
**Qardaşım Qaragünəni gördüm –**
**Baş kəsib - qan tökübdür,**
**Haqqın alıb, ad qazanıbdır.**

**Sol ələ baxanda**
**Dayım Aruzıı gördüm, -**
**Baş kəsib qan tökübdür**
**Haqqın alıb, ad qazanıbdır.**
**Qarşı ələ baxanda**
**səni gördüm,**
**On altı yaş yaşadın,**
**Bir gün ola, düşüb öləm,**
**sən qalarsan,**
**Yay çəkməmisən,**
**Ox atmamısau...”**

Elə yuxarıda deyilənlərdən də tam aşkar olur ki, divanda hər kəs göstərdiyi igidliyə, nümayiş etdirdiyi şücaətə, layiqli əməlinə görə, qazandığı ada müvafıq yerlərdə əyləşərdi. Bəs, indi necədir? Nə böyük yeri bilən var, ne kiçik, nə ağsaqqal tanıyan var, nə ağbirçək. Sadəcə olaraq, nə bəladırsa, heç kəs öz yerini bilmir.

Musiqi mədəniyyətimizdə xalq tərəfındən görkəmli sənətkarlara verilən adlar özlərini doğruldaraq, zaman-zamaq dildə-agızda dolaşaraq əbədi yaşarılıq hüququ qazamblan Xan, Bülbül və s. bu kimi adları eşidəndə bu adları daşıyan böyük sənətçilərin surətləri canlanır gözlərimiz önündə. Bəlkə də bir çoxları bu azman sənətkarların öz valideynləri tərəfindən verilən adlarını bilmirlər.

Bəs, indi necədir?..

Son zamanlar əcaib bir hal az qala ənənəyə çevrilib. Dövlət tərəfindən verilən adlar bir yana, bəzi “sənətçi”lərə bir qrup adamlar və ya heç bir səlahiyyət və nüfuzu olmayan qurumlar tərəfındən dəbdəbəli adlar, titullar verilməsi ayaq tutub yeriyir. Və bu ad və titulların əksəriyyəti həmin ada layiq olmayanlara verildiyinden adamda ikrah və təəssüf hissi yaradır.

Qəribədir, öz ifalarını göbək rəqsləri ilə “bəzəyənlər”, bir mahnını ifa edib axırda çıxana qədər səhnədə dördnala çapıb təngnəfəs olanlar, səhnədə min cür əzilib-büzülənlər “Madonna”, “Qızıl Şlyager”, “Super Star”, daha nə bilim nə olurlar.

Belələrinin bir çoxu öz ifalarının zəifliyini örtabasdır etmək üçün səhnədə min oyundan çıxırlar, min cür əllaməlik edirlər. Hətta bəziləri, səhnəyə az qala çılpaq "təşrif buyururlar". Lakin belələri unudurlar ki, istedadları yoxdursa, səhnəyə nəinki paltarını, lap dərisini soyunub çıxsa belə özləri səviyyə və əxlaqda olanlar istisna olmaqla xalq tərəfindən qəbul edilməyəcəklər.

Hər şeyin mahiyyəti onun adında pünhandır. Ad gərək onu daşıyanın mahiyyətini təcəssüm etdirə bilsin. İndi belə deyil axı. Yaxşı, belə olan təqdirdə heç bir fəxri adı və titulu olmayan, lakin dünyanın digər ölkələrinin konsert salonlarını demirəm, indi çoxlarının yaxın belə düşə bilmədikləri Kremlin Qurultaylar sarayında təkcə 11 dəfə konsert verən, Azərbaycan estradasının pioneri sayılan Oqtay Ağayevə nə deyək, nə ad verək. Öz mahnılarını dünyanın 69 dilində oxuyan, tarixi şəxsiyyət C.Nehrunun "Azərbaycanın mavi bülbülü" adlandırdığı, hansı ölkədə oxumasından asılı olmayaraq bütün çıxışlarını "Azərbaycan" mahnısı ilə başlayan, həmişə Azərbaycanı və azərbaycançılığı təbliğ edən Rəşid Behbudovun ruhu inciməzmi bizdən?! Öz "Dərələri" ilə dərələr, dağlar aşan, ölkələr, qitələr dolaşan Şövkət Ələkbərovanın ruhu qınamazmı bizi?! Öz mahnıları ilə bütün qitələri dolaşan Zeynəb xanım Xanlarova rəncidə qalmazmı bizdən?

Bəli, musiqidə baş alıb gedən hoqqabazlıqlar heç bir ölçüyə, heç bir çərçivəyə sığmır. İndi kütləvi şəkildə mahnı mətnləri yazanlar və onları "ifa" edənlər peyda olublar. Kim nə cür bacarır elə də oxuyur: nə musiqiyə hörmət edirlər, nə də dinləyici zövqünə. Bəzən elə "musiqiyə" qulaq asmalı olursan ki, burada nə musiqidən əsər-əlamət var, nə də mətndən. İndi çoxları həm şair olub, həm bəstəkar, həm də ifaçı: özü yazır, özü bəstələyir, özü oxuyur.

Bir əcaib hal da cıdır yarışlarında mükafatlar alan köhlənlər kimi dördnala çapır: indi bəziləri evdə neçə uşağı varsa, az qala hamısının adına şeir "yazır", mahnı "bəstələyir". Qorxuram ki, bundan "ilhama" gələn digər "müğənnilər" də uşaqlarından sonra keçələr dədələrinin, nənələrinin, arvadlarının, hətta məşuqələrinin adına mahnı yazmağa. Bəlkə də bu, dünyada analoqu olmayan bir haldır. Başqa ölkələri demirəm, bizə daha doğma və yaxın, neçə on milyonluq əhalisi olan qardaş Türkiyədə belə bir halın olduğunu eşitməmişəm.

Belə neqativ halların baş alıb getməsinə rəvac verilmənin ən başlıca səbəblərindən biri də, bəlkə də birincisi professionallıqdan uzaq, hətta mən deyərdim ki, milli əxlaqi-mənəvi dəyərlərə “dirsək göstərən”, milli mentalitetimizi, psixologiyamızı “nəzərdən qaçıran” özəl televiziya kanallarıdır. Bir çox qabiliyyətsiz, mədəniyyətsiz, musiqidən bixəbər müğənnilərin az qala ulduz səviyyəsinə qaldırılmasında özəl kanallarrm “xidməti” əndazəsizdir. Bir çox özəl telekanallar bir nüansı dərk etmir və ayırd etməyi bacarmırlar ki, onlar ayrı-ayrı fərdlərə yox, xalqa xidmət etməlidirlər. Və bu zaman onlar xalqın mənəvi dəyərlərinin qorunub saxlanılmasına, dinləyici zövqünü oxşamağa, onun heysiyyətinə hörmətlə yanaşmağa borcludurlar, bu xalqın, bu millətin övladları kimi.

Acınacaqlı haldır ki, bu xalqın musiqi mədəniyyətinin inkişafında əməyi və xidməti olanları, öz professionallığı ilə xalqın rəğbətini qazanmış yaşlı nəslin nümayəndələrini, digər bir çox istedadlı gəncləri özəl telekanallar “görə bilmirlər”. “Bəyaz gecələrdə” “Qırmızı nol yeddidə”, “maç–maç, quc-quc” edənlər ekranlarda zövqümüzün, eləcə də əsəblərimizin atasına od vururlar, həyalılar, abırlılar və ən ümdəsi əsl sənətçilər qalırlar pərdə arxasında.

Hörmətli Hüseynbala müəllim! Böyük filosof Platon hələ zamanların o biri tayından yazırdı ki, musiqi əxlaqi qanundur. (Mən əxlaqi qanunları daha ali və daha yüksək hesab edirəm, çünki əxlaqi qanunlara hər yerdə, hər sahədə əməl olunarsa, onda inzibati qanunlara ehtiyac da qalmazdı, fıkrimizcə). Bəs, belə olan halda məzmunsuz çıxışlarını, əttökən ifalarını əcaib göbək rəqsləriylə, əzilib-büzülmələrlə “rövnəqləndirən” yarıçılpaqları, nə oxuduqlarını, nə etdiklərini bilməyənləri, bəzən arvadlığı, kişiliyi bilinməyənləri ekrana buraxanlar böyük fılosofun dediyi kimi musiqinin əxlaqi qanun olduğunu niyə dərk etmirlər, dərk edirlərsə, niyə bu qanunlara əməl etmirlər. Beləlləri təkcə o qanunlara deyil, həm də o qanunlan zaman-zaman yaradan və formalaşdıran xalqın özünə hörmətsizlik edirlər.

Yeri gəlmişkən bir ağrılı faktdan da yan keçmək mümkün deyil: bu kanalların aparıcılarından bir neçəsi istisna olmaqla, böyük əksəriyyətinin professionallıq səviyyəsi, ekran mədəniyyəti, səhnə hazırlığı, söz ehtiyatının azlığı tamaşaçıda ikrah hissi doğurur. Bu aparıcılar görəsən, neçə milyonluq tamaşaçı qarşısında olduqlarını

dərk etmirlərmi?!. Belələri hərəkətlərində, danışıqlarında bəzən elə əllaməliklərə yol verirlər ki, sadəcə olaraq adamı xəcalət hissi bürüyür. Hələ bu azmış kimi aparıcıların bir çoxu apardıqları verilişləri öz müğənnilik qabiliyyətləri ilə də "rövnəqləndirirlər".

İndi bəyənmədiyimiz, qəbul etmədiyimiz, hər addımda lənətlədiyimiz, kölgəsini qılıncladığımız sovet dövründə dilimiz və musiqimiz elə cilalanmışdı ki, onun təmizliyi, milli xüsusiyyətlərə sadiq qalması ilə fəxr etməyə dəyərdi. Doğrudur, bir neçə on illər tərkibində yaşadığımız cəmiyyətin siyasi quruluşundan "bəhrələnən" stereotiplərin müəyyən təsiri var idi və bu təbii qəbul olunmalıdır. Mən cəsarətlə deyə bilirəm ki, keçmiş postsovet məkanına daxil olan respublikalar içərisində dili, musiqisi, mədəniyyəti, ədəbiyyatı ən az deformasiyalara məruz qalan Azərbaycan idi.

Neçə–neçə qurbanlar, nə qədər tökülən qanlar və məhrumiyyətlər bahasına müstəqilliyimizi əldə edəndən sonra, daha doğrusu, təbiri-caizsə, öz əlimiz, öz başımız olandan sonra fikirləşmək olardı ki, bu sahədə işlərimiz daha da yaxşı olacaq, dilimiz daha da saflaşacaq, incəsənətimiz və mədəniyyətimiz yad təsirlərdən yaxa qurtaracaq, milli mentalitetə söykənmə, milli adət-ənənələrə tapınma daha da vüsət alacaq. Amma nə yazıqlar ki, belə olmadı: dilimizdə də, musiqimizdə də, mədəniyyətimizdə də, hətta əxlaqımızda da hoqqabazlıq və əllaməlik baş alıb getdi.

Sovet dövründə yeni bir musiqi əsəri radio dalğalarında, televiziya ekranlarında səslənmək üçün neçə intansiyalardan keçməliydi. Və yaxud mətbu orqanlarda gedən adicə bir orfoqrafik səhvə görə növbəti sayda redaksiya düzəliş verərdi, oxuculardan üzr istəyərdi, həmin xətaya yol vermiş əməkdaş cəzalandırılardı. Bəs, indi necədir?! Yağışdan sonra münbit torpaqda artan göbələklər kimi günü-gündən sayı çoxalan mətbu orqanlardan bir neçəsi istisna olmaqla, demək olar ki, əksəriyyətində baş alıb gedən orfoqrafik səhvlər, məzmunsuz və məntiqsiz yazılar həmin mətbu orqanları oxumağa imkan vermir. Son illər böyük yazıçı, görkəmli alim, rəhmətlik Əzizə xanım Cəfərzadə həmişə söhbətlərimiz vaxtı yana-yana, göynəyə-göynəyə deyərdi ki, ay oğul, mən bu qəzetlərin çoxunu oxuya bilmirəm, əsəbiləşirəm, niyə bunlara nəzarət edən, irad tutan, söz deyən yoxdur.

Sadəcə olaraq belə mətbu orqanlar dilimizin "atasına od vururlar". Konkret olaraq bu sahədə prezident fərmanı olsa da hoqqabazlıqlar səngimir ki, səngimir. Elə

buna görə də təhsilindən, tutduğu mövqedən, məşul olduğu işin təmayülündən asılı olmayaraq hamımız əl-ələ verməli və bu sahədə müəyyən qayda-qanun yaratmalıyıq. Yoxsa, sonralar göy nərtisi bizə rahatlıq verməyəcək çox şey itirəcəyik, vallah.

Hüseynbala müəllim, bizim təkcə torpaqlarımız işğal olunmayıb, Sizin həmin publisistik düşüncələrdə qeyd etdiyiniz kimi mənəviyyatımız daha çox işğala məruz qalıb: madəniyyətimiz, incəsənətimiz, dilimiz daha çox zorakılıqla üzləşib, deformasiyaya uğrayıb. Biz ilk növbədə işğal olunmuş və işğal olunmaqda davam edən mənəviyyatımızı azad etməli, onu özümüzə qaytarmalıyıq. Belə olan halda işğal olunmuş torpaqları azad etmək, onu yenə də özümüzünküləşdirmək çox asan olacaq, vallah.

Hüseynbala müəllim! Adəm övladının hamısı özünün təkrarlarında yaşayır və mövcud olur. Əgər ruhunun saflığı və paklığı bəşər övladına hökmranlıq edirsə, onun xeyirxahlıqları, nəcibliyi, fəzilətləri başqaları tərəfindən təkrarlanır və bu zaman İNSAN yaratmaq qüdrətinə sahib olur.

Böyük YARADAN yaratdığı hər bir insanın varlığına bircə çimdik özünün yaratmaq qüdrətindən qatıb və elə bu səbəbdəndir ki, Adəm övladının YARATMAQ qabiliyyəti var. Və insanda pərəstiş duyğuları yalnız yaratmaq bacarığı təcəlla edəndə pərvəriş tapır. Pərəstiş boy verəndə isə dünya gülə-çiçəyə dönür, elə gözəlləşir ki... Bu zaman hər şey, hər kəs elə gözəl görünür ki, İlahi. Bax, bu vaxt BÜTÖV İNSAN bütün nadanlıqların, bütün naqisliklərin, bütün eybəcərliklərin fövqündə durmağı bacarır. Bəs, bütün nadanlıqların, bütün naqisliklərin, bütün eybəcərliklərin fövqündə durmağı bacaran (“bəlkə də bacarmalı olan” deyim) insan niyə onlara yol verir!

Hörmətli Mirələmov. Siz son zamanlar dünyada baş verən qeyri~adi hadisələrə, təbii fəlakətlərə diqqət yetirmisinizmi; onları təkcə təbiətin şıltaqlıqları kimi qəbul etmirsiniz ki… Kim nə deyir desin, kim hansı prizmadan yanaşırsa yanaşsın, kim hansı bucaq altından baxırsa baxsın, mənə elə gəlir ki; bütün bunlar insanın, ümumən bəşəriyyətin mənəvi ekologiyasının aşınmasının təbiətdə inikasıdır; aşınmış, korroziyaya uğramış mənəviyyata görə Tanrının cəzasıdır, qisas almasıdır.

Bütün bu kimi hallara qarşı niyə yazarlarımız, ziyalılarımız, sənətçilərimiz… səslərini qaldırıb cihad elan etmirlər.

Mən Sizin "Mənəviyyatın ekologiyası yaxud iki od arasında" publisistik düşüncələrinizi bir haray, bir hay kimi qəbul edirəm. Elə bəlkə də Sizin sözügedən həmin publisistik düşüncələrinizin doğurduğu əks-sədanın inikasıdır ki, son zamanlar toxunulan məsələlərlə bağlı yazılar işıq üzü görməyə başlayıb.

Hörmətli Hüseynbala müəllim, ağrılı yerimiz olan sözügedən mövzu ilə bağlı daha çox yazmaq, daha çox fikir yürütmək olardı... Lakin...

Sonda onu demək istəyirəm ki, tutduğumuz mövqedən, təhsilimizdən, əqidəmizdən və siyasi baxışlarımızdan asılı olmayaraq hər birimiz mənəviyyatımızın qayğısına qalmağı müqəddəs bir ayin kimi yerinə yetirməliyik: bütün varlığı ilə Allaha tapınmış möminin sidq-ürəklə gündəlik ibadətlə məşğul olması kimi.

**05.02.2005**

## GƏLƏCƏYİMİZ MƏNƏVİ DÜNYAMIZDAN KEÇİR

***Zaur ƏBÜLFƏTOĞLU***

Hörmətli Hüseynbala müəllim, Sizin məqalənizi oxuduqdan sonra mən xeyli fıkrə daldım. Bir anlığa yadıma "keçmişi unutma, o, gələcəyin müəllimidir" fikri düşdü. Doğrudan da, keçmiş gələcəyin müəllimi rolunu oynamalıdır. Həm də yadıma o da düşdü ki, hər hansı bir xalqı yaşadan amillər onun dili, ərazisi və bir də onun tarixidir. Bir millət kimi öz milliliyimizi, öz milli-mənəviyyatımızı qorumaq üçün dilimizi qorumalı, tarixi köklərimizə bağlanmalı, yaşadığımız ərazinin ekoloji-mənəvi cəhətdən daim öndə getməsinə çalışmalıyıq. Elə buradaca yadıma hardasa oxuduğum misralar düşür:

**Bizdən öndə gedir avropalılar,**
**İşi işbilənə tapşırır onlar.**

Bizi bu gün işi işbilənə tapşırılması məsələsi daha çox düşündürməlidir. Hətta "çörəyi ver çörəkçiyə, birini də üstəlik" ifadəsi bax buradaca həmin misalı tamamlayır. Əgər biz bu gün adət-ənənələrimizdən, milliliyimizdən uzaqlaşıb öz adət-ənənəmizi kənara qoyub, bizdən çox-çox uzaqlarda yaşayan hər hansı bir millətin, dövlətin adət-ənənəsini öz içərimizə daxil ediriksə, öz adət-ənənəmizi kənara qoyub gəncliyimiz qondarma adət-ənənələri öyrənməyə çalışırsa, həm öz

milliliyimizdən uzaq düşür, həm də başqa bir millətin adət-ənənəsinə müdaxilə etməklə, bəlkə də, onu ləkələyirik. Axı biz onu da unutmamalıyıq ki, iki tərəfə baxan kor olar. Bu gün bizim millətimiz, bizim xalqımız, bizim gəncliyimiz iki tərəfə baxır, sanki iki odu üfürmək istəyir. Elə iki od arasında qala-qala özümüzü iki odun içərisinə atırıq və o alovun içərisində yana-yana külə dönürük. Həm də fikirləşmirik ki, həyatda diriykən ölü kimi yaşayırıq. Əgər biz dilimizdən, adət-ənənələrimizdən uzaq düşmüşüksə, biz cismən yaşayırıq, mənən yaşamırıq. Mən heç də onu demək istəmirəm ki, biz elə öz içərimizdə qapanaraq öz torpağımızda qalaq, kənara çıxmayaq, yox. Gəlin birinci növbədə özümüzü öyrənək, özümüzü düşünək, dərk edək. Özümüzü dərindən dərk edəndən sonra kənarı dərk etmək bizim üçün daha asan olar. Amma özümüz haqqında - öz tarixi keçmişimiz, mədəniyyətimiz, dilimiz, dinimiz barəsində heç nə bilmiriksə, kənarı yamsılamaqla biz qabağa gedə bilmərik. Biz o kənarı dərk edib onu icra etməyə meyl göstərməliyik. Amma dərk etmədən onu yamsılayıb özümüzün adət-ənənələrimizdən, dilimizdən, mənliyimizdən, ümumilikdən odumuzdan, suyumuzdan kənara çıxıb özümüzü ən ağır tonqallara atmış oluruq.

Bir müddət xalqımız içərisində ruslaşdırma siyasəti həyata keçirdilər. Hətta ölkəmizin ən görkəmli şəxiyyətləri belə öz övladlarına rus dilini öyrətdilər. Dilimizdən bu yolla öz övladlarını uzaq saldılar. Azərbaycan dilini 91-ci ildən sonra öyrənməyə meyl gücləndi. İndi isə ikinci bir bəla başımızın üstündə fırlanır. İngilis dili beynəlxalq dilə çevrilir. Əgər Azərbaycan dilini dərindən bilmirəmsə, ingilis dilini necə öyrənməliyəm? Bu gün orta məktəbin ibtida sinfindən başlayaraq ingilis dili tədris olunur. İngilis dili kurslarına göndərilir. Ali məktəbdə də ingilis dili fənni fərdi şəkildə öyrədilir. Beləliklə, orta məktəbdən ali məktəbə qədər Azərbaycan dilinin dərinliklərinə yiyələnmək olar. Bütün bunları sadalamaqla onları demək istəmirəm ki, yalnız Azərbaycan dilini öyrənməklə özümüzə qapılaq. Əlbəttə, hər hansı bir insan nə qədər dil bilərsə, nə qədər müxtəlif xalqların adət-ənənəsini dərindən öyrənərsə, nə qədər dövlətlərlə mədəni-iqtisadi əlaqədə olursa, onun mənəvi aləmi bir o qədər zəngin olur. Amma mənəvi aləmi zənginləşdirmək üçün özümüzün milliliyimizdən, uzaqlaşmağımız bizim mənəvi aləmimizə, mənəviyyatımıza sanki

yad cisimləri daxil etmək kimi bir şeydir. Həmin o yad cisimlər insan bədənində müəyyən xəstəliklər törətdiyi kimi, biz öz adət-ənənəmizi, dilimizi bilmədən yad adət-ənənələri özümüzün "mənəviyyatımıza" daxil ediriksə, bu zaman daxilimizdə xəstə bir mənəviyyat formalaşır. Məhz o xəstə mənəviyyat da bizim gələcəyimiz, dövlətimiz, milliliyimiz üçün ən ağır zərbədir. Hər hansı bir milləti, dövləti məhv etmək üçün ilk növbədə onun mənəviyyatına zərbə vurulub. Bu, tarixən belə olub və bu gün də çox təəssüflər olsun ki, belə davam edir. Biz gənclər arasında elə təbliğat aparmalıyıq ki, öz mənimizi, mənliyimizi dərk edə bilək. Bu günlər milli adət-ənənəmizə uyğun geyimlər, danışığımız, dilimizin dərin çalarlara malik zənginliyi tamamilə yaddan çıxarılıbdır. Hətta milliliyimiz o qədər yaddan çıxıb ki, öz geyimimizdən, öz təmiz danışıq formalnızdan istifadə etdikdə kənardan - "o, kəndçidir, o, avamdır, yeniliyi hələ həzm edə bilmir və s." bu kimi mənasız ifadələri eşitməli oluruq. O ifadələri işlədən şəxs Azərbaycan sözünün mənasını, Azərbaycan dilinin mənasını, onun adət və ənənəsini dərk etmir, ona görə də bu ifadəni işlədir. Yaşadığımız regionlarda Azərbaycan dilinin həmişə ikinci sırada yazıldığını görmüşük. 70 il müddətində bu ənənə bax beləcə davam etmişdir.

Bu günlər şəhərimizdəki reklam və afişaların əksəriyyəti başqa dildə yazılır. Məgər bunu düşünən yoxdurmu? O lövhələrdəki yazıları hamının başa düşəcəyi dildə yazmaq lazımdır. Çünki onu yaşlı da, cavan da oxumalıdır. Bəlkə burda düşünəcəksiniz ki, fərasətin var sən də öyrən. Amma onu da bildirim ki, hər bir yaşın zünəməxsus dinləmə, qavrama qabiliyyəti var. Məgər 60-70 yaşlı bir şəxs yenidən xarici dilimi öyrənməlidir? Və yaxud, 4–5 yaşlı təzəcə məktəbə gedən birinci sinif şagirdi məktəbə getdiyi ilk gündən ingilis dilini qavrayıb o lövhəni oxuya bilirmi? Məhz bütün bunları biz heç zaman düşünmürük. Ona görə də məqalədə irəli sürülən ideyalarla, fikirlərlə mən tam şərikəm. Və arzum budur ki, milli mənəviyyatımıza bütün Azərbaycan vətəndaşları - yaşından, təhsilindən, dilindən asılı olmayaraq hər kəs əməl etməlidir. Televiziyada verilən verilişlər, qəzetlərdə çap olunan məqalələr, ictimai yerlərdə baş verən hadisələr, avtobus, trolleybus və metrolarda gənclərimizi özünü idarə etməsi - bax bu sahədə böyük işlər aparılmalıdır. Bu gün barlar, əcaib

restoranlar əvəzinə gənclərimizin daha ideal əylənməsi və öz istirahətlərini daha yaxşı, məqsədəuyğun keçirmələri üçün şərait yaradılmalıdır.

Bugünkü gənclər hamı tərəfından danlanır, hamı tərəfindən təhqir olunur və nəhayət, gülüş hədəfinə çevrilir. Gəlin bir anlığa fikirləşək, o gənclər hansı ailələrdən gəlir, kimlərdən tərbiyə alır? Bu gün məhz həmin gənclərin tərbiyə aldığı ailələrdə maarifləndirmə işləri getməlidir. Təkcə iş yerlərində görülən işlərlə kifayətlənməməli, həmin kollektivlərdə həm iş getməli, həm də o kollektivlərdə cəmləşən insanların arasında maarifləndirmə işləri aparılmalıdır. Əgər onların işlədiyi kollektivlərdə maarifləndirmə işi gedərsə, onlar da gedib öz ailəsində öz övladını necə tərbiyə etmək yolunu tapa biləcəkdir. Bax, bu, cəmiyyətimiz üçün hava-su kimi lazımdır. Çünki ailə özü kiçik bir dövlətdir. Ailənin başçısı mənəvi cəhətdən kasıbdırsa, o ailədə dünyaya göz açan övladlar da mənəviyyatca kasıb olacaqdır.

**09.02.2005**

## ƏLAVƏ

***Professor Elməddin Əlibəyzadənin "Avesta Azərbaycan xalqının mənəvi mədəniyyət tarixidir" ("Yurd" NPB - 2005) kitabından seçmələr.***

## ZƏRDÜŞT TANRIDAN OLMƏZLİK İSTƏYİR

***Elməddin Əlibəyzadə***

İnsanın arzusu tükənməzdir. Ölməzlik, əbədi həyat eşqi də insanın çox qədim tarixə malik istəyi və arzusu olub. Bu barədə "Avesta"da, qədim Şumerdə - "Bilqamıs" dastanında, Nizamidə - "İsgəndəmamə" əsərində danışılır. Bu istək, bu arzunun həyata keçməsi mümkün olmasa da, insanın ürəyindən keçmişdir, onu düşündürmüşdür, hətta çarpışmış, min bir əzab-əziyyətə qatlaşmış, amma buna nail ola bilməmişdir. Deməli, bəşər övladını düşündürən, məşğul edən məsələdir. Buna görə üstündən keçmək olmur. Dünya ədəbiyyatının şah əsərlərində belə məsələyə münasibət bildirilib...

“Avesta” ilə bağlı mənbələrdə, mifik təsəvvür və rəvayətlərdə deyilir:

*“Zərdüşt böyük tanrı Ahura Mazdanın qabağına gəlib ağlaya-ağlaya dedi:*

*- Ey Ahura Mazda! Məni ölməz et!*

*- Mən sənin bu xahişinə əməl edə bilmərəm, - deyə Ahura Mazda peyğəmbərə etiraz etdi. - Əgər mən səni ölməz etsəm, onda səni öldürmək üçün Əhrimənin yaratdığı Karapan Bratrok - reş Tur da ölməz yaradılar. Və əgər Bratrok reş Tur ölməzlik tapsa, onda dünyanın ən axırda Şərdən xilas olması baş tutmaz və möminlər üçün gələcək yaşamaq mümkün olmaz”.*

*Zərdüşt inilti ilə bərkdən səsləndi:*

*- Sən Küləyi yaratdın, sən Suyu yaratdın, (...) Odu yaratdın, yerdə və kainatda hər nə varsa, hamısını sən yaratdın, amma məni ölməz etməyi bacarmadın.*

*Onda Ahura Mazda Zərdüştü Ülvi Ağılla təchiz etdi və peyğəmbər cismani aləmdə və ruhi aləmdə hər nə olubsa və olacaqsa, hamısını gördü və yerdə yaşayan hər bir insanın taleyi ona məlum oldu” (56, s.302).*

Burada da incə mətləblərə, insan həyatının daha həzin, yaralı nöqtələrinə toxunulur, sirləri açılır.

*“Fikrən o başqa bir şey də gördü: ölməz ola-ola uşağı olmayanları da, ölən ola-ola ailəsi və uşağı olanları da. Birincilər Zərdüştə kədərli və dərdli göründülər, ikincilər sevinclə dolu.*

*Və onda o, Ahura Mazdaya dedi:*

*- Sadə xoşbəxt insan həyatı mənə uşaqsız ölməzlikdən daha yaxşı qismət kimi göründü" (56, s.302).*

Zərdüşt etiraf etməli olur ki, ailə, övlad elə insanın ölməzliyidir, onu yaşadır, ruhən və nəslən əbədi edir - əbədiləşdirir, elə bu özü sadə insan xoşbəxtliyidir, sevinclə dolu.

Gözəl fəlsəfi təlimdir: bütün dövrləri əhatə edir, insanın fərəhini, sevinc və istəyini, habelə kədərini və dərdini açır, insanm ölməzliyinin, əbədi həyatın nə olduğunu diktə edir. Buna görə də Ahura Mazda onun fikrini, dediyi sözləri bəyənir, təsdiq edir.

*"- Sən əsl sözlər dedin. Və mənə, böyük Tanrıya da daha xoş olar ki, başqa insanlar kimi yaşayasan, evinə sənə uşaq doğan arvad gətirəsən, nəinki ölməz olasan və uşaqsız qalasan. Bu mənim sənə sözümdür, mömin Zərdüşt - onu insanlara çatdır" (56, s.302).*

Başqa bir mətndə ölməzlik və əbədi həyat haqqında Zərdüştlə Ahura Mazda arasında gedən həmin söhbət bu şəkildədir:

*"Zərdüşt Ahura Mazdadan ölməzlik istəyəndə, böyük Tanrı öz peyğəmbərini Ülvi Ağılla təchiz etdi. Zərdüştün fikri baxışları qarşısında dörd qanadı - qızıldan, gümüşdən, poladdan və dəmirdən olan bir ağac canlandı.*

*- Bu xəyal nəyi ifadə edir, ey mömin Ahura Mazda? - Zərdüşt soruşdu.*

*- Belə ki, mən bir budağı qızıldan, o birisi gümüşdən, iki, yerdə qalanı isə poladdan və dəmirdən olan qəribə bir ağac gördüm.*

*- Ağacın kökü və gövdəsi bu sənin dünyaya gəlməyinlə başlayan axırıncı Eradır, ey mömin Zərdüşt, - deyə Ahura Mazda peyğəmbərə cavab verdi - Dörd budağı isə bu gəlməli olacaq dörd dövrdür. Qızıl budaq sənin həqiqi dini qəbul etdiyin vaxtdan sonra başlayacaq. Sən Kavi Viştaspin himayədarlığına nail olacaqsan və bu böyük hökmdarı mazdayan Həqiqətinin yoluna gətirəcəksən. Gümüş budaq Kavi sülaləsindən olan Spendatm (orta farsca Spandatt, farsca İsfəndiyar) oğlu Artaşırın hökmranlıq dövrüdür. Polad budaq Kavadanm oğlu Xosrov Ənuşirəvanın hökmdarlığı dövrünü təmsil edir. Dəmir budaqsa - qaniçən və qeyri-qanuni Ayşmanın əlaltılarının qaranlıq hakimiyyətini təmsil edir" (56, s.303).*

Mətndə deyilir ki, ("Zərdüşt başa düşdü ki, mömin Tanrı ona ölməzlik verməkdən imtina etdi") və göz yaşları ilə çığırdı.

*- Ey Ahura! Axı mən, bu vaxtadək nə qədər mömin olubsa və olacaqsa, onların hamısından daha möminəm. Mən sənin yaratdıqlarının içərisində ən yaxşısıyam!.." (56, s.303)*

Bu dəfə edilən xahiş və ona verilən cavabda bir qədər dəyişiklik var. Görünür, bu arzu-xahiş iki dəfə edilib. Ahura Mazda Zərdüştə İlahi Ağılı su halında verir və yeddi gündən sonra geri alır.

Mətndə deyilir:

*“- Əgər mən səni ölməz etsəm, ey Zərdüşt Spitama, - deyə Ahura Mazda bu dəfə (də) etiraz etdi, - onda karapan Bratrok - reş Tur da ölməzlik qazanar (...) və gələcək həyat mümkün olmaz.*

*Lakin peyğəmbər öz insani ağlı ilə bu sözləri başa düşmədi. Onda Ahura Mazda onu Ülvi Ağılla təchiz etdi. Bu Ağılı o, su halında Zərdüştün əlinə verdi və əmr etdi:*

*- İç!*

*Zərdüşt müqəddəs suyu içdi - və Ahura Mazdanın Ülvi şüuruna daxil oldu. Zərdüşt gördü və yerin yeddi qatında cismani həyatda baş verən hər nə varsa hamısını başa düşdü.*

*Yeddinci gün Ahura peyğəmbərdən Ülvi Ağılı geri aldı və insan ağlını ona qaytardı. Zərdüşt oyanaraq bərkdən dedi:*

*- Mən necə də gözəl və şirin bir yuxuda oldum, ey Ahura Mazda!*

*- Və sən nə gördün, sənə nə aydın oldu? - deyə Yaradan peyğəmbərdən soruşdu.*

*- Ey Ahura, - deyə Zərdüşt həyəcanla dedi: mən günahkar varlıların ruhunu cəhənnəmdə və mömin kasıbların ruhunu cənnətdə gördüm. Mən uşağı olmayan varlıları gördüm - onlar necə də qəmli idilər! Bir də ki, mən yeddi budağı olan ağac gördüm. Onun budaqları qızıldan, gümüşdən, bürüncdən, misdən, qurğuşundan, poladdan və dəmirdəndı.*

*- Bu ağacı sən keçən dəfə görmüşdün və mən onların nə ifadə etdiklərini sənə izah etmişdim...” (56, s.304)*

Zərdüşt inamını, Yaradanın fikirlərini bu cür müxtəlif üsullarla: mükalimə, sual-cavab, yuxu və s. yollarla yayırdı, insanlara çatdırırdı.

Zərdüştün amalı, istək və arzusu insanlığa xidmət idi. Təmənnasız xidmət! Günəşin kainata xidməti kimi. Buna görə də fəaliyyətə başladığı andan Günəşə müraciət etmiş və özünü ona bənzətmişdi. Zərdüşt Yaradanından ölməzliyi də buna görə istəmişdi. Lakin bu, mümkün olmadı. Əslində isə o, ölməzliyə, əbədiyyətə qovuşmuşdur. İndi Zərdüşt, onun ideyaları bütün dünyanı gəzir. Bu, Zərdüştün ölməzliyi, əbədi həyatıdır.

İnsanın "ölməzlik", əbədi həyat arzusu, istəyi dünya ədəbiyyatında bir problem kimi qoyulub və işlənib: tam həlli mümkün olmayan bir problem.

Əgər biz yunan filosof, alim və tarixçilərinin (Hermedor, Hermipp, Ərəstu, Ksanf və b.) hesablamalarını nəzərə alıb "Avesta"nın yaradıcısı Zərdüştün 9-10 min il bundan qabaq yaşadığını, yazıb-yaratdığını qəbul etsək, insanın "ölməzlik" və "əbədi həyat" arzusu və istəyi fikrinin ilk müəllifi Zərdüştdür.

Fikir, ideya, görünür, "Bilqamıs" dastanına da, Nizamiyə də buradan keçib. Çünki məsələnin həlli, nəticə "Avesta"da necədirsə, sonra gələn mənbələrdə də əsasən elədir.

## HÜRMÜZ "DALĞASI"

Nizaminin "Avesta"ya münasibətdə öz mövqeyi, öz baxışı, bu ulu kitaba öz qiyməti var. Bu, "Avesta"nın ruhu, elmi-fəlsəfi əsasları barədə məlumatı xeyli duruldur, mənəvi fikir tariximizin bəzi mühüm sahələrini bir qədər də işıqlandırır, tədqiqatımızı zənginləşdirir. Biz burada "əsasları" sözünü işlətdik. Bu əsaslar məhz Zərdüştün sağlığında yaranmışdı.

"Avesta", zərdüştlük Nizami yaradıcılığının ruhuna, istək və amallarına tam hakimdir. Nizami İsgəndərin xəlvətə çəkilib dünya işlərindən xəbər tutması arzusu ilə yeddi alimlə söhbətini verir:

**"Çox gecə keçirdik biz kef çəkərək,**
**Gəlin bir günü də elmə sərf edək!**
**Bircə gün baxaraq Günəşə, Aya**
**Fələyin sirrini qoyaq ortaya".**

**(23, s.493)**

deyir.

Burada Hürmüzlə dünyanın o vaxtkı yunan alimlərini - Ərəstunu, Valisi, Bəlinası, Sokratı, Fərfuryusu, Əflatunu qarşılaşdırır, onların "fələyin sirri", "dünyanın yaranması", "varlığın ilk tarixi" kimi mühüm problemlər barədə fikir və rəyləri, dünyagörüşləri dinlənilir. Nizami Hürmüzün zəkası, elmi mövqeyi, dünyagörüşü

barədə onun öz dili ilə nüfuzlu söz deyir, fikir söyləyir, mülahizələr yürüdür. Orada "Hürmüzün dedikləri" məhz "Avesta"dan, onun ruhundan gəlir, söylənilir:

***"Hürmüz də əl atdı qıfıla sarı,***
***Zənciri çeynədi əqlin açarı.***
***Düyünü açmadan əvvəl sidq ilə***
***Şaha dua edib başladı belə!..***
***Düşüncə yoluna düşəndən bəri***
***Seyr etdim firuzə rəngli göyləri.***
***Zənnimcə, bu dərya şövkətli göylər***
***Daş başına çəkən tüstüyə bənzər.***
***Bu qorxunc tüstünün üstündə ancaq***
***Bir elə nur var ki, pak, təmiz, parlaq.***
***Örtmüşdür o nuru tüstü pərdəsi.***
***Şan-şan görünmədə tutqun çöhrəsi.***
***Pərdəyə naqş olan pəncərələrdən,***
***İşıqlar süzülür cahana hərdən.***
***Bizim gördüyümüz Gün, Ay, ulduzlar,***
***Həmin işıqdandır bütün hər nə var.***
***Vardır bu xilqəti yaradan fəqət,***
***Bilmirəm, nə sayaq olmuş ilk xilqət".***

***(23, s.498).***

"İlk xilqətin" necə yarandığı, zühur etdiyi barədə bizə məlum Şumer-Babil miflərində də fikir beləcəmüəmmalıdır. Bırdən-birə Tanrı ata An və Tanrı ana Ki–nın nıgahından Enlil və Enki qardaşları doğulur, ondan sonra daha yeni övladlar törəyir və s.

Hürmüzün dilindən deyilənlər də təxmınən eynı fıkirlərin təqdimidir.

Yunan alimlərinin fıkirləri də "Avesta"dan gəlir. Bu fikirlər bütünlüklə, hələ m.ö. VI əsrdə "Yeddı mudrikin məclisi"ndə sak Anakarın dediyi və şərh etdiyi fəlsəfi

muddəalarla suəsləşir. Plutarx həmin məclisdə iskit-sak Anakarın fəlsəfi mövqeyini, habelə onun dili ilə filosof Falesin nöqteyi-nəzərini belə şərh etmişdi: "Anakar dedi: həqiqətən, əgər od da, su da, külək də, bulud da, yağış da Tanrının silahıdırsa, bunlarla o, bəzilərini xilas edir və yaşadır, digərlərini isə məhv edir və öldürür. Əgər ancaq heyvanlar onun işində tamamilə yararsız olsaydı, təəccüblü görünərdi. Çox güman ki, onlar da Tanrıdan asılıdır və ona qulluq edir, iskitlərin oxu, ellinlərin isə lira və fleytası kimi hərəkətlərinə cavab verir" (70, 8387).

Bir şair kimi, Anakar fikrini poetik şəkildə tamamlayır. "Ruhun da, hətta heyvanların da Tanrıdan nə dərəcədə asılı olduğu" fikrini demək, bir qədər də aşkarlamaq üçün gözəl, poetik bir müqayisə aparır, Falesin dediyi fikrə öz münasibətini də əlavə edir. Aydın olur ki, bu fikirlər İsgəndərin başına yığdığı yeddi alimin dediklərindən əvvəl mövcud idi, ümumən yunan fəlsəfi fikrinə çoxdan məlum idi. F.X.Kessidi yunan fəlsəfi fikrinin doğuluşu və təşəkkülündən danışarkən yazır: "Həqiqətlərin ağılauyğun dərki prosesinin Falesdən çox qabaq (hələ Homerin dövründən) başladığı mübahisəsizdir, amma niyə bu fəlsəfə və teoqonik mif birtipli dünyabaxışı olmalı idi. Bu da həqiqətdir ki, mifologiyanın surətləri ağlın ifadəsinə köçürülərək ilk yunan naturfilosofları üçün təbiət qüvvəsi (od, torpaq, su və s.) oldu, Tanrı olmadı. Lakin bu o deməkdirmi ki, mif mövzusu eyni bir şeydir?" (57, s.104-105)

Müəllif qoyduğu suallara cavab verə bilmir və məlum fikri Homerin dövrü ilə məhdudlaşdırır, ondan o yana getmir, halbuki bu mifik təsəvvürlər və fəlsəfi baxışların əsası, kökü və inkişafı da, istər-istəməz bu kökə bağlıdır. Müəllif isə od, torpaq, su, hava təbiət qüvvələrinin, əslində qədim Şumer-Babil mifləri və fəlsəfi təsəvvürlərindən gəldiyi və Tanrı anlayışı verdiyinə işarə belə etmir. Bu təsəvvürün də əslində Şumer mfləri ilə bağlı olduğunu müəllif unudur, fikrin ilkin qaynağı, çıxış nöqtəsi göstərilmir.

Nizami hələ XII əsrdə Hürmüzün dililə "yeddi alimlə" söhbətində və "yetmiş alimlə mübahisəsi"ndə onların suallarına cavablarında bu dərinliklərə getmiş, yunan fəlsəfi fikrinin ilkin qaynaqlarına münasibətini bildirmiş, işarələr vurmuşdu.

Nizaminin qələmə aldığı yeddi alimin dediklərinə nəzər yetirak. Əgər Ərəstu deyirsə ki:

***Gövhər keşməkeşdən doğub parladı,***
***"Hərəkət eləyən cism" oldu adı.***
***Həmin cism qərar tutmayıb bir an***
***Dönür, hərlənirdi, əsla durmadan.***
***Bu cismin parlayan, saf parçaları***
***Həmişə qaçardı mərkəzə sarı.***
***Yüksəyə uçanlar etdi hərəkət,***
***Aşağı enənlər tapdı sükunət...***
***İlk pərgar hərlənib dövr edən zaman,***
***Bu uca göylər də yarandı ondan.***
***Göyün gərdişindən od oldu aşkar,***
***Od hərəkət edən qüvvədən doğar.***
***Odun qüvvəsindən hava yarandı,***
***Hava istilikdən ad kimi yandı.***
***Havada rütubət bol idi əslən,***
***Rütubət hərəkət etmədiyindən,***
***Onun zərrələri çöküb su oldu.***
***Bu cürə yarandı təmiz, şirin su.***
***Xılt saldı su daim sakit duraraq***
***O xıltdan törədi gördüyün torpaq.***
***Dörd ünsür yaratdı o pərvərdigar,***
***Hərə öz yerində oldu bərqərar.***
***Qatdı bir-birinə onları həyat,***
***Yaratdı bunlardan bitki-nəbatat,***
***Bitki də başqa cür artdı, dirçəldi,***
***Cürbəcür heyvanlar vücuda gəldi.***
***Bu qədər dərk edir ağıl hikməti,***
***Uzağa getməyə yoxdur qüdrəti".***

**(23, s.494·495).**

Valis deyirsə ki:

***“Mən də ərz eləyim: dünyaya təməl,***
***Məncə, su olmuşdur hər şeydən əvvəl.***
***Qızğın hərəkətdən və çaxnaşmadan***
***O yerə çatdı ki, ad oldu əyan.***
***İldırım buxardan ayırdı odu,***
***Bundan rütubətli hava doğuldu.***
***Suyun qatılığı getdikcə artdı,***
***Həmin qatılıq da yeri yaratdı.***
***Cövhərlər yerbəyer olduğu zaman***
***Təbiət qoynunda yarandı cahan...”***

**(23, s.496)**

Bəlinas deyirsə ki:

***“İlkin tilsim kimi yaranmış torpaq,***
***Qalan tərkiblər də ondadır ancaq...***
***Onlardan birinci işıqlı oddur,***
***Dünyanın ən yüksək tağı da odur.***
***İkinci havadır, hərəkətdədir,***
***Hərəkət etməzsə, bilinməz nədir?***
***Üçüncü sudur ki, təravət verər,***
***Hər şeyə təzəlik, lətafət verər.***
***Dördüncü torpaqdır, tapdayır əyyam,***
***Tapdanan köksündən toz qalxır müdam”.***

**(23, s.496)**

Sokrat deyirsə ki:

***“Xilqət səhifəsi açılmamışdan,***
***Bircə vücud varmış, o da Yaradan.***
***Bir bulud yaratmış əzmi, cəlalı,***
***Şimşəyi, yağışı olmuş faydalı.***

***Onun yağışından yaranmış göylər;***

***İldırımdan da Günəş, Ay, Ülkər.***

***Maddələr çökdürüb ondakı buxar***

***Bu Yeri yaradıb etmiş bərqərar".***

**(23, s.497).**

Fərfuryus deyirsə ki:

***"Hələ bu dünyalar yaranmamışdan,***

***Bir cövhər yaratdı böyük Yaradan.***

***Tanrının feyziylə yetirdiyi bu ·***

***Cövhər bir müddətdən dönüb oldu su.***

***İkiyə bölündü sonra bu su da***

***Yarı üzdə qaldı, yarısı altda.***

***Maye olan hissə etdi hərəkət***

***Quru olan hissə tapdı sükunət.***

***Hərəkət eləyən - Göy oldu parlaq,***

***Sükunətdə qalan - bu Yer, bu torpaq".***

**(23, s.497–498).**

Əflatun deyirsə ki:

***"Düşünüb mən belə verirəm qərar***

***Ki, yoxdan yaranmış bütün varlıqlar...***

***Bir kəs ki əql ona od verib: Qadir,***

***Özü bildiyini özü xəlq edir.***

***Ayrıca yaradıb o, hər gövhəri,***

***Vasitə olmayıb burda digəri.***

***Hər gövhər bəzənib kəmala yetdi,***

***Ortadan ixtilaf; ziddiyyət getdi.***

***Bu ziddi qüvvələri bir yerə qatdı,***

***Ağıllı, hünərli insan yaratdı.***

***Bircə qarışqanın qanadında sən,***

***Tanrı qüdrətini görə bilərsən".***

**(23, s.499).**

Bütün bu fikirlərin kökü, əsası bizə məlumdur və qədim Şumer-türk fəlsəfəsi qaynaqlarından gəlir...

Ərəstunun dedikləri "Odun hərəkəti", "odun qüvvəsindən hava yaranması", "havada rütubətin bolluğu", "onun zərrələrinin çöküb su olması", habelə "suyun sakit durmasından xılt alınması, ondan da torpağın törəməsi" beləliklə, də dörd ünsürün - Od, Hava, Su və Torpağın mövcud olması bütövlükdə Şumer-Babil rəvayətlərindəki fikirlərdir. Alimin son beytdəki etirafı da təbii görünür:

***"Bu qədər dərk edir ağıl hikməti,***
***Uzağa getməyə yoxdur qüdrəti!"***

Çünki o vaxtlar mövcud məlum fikir bu qədər idi, artıq deyildi. Rəvayətlərdə bundan uzağa gedilməyib, bundan artıq deyilməyib və bu fikirlər dünya modelinə çevrilib, qəlibə düşüb. Budur, rəvayətdə:

***"Başlanğıcda kainatın bütün varlığı***
***Böyük Okeanın dolu suyundan ibarət olmuş..."***

**(71, s.23)**·

Valisdə:

***Mən də ərz eləyim: dünyaya təməl,***
***Mənсə, su olmuşdur, hər şeydən əvvəl".***

Beləliklə, Sokratın, Fərfuryusun, Əflatunun fikirləri haqqında da eyni sözü demək olar.

Plutarxın xatırlanan "Yeddi müdrikin ziyafəti" əsərində Anakar qədim iskit-türk fəlsəfi fikri üzrə mülahizələr yürüdür, zərdüştlüyün əsas müddəalarına toxunur, insanın yaranması və idarə olunması Tanrıdan - Od, Su, Torpaq və Külək (havadan) danışırdı. Maraqlıdır, həm Plutarxın "Ziyafəti"ndə, həm də Nizaminin yeddi fllosofunun mülahizələrində bir qədər fərqilə, təxminən eyni fikirlər bu və ya başqa üzdən çək-çevir edilir, ona az və çox dərəcədə əlavələr olunur, bir-birini təkrarlayan yeni fikirlər artırılır və s.

"Bilqamıs" dastanında kainatın, insanın yaranması, tale müqəddəratı tanrıların hökmü, göylərin Yerlə, torpaqla qovuşması - məhəbbətilə izah edilirdi. Bu fikir,

fəlsəfi dünyagörüşü ənənəsi "Avesta"dan sonra get-gedə inkişaf etmiş, sonralar "Orxon-Yenisey"də öz əksini tapmışdı. Bu mənada, "Gültəkin" kitabələrində ifadə olunan bu fəlsəfi fikir məsələnin mahiyyətinə daha artıq işıq salır: "Üzə Gök Tənri asra yağız yir qılıntukda ekin ara kisi oğlı qılınmıs - üstümüzdə Göy Tanrı, aşağıda Yerlə qovuşduqda ikisinin arasında insan oğlu doğulmuşdur" (Gb.1).

Burada "qovuşma" (qılınma) sevgi, məhəbbət, vüsala yetmə mənasında yozula, düşünülə bilər. Bütövlükdə fıkri belə açmaq olar: Ata göylər, yəni Tanrının işığı (Günəş), havası, yağışı (su) Ana torpaqla qovuşduqda, bu qovuşmadan (sevgidən, məhəbbətdən) insan oğlu doğulmuş, ümumən bütün canlı aləm heyvanat, nəbatat da bu "sevgidən" törəmişdir. Bu fikir insanın və mövcud varlığın yaranması haqqında Şumer-Babil miflərində deyilən fikirdir. İnsanın əmələ gəlməsi, doğuluşu barədə bütün mövcud nəzəriyyələrdən ən ağlabatanıdır. O, insamn meymundan yarandığı fıkrini də vurub keçir, heçə endirir və milyon illər qabağa gedir. "İnsan meymundan əmələ gəlibsə, bəs meymun özü haradan yaranıb?" - sualına da cavab verir, insanlığın ilk ata-anası sayılan "Adəm və Həvva" mifinin ilkinliyi üstündən də qələm çəkir...

Bu fəlsəfi fıkir əslində məhz göylərə - Tanrıya inamdan doğmuşdu. Şumer-türk mifləri və kitabələrində əksini taparaq qədim dünyamızın aparıcı fəlsəfi fikri olmuş, ənənəvi qırılmaz mənəvi teli kimi davam edib gəlmiş, hər tərəfə - Şərq və Qərbə də öz güclü təsirini göstərmişdir. Burada bizim üçün Azərbaycan-türk xalqı üçün yad təsir axtarmaq əbəsdir. "Avesta" bu qaynaqlardan süzülüb gəlib, ümman olub. Dədə Qorqudun ilham çeşməsi də buradandı. Nizami də bu ana kök, inam və zəngin ənənələrdən bəhrələnib, bu fikirlərdən qanadlanıb...

"İsgəndəmamə" əsərində ayrıca "İsgəndərin yeddi alim ilə xəlvətə çəkilməsi" fəsli diqqəti cəlb edir. Yenə də "yeddi alim". Burada Nizami Hürmüzü alimlərin başçısı kimi qələmə verir, ona xüsusi ehtiramını bildirir, onu bütün filosoflardan üstün sayır, "yeddinci göyə qaldırır".

***"Yeddinci Hürmüzdü, bilir ki, hamı,***
***Yeddinci göydədir onun məqamı".***

**(23, s.492).**

Nizami "İsgəndərnamə"də yetmiş alimin Hürmüzü inkar etməsi məsələsini qoyur. Bu səbəbdən də o, alimlərin həlak olub daşa döndüyünü yazır. Böyük şair Hürmüzə "ustad" alim deyə ehtiram göstərir, onu dönə-dönə vəsf edir. Nizaminin mövqeyi burada tam aydındır.

Tarixdə yeni elmi fikir, kəşf, nəzəriyyənin özünə asanlıqla yol aça bilmədiyi, ciddi müqavimətə rast gəldiyi, təzyiqlərə, böhtanlara, təhqirlərə və hətta işgəncələrə məruz qaldığı məlumdur. "Avesta"nın yaradıcıları Hürmüzün də, Zərdüştün də taleləri belə olmuşdur; bu tarixi həqiqəti Nizami nəzərdən qaçıra, ibrətli bir söhbət, hekayət kimi onun üstündən keçə bilməzdi.

Hekayədə yunan fəlsəfəsinin, rumlu alimlərin Hörmüzə hücumuna, onun haqq sözünü danmalarına, ona atılan böhtanlara qarşı Nizami ağlı, düşüncəsi dayanır. Nizami onu müdafiə edir. Elmdə, fəlsəfədə tarixiliyi, haqqı, ədaləti, gözləmək, düz sözü, haqq sözü müdafiə etmək kimi bəşəri məsələlər qaldırır və şair bu barədə öz sözünü deyir:

***"Hürmüz adlı alim haqq danışmaqda,***
***Gedərdi hamıdan daim qabaqda.***
***Çox möhkəm olardı onun dəlili,***
***Qane eləyərdi hamını dili.***
***Bir çox ruhanini faş etdiyindən,***
***Oldu yunanlılar onunla düşmən.***
***Bir gün yetmiş alim çıxardı qərar,***
***Onun hər sözünü etsinlər inkar:***
***"Hürmüz nə söyləsə, razı olmayaq,***
***Doğru sözlərinə qulaq asmayaq,***
***Onu yerli-dibli eləyək inkar..."***

**(23, s.464).**

Nizami: "İnkarla haqq sözü danmaqmı olar?!" , deyə bircə nidalı sualla dərhal söhbətə müdaxilə edir, onlara öz münasibətini bildirir. Bu, eyni zamanda, Hürmüzün "Avesta"da ifadə olunan, həyata keçirilən haqq söz, düz söz təliminin tam dərki və

həmin mövqeyi müdafiəsi idi, ədalətə, düzlüyə qarşı dayanan şər qüvvələrə qəti etirazı idi:

***"Hamısı söz qoyub əhd elədilər,***
***Hürmüz çıxardıqca mədəndən gövhər.***
***Qiymətdən salsınlar söz dənizini,***
***Torpaqla örtsünlər xəzinəsini,***
***Hər doğru sözünə yalan desinlər,***
***Onun haqq sözünü eşitməsinlər..."***

**(23, s.464).**

Nizami Hürmüzün həqiqətən "söz bəhrindən gövhər saçdığını" yazır:

***"Hürmüz söz bəhrindən gövhər saçanda,***
***Elmi-ilahidən söhbət açanda.***
***Hər sözə dəlillər gətirib ustad,***
***Hər şeyi aydınca etdikcə isbat,***
***Gördü ki, onlara heç etmir bu kar,***
***Hər şeyi hay-küylə edirlər inkar".***

**(23, s.464).**

Hürmüz yenidən sözə başlayır, yenidən "qəlbə yox, daşa da təsir edən" dəlillərlə fikir söyləyir. Lakin bu sözlərə də məhəl qoyulmur:

***"Başqa bir xəzinə çıxartdı üzə,***
***Yeni dəlillərlə başladı sözə.***
***Gətirdiyi dəlil, dediyi fikir,***
***Qəlbə yox, daşa da edərdi təsir.***
***Yenə də sözünü təsirsiz görcək,***
***Bildi ki, burda var yəqin bir kələk".***

**(23, s.464).**

Hürmüz üçüncü dəfə işıqlı zəkasını, əqlini işə salır, öz ağıllı fıkri, müdrik kəlamı ilə onlara təsir göstərə bilmir:

***"Üçüncü dəfə də müşküllər açan,***
***Dililə haqq sözü eylədi bəyan.***

***Qəlbə fərəh verən gözəl sözlərdən,***

***Onlara söylədi nə qədər desən.***

***Bu qədər çaldığı zəngin səsinə,***

***Heç biri etina etmədi yenə..."***

**(23, s.464-465).**

Burada Hürmüz yorulur, aydın dəlilləri qəsdən dandıqları və tərs davrandıqlarına görə qəzəblənir, onlara nifrət yağdırır, lənət oxuyur:

***"Qışqırdı onlara hiddətlənərək,***

***Qalın yerinizdə qiyamətədək".***

**(23, s.465).**

deyir, alimlər daşa dönüb yerində qalır.

Nizami Hürmüzün nifrət və lənətinin nəyə qadir olduğunu qədim mifik təfəkkürlə bağlayır, bu əsasda da təsvirini verir:

***"Bir anın içində o yetmiş nəfər,***

***Qalıb hərəkətsiz buzda döndülər.***

***Başları su kimi ayağa düşdü,***

***Donmuz bədənləri torpağa düşdü".***

**(23, s.465).**

Hürmüzün tutduğu mövqeyin düzlüyünüz elmdə haqqın, ədalətin, həqiqətin carçısı olduğunu Nizami İsgəndərin sözlərilə bir daha təsdiq edir. Bir yunanlı, ağıl və zəka sahibi kimi, bu hadisəyə - dastana onun verdiyi qiyməti, həqiqətin təsdiqinə müdaxiləsini belə təsvır edır:

***"İsgəndər "afərin" söyləyib ona,***

***Ordan tez qayıtdı öz dərgahına.***

***Hər kəsə xəlvətdə, düşəndə fürsət,***

***Ona bu dastandan edərdi söhbət:***

***"Yetmişlər başladı tufan salmağa***

***Özləri çöp oldu, Hürmüzsə dalğa".***

**(23, s.465).**

Hadisəyə Nizaminin münasibəti, son sözü maraqlıdır. Şair, Hürmüzün - “Avesta”nın elmi-dini fikirlərinin, fəlsəfi görüşlərinin haqq olduğunu sözün tam mənasında müdafiə, təsdiq və təbliğ edir.

***“Haqqı eşitməsə hər kəs dünyada,***
***Ömrünü kül edib verəcək bada.***
***Ustadın dərsini kim etsə inkar,***
***Onlar tək kəfənə tutacaq rüzgar.***
***Dəlili qüvvətli olan bir sözü***
***Qanmaq istəməyən bədbəxtdir özü.***
***Taca layiq dürrü yerlərə vuran***
***İdraksız, şüursuz, nadandır, nadan!***
***Hünərə göz yummaq deyildir hünər,***
***Hansı bir ağıllı tülə bez deyər?***
***Alimlə xoş rəftar etsən əgər sən,***
***Ozün öz elmini aşkar edərsən”.***

**(23, s.466)**

Bütün bu fikirlər Zərdüşt təlimindən gəlir.

Nizaminin bu son sözü gələcək nəsillərə deyilən sözdür, verilən ibrət dərsidir, “Avesta”ya verilən qiymətdir.

“İsgəndərnamə”dəki “Alimlərin Hürmüzü inkar etmələri və həlak olmalarının hekayəti” qədim Şumer-türk fəlsəfəsinin, “Avesta”da cəmlənən dünyagörüşünün təntənəsi, bütövlükdə, o vaxtkı yunan fəlsəfi fıkri üzərində qələbəsi idi. Bu, tarixi həqiqətin böyük Nizami tərəfindən bədii təsdiqi idi. Nizami mövcud fəlsəfi fıkrin qaynaqlarına yaxşı bələddi. O, qədim Şumer-türk fəlsəfı fikrini də, “Avesta”nı da gözəl bilirdi. Buna görə filosofları qarşılaşdırır, fikirlərini təhlil edir, öz sözünü də deyirdi.

Nizami bu tarixi həqiqəti bədii və əqli-məntiqi yolla, Hürmüzün yetmiş alim üzərindəki qələbəsilə təsdiq etmişdi. “Avesta”nın, Hürmüzün kəlamlarını “haqq söz”, “ustadın dərsi”, “taca layiq dürr”, “hünər xəzinəsi”, “bezlə müqayisəyə gəlməz tül” saymış, onun tərəfində dayanmışdı.

Burada Nizami çox güclü bədii təsdiqdən məharətlə istifadə edir. O, tiirk ağlının, türk zəkasının, türk elmi və fəlsəfı fikrinin əzəli və üstün olduğunu, güclü “dalğa” olduğunu məhz dövlət başçısının - Makedoniya padşahının dili - sözü ilə onun özünə təsdiq etdirir:

***“Yetmişlər başladı tufan salmağa,***
***Özləri çöp oldu, Hürmüzsə dalğa”.***

Padşahın sözü onun möhürüdür, rəsmi təsdiqidir. Bu, Nizaminin “Avesta”ya, onun yaradıcısına, ideya-məzmununa verdiyi əsl qiymət idi ki, bunu İsgəndərə də təsdiq elətdirir. Bununla da “Avesta” və onun yaradıcılarına qarşı elədiyi haqsızlığı İsgəndərin öz dili ilə özünə deditdirir, səhvini özünə düzəltdirir, zərdüştlüyə qarşı münasibətini tamam dəyişdirir. Təsadüfi deyil ki, İsgəndər tərəfındən “Avesta”ya, zərdüştlüyə və davamçılarına I kitabda - “İsgəndəmamə”də divan tutulduğu, maqlar öldürüldüyü, təqib edildiyi, atəşgahlar dağıdıldığı, yandırıldığı halda, II kitabda - “İqbalnamə”də “Avesta”dakı elmin, fəlsəfı fikirlərin dünyəviliyi, əhatə dairəsinin genişliyi təsdiq olunur, yunan alim-filosoflarının da bu dairədən kənara çıxa bilmədikləri və Hürmüzün böyüklüyü, onun “məqamının yeddinci göydə durduğu” etiraf edilir. Nizami Bərdə hökmdarı Nüşabə vasitəsilə İsgəndərə “mərdliyin yolunu göstərdiyi” kimi, burada da Hürmüzün ağlı, zəkası ilə ona dərs verir, dün–yagörüşünü təzələyir, elmi qüdrəti qarşısında baş əydirir. Zərdüşt inamına, maqlara etdiyi amansızlığına qarşı, bir növ peşmançılıq çəkdirir.

Bu, Nizaminin çıxardığı çox uğurlu bədii-məntiqi nəticə, böyük mənəvi qələbə idi.

Nizaminin atəşpərəstliyə, Zərdüşt dininə rəğbəti tam aydındır: yaradıcılığının ümumi ruhu bunu təsdiq edir. “Xosrov və Şirin” poemasında maraqlı bir səhnə var. Ova çıxan gənc Xosrov bir kəndlinin evində düşüb keyf məclisi qurur, atı girib göy bir tarlanı, əkin sahəsini otlayır, qulu keçib bağçadan qora dərir. Bundan xəbər tutan hökmdar qəzəblənib oğlunu qanunu pozduğuna görə ciddi cəzalandırır: “Təxtini alıb kəndliyə verdirir, atının ayaqlarını kəsdirir, çalqıçını sazından məhrum etdirir”. Bir sözlə, qora acısını oğluna daddırır... Nizami bu hadisədən çıxış edərək öz qəti sözünü

deyir: O dövrlə öz dövrünü müqayisə edir, Zərdüşt dini ilə islam dini qanunlarını qarşı-qarşıya qoyur, tutuşdurur:

***"Doğma bir övlada əvvəl nə sayaq,***
***Ədalətlə tənbeh olunurdu, bax!***
***Hanı o ədalət, o insaf hanı?!***
***Verə öz oğluna böylə cəzanı?!***
***İndi yüz yoxsulun tökülsə qanı,***
***Durub tərəf çıxan bir adam hanı?!***
***Atəşpərəstlikdə dünya eləydi,***
***Bu müsəlmanlıqdan utan bir indi..."***

**(24, s.35).**

Nizaminin rəyincə zərdüştlüyün insani qanunları islamdan "yüz dəfə uca" və ədalətli idi. Sonda Nizami işarə vurur, özünü danlayır ki, bu "nəsihət" ə qulaq asan kimdir ki! Bu tənqid ona ağır otura, o özü cəzalana bilər, onun üçün pis olar; odur ki, tez mətləbə qayıdır, sözünü belə tamamlayır:

***"Qayıt əfsanəyə, Nizami, bəsdir,***
***Nəsihət quşunun səsi pis səsdir".***

Məlum olduğu kimi, Nizamidə "Xeyir və Şər" adlı hekayə də var. Bu, qədim tarixi-ənənəvi mövzudur ki, "Avesta"dan gəlir. Hekayədə maraqlı əhvalat nəql olunur, "Avesta"nın nikbinliyə təlqin edən ruhu, Xeyrin qələbəsi tərənnüm edilir.

Nizami "Avesta"nın ən güclü tədqiqatçısıdır.

İnsanlığa xidmət, xeyirxahlıq və işıqla bağlı nə varsa - sülh, əmin-amanlıq, eşq, sevgi, ideal, amal, arzu, ümid, inam, namus, qeyrət, ismət, gözəllik, paklıq, şan-şərəf, düzlük və s. işıq Tanrısının - Hürmüzün şəfqətidir. Əhrimən zülmətin, şər qüvvələrin, yalanın və böhtanın davamı, hər vaxt yeni şəraitdə təzahürüdür. "Avesta"da təbii olaraq bu surət bir qədər də dərinləşib, təkmilləşib, daha kamil şəklə düşüb. Zülmətlə, şərlə, qara niyyətlərlə bağlı bütün mənfi keyfiyyətlər Əhriməndə cəmləşir. "Avesta"da bütün dövrlərdə ondan qorunmaq və mühafizə yolları göstərilir.

"Avesta"nın bəşəriliyi ondadır ki, bu əvəzsiz, müqəddəs kitab hələ min-min illər bundan əvvəl şər qüvvələrə qarşı durmağın yollarını göstərib, insan kimi ömrü

başa vurmağın qanunlarını verib, insanlığı əmin-amanlığa, ədalətə, mərdliyə, əməyə, zəhmətə, inama çağırıb hökmdarları azğınlıqdan, qəddarlıqdan, yamanlıqdan, qara niyyətlərdən çəkindirib, insanları işığa, nura, maarifə dəvət edib. Buna görə də "AveSta"nın təsir dairəsi çox geniş olub. Tədqiqatlar göstərir ki, "Makedoniyalı İskəndərin Şərqə basqınına qədər "Avesta"nın ümumi həcmi 21 cilddən (bütövlükdə 815 fəsildən) ibarət imiş. Hər biri "nəsk" adlanan həmin cildlərin yeddisi dünyanın və insanın yaranmasına (bu, ilk cildlərdir), yeddisi əxlaq, hüquq və dini qanunlara, nəhayət, son yeddi cild təbabət və astronomiyaya həsr olunmuşdu".

Bugünkü Azərbaycan, İran, Orta Asiya xalqları, millətləri "Avesta" ruhu ilə yoğrulub. Zərdüştlük insanın hüquq və xeyirxahlıqla bağlı mənəvi keyfiyyətlərinin yaranması, nizamlanması, zənginləşməsi, möhkəmlənməsi və əbədiləşməsi işində öz tarixi rolunu oynayıb, işini görüb, özünə əbədi həyat və nüfuz qazanıb, ölməzliyə qovuşub.

Hürmüz-Zərdüşt-"Avesta" dalğası bəşər zəkasının elə güclü, qüdrətli dalğasıdır ki, tarixin ağır yollarını keçib, bu günə də gəlib çata bilibdir.

"Avesta" Azərbaycan torpağının, bu torpağın oğlunun - Zərdüşt zəkasının və onun sədaqətli davamçıları olan maqların - muğların yaradıcılığının məhsuludur.

"Avesta" Azərbaycan-türk xalqının mənəvi mədəniyyət tarixidir, bu tarixin aydın göstərən güzgüsüdür...

***SON SÖZ YERİNƏ***

## PAYIZ DÜŞÜNCƏLƏRİ

***Təqvimlə payıza bir aydan da az qalıb. Ancaq xallanan yarpaqlar, adamı üşüdən küləklər onun lap yaxında olduğunu, ruhumuza hopmaqda olan sərinliyilə bizə əl uzatdığını hiss edirik.***

***Payız xəbərdarlıqdır. Daha bir ilin başa çatması haqqında xəbərdarlıq. Bəsirət gözü açıq olanlar üçün hesabat çağıdır.***

***Hansı problemi həll etmişik? Ən başlıcası, Qarabağa nə qədər yaxınlaşmışıq? Hansı haqsızın qabağına durmuşuq? Hansı haqlıya arxa, dayaq olmuşuq?***

***“Mənəviyyatın ekologiyası”. Bu kitabın son səhifələri üçün yazacağım mətni mənə diktə edən payız havasıdır. Bu havanın mənəvi dünyamdan keçib beynimdə əks-səda verən, fikir və düşüncələrimə qol-qanad bəxş edən, bu fikir və düşüncələri sözə çevirib qələmə gətirən duyğulanmalarımdır.***

***...Bir dəfə adətim üzrə nahardan sonra dua edirdim: “Allah, sən hamının işini avand elə”. Kiçin qardaşım qolumdan tutub məni silkələdi: - “A kişi, dayan, sən nə deyirsən? Birisi nahaq qan tökməyə gedir. Sən Tanrını ona könıəyə çağırırsan”.***

***Yuxudan ayılan kimi oldum. Doğrudan da, söhbət hamıdan yox, xeyirli iş görənlərdən, xeyir əməl sahiblərindən getməlidir. Hərçənd ki, Tanrı belələrinə də kömək olsun, - deməyə haqqım çatır. Qoy Tanrı onlara güc versin, qüvvət versin, onları tovlayıb arxasınca aparan şərdən üz döndərə bilsinlər. Buna gücləri çatsın.***

***...Azərbaycanda siyasi mənəvi mühitin üstündən qaranlıq çəkilsə də, onun göylərindən buludlar tam çəkilməyib. Hələ də bu qara buludların əjdahayaoxşar kölgələri məmləkətin üstündən - şimaldan-cənuba, cənubdan-şimala asta-asta sürünür. Mənə elə gəlir ki, vaxtından bir az tez gəlmiş payızın gətirdiyi kölgələr təkcə yerlə sürünmiir, şərin daşıyıcısı olan məxluqların da mənəviyyatına çökür. Onların qaranlıq aləmlərini bir az da qaraldır, onların içində yuva qurmuş şəri bir az da şirnikdirir. Biz H.Mirələmovun tarixə obyektiv baxışla, çox böyük vətəndaşlıq yanğsı ilə qələmə aldığı “Babagil əfsanəsi” tarixi romanından səhifələri dərc edirik. Həmin romanın lap başlanğıcında müəllif bir Cənub şəhərinin başı üstündə dolanan buludları təsvir edir:*** *“Ancaq bu şəhərin üstünə çökmüş qara kölgə bir az da sıxlaşmışdı. Lap yuxarıda - göylərin uzaqlığında qara-ağ buludlar bir-birinə doğru sürünürdü. Göyün üzü nəhəng döyüş meydanına bənzəyirdi. Lay-lay buludlar ayrı-ayrı qoşun dəstələri kimi həmlə gözləyir, ölüm-dirim savaşının intizarını çəkirdilər. Bir azdan qılınclar sıyrıldı. Nəhəng layların ilk ön dəstələri üz-iizə gəldi, kəllələr şaqqıltı ilə bir-birinə dəydi. Bu nəhənglərin zərbəsindən sonra şimşək qılınc kimi göyü iki yerə şaqqaladı. Bir anlığa da olsa, qara kölgə işığa tutuldu. Bu qəzəbli qılıncla şaqqalanan göy inadından dönmədi. İnadkar qoçlar kimi buludların yeni layları toqquşmaqda idi. Yeni-yeni şimşəklər göydə oynayır, işıq damlaları ağız-ağıza*

*gələn qılınclarm qığılcımları kimi ətrafa səpələnirdi. İndi buludlar bir-birinə qarışmışdı. Ölüm-dirim savaşı bütün göyün üzünü bürümüşdü. Şirəvan yağış səpməyə başladı. Bu yağışlar elə bil bulud qoşunların qanı kimi göydən yerə süzülürdü.*

*...Deyəsən, döyüş səngimişdi. Pərən-pərən düşmüş laylar göy üzündə bir-birindən aralanırdı. Hər tərəf öz mövqeyinə çəkilirdi. Göyün ayrı-ayrı tərəflərində süzülüb-nazilmiş seyrək buludlar döyüş meydanında qalmış yaralılara daha çox oxşayırdı. İndi bu yaralılar hara gəldi sürünüb canını qurtarmaq istəyirdi, yarımcan olsalar da, qolları, qıçları kəsilib tökülsə də, qanları süzülsə də.*

*Buludlarm aralanmış yerlərindən günəş göründü. Günəş bu görünməyi ilə ala-tala kölgələrin arasından özünün qadir və əbədi taxtında əyləşdiyini təsdiq edirdi" (H.Mirələmov "Babagil əfsanəsi". "Kredo" qəzeti, 19 iyun 2004-cü il).* ***Zənnimcə, bu təsvir çox uğurlu alınıb və böyük məcazi məna daşıyır. Elə bu kitabın araya-ərsəyə gəlməsinin bir səbəbi də cəmiyyətə mənəvi dayaq olmaq, onu öz gücünə inandırmaqdır.***

***...Təsadüfi deyil ki, bu kitabm əlavə bölümündə professor Elməddin Əlibəyzadənin "AVESTA Azərbaycanın mənəvi mədəniyyət tarixidir" kitabından seçmələr də yer alıb: Ömrü boyu xeyir naminə çalışmış Zərdüşt Böyük Tanrıdan ölməzlik istəyirdi. Tanrı ona bu ölməzliyi bəxş etdimi? Yəqin ki, Zərdüşt cismani ölümsüzlükdən çox mənəvi ölümsüzlüyü arzulayırdı. On iki min dana dərisinə yazdığı "Avesta"nm yaşarılığını istəyirdi.***

***Fatehlər bütün həqiqətləri qılınclarının qan süzülən ucunda axtarırlar. Bu həqiqətə (əgər ona həqiqət demək mümkünsə) güvənən Makedoniyalı İskəndər "Avesta"nın yanan cildlərinə baxıb Zərdüştə gülürdü...***

***"A vesta" yanmadı. Hər dəfə şər tüğyan edəndə, əjdaha ağzını açıb alov püskürəndə bir "Hürmüz dalğası" gəlir, özünün mənəvi qüdrətilə bu şər alovunu boğub söndürür.***

***Azərbaycan ziyalısının cəmiyyətin bağrından qopan mənəvi harayına səs verməsi həmin "Hürmüz dalğası"nın XXI əsrdə təzahürüdür.***

***Və elə buradaca "Seçki dalğası"nı da unutmaq istəmirəm; "Sənə uğur gətirən nə varsa, məqbuldur" düsturu ilə atını sağa-sola çapanların güvəndiyi***

***onları qoruyarmı? İkinci Cahan müharibəsinə rəvac verən faşist deyimi yada düşiir: "Mənim dünyanı tutmaq planlarıma heç bir mənəvi-əxlaqi prinsip mane ola bilməz" (Hitler). İndi tez-tez "qara piar" ifadəsi işlədilir. Başqasını hər cür şər və böhtanla yenmək cəhdləri daha qabarıq görünür. Bu yolun gətirdiyi qələbənin ömrü nə qədər çəkər? Bunun bircə adı var: Şər dalğası! Gərək unudulmasın ki, onun arxasınca səbir və təmkinlə "Hürmüz dalğası" gəlir.***

***Atam deyər ki, əkinçinin boynu sınıq olar. İl yaxşı gəlsə deyər ki, "boynum sınsın, gərək çox əkəydim". Əksinə, il pis gələndə də "boynum sınsın, gərək əkməyərdim", - deyər.***

***Xalq əkinçi timsalındadır. Xeyirini görəndə sevinər, özü bilmədən xeyir donunda görünən şərə dayaq durubsa peşmançılıq çəkər.***

***Hər iki halda əkinçinin boynu sınıqdır. Təki peşmançılıqdan sınmasın.***

***...Amma nə qəm? Bu payız da ötəcək. Qış keçəcək və bir də yaz qayıdacaq. Biz olsaq da, olmasaq da...***

***Xeyirə tapınan insanlar tumurcuqlara baxıb yeni qönçələrin boyunu min həvəslə sevəcəklər.***

***Uşaq gülüşləri yenə olacaq. Biz də elə bunu istəyirik.***

*Əli Rza XƏLƏFLİ*

***03.09.2005***